Hacı Qəni Camalzadə

# KİAKSARIN AXIRINCI SAVAŞI

*roman*
*və hekayələr*



QANUN NƏŞRİYYATI

**Hacı Qəni Camalzadə**

# KİAKSARIN AXIRINCI SAVAŞI

(roman və hekayələr)

**Hacı Qəni Camalzadə. KİAKSARIN AXIRINCI SAVAŞI**
Bakı, Qanun Nəşriyyatı, 2021, 240 səh.

Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 27.08.2021

Redaktorlar: Məmməd Oruc
Ağacəfər Həsənli
Korrektor: Əyyar Tahir

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-36-960-1

© Hacı Qəni Camalzadə, 2021
© Qanun Nəşriyyatı, 2021

“Kiaksarın axırıncı savaşı” adlı kitab müəllifin sayca on ikinci kitabıdır. Yaradıcılığına nəzər saldıqda məlum olur ki, qələmindən yüzlərlə müxtəlif mövzulu hekayə çıxmış yazıçı heç romanlarına da mövzu seçməkdə çətinlik çəkmir. Müəllifin əvvəlki romanlarından – “Qızıl xotux” və “Karxana” – fərqli olaraq bu dəfə yazıçı tariximizin qədim və əzəmətli bir dövrünə, Midiya dövrünə müraciət edib. Romanda qırx il hakimiyyətdə olmuş şahənşah Kiaksarın parlaq surəti qələmə alınıb, qələbələrindən bəhs edilir, onun döyüş taktikası barəsində, atəşpərəstlik haqqında əhatəli məlumat verilir. Qədim Midiya hökmdarı haqqında Karl Marks belə yazıb:

– Sərkərdə Kiaksar qədim dövrün parlaq simalarındandı, süvari qoşun növünün yaradıcısı kimi tarixdə qalacaq.

Romanda taxt-tacın vəlihədi, ölkənin gələcək hökmdarı Astiaqın da təsviri verilir. Midiya səltənəti məhz onun bacarıqsızlığı sayəsində süquta uğrayacaq.

Kitaba daxil edilmiş hekayələrin mövzusu isə müasir dövrümüzə aiddir. Həmişəki kimi yazıçı bir hekayə ustası kimi həyat hadisələrini ustalıqla qələmə alır.

## *MÜƏLLİFDƏN*

*“Kiaksarın axırıncı savaşı” romanında tariximizin qədim və şərəfli dövrünü, Midiya imperiyasının yüksəliş dövrünü qələmə almışam. E.ə. qırx il hökmdarlıq eləmiş şahənşah Kiaksar ömrünün sonunda, e.ə. 486-cı ildə skiflərin Muğan düzündə qurduqları çarlığın iyirmi səkkiz illik varlığına son qoyub. Skiflərin bir qismini qırmış, qalanını da Dar Keçiddən (Dərbənd) şimala, gəldikləri yerlərə qovmuşdu.*

*Roman çoxdan hazır idi, amma çapına qərar verə bilmirdim. Torpaqlarımızın hələ də erməni tapdağında olması faktı yolumu kəsirdi.*

*Tezliklə bu maneə də aradan qalxdı. Prezident İlham Əliyev düşmənlə şahənşah Kiaksar kimi rəftar elədi. Qırx dörd gündə iyirmi səkkiz illik işğala son qoydu, erməniləri torpaqlarımızdan qovdu.*

*Həqiqətən, tarix təkrarı sevir. Hər iki hökmdara eşq olsun.*

# KİAKSARIN AXIRINCI SAVAŞI

roman

## Paytaxtın vaxtsız qonaqları

E.ə. 586-cı ilin qışı idi. Artıq şər qarışmış, məşəllər yandırılmışdı, amma göyün ortasında qovzanmış Ay ətrafı daha yaxşı işıqlandırırdı. Ekbatan[1] şəhərinin qala qapılarının qapanan vaxtıydı, daha heç kim içəri buraxılmırdı. Mühafizə rəisinin əmri ilə nizəli keşikçilər hələ də içəri girmək ümidini itirməmiş müsafirləri geri sıxışdırır, qullara ağır qapıları örtməkdə yardım edirdilər. Baş mühafizəçi qabağa soxulan adamların arasından boylanan hündürboy cavan kahini gördü. Onun kəmərindən atəşdan, çiynindən kəşkül asılmışdı, qırxıq başı məşəllərin işığında parıldayırdı. Əynində qalın qəhvəyi rəngli xirqə vardı.

Baş mühafizəçi çığırdı:

– Ay dinsizlər, Ulu Hörmüzd möbidinə yol verin! – dedi.

Adamlar aralandılar, kahin qabağa keçib yarıaçıq darvazadan şəhərə girdi, iti addımlarla ala-toranlığa qarışdı.

Bu vaxt daha bir nəfər özünü yetirdi. Bu, süvari əsgər idi. O, darvaza önündə toplaşan kütləni yarıb keçməyə cəhd elədi. Amma onun "Yol verin!" – hayqırtısına məhəl qoyan olmadı.

---

[1] Həmədanın qədim adı.

Əsgərin mis dəbilqəsindən məlum olurdu ki, onbaşı rütbəsindədi. Müharibələrin ardı-arası kəsilmədiyindən onun gəlişi kimsəni təəccübləndirməmişdi, əhali hər gün, hər saat yaraq-yasaqlılarla rastlaşmağa alışmışdı. Odur ki, əsgərə xoşluqla heç kim yol vermək fikrində deyildi, hər kəs öz hayındaydı, hamı macal tapıb şəhərə girməyə can atırdı.

Əsgərin köpük içində olan atı qəflətən dayandırıldığından cilov gəmirir, narazı halda başını silkələyir, yalından ətrafa tər damcıları sıçrayırdı. Təzəcə yandırılmış məşəllərin işığında iri gövdəli ayğırın köksü körük kimi qalxıb-enir, burnundan, cəhəngindən ayrılan buğ ayazlı havada tədricən əriyir, buxara çevrilirdi.

Keşikçilər uzun nizələri ilə qabağa təpilən kütləni, içəri keçməyə girəvə axtaran dilənçiləri, səfilləri, fahişələri, avaraları kənara sıxışdırdılar. Toranlıqda yeni gələni gözü alan baş mühafizəçi təkrar qışqırdı:

– Midiyalılar, onbaşı qardaşımıza qabağa buraxın!

Yalnız bundan sonra adamlar könülsüz aralanıb əsgəri irəli buraxdılar. Süvarinin dəbilqəsinə döyülmüş şahənşah möhürlərinin sayından məlum olurdu ki, bu döyüşçü beş savaş iştirakçısıdır. Onun, zirehli döşlüyün üstündən geydiyi dəri kürkü köhnə və pasaxlı idi, bir necə yerdən kobud közənmişdi. Gözlərindən sərtlik yağsa da, üzü ayazdan qaralmışdı. Keçə şalvarının balaqları palçıqlı corabına salınmış, çarığın dəri ipi ilə möhkəm sarınmışdı. Amma bütün bunlara baxmayaraq qılıncının mis qəbzəsi, uzun nizəsinin tunc ucluğu, gözünün üstünə basdığı mis dəbilqəsi parıldayırdı. Məlum olurdu ki, köhnə əsgər səliqə-sahmanına baxmasa da, silah-əsləhəsini göz bəbəyi kimi qoruyur.

Bikini[1] dağının ətəyindəki təpələrdə salınmış Ekbatan şəhəri ayrı-ayrı rəngdə, iç-içə tikilmiş yeddi qala divarının əhatəsində idi. Eninə-geninə böyüyən şəhər hamını ahənrüba kimi özünə çəkirdi. Elə bil Midiya şahənşahının təbəələri yatıb yuxuda paytaxtı görürdülər, ölkənin hər tərəfindən şəhərə gələnlərin ardı-arası kəsilmirdi. Baş mühafizəçi onbaşını tələsdirdi:

– Cəld tərpən, əsgər! – dedi, amma marağını da gizlətmədi. – Hardan gəlirsən?

Onbaşı onun marağını təmin eləməyi caiz bildi:

– Halis çayının sahilindən gəlirəm!

Baş mühafizəçi fit çaldı, biliciliklə:

– Oho! – dedi. – Söylə görüm, əsgər, bu savaş çoxmu çəkəcək? Əlahəzrət şahənşah müharibəni bitirmək fikrində deyil?

Onbaşı başdansovdu, qeyri-müəyyən cavab verdi:

– Az qalıb!

Müsahibi əl çəkmədi:

– Nədi, böyük Midiya kiçik Lidiyanı yenə bilmir? – Soruşdu. – Üç il də müharibə olar?

– Darıxma, yaxınlarda qələbə xəbərini bütün Midiya eşidəcək! – deyərək mühafizəçilərin sırasını ötən onbaşı öz növbəsində soruşdu. – Camaatı niyə şəhərə buraxmırsız?

Baş mühafizəçi könülsüz:

– Vəliəhd Astiaqın əmridir, ancaq abırlı adamlar şəhərə buraxılır, – dedi. – Hə, daha dayanma, əsgər, keç get.

Onbaşı keçmədi, atın üstündən qabağa əyildi, qoynundan çıxartdığı qızıl lövhəciyi mühafizəçilərin gözünün qabağında yellətdi:

– Rəisini çağır! – deyə əmr elədi.

---

[1] İrandakı Əlvənd dağının əski adı.

Baş mühafizəçi anladı ki, qarşısındakı vacib şəxsdir. Şahənşahın qızıl fərmanını hər yoldan ötən qoynunda gəzdirmir ki!

Tələsik yaxınlaşan yaşlı mühafizə rəisi onbaşının göstərdiyi lövhəciyə göz gəzdirdi, söylədiklərini dinlədi, hörmətlə baş əydi:

– Ağa, əmriniz yerinə yetiriləcək! – dedi. – Yoldaşlarının dalınca dərhal minik göndəriləcək! Onların yerini de.

Atlı özündən razı qaldı, astadan:

– Yoldaşlarımın ikisini Ekbatan-Babil yolunun bir ağaclığında,[1] üçünü isə beş ağaclığında tapacaqsız, – dedi.

Onbaşı atını tərpətmək istəyəndə mühafizə rəisi hörmətlə:

– Ağa, küçələr qaranlıqdır, məşəlçilərdən birini sənə qoşuram! – dedi.

Onbaşı bu lütfkar təklifdən imtina eləmədi, başını razılıqla tərpətdi. Bundan sonra daha yubanmadı, qala qapılarından aralanan kimi əlini şallağa atdı. Beş-on dəqiqə dincəlmiş ayğır yerindən götürüldü, qabaqda atını çapan məşəlçinin dalınca düşdü.

Ay işığına qərq olmuş şəhər hələ yatmasa da, gecə düşdüyündən, küçələrdən ayaq çəkilmişdi. Əslində, şəhər əhli ora-bura çapan süvari dəstələrin, silahlı əsgərlərin varlığına alışmışdı. Midiya imperiyasında kahinlər kimi hərbçilər də külli-ixtiyar sahibi idilər. At nalının səsini eşidən şəhər sakinləri canının qorxusundan dərhal divarlara sıxılır, ağına-bozuna baxmadan, küçələri çaparaq keçən atlılara yol verirdilər.

---

[1] 1 ağac – 15 km-dir.

Şəhərin mərkəzinə hələ bir neçə fərsəx[1] qalırdı. Onbaşının miniyinə yazığı gəlmirdi, rəhmsizliklə onu qırmanclayır, mənzil başına tez çatmağa tələsirdi. Uzun yol onu elə əldən salmışdı ki, gümüş qala divarlarının arxasında yerləşən nəhəng iqamətgahın qapısında atdan yerə enəndə ayaqları sözünə baxmırdı, səntirləyirdi. Daha ehtiyac qalmadığından məşəlçini əlinin işarəsi ilə mürəxxəs elədi.

## Darasp

Qala qapılarından sürətlə aralanan kahin tezliklə yerişini yavaşıtmalı oldu, qala divarlarının çıxıntısında quru yer tapıb oturdu. Parsarqaddan Ekbatana qədər uzanan enişli-yoxuşlu dağ yolları, qışın soyuğu onu əldən salmışdı, daha ayaqları sözünə qulaq asmırdı. Amma çox oturmadı, dincini alandan sonra tonqalının alovu qaranlıq göyü işıqlandıran məbədə tərəf irəlilədi. Şəhərin çirkab suları axıdılan küçələri palçıqlı idi, alaqaranlıqda yolu seçmək olmurdu. Kahin çamurluqları saya-saya mənzil başına çatdı. Atəşgahın böyründə, odun qalağının arxasındakı daxmada yaşayan qoca odunçu məşəllərin işığında odun doğrayırdı. Bivaxt qonağın gəlişinə təəccüblənmədi.

– Doğma Parsarqadda nə var, nə yox, Darasp qardaş? Vəziyyət necədi? – Soruşdu.

Daxmanın sahibi əslən pars idi, məbədin odunçusu idi. Bu da təəccüblü deyildi. Midiyada məbədlərdə çalışanların əksəriyyəti parslar idi. Odunçu balaca adam deyildi, Daraspın ən etibarlı tərəfdarlarından biri idi. Oğlu Zukray sarayda nüfuz sahibi idi. Daraspın işinə çox yarıyırdı.

---

[1] 1 fərsəx (fərsəng) təqribən 5-7 km-ə bərabərdir.

Darasp könülsüz cavab verdi:

– Parsarqad yerindədir, həmşirə! Keçən qiyamdan sonra hələ də özünə gəlməyib, – dedi.

– Amma sənə kahin paltarı çox yaraşır, Darasp qardaş, – deyə odunçu ona sataşdı. – Gərək kahinliyi tərk eləməyəydin.

Darasp, əlbəttə, kahin deyildi. Kambiz şahın Midiyadakı agentlərinin başçısı idi. İndi zarafatlıq halı yox idi, xahiş elədi:

– Bu barədə sonra söhbət edərik. İndi mənə gecələməyə yer lazımdı, bərk yorğunam, bir az da soyuqlamışam.

Odunçu soruşdu:

– Səccam atanın evinə niyə getmirsən? Onun xanəsi daha rahatdır ki...

Darasp burnunu çəkdi:

– Gecə vaxtı qoca Səccamı narahat eləmək istəmirəm, – dedi.

Odunçu bir az fikrə getdi, sonra:

– Yaxşı, mənim daxmamda gecələyə bilərsən, – dedi. – Onsuz da atəşgahdakı tonqallara odun daşımalıyam, köməkçimə dinclik vermişəm, səhər açılanda gələcək.

## Baş xəfiyyə Tətür Atxa

Onbaşı özünü qabağına qaçan əli çıraqlı nökərlərin ixtiyarına tapşırdı. Onların köməyi ilə ağır silah-əsləhəni üstündən atdı, birbaşa hamamxanaya üz tutdu. Əslində, onbaşı sadə adəm deyildi, Midiya səltənətinin qüdrətli Baş xəfiyyəsi Tətür Atxa idi.

O, Halis çayının[1] sahilindəki ordugahdan gəlirdi. Paytaxta qədər iki yüz fərsəxlik yolu on günə gəlmişdi. Nə özünə, nə tabeliyindəkilərə yazığı gəlmədən köhlənini çapmışdı, əldən-dildən düşüb geridə qalanları gözləməmişdi. Altmışa yaxın yaşı olsa da, vacib səfərin məhrumiyyətinə bir cavan kimi dözmüş, sağlamlığına qəsd eləməkdən çəkinməmişdi.

Tətür Atxa yolun çirk-pasağını üstündən töküb isti hovuzda bir hovur mürgüləyəndən sonra özünə gəldi. Sudan çıxıb qurulandı, əsgər geyimdən daha kobud kahin libasını əyninə çəkib dəhlizdə hazır dayanmış köməkçisinə əmr elədi:

– Əlahəzrət vəliəhdin hüzuruna tələsirəm, yalnız vacib bildiklərini söylə, – dedi. – Satraplıqlardakı vəziyyət, ölkənin övzayı barədə xəbərləri sonraya saxla, məni yalnız paytaxtda, sarayda baş verənlər maraqlandırır. Cəld ol!

Tətür Atxa bütün həyatını, bilik-bacarığını, bir sözlə, qanını-canını Midiya səltənətinin yolunda qoymuşdu. Dəbdəbəni sevmədiyindən, xalq arasına ya adi əsgər geyimində, ya kahin əbasında, ya da kefcil şəhərli paltarında çıxırdı. Ölkəni təğyiri-libas dolaşmağı xoşlayırdı. Səltənətə xidmətdən başqa qayğısı yox idi. İki arvad alsa da, heç biri ona uşaq doğmamışdı. Bir vaxtlar şahənşah Kiaksar Tətürə yenidən evlənməyi məsləhət görmüşdü: “Qardaşım, Ulu Hörmüzdün köməyi ilə üçüncü dəfədə bəxtin gətirəcək, övlad sahibi olarsan”. Tətür Atxa gülümsəyərək: “Tacidar qardaşım, Ulu xaqan, iki arvadın nazına zorla dözürəm, üçüncüsünü alsam, lap başımı itirərəm ki!” Üç arvadından savayı hərəmxanasında saysız-hesabsız cariyə saxlayan şahənşah istehza ilə: “Görürəm, məndən nümunə götürmək fikrində

[1] Türkiyə ərazisindəki Qızıl İrmaq çayının qədim adı.

deyilsən!" Tətür Atxa alnını taxtın önündəki fərşə toxundurub: "Mən Ulu Xaqanın dözümünə heyranam! – dedi. – Amma onun yerişini yerimək fikrində deyiləm!" Şahənşah gülümsəyərək soruşdu: "Niyə?" Tətür Atxa dedi: "Tacidar qardaşım, Ulu xaqan, mən canımdan bezməmişəm, hələ yaşamaq istəyirəm!" Onun zarafatına uğunan şahənşah daha təkid eləməmişdi.

"Qardaşım" deyimində elə bir qəribəlik yox idi. Onlar həqiqətən süd qardaşı idi. Altmış il bundan əqdəm, saray təbiblərinin yüzlərlə qadının-gəlinin arasından seçdikləri, kahin Atxanın təzə doğmuş on beş yaşlı sağlam arvadı Mataxaya südəmər Kiaksarın dayəliyini tapşırmışdılar. Beləcə, Tətürün tacidar qardaşıyla tanışlığı bələkdən başlamışdı. Ana südü onları bir-birinə elə bağlamışdı ki, keşməkeşli illər belə onları ayıra bilməmişdi.

Tətür Atxa paytaxtda baş verənləri düdüləyib tökən köməkçisinin sözünü kəsdi:

– Şahzadələr yola gedirlərmi?

Köməkçi gülümsədi:

– Nəticə çıxarmağa çətinlik çəkirəm, əlahəzrət! – dedi. – Bircə onu deyə bilərəm ki, bir aydı əlahəzrət Astiaqın silahlı qulamları şahzadə Urranın, xanım Aqniyanın sarayını mühasirədə saxlayırlar.

Tətür Atxa əlini qaldırdı:

– Kifayətdi! – Sonra başına gələnləri bir-iki cümlə ilə bildirib tapşırdı. – Yollarda qalmış adamlarımızın qayğısına qalarsan! Qala mühafizəçilərinə çox da inanmaq olmaz!

O, iki şahzadə arasında qarşıdurmanın bu həddə çatacağını gözləmirdi. Amma başı Lidiya müharibəsinə qarışmış şahənşah Kiaksar ölkənin idarəçiliyini vəliəhd Astiaqa tapşıranda şübhəsini gizlətməmişdi:

– Şahzadələr yola getməyəcəklər! – Övladlarının birgə çalışmağını arzulayan Kiaksar qərarını dəyişməmişdi. – Qoy, bizdən nümunə götürsünlər!

Hər şey Baş xəfiyyənin dediyi kimi oldu, şahzadələr yola getmədilər. Amma onların didişməsinə barmaqarası baxan şahənşah hər həftə xəfiyyələrin paytaxtdan gətirdiyi məlumatları dinləməklə kifayətlənirdi. Xəlvəti didişmə böyüyüb düşmənçiliyə çevriləndə Tətür Atxa dözmədi, ehtiyatla iradını bildirdi:

– Yəqin Ulu Xaqan qardaş qırğını istəmir!

Şahənşah: – Tətür, bilirsən ki, çəkişməsən bərkişməzsən! Qoy, şahzadələr didişsinlər. Mənim varisim taxt-tacı əlində saxlamağı bacarmalıdır! – dedi. Yalnız iş əndazəni aşanda müdaxilə elədi: – Tətür, özünü paytaxta yetir, həm səfeh oğlanlarımın başına ağıl qoyarsan, həm də danışdığımız kimi, şahzadə Urranı Muğan səfərinə hazırlayarsan.

## Tətür Atxa vəliəhd iqamətgahında

Qızıl qala divarlarının arxasında yüzlərlə məşəl yanırdı, şahənşah sarayları gecənin qaranlığında parıldayırdı. Dəbdəbəni sevən vəliəhd Astiaqın iqamətgahı daha işıqlı, daha təmtəraqlı idi. Tətür Atxa özü ilə götürdüyü silahlı xəfiyyələri qapıda əyləyib içəri keçmək istəyəndə qapıdan çıxan iki nəfər naməlum şəxslə rastlaşdı. Onların azman görkəmi, sərt sifətləri, xəz geyimləri yad adamların paytaxt əhli olmadığını nişan verirdi.

Tətür Atxa onu həqiqi bir şadlıqla qarşılayan Astiaqa yüngülcə baş əydi. İçəridə vəliəhdin süvari qulam alayının sərkərdəsi Zukraydan, Bəyaz məbədin baş kahini, Ali Baş

Kahinin köməkçisi Şaum atadan başqa iki-üç təlxək, bir ovsunçu vardı. Otağın ortasında qoyulmuş iri saxsı bardaqdan başını bir qəz[1] uzadan gürzə ovsunçu tütəyinin təranələri altında oynayırmış kimi qalxıb-enirdi. Bardağın ətrafında atılıb-düşən təlxəklər oyunbazlıq edirdilər. Deyəsən, onlardan biri ilanın başına əlini vurmaq istəyirdi. Vəliəhdlə əhvallaşan Tətür Atxa keçib oturdu.

– Əlahəzrət vəliəhdin qonaqları kim idi? – Soruşdu.

Vəliəhd ilandan daha cəld olan qorxmaz təlxəkdən gözünü ayırmadan vəcdlə:

– Afərin, Motul! – dedi, sonra Tətürün sualına cavab verdi. – Qonaqlarım Peştəsərdən[2] gəlib, qəbilə başçılarıdı, skiflərin cənub yürüşünün qabağını kəsən igidlərimizdir. Şaum ata deyir ki, bu qəbilələrin müqaviməti olmasaydı, indi skif çarı İşpak bütün Tarmakis[3] satraplığına sahiblənmişdi.

Tətür Atxa qonaqların kimliyini bilən kimi vəliəhdin kürsüsünə yaxın oturmuş kahinə gözucu baxdı. Peştəsər tərəfdən gələn qəbilə başçıları yalnız onun vasitəçiliyi ilə vəliəhdin dərgahına yol tapa bilərdilər. Soruşdu:

– Onların istəyi nədir?

Vəliəhd birbaşa cavab vermədi, öz növbəsində:

– Necə bilirsən, mamu, Muğanı skiflərdən təmizləmək vaxtı hələ çatmayıb? – Soruşdu.

Vəliəhd hər şeyə qadir Tətür Atxanı sevirdi. Ona “mamu”, yəni əmi deyə müraciət edirdi. Tətür Atxaya uşaqlıqdan bağlanmışdı. İndi əmisinin üzündəki dəyişiklikləri gözü alan kimi Şaum atanı köməyə çağırdı:

– Ustad, düzmü deyirəm?

---

[1] 1 qəz - 0,8 metrə bərabər qədim uzunluq vahidi
[2] Talış dağlarının qədim adı
[3] Təbriz şəhərinin qədim adı

Şaum ata vəliəhdin “Avesta” müəllimi kimi sarayda etibar sahibiydi. Kahin baxışlarını Tətür Atxadan qaçıraraq Astiaqa cavab verdi:

– Əlbəttə, vaxtıdı, əlahəzrət vəliəhd! Mən keçən yay Skif çöllərini dolaşanda hər yerdə müharibə gedirdi. Skif çarları bir-birini qırırdılar, başları qarışmışdı dava-şavaya. Midiya qoşunları Muğana hücum eləsə skif çarı İşpakın qoşunlarına asanlıqla qalib gələcək. Gümanım belədir ki, skif çarı İspaka daha Şimaldan kömək gəlməyəcək.

Sərkərdə Zukray sinəsinə vurdu:

– Əlahəzrət vəliəhd əmr eləsə qulam alaylarımla skifləri Muğandan günü sabah qovub çıxardaram!

Tətür Atxa hirsini zorla boğdu:

– Hər şeydən əvvəl bilməlisiz ki, əlahəzrət şahənşah başqa fikirdədi! Çar İşpak bizim dostumuz, qohumumuzdu, – dedi, sonra kahini acıladı. – Ay başıqırxıq kişi, sənin işin Ulu Hörmüzə ibadət eləməkdi, siyasət deyil. Burnunu hər yerə soxsan, burunsuz qalacaqsan! Vəliəhdi də yoldan çıxarma!

Əsli Muğandan olan Şaum ata Skif çarlığının barışmaz düşməni kimi ad çıxarmışdı. Onun müqəddəs Şiz şəhərinə ziyarətləri baş xəfiyyənin gözündən yayınmırdı, amma işə qarışmağa tələsmirdi. Bilirdi ki, birbaşa Ali Baş Kahin Amitaxah ataya tabe olan kahinin Tarmakiz satraplığına səfərləri tək Peştəsər dağlarında bitmir. O, Skif dillərini yaxşı əxz elədiyindən asanlıqla səfil qiyafəsində Muğanı dolaşır, hətta Dar Keçidi[1] adlayıb Skif çöllərini dolaşırdı. Topladığı məlumatı himayədarı Amitaxah ata ilə bölüşəndən sonra Tətür Atxanın iqamətgahına da baş çəkməyi yaddan çıxarmırdı.

---

[1] Dərbənd keçidi nəzərdə tutulur.

Baş xəfiyyənin danlağından sonra hər üçü başını aşağı saldı. Vəliəhdin dar alnı qırışdı. Tətür Atxa təklif elədi:

– Təlxəkləri rədd eləsən yaxşıdı, məxfi söhbətim var! – dedi. – Ulu Xaqan məni bura vacib tapşırıqla göndərib.

Təlxəklərlə ovsunçu otaqdan çıxandan sonra vəliəhd könülsüz soruşdu:

– Atəşgahım məndən narazıdır, mamu?

Vəliəhd Astiaq atasına "atəşgahım" deyə müraciət eləyirdi. Tətür Atxa həqiqəti gizlətmədi:

– Bəli, Ulu Xaqan çox narazıdır! – dedi. – Açığı, əlahəzrət vəliəhdin hoqqaları şahənşahı qəzəbləndirib. Sən qardaşınla yaxşı rəftar eləmirsən.

– O mənim sözümü eşitmir, mamu, – deyə vəliəhd özünə haqq qazandırmağa çalışdı. – Heç bilirsən, şahzadə Urran necə bir ilan balasıdır?

Tətür Atxa əlini qaldırdı:

– Heç nə eşitmək istəmirəm! Dərhal şahzadənin sarayını mühasirədə saxlayan qulamları geri çağır. Özünü də bura dəvət elə. Ulu Xaqanın ona məxfi tapşırığı var.

Vəliəhd atasının qərarı önündə geri çəkildi. Onun işarəsi ilə sərkərdə Zukray qaça-qaça otaqdan çıxdıqda Tətür Atxa tapşırığın məğzini açıqladı.

## Daraspın həyatı

Darasp odunçunun isti daxmasından bir həftə bayıra çıxmadı. Yolun soyuğu canına işləmişdi. Qızdırmadan özünə gələ bilmirdi, amma mərhumiyyətlərə mətinliklə dözürdü.

Onların ailəsi Parsarqad şəhərinin yaxınlığındakı kənddə yaşayırdı, kiçik bir torpaq sahəsinin qazancıyla

dolanırdılar. Pars şahları ilə uzaq qohumluq heç bir gəlir gətirməsə də, bəzi üstünlüklər verirdi. Hər bir Əhəməni övladı kahin də, hərbçi də, saray məmuru da ola bilərdi. Onlar seçilmişlərdən, yəni arilərdən sayılırdılar. Atası on dörd yaşlı Daraspı kahin görmək istəyirdi. Onu Parsarqad şəhərindəki atəşgaha apardı. Əhəməni nəslindən olan qoca baş Möbidin tövsiyəsi ilə oğlanı odabaşı şəyirdliyinə götürdülər. Darasp qısa vaxtda uğur qazandı. Uşağın hafizəsi o qədər güclü idi ki, baş kahinin mərasim vaxtı oxuduğu mahnıları asanlıqla yadda saxlayır, dərhal əzbərdən təkrarlayırdı. Heç iki il keçmədi ki, məbəddə əvəzedilməz adama çevrildi.

O, kahin rütbəsinə ucalmaq üçün uzaq Şiz şəhərində təhsil almalı idi. Darasp isə sevdaya düşmüşdü, getmək istəmirdi. Onu dilə tutan baş Möbiddən, ata-anasından qaçırdı. Hər gün, atəşgahda mərasimlər bitən kimi, uzun bir yol qət eləyir, şəhərdən kəndə qayıdır, yubanmadan xurmalığa qaçırdı. Kijəni görməsəydi, gözünə yuxu getməzdi. Qızın hələ heç on iki yaşı yox idi, gözəlliyi dillərdə gəzirdi.

Kijənin atası günəmuzd işlərlə başını dolandıran qoça bir dehqan idi. Hörmətli bir ailənin övladına qızını həvəslə verərdi.

İki qonşunun evləri bir-birinə yaxındı, aradan balaca sısqa çay axırdı. Kijənin günü Daraspın kiçik bacıları ilə keçirdi. Bəzən başı oynamağa qarışır, evə getmək yadından çıxırdı, axşam düşəndə isə başlayırdı Daraspa yalvarmağa ki, məni evə qədər ötür, tək getməyə qorxuram. Oğlan çox vaxt Kijənin ayaqları islanmasın deyə, boynuna mindirib çaydan keçirirdi.

Bir dəfə qız:

– Darasp, bu gün sənin qızdırman var, – dedi. – Boynun-başın yanır, elə bil sobadan çıxmısan! İstin qıçlarımı yandırır.

Darasp cavab verməyə söz tapmadı. Gündüz olsaydı Kijə oğlanın qırxıq başının, yoğun boynunun qıpqırmızı qızardığını görərdi.

Bir gün yenə Darasp onu evə aparırdı. Sısqa çayda yazağzı su artmışdı. Çiynində oturmuş qızdan elə bir ətir gəlirdi ki, oğlan özünü saxlaya bilmədi. Sahildə Kijəni boynundan yerə qoyandan sonra qucaqladı, üz-gözünü öpüşlərə qərq elədi. Daraspın bu gözlənilməz hərəkətindən həyəcanlanmış Kijə çırpındı, ikisi də müvazinətini itirdi, bir yerdə çaya yıxıldılar. Onlar deyə-gülə soyuq sudan çıxanda artıq aralarında səmimi bir məhəbbətin bünövrəsi qoyulurdu.

Atası bir yandan, baş Möbid o yandan, axır ki, Daraspı Şiz şəhərinə getməyə razı saldılar. Ayrılıq vədəsi çatdı. Bu, hər iki sevgilini kədərləndirdi. Oğlan Kijəni ovutmağa çalışsa da, qız ovunmurdu. Həmin axşam o gözü yaşlı qızı çaya kimi yola saldı. Ayrılarkən Kijənin ona dikilən məhzun baxışlarından sıxılaraq günahkar halda:

– Beş ildən sonra yanındayam, darıxma! – söylədi.

Amma beş il tamam olmamışdı ki, Pars satraplığında başlayan qiyam Daraspın bütün həyatını dəyişdi. Müqəddəs Şiz şəhərində təhsilini yarımçıq qoydu, həyəcan içində vətənə qayıtdı. Burada isə nə ailəsini, nə sevgilisini tapdı. Midiyalılar kəndlərini viran qoymuş, yerlə yeksan eləmişdilər.

## Daraspın nifrəti

Daraspın kədərini ancaq əzizlərini itirən adam bilərdi. İlk dəfə Midiyaya qarşı qəlbində kin-küdurət baş qaldırdı. Sakit, sülhpərvər kahin yoxa çıxdı, hər şeyə hazır döyüşçü peyda oldu.

O, adamlardan öyrəndi ki, Midiya əsgərləri ələ düşən qəniməti hərrac bazarına çıxarıb satırlar. Şəhərbəşəhər dolandı, adını eşitdiyi bütün hərrac yerlərinə baş çəkdi. Dərdinə şərik adamların məsləhətilə rastına çıxan yavaxanaları da, meyxanaları da gəzdi. Yenə yaxınlarından soraq tuta bilmədi. Bir il sərgərdan gəzib-dolanandan sonra axtarışdan əl çəkdi, Parsarqada qayıtdı.

Baş verənləri baş Möbiddən daha ətraflı öyrəndi. Məlum oldu ki, qiyam hazırlıqsız başlayıb. Şahənşah Kiaksarın elçisi şahı “Pars satrapı” adlandırıbmış. Ata Kambizin özündən müştəbehliyini kim bilmir ki! Satrap sözünə qəzəblənib şahənşahın elçisini sarayından qovmuş, heç kimlə məsləhətləşmədən pars silahlılarını Midiyanın asayiş keşikçilərinin üstünə göndəribmiş. Cavab olaraq şahənşah Kiaksarın qoşunları Parsa soxulmuş, qiyamı asanlıqla yatırmışdı. Öldürülmüş şahın yerinə taxta Ekbatanda zaval (girov) kimi saxlanılan oğul Kambiz çıxarılmışdı. Kiaksar etibar elədiyini göstərmək üçün sonralar, hətta, qızını cavan şaha ərə vermişdi.

Baş Möbidi dinləyəndən sonra Darasp bir-iki gün şəhəri dolandı. Midiya silahlıları tərəfindən xarabazara çevrilmiş məhəllələr yenidən canlanırdı. Darasp baş Möbidin yanına qayıtdı. Qoca təəssüflə:

– Artıq qocalmışam, səni öz yerimdə baş Möbid görürdüm, – dedi. – Ekbatandakı Ali Kahinlər Şurası müqəddəs Şiz məbədinin zəmanəti olmadan səni bu vəzifəyə qoymayacaq. Amma cəhd eləyərəm, yəqin Amitaxah ata sözümü yerə salmaz.

Darasp başqa fikirdə idi:

– Müqəddəs ata, Ekbatan kahinləri razı olsalar da, bundan sonra mən baş möbidlik rütbəsini qəbul eləmərəm.

Axı, Vətənimin bu günündə rahat, tox, təhlükəsiz məbəd hücrəsinə çəkilmək ayıbdı mənə.

– Sən yanlış yoldasan, oğlum! Ulu Hörmüzdün xeyir-duası ilə yaranan Midiya səltənətinə qarşı getmək günahdı. Bizim işimiz ibadətdi, qiyam deyil. Tapındığımız yer atəşgah olmalıdı.

– Mənim tapındığım yer Parsdı, – deyə Darasp qərarını verdi. – Müqəddəs ata, məndən daha möbid çıxmaz! İnamım sarsılıb.

Baş Möbid qan-qan deyən cavanı daha dilə tutmadı. Gördü ki, Darasp yolunu azıb, amma bir Əhəməni kimi köməyini də əsirgəmədi. Onun vasitəçiliyi ilə Daraspı şah xidmətinə götürdülər. Əhəməniliyindən daha çox müqəddəs Şiz şəhərində aldığı təhsil, müqəddəs "Avesta"nı əzbər bilməyi işinə yaradı.

## Naibi-sirdar Ərdəm pənah gətirir

Tətür Atxa paytaxtda işlərini bitirmişdi, yol üstə idi. Şahənşah Kiaksar artıq dalınca çapar göndərmişdi. Təcili Halis çayının sahilindəki şahənşah ordugahına qayıtmalı idi, amma bir gün də yubanmalı oldu.

Onun yeraltı səltənətinə pənah gətirmiş naibi-sirdar Ərdəmin yekə vücuduna etinasızlıqla nəzər saldı. Adətən, sarayın əyan-əşrəfi ondan kənar gəzirdi, işi düşəndən-düşənə müraciət edirdi. Atxanın bircə görünüşü hamının qəlbində vahimə oyadırdı.

– Hörmətli Ərdəm, nə işə gəlmisən? – Soruşdu və dərhal da onu xəbərdar elədi. – Nəzərə al ki, mənim vaxtım yoxdur, səfərə çıxmalıyam. Qısa elə.

Ərdəm həyəcanlı idi, elə ayaqüstü, gözləri bərələ-bərələ, fısıldaya-fısıldaya başına gələnləri danışdı, kömək istədi.

– Əlahəzrət, şahənşah dəftərxanasının saxlanclarına dadanmış oğrunu təcili tapmaq gərəkdi. Ləmələrdən xeyli qızıl lövhə yoxa çıxıb. Çox dəyərli məktublardı, – dedi, qapıya döndü. – Gedək, əlahəzrət, özün də baxarsan.

Məsələnin vacibliyi göz önündəydi. Baş xəfiyyə isə yerindən tərpənmədi, donuq baxışlarını naibi-sirdardan ayırmadan soruşdu:

– Dəftərxanada kimdən şübhələnirsən?

– Mən adamlarıma inanıram. Onları bir-bir özüm seçmişəm. Hamısı əsilzadə ailəsindəndir.

Tətür Atxan soruşdu:

– Dəftərxanada məktubların hesabı aparılır?

Ərdəm qurumuş dodaqlarını yaladı:

– Əlahəzrət, sizdən gizlətməyəcəm, yalnız dəyərli metaldan olan lövhələrin hesabı aparılır. Baş mirzə tərəfindən həftədə bir dəfə siyahı ilə yoxlanılır. Amma gil, mis lövhələrin sayı o qədər çoxdu ki, hesabı aparılmır, – dedi.

Tətür Atxa tələsmədən soruşdu:

– Saxlancın qapıları, qıfılları, divarları salamatdımı?

– Bəli, bəli! – deyə Ərdəm səbirsizliklə dilləndi. – Əlahəzrət, dövlət əhəmiyyətli cinayət baş verib. İşin üstü isti-isti açılmasa, gec olacaq.

Tətür Atxanın heç tükü də tərpənmədi, onun sözünü kəsdi:

– Darıxma, oğru uzaqda deyil, dəftərxanadadır, axtarmağa ehtiyac yoxdu.

Naibi-sirdar donuxub qaldı, bilirdi ki, baş xəfiyyə sözü boş yerə deyən deyil.

## Məktub oğrusu

Elə həmin gün Tətür Atxanın xəfiyyələri şahənşah dəftərxanasının altını üstünə çevirdilər. Mirzələri, mirzə köməkçilərini, mirzə buyruqçularını, xidmətçiləri, çaparları bir-bir söylətdilər. Şübhəlilərin içində bir mirzə buyruqçusu diqqəti cəlb elədi. Onu qandalladılar.

Baş xəfiyyənin yeraltı iqamətgahı vahiməliydi. Saray əmələsi arasında bədnam şöhrət qazanmışdı. Bu zirzəmilərə "adlı-sanlı" canilər salınırdı. Adi cinayətkarlar üçün paytaxtda bir neçə çirkli-paslı həbsxana vardı.

Özünü şübhəli aparan mirzə buyruqçusunu işgəncə otaqlarından keçirib yarıqaranlıq bir zindan hücrəsinə gətirdilər. Oğru gördüklərindən təsirlənsə də, özünü tox aparırdı. Möhkəm adama oxşayırdı, heç işgəncə alətlərinin görünüşündən də sarsılmadı.

Baş xəfiyyə zindan hücrəsinə girəndə zindanban məşəl işığında tər tökür, dustağa işgəncə verirdi. Məhbus, yaman gündə olsa da, heç nəyi boynuna almırdı.

Zindanban Atxanın qabağına qaçdı:

– Əlahəzrət, bir şey qalmayıb! – deyə onu əmin elədi. – Ya bu Əhrimən oğlunun dili açılacaq, ya da canı çıxacaq.

Tətür Atxa narazı qaldı. Əlinin altında çalışanlar qəddar, adamayovuşmaz olsalar da, ağıldan kəm deyildilər. Zindanbanı danladı:

– Ay axmaq, mənə məhbusun dilinin açılması lazımdı, canının çıxması yox! – dedi.

Zindanban qanlı əlilə alnının tərini sildi:

– Əlahəzrət, bəs, neynim? – deyə soruşdu. – Zalım balası elə bil qaya parçasıdır, şallaq təsir eləmir, dağ basmışam, dözür, dırnaqlarını çıxarmışam, susur.

Tətür Atxa bir az düşündü, zindanbana buyurdu:

– Cismani ağrılara dözən məhbusun qəlbinə girmək lazımdı. Onun yaralarına məlhəm qoyarsan, bəng otları qatılmış tünd şəraba qonaq eləyərsən, sonra yanıma gətirərsən. Amma qızırqanmazsan, şərabdan nə qədər istəsə, verərsən içsin.

Bir azdan mirzə buyruqçusunu baş xəfiyyənin otağına gətirdilər. Sərxoş oğrunu tanımaq olmurdu. Şallaqdan partlamış dodaqlarını yalayaraq hırıldayırdı. Dağlanmış sinəsini qaşıyaraq suallara həvəslə cavab verir, hər dəfə qəhqəhə çəkirdi. Tətür Atxa əməlindən razı halda:

– Oğurladığın qızıl lövhələri neynəmisən? – deyə soruşdu.

– Ha-ha-ha! Bir pars əsilzadəsinə satmışam, mənim ağam! Ha-ha-ha! Ehtiyac məcbur elədi, mənim ağam.

– Dediyin pars əsilzadəsi ilə necə tapışdın?

– İş belə oldu. Ha-ha-ha! Mən Ekbatan yaxınlığındakı Kij kəndindənəm. Ailəmiz yaxınlara qədər pis yaşamırdı. Keçən il sel gəldi, olan-olmazımızı apardı, bizi quru yerdə qoydu. Tez-tez kəndə baş çəkirdim. Qazandığım qəpik-quruşu ailəmizə versəm də, ehtiyacdan çıxa bilmirdik. Bir dəfə yolda dediyim pars əsilzadəsi ilə tanış oldum. Şahənşah dəftərxanasında çalışdığımı bilən kimi pul kisəsindən bir gümüş sikkə çıxarıb ovcuma basdı. Götürmək istəmirdim, amma əl çəkmədi. Pulu götürdüm. Tez-tez Ekbatandakı mənzilimə gəlir, hər dəfə mənə təmənnasız yardım edirdi. Bir dəfə soruşdum, xəcalətindən necə çıxım. Təklif elədi ki, lazımsız gil lövhəciklər gətirərsən. Soruşdum ki, nəyinə gərəkdi? Dedi, yazıb-oxumağı öyrənmək istəyirəm. Ha-ha-ha! Savadlı adamlardan xoşum gəlir. Sonra gümüşdən-qızıldan olan lövhələrə növbə çatdı...

Tətür Atxa “Dara” deyilən parsın nəm-nişanını dəqiqləşdirəndən sonra sərxoş hırıltısını saxlaya bilməyən mirzə buyruqçusunu cəlladlara tapşırdı. Satqın yer üzündə yaşamamalı idi.

Köməkçisinə tapşırdı:

– Yerin deşiyində də olsa, həmin parsı tapmalısan... – dedi. – Tapan kimi də əl-qolunu bağlayıb mühafizə altında ordugaha göndərərsən. Onu özüm danışdırmalıyam.

## Darasp Urranın səfərindən xəbər tutur

Darasp xəstəlikdən sonra özünə təzə gəlmişdi. Artıq divarları tuta-tuta gəzirdi. Ev sahibi oğlu sərkərdə Zukrayla içəri girdi. Hal-əhval tutdu, sarayda baş verənlərdən danışırdı...

Darasp sərkərdəyə diqqətlə qulaq asıb tənə ilə:

– Belə vacib məlumatı dərhal çatdırmalıydın, – dedi.

Zukray əllərini yana açdı:

– Neynəmək olar, qınyaz, Tətür Atxa məxfiliyi sevir, – dedi. – Şahzadə Urran Muğana yola düşəndən sonra bilmişəm.

Darasp inamsız halda:

– Belə məlum olur ki, şahənşah Kiaksar Lidiya qarşısında aciz qalıb Skif çarından kömək istəyir? – Soruşdu. – Əminsən?

Sərkərdə Zukray başını tərpətməklə kifayətlənmədi, yumruğunu zirehli döşlüyünə vurdu:

– Bəli, Dara, xəbər səhihdir. Əminliklə deyə bilərəm ki, mənim alaylarımdan savayı Midiyada qoşun qalmayıb,

hamısı müharibə meydanındadı, – dedi, əllərini bir-birinə sürtdü. – Deyirəm, əgər Midiya kiçik Lidiyanın əlində aciz qalıbsa hərəkət vaxtıdı. Yəqin ki, biz tərpənsək Urartu da, Skiflər də bizə qoşulacaq.

Daraspın qırxıq başında tər damcıları parıldadı, həyəcanını zorla boğdu, başını buladı:

– Yox, Midiya hələ güclüdü, biz ona bata bilmərik. Kiaksarın əlinin altında yüz minlik bir ordu var. Bizim nəyimiz var? Midiyanın qabağına çıxaracağımız on minlik qüvvə ilə neynəmək olar? – dedi, sonra acı bir gülüşlə əlavə elədi. – Deyəsən, üç il öncəki üsyanın nəticələri Pars qövmünə dərs olmayıb.

Zukray pərt oldu, qoca odunçu əsilzadənin tərəfini tutdu:

– Hə, oğlum, Dara düz deyir, tələsmək olmaz. Başı nizədə gəzdirilən şahımızı yaddan çıxarmaq olmaz... – deyə söhbətə yekun vurdu. – Yox, hələ qiyam vaxtı deyil.

## Tətür Atxa şahənşah hüzurunda

Şahənşah Kiaksar ay yarımlıq fasilədən sonra geri qayıdan Tətür Atxanı Halis çayının sahilində salınmış ordugahdakı çadırında qarşıladı. Kefi yox idi. Sevimli təlxəyi müəmmalı surətdə yoxa çıxmışdı. Nəticəsiz axtarışlar hələ davam edirdi. Tacidarın könlünü heç kim ovuda bilmirdi. Səfər libasında qarşısında dayanan Baş xəfiyyəyə ilk sözü bu oldu:

– Qardaşım, təlxəyimi tapa bilmədilər, – dedi.

Tətür Atxa təbəssümünü gizlətməyə çalışdı, hörmətlə baş əydi:

– Bilirəm, Ulu Xaqan! Kədərinə şərikəm, axırıncı itiyin olsun! – dedi.

Şahənşah Tətür Atxanın könlündən keçənləri oxuyurmuş kimi qınaqla soruşdu:

– İki aydı yoxsan? Harda qalmısan? Müharibənin qızğın vaxtı paytaxtda neyləyirdin? – dedi, sonra kobudluğuna bəraət qazandırmaq naminə zarafata keçdi. – Bilirsən ki, sənsiz işim aşmır...

Əlbəttə, Tətür Atxa paytaxtda boş yerə oturmamışdı, şahzadələri barışdırmış, vəliəhdin özünəməxsus, qəribə fərmanlarını yöndəmə salmış, Urranın Muğan səfərini hazırlamışdı. Xanım Aqniyanı yola gətirmək üçün bir neçə dəfə ayağına getmiş, bəhanələrini kəsmək üçün xeyli tərləmiş, dil tökmüşdü. Əlbəttə, oğlunun uzaq səfərinə mane olan ananın qorxusunu başa düşürdü.

Elədiklərini bəraət xətrinə sadalamağı özünə caiz bilməyən baş xəfiyyə günahkar halda:

– Ulu Xaqan, əlahəzrət vəliəhd məni buraxmırdı! – dedi.

Şahənşah etinasızlıqla: “Hmm!” eləyib sözü başqa məcraya yönəltdi:

– Hər şey barəsində ətraflı danış! – dedi.

Tətür Atxa paytaxtda gördükləri işlər barədə ətraflı məlumat verib axırda fikrini yekunlaşdırmaq istədi:

– Hesabıma görə, şahzadə Urran artıq qayıtmalıdır. Çox güman ki, bu gün-sabah özünü şahənşahın hüzuruna yetirəcək.

Şahənşahın arxayınlaşdığını görüb Tətür Atxa azca tərəddüddən sonra əlavə elədi:

– Ulu Xaqan, vəliəhd Astiaq müharibədə iştirak eləmək arzusundadır.

Tətür Atxa bəzi incə məsələləri gizlədirdi, valideynlə övlad arasına girmək istəmirdi. Şahənşahın şahzadə Urrana verdiyi tapşırıq vəliəhd Astiaqı qəzəbləndirmiş, atasının dalınca hətərən-pətərən danışmışdı.

Şahənşah könülsüz:

– Qoy, vəliəhd Ekbatanda otursun, ölkəni idarə eləməyi öyrənsin. Mən başımı yerə qoyandan sonra bu boyda səltənət vəliəhdin ixtiyarında olacaq, onda istədiyini eləyər. Bir sözlə, müharibə böyük elmdi, təlxək oyunu deyil, – deyə bildirdi.

Tətür Atxanın üzündə oynayan təbəssümü gördükdə şahənşah maraqlandı:

– Qardaşımızın şənliyinə səbəb nə imiş? – deyə soruşdu.

Baş xəfiyyə gülə-gülə:

– Vəliəhd sənə üz verən kədərdən xəbərdardı. Təlxəklərindən ən yaxşısını sənə hədiyyə göndərib, – dedi, və qulamlar onun işarəsilə bapbalaca bir məxluqu içəri ötürdülər. – Adı Motuldu...

Təlxəyin üzünün rəngi dümağ idi, sanki gün işığı görməmişdi. Ciyiltili səslə dil-dil ötdü:

– Balaca cahangir böyük cahangiri salamlayır!

Eynən şahənşah kimi geyinmiş Motulun sifətindəki qondarma şahanə ifadə, yerişindəki, duruşundakı oxşarlıq dərhal Kiaksarın könlünü açdı. Təriflədi:

– Vəliəhdin uzaqgörənliyinə söz ola bilməz! Yaxşı hədiyyədi, – dedi, birdən uğunaraq soruşdu. – Bəs, ilanlarının ən yaxşısını göndərməyib ki?

Vəliəhdin şakərini bilən çadırdakılar şahənşahın zarafatına şaqqanaq çəkdilər. Tətür Atxa nəsə deyəcəkdi ki, sözü yarıda qaldı, bayırdan içəri dolan hay-küydən şahənşahın qaşları çatıldı:

– Naibi-səltənət, gör, çöldə nə qeyli-qaldı? Rahatlığımı pozan kimdi? – deyə ötkəm dilləndi.

Bixur qalxıb bayıra çıxdı.

## Darasp Kijəni tapır

Mərasimi idarə eləyən Səccam ata kahin paltarında zəvvarların arasında dolaşan cavan pars əsilzadəsini gördükdə heyrətlənmədi, onun Ekbatana gəlişindən xəbərdar idi. Təəccüblü başqa şey idi. Əvvəllər Darasp belə yerlərə gəlməzdi, köməkçilərini göndərərdi. Onun şəhərin tör-töküntüsünün yığışdığı məbəddə peyda olmasından Səccam anladı ki, nəsə baş verib. İşini başqa bir kahinə tapşırdı, tələsik yaxınlaşdı. Əhvallaşandan sonra soruşdu:

– Nə baş verib?

Darasp onu intizarda saxlamadı:

– Vəliəhd dostumuz Zukrayı, nədənsə, vəzifəsindən uzaqlaşdırıb, Pars sərhədindəki qarnizona komandir göndərib. Səbəbi məlum olmadığına görə gəldim sənə deyim ki, ehtiyatlı olasan, – dedi.

Səccad xəbərdən hali olduğundan etinasızlıqla:

– Mən həmişə ehtiyatlıyam, – dedi.

Darasp onun laqeydliyini bəyənmədi, qaşqabaqlı dedi:

– Yaxşı, get, mərasimi qurtarandan sonra söhbət edərik.

Səccam öz yerinə, mehraba qayıtdı. Əsilzadə keçib od gəlinlərinin tonqal ətrafında rəqslərinin seyrinə daldı. Ayin mahnıları oxuyan qızların səsindəki qüdrətdən gözləri yaşardı. Nəqarətin ortasında ucalan zəngulə Ulu Hörmüzdün nəfəsi imiş kimi hər kəsin alqışını qazandı. Oxunan mahnılar Daraspın dərdli könlünə bıçaq kimi işləyirdi. Bu

vaxt uçub gələn quşlardan ikisinin göydə dövrə vurması, mehraba qonması və cikkildəşməsi hamını vəcdə gətirdi. Ziyarətçilər deyirdilər:

– Alqış, Ulu Hörmüzdü ucaldan səsə!

– Alqış, Ulu Hörmüzdün möcüzəsinə!

Darasp mahnıya axıra qədər qulaq asandan sonra artıq işini bitirib gəlmiş, böyründə əmrə müntəzir dayanmış Səccamdan heyranlığını gizlətmədi:

– Belə səsin sahibi ancaq mələk ola bilər!

Səccam qardaş gülümsədi:

– Heç də yox! – dedi. – Bu səsin sahibi bizim Kandüldü. Başına bir batman darı töksən, biri yerə düşməz, hamısı çopurlarında ilişib qalacaq.

– Hər halda belə səsin sahibi ilə tanış olmaq pis olmazdı!

Səccam qardaş onu öz bildiyi kimi başa düşdü:

– Ağa, sənlik deyil! Üzü qarğa yuvasına oxşayır, – dedi, dərhal heyfsiləndi. – Göydə uçan quşları yerə endirən belə ilahi səsi Ulu Hörmüzd, gör, kimə bəxş edib!

Darasp kahinin ikibaşlı sözlərinə etina eləmədi, fikirli halda:

– Mən müqəddəs Şiz şəhərində oxuyanda buna oxşar bir hadisənin şahidi olmuşam. Vəçə adında bir odlar gəlini mahnı oxuyanda quşlar özlərini mehraba çırpırdı. O il vəliəhd Astiaq xəstələnmişdi, məbədlər qurban verməyə hazırlaşırdı, – dedi, amma əhvalatı bitirmədən susdu.

– Sonra nə oldu? – deyə Səccam maraqlandı.

– Sonra həmin od gəlini qurbana bir gün qalmış mehrabdan qaçdı, – deyə Darasp sözünü bitirdi.

Səccam qardaş heyrətləndi:

– Nə danışırsan? Onu axtarıb tapa bildilərmi?

– Dəqiq kim bilir ki! Deyilənə görə, iki gündən sonra həmin odlar gəlini tapılıb, cinayətkar kimi odda yandırılıb, – deyə Darasp gülümsədi, yenə sözünü bitirə bilmədi.

Birdən təbəssümü üzündə donmuş əsilzadə adamları yara-yara mehrablara yaxınlaşdı. Gözlərinə heç cür inana bilmirdi! Üçüncü mehrabda, qızların arasında, od gəlini qiyafəsində dayanan Kijə idi. Buna əmin olandan sonra bir müddət heysiz halda qaldı, qırxıq başından alnına tər sel kimi axdı.

## Şahzadə şahənşahın hüzurunda

Şahzadə Urranın məiyyəti Halis çayının sahilində salınmış hərbi düşərgəyə günorta çatdı. Ordugahın arı pətəyi kimi qaynaşan vaxtıydı. Əsgərlər nahar tədarükündə idilər. Şahzadənin seçmə skif süvari alayı ilə gücləndirilmiş mühafizəsi ordugahın nəzər-diqqətini cəlb elədi. Tamaşaya çıxmış qoşun əhli dəstənin əzəmətinə heyran qalıb fərəhlə şahzadənin mühafizə xidmətini alqışladı. Urran düşərgənin mərkəzindəki alçaq təpənin ətəyində atdan endi. Məiyyətini, mühafizəsini burada əylədi. Bütün səfər müddətində onun kölgəsinə dönmüş möbid Şaum atadan ayrıldı.

– Möbid qardaş, məbəddə olarsan. Lazım olsan, səni çağırarlar, – dedi və cavab gözləmədən təpəni dövrəyə almış nizəli qulamların sıx sıralarını adladı, dərgahın qurulduğu qəlbiliyə piyada qalxdı.

Onlarla çadırın əhatəsində yerləşən şahənşahın möhtəşəm dərgahına yaxınlaşdı. Burada onu naibi-səltənət Bixur qarşıladı:

– Əlahəzrət şahzadə, xoş gəlmisən! – deyə salamladı, dərhal da marağını gizlətmədi. – Bu nə cah-calaldı, əlahəzrət?...

Məlum oldu ki, mühafizə alayını şahzadəyə hökmdar dayısı, çar İşpak qoşub. Naibi-səltənət marağını təmin eləyəndən sonra yolu hər gün gözlənilən müsafiri hörmətlə lazımi ünvana ötürdü.

Şahzadənin gəlişi məclisi canlandırdı. Təlxək Motul cəld geniş çadırı yarı bölən pərdənin arxasına keçdi. Bilirdi ki, şahzadə Urranın hər cür oyunbazdan, təlxəkdən zəhləsi gedir.

Tətür Atxanın anadangəlmə donuq sifətindən təbəssümə oxşar bir qımıltı keçdi. Təzə həddi-buluğa çatmış kiçik şahzadə bir növrəstə qız kimi təravətli və gözəl idi. Davranışında sərbəstlik olsa da, hərəkətləri əndazədən kənara çıxmırdı, ədəb qaydaları çərçivəsində idi.

O, yüyürərək taxta yanaşdı. Şahənşah sevimli oğlunu sonsuz fərəhlə, ehtişamla qarşıladı, taxtdan qalxmadan onun qarşısında əyilmiş başını qucaqladı, sarışın saçlarını sığalladı. Bir anlıq qayğılarını unutdu. Sonra şahzadəyə yanında yer göstərdi, səbirsizliklə soruşdu:

– Hə, söylə görüm, səfərdən necə gəlmisən?

Urran yol yorğunu olsa da, kefi kök idi. Gətirdiyi şad xəbəri yubanmadan atası ilə bölüşdü:

– Atəşgahım, skif qoşunları artıq yoldadır! – dedi, sonra uğurunu gözə soxmaqdan özünü saxlaya bilmədi. – Hökmdar dayım sözümü yerə salmadı, böyük bir süvari qoşun göndərib.

Şahənşahın nigarançılığı keçdi. O, bir neçə il idi ki, Kappadokiya kələfini çözə bilmirdi. Qarşıdurmanın axırı görünmürdü. Aydındı ki, hərbi əməliyyatlara başlayanda

bəzi şeyləri nəzərə almağı unutmuşdu. Bu da yəqin ki, qocalığından irəli gəlirdi. Kappadokiya ölkəsinin müdafiəsinə qalxmış Lidiya dövləti heç demə güclü rəqib imiş, münaqişənin dördüncü ili tamam olurdu, hələ də Midiya imperiyası kimi nəhəngin zərbələrinə sinə gərir, şahənşah Kiaksarın dənizlərə doğru irəliləyişini israrla əngəlləyirdi. Nəhayət, gözlənilən məqam gəldi, Lidiya dövlətinin gücü tükəndi, qışda artıq məğlubiyyət ərəfəsində idi. Bu vaxt qonşu Kilikiya krallığı bitərəfliyi kənara qoydu, öz hərbi qüvvələrini Lidiya kralının sərəncamına göndərdi. Bu, mükəmməl silahlanmış qoşun dəstəsi idi. Təkcə süvarilərinin sayı iyirmi mindən çox idi. Bu azmış kimi, daha bir qonşu, Midiya qoşunlarının onun sərhədlərinə yaxınlaşmasından təşvişə düşmüş Pont hökmranı da cəsarətə gəldi, dara düşmüş Lidiyanın dadına yetişdi, bir tərəfdən qızıl-gümüşlə, o biri tərəfdən canlı hərbi qüvvəylə arxasında dayandı. Vəziyyət kökündən dəyişdi. Qonşularının hərtərəfli yardımından dirçəlmiş düşmən, artıq qarşı tərəfin zərbələrinə cavab həmləsi ilə reaksiya verir, daha sədd-sipər, qala divarlarının arxasında gizlənmirdi, açıq döyüşə can atırdı.

Şahənşah təklənəcəyindən ehtiyatlandı, hərbi əməliyyatları dayandırdı. Artıq düşmənin həmlələrini dəf etməklə kifayətlənir, daha əks hücuma keçmirdi. Bəzi qabaqlayıcı tədbirlər görmüşdü. Nəticə özünü çox gözlətmədi.

İndi köməyin tezliklə yetişəcəyini biləndə şahənşahın üzünün qırışları sığallandı. Qürurla Tətür Atxaya baxdı:

– Tərifə layiq oğul deyilmi? – Soruşdu. – Görürsən, Muğandan necə bir şad xəbərlə qayıdıb!

Əlbəttə, şahənşahın atalıq sevgisi başa düşüləndi. Urranın o biri şahzadələrlə müqayisədə üstünlüyünü danmaq olmazdı. Hər şey göz önündəydi. Qorxulu Muğan səfəri

nəyə desən dəyərdi. Nəhəng Midiya ordusunun hörmətini, əyan-əşrəfin məftunluğunu qazanmaq asan məsələ deyildi. Şahzadə addım-addım hər şeyi əlinə almağa çalışırdı. Hətta, vəliəhd Astiaqın kəşf elədiyi "Atəşgahım!" – deyimi də Urranın dilində daha gözəl səslənirdi.

Şahənşahın müraciətini dəvət kimi qəbul edən baş xəfiyyə tələsmədən sözə başladı. Əvvəl şahzadəni hərarətlə salamladı, sonra atanın övladı haqqında dediyi təriflərə qoşuldu, daha sonra vacib sandığı sualı verdi:

– Çar İşpak vədəxilaf çıxmaz ki?

Şahzadənin üzündən bir kölgə ötdü, amma cavabı sərrast oldu:

– Əlahəzrət Tətür, dayım vədəxilaf hökmdarlardan deyil. Sözünün ağasıdır, – dedi.

Həmsöhbətinin gözəl çöhrəsində baş verən təbəddülat xəfiyyənin gözündən yayınmadı. Bu ona qəribə gəldi, səbəbini aydınlaşdırmağa qət elədi.

Məclisdə iştirak edən Ali Baş Kahin Amitaxah ata dilləndi:

– Əlahəzrət şahzadə, uzun bir yol qət eləmisən, – deyə soruşdu. – Səltənətin övzayını necə gördün? Vilayətlərdə, satraplıqlarda əmin-amanlıqdımı?

Urran sakit, ciddi tərzdə:

– Düşdüyümüz çətinliklər barədə ətraflı danışıb vaxtınızı almaq istəmirəm. Bütövlükdə, hər yerdə əmin-amanlıq, itaət gördüm. Yalnız Urartu ərazisində, Tuşpa[1] şəhərini ötəndə sıxıntımız oldu. Əldən düşmüş atlarımızı yenisilə dəyişmədilər, hətta şahənşahın qızıl lövhələrə həkk olunmuş fərmanına da məhəl qoymadılar. Dedilər, yalnız pad-

---

[1] Urartunun paytaxtı, Türkiyənin Diyarbəkir vilayətində yerləşib.

şahları IV Rusanın əmrinə boyun əyirlər, başqa padşah tanımırlar. Vaxt itirməmək üçün atları satın almalı olduq.

Midiya dövlət əhəmiyyətli səfərlərə göndərilən elçilərin, çaparların işini yüngülləşdirmək üçün onlara padşah fərmanı yazılmış qızıl lövhəciklər verilirdi.

Satrapaq etinasızlıqla:

– Yəqin Urartunun səfeh çarı IV Rusa müharibədəki müvəqqəti uğursuzluğumuzdan dirçəlib! – dedi. – Ulu xaqan izn versəydi...

Şahənşah sərkərdənin sözünü kəsdi:

– Onun axırıncı Rusa olmasına çox qalmayıb. II Aliatla haqq-hesabı çürüdəndən sonra Urartuya bir daha əl gəzdirərik, – dedi, sonra yorğunluqdan gözləri yumulan şahzadəni mürəxxəs elədi. – Get, dincəl, yoldan gəlmisən!

## Kahin Şaumun hesabatı

Elə gəldiyi gün Tətür Atxanın çadırına çağırılmış Şaum atanın hesabatı daha müfəssəl oldu. Söhbət Möbidlər möbidinin iştirakı ilə baş tutdu. Baş xəfiyyə kahini Muğana yola düşən şahzadənin məiyyətinə Amitaxah atanın tövsiyəsi ilə qoşmuşdu.

Tətür Atxa qəlbində baş qaldıran şübhələrin kökünü axtarırdı. Suallarına kahinin verdiyi ətraflı cavablar onu sakitləşdirmədi. Hər dəfə soruşurdu: “Möbid qardaş, nəsə unutmadın ki?”

Sakit təbiətli Şaumat axırda dözmədi, hamisinə müraciətlə:

– Ulu Möbid, əlahəzrətin söylədiklərimə belə inamsız yanaşmağına, görəsən, səbəb nədi? Mən səltənətə sədaqətlə

xidmət edirəm, – dedi, qətiyyətlə əlavə elədi. – Şahzadənin bircə addımı da gözümdən yayınmayıb. Yatandan-yatana onu tərk eləmişəm.

– Deməli, şahzadə yatanda sənin nəzarətindən kənarda qalıb! – Tətür Atxa qondarma laqeydliklə səsini uzatdı. – Gərək onu yataqda da tək qoymayaydın! Sənə demişdim, axı!

Şaum ata müti halda:

– Şahzadənin yatağından Aspaz xanımı çıxarmaq mümkün olsaydı, elə də eləyərdim, – dedi.

Onun mütiliyində yüngül bir kinayə vardı. Kahinin ayazdan-şaxtadan cadar-cadar olmuş mərdanə sifətində təbəssüm gəzirdi, narazılıq görünmürdü. Sorğu-sualın vacibliyini anladığından qətiyyən incimirdi.

Aspaz şahzadənin məşuqəsi idi. Səfərdən dönən kimi geri, Ekbatana göndərilmişdi. Şahənşah hərbi düşərgədə qadınların varlığına dözmürdü. Deyirdi ki, bütün uğursuzluqların baiskarı qadınlardı. Bunu ciddimi, ya zarafatlamı söylədiyini demək çətin idi. Soruşmağa isə kimsə cürət eləmirdi.

Amitaxah ata ağ qaşlarını sığalladı. Kahinin canını Baş xəfiyyənin əlindən qurtarmağa çalışdı:

– Qardaşımız bilməlidir ki, əlahəzrət Tətür vəzifəsini yerinə yetirir! – dedi. – Mənim də sənə bir-iki sualım olacaq.

Bundan sonra Tətür Atxa kahinin yaxasını boşladı, təşəbbüsü Amitaxah ataya verdi:

– Qardaşım, bilmək istəyirəm, Muğandakı atəşgahlar çar İşpak tərəfindən bərpa olunubmu? – deyə soruşdu. – Xanım Aqniyanın xahişi yerinə yetiribmi?

Şaumat rahat nəfəs aldı. O, cavan yaşında yüksək mərtəbəyə qalxmışdı. İndi hər kəlməsinin dəyərini bilən adam kimi tələsmədən dilləndi:

– Ulu Möbid, atəşgahlar bərpa olunmağına bərpa olunub, amma sitayiş eləməyə atəşpərəst qalmayıb.

Möbidlər möbidi dəqiqləşdirməyə çalışdı:

– Demək istəyirsən Muğanda əhali qalmayıb?

Şaumat qısa fasilədən sonra mətləbə keçdi:

– Ulu Möbid, əhalinin bir hissəsi dinindən dönüb, bir qismi vilayətdən qaçıb, bir qismini də skiflər qırıb.

Ali Baş Kahin yenidən ağ qaşlarını sığalladı, sözü başqa səmtə yönəltdi:

– Doğma yerlərə baş çəkdinmi?

Şaumat başını tərpətdi:

– Baş çəkdim, Ulu Möbid, – dedi, gözlənilmədən yanğı ilə əlavə elədi. – Əhali səfalət içində yaşayır, skiflər adamların axırıncı tikəsini əlindən alır, hətta, qulların da vəziyyəti midiyalıların vəziyyətindən yaxşıdır.

Söhbət xoşa gəlməyən istiqamət aldığından Tətür Atxa görüşə xitam verməli oldu. Skif mövzusuna şahənşah sarayında tabu qoyulmuşdu, müzakirəsindən hamı qaçırdı.

## Skif süvariləri köməyə gəlir

Vəd olunan kömək yalnız yazın ortalarında gəlib çıxdı. Skif çarı İspakın göndərdiyi on minlik skif süvarisi çarın köhnə sərkərdəsi Ateyin başçılığı altında özünü yetirdi. Qoşunun gəlişi, meşə kənarındakı hündür təpədə mövqe tutması Lidiya ordusunun düşərgəsində çaxnaşmaya səbəb oldu. Sanki toyuq-cücə çalağan görmüşdü. Bu da təsadüfi

deyildi. Qaf dağlarından tutmuş Misir ehramlarına qədər geniş bir ərazidə skiflərin qorxmaz döyüşçü şöhrəti vardı. Müttəfiqi olduğu tərəf döyüşdən həmişə qalib çıxırdı.

Neçə gündü hücuma hazırlaşan düşmənin sıralarının pozulduğunu, əsgərlərinin tələsik müdafiə sədlərinin arxasına çəkildiyini durbinlə seyr edən şahənşah məmnun qaldı, qulama qiymətli əşyanın üstünü örtməyi əmr elədi. Bu, uzağı yaxın göstərmək kimi heyrətamiz qüdrətə malik aləti Ali Baş Kahin Amitaxah ataya Misir kahinləri bağışlamışdı.

Şahənşah çadıra keçdi. Yürüş vaxtı yaxın əshabələrinin yığışdığı belə toplantılar hərbi şura (məsləhət-məşvərət), sülh vaxtı kiçik şura adlanırdı. Sərkərdə Ateyi hörmətlə taxt-taca yaxın oturtmuşdular. Şahənşah yerini rahlayıb iltifatla soruşdu:

– Qnyaz, bizim hökmdar qardaşımız salamatdımı?

Sərkərdə Atey əlini sinəsinə qoyub dedi:

– Hökmdar qardaşınızın möhtərəm Xaqana salamları var.

Şahənşah maraqlandı:

– Biz sizin gəlişinizi yazın əvvəlində gözləyirdik! Belə ləngiməyinizin səbəbi nədi? – Soruşdu. – Axı, Muğandan qayıtmış şahzadə Urran başqa söz deyirdi.

Sərkərdə Atey tələsik dilləndi:

– Ulu Xaqan, başımız döyüşə qarışmışdı. Əlahəzrət şahzadəni yola salandan sonra qoşun Halis çayı istiqamətində tərpənəcəkdi. Qəfildən xəbər tutduq ki, köçəri tayfaları Dar Keçidə soxulmağa çalışırlar. Qabağında sipər çəkmək üçün bütün ordumuzu həmin əraziyə yeritdik.

Şahənşah təəccübləndi:

– Köçərilərin sayı belə çox idi? – deyə soruşdu. – Ətraflı söhbət elə, görüm.

– Ulu Xaqan, köçərilərin sayı-hesabı yox idi, sanki qarışqa ləşkəriydi. Əvvəlini qırırdın, dalı gəlirdi. Amma müharibə çox çəkmədi, tezliklə onların qoparağını götürdük, Skif düzünə qədər qovub geri qayıtdıq. Yubanmağımızın əsas səbəbi budur, – deyə Atey sözünü bitirdi.

Baş xəfiyyə Tətür Atxa şahənşahın izni ilə soruşdu:

– Hörmətli qnyaz, bəyəm Skif düzündə skiflərdən savayı başqa tayfalar da yaşayır?

Sərkərdə Atey dərgahda hamının çəkindiyi adamın müdaxiləsinə ehtiyatla cavab verdi:

– Əlbəttə, əlahəzrət, Skif düzündə müxtəlif xalqlar yaşayır, hamını skif adlandırsalar da, elə deyil, – dedi, bu məqamda hələb-həlbət öz hökmdarını tərifləməyi unutmadı. – Köçərilərin qabağında dayanan çar İspakdı, yoxsa Midiya torpaqlarını viran qoyacaqdılar.

Ali Baş Kahin Amitaxah ata maraqla soruşdu:

– Hörmətli sərkərdə, Skif düzü ərazicə böyük yerdi?

Sərkərdə Atey hörmətlə:

– Əlahəzrət Baş kahini inandırıram ki, Skif düzünün ucu-bucağı yoxdu, Midiya səltənətindən dəfələrlə böyük, geniş bir ərazidi. Bu başından o başına çatmaq üçün altı ay dincəlmədən at çapmalısan, – dedi.

Şahənşah söhbətə yekun vurdu:

– Bəli, biz inanırıq ki, Dar Keçidin qapıları etibarlı əllərdədi.

– Skiflər Ulu Xaqanın çörəyini havayı yemirlər! – deyə sərkərdə qürurla cavab verdi.

Midiya imperiyasının şimal sərhədlərini skiflər qoruyurdu. Bu, iyirmi səkkiz il bundan qabaq götürülmüş bir öhdəlik idi. Çar İspaka, xidmətinin müqabilində, Midiya

dövlətinin xəzinəsi karlı vəsait ayırırdı. Şimaldan gələn qüvvələrin hesabına güclənən skiflər Muğan düzündə çarlıqlarını qurmuşdular, müstəqil bir ölkə kimi tanınırdılar. Amma çar İşpak Midiyanın bütün hərbi səfərlərində müttəfiq qismində iştirak eləyirdi. Qohumluq əlaqələri də təsirsiz ötüşmürdü. Çarın bacısı Aqniya xanım şahənşahın hərəmlərindən biriydi. Onların birgə izdivacından doğulan şahzadə Urran gözəlliyi, dərrakəsi ilə seçilirdi, hər iki hökmdarın sevimlisi idi.

Şahənşah sərkərdənin qürrəli lafından xoşlanmadı, qaşları dartıldı:

– Yaxşı, qnyaz, – dedi. – Söylə görüm, süvarilərin döyüşə hazırdırmı?

Sərkərdə Atey sualı gözləyirmiş kimi heç fikirləşmədən:

– Ulu Xaqan! Qoşunumuz yol gəlib, atlarımız da, adamlarımız da əldən düşüb. İzin versən, bir-iki gün dincələrdik, yorğunluğumuzu alandan sonra döyüşməyə hazırıq, – dedi, bir az tərəddüdlə xahişini bildirdi: – Ulu xaqan, süvarilərim on beş gündü yoldadır, məvaciblərini istəyirlər.

Midiya dövlətinin sifarişi ilə səfərə çıxan skif döyüşçüsü yola düşdüyü andan şahənşahın xidmətində sayılırdı. Səltənət sahibi etiraz eləmədi, baş xəzinədar Barrinə buyurdu:

– Skiflərə çatacaq aylıq məvacibi iki qat artırarsan. Məbləğin bir hissəsini bu gün verərsən, qalanını döyüşdən sonra ödəyərsən! – dedi.

Şahənşah qnyaz Ateyi Assur müharibəsindən tanıyırdı. Bilirdi ki, o, cəsarətli sərvərdir (başçı), amma özbaşınalığı xoşlayır, ipə-sapa yatan deyil, döyüş vaxtı əmrlərin çərçivəsindən kənara çıxır. Nizami bir ordu yaratmış şa-

hənşah Kiaksar hərc-mərcliyi xoşlamırdı. Ninevaya hücum zamanı Ateyin başıpozuqluğundan qəzəblənib, hətta, onu qulamlara kötəklətdirmişdi.

Baş xəzinədar əlini sinəsinə qoydu, amma narazılığını da gizlətmədi:

– Ulu Xaqan, skiflər ikiqat məvacibdən qudurmazlar ki? – deyə soruşdu.

Şahənşah xəzinədara baxmadan gülümsədi:

– Güman edirəm ki, qudurmazlar! – dedi, sonra sərkərdəyə hökm elədi. – Qnyaz, qoşun hər an döyüşə hazır olmalıdı.

Sərkərdə Atey şahənşahın əliaçıqlığından vəcdə gəldi, həyəcanla dedi:

– Əmr elə, Ulu Xaqan! – dedi. – Skif ordusu elə bu dəqiqə döyüşə atılmağa hazırdı!

Şahənşah xoşhallandı:

– Belə daha yaxşıdı! – dedi, sonra izn verdi. – Başqa sözün yoxdursa, mürəxxəssən!

Sərkərdə Atey dərhal yerindən sıçradı, yumruğunu iki dəfə sinəsinə vurdu, dal-dalı çadırdan çıxdıqda naibi-səltənət Bixur özünü içəri dürtdü. Sevincini gizlətmədən dilləndi:

– Ulu Xaqan, düşmən elçiləri şahənşahın dərgahına düşmək istəyirlər, – dedi, gümanını da gizlətmədi. – Deyəsən, canlarına vicvicə düşüb, barış arzusundadılar.

Gözlənilməz xəbərdən hamı canlandı. Baş xəfiyyə ilə şahənşah baxışdılar. Hesabları düz çıxmışdı.

## Daraspın "od gəlini" sevdası

Kahin Daraspa nə baş verdiyini bilməsə də əl-ayağa düşdü, onu hücrəsinə aparmaq istədi, amma Darasp yerindən tərpənmədi, gözünü mehrablardan ayırmadan mərasimə baxmaq istədiyini bildirdi. Kahin əsilzadənin üz tutduğu səmtə nəzər saldı. Dara üçüncü tonqalın ətrafına dolanan od gəlininə vurğunluqla baxırdı. Səccam ətrafdakılar eşitməsin deyə, astadan dedi:

– "Od gəlinləri"nə belə baxmazlar!

– Bu qız mənim sevgilimdir, – deyə Daranın səsi ney kimi sızıldadı.

– Hətta, sevgilin də olsa, ondan vaz keçməlisən! – Səccam qətiyyətlə pıçıldadı. – Şahənşahın ad günündə "od gəlinləri" Ulu Hörmüzdün adı ilə alovlara qərq olacaqlar.

Dara ondan gözlənilməyən bir kədərlə pıçıldadı:

– Mən sevgimdən vaz keçə bilmərəm!

Səccam qardaş bir də qətiyyətlə səsləndi.

– Bilirsən ki, "od gəlinləri" toxunulmazdır, Ulu Hörmüzdə məxsusdu!

– Bilirəm! Amma bu qızların əksəriyyəti bura öz istəyi ilə gəlməyib, zorla gətiriblər, aldadıb gətiriblər!

Səccam əminliklə:

– Deməli, Ulu Hörmüzdün istəyi belədir! – dedi. – Biz atəşpərəstik, axı!

Dara birdən hiddətlə donquldandı:

– Midiyalılar da atəşpərəstdir! – dedi. – Bu onlara kəndlərimizi talayıb yandırmağa, kişilərimizi qırmağa, qız-gəlinlərimizi zorlamağa, Parsı əsarətdə saxlamağa mane olmur! Budamı Ulu Hörmüzdün istəyidir? Yoxsa Ulu Hörmüzd özü də Əhrimındi?

– Ağa, məbəddə küfr danışmazlar! – deyə Səccam ağlı çaşmış həmsöhbətini sakitləşdirməyə çalışdı.

Darasp bir azca özünü yığışdırdı, istehza ilə sözünün ardını gətirdi:

– Ən böyük küfr sənin baş Möbidinin sayıqlamalarıdı! Yeddi mehrab qurmaq, mehraba yeddi od gəlini qaldırmaq harda görünüb! Mən Şiz şəhərində beş il möbidlik dərsi oxumuşam. Peyğəmbər Zərdüştün on iki min öküz dərisinə yazılmış müqəddəs "Avesta"sını əzbər bilirəm! Orda belə şey yazılmayıb.

Səccam qardaş qaşqabağını tökdü:

– Əlbəttə, bunlar müqəddəs "Avesta"da yazılmağına yazılmayıb, amma mehraba yeddi od gəlini qaldırmaq ənənəsini məbədlərin çoxu qəbul eləyib. Bunu Midiyanın Ali Baş Kahinlər Şurası təsdiqləyib. Yaxşı bilirsən ki, qurbanvermə ayini dinimizin əsaslarından biridi.

Darasp əli ilə mehrabları göstərdi:

– Qurban bir olar, iki olar, daha bir belə yox da! – dedi. – Özün de, heç yeddi gözəli bir gündə oda qalamaq insafdandımı? Nə var, nə var, qoca Zöhhakın xəstəliyi keçsin, o ayağa dursun?

Səccam qardaş:

– Ulu Hörmüzdə hər şeyimiz qurbandı! – Desə də səsi çox zəif və inamsız çıxdı.

Bu Daraspın gözündən qaçmadı, tənə ilə:

– Sənin damarlarında heç bir damla da pars qanı yoxdur! Bəyəm, görmürsən ki, bu gözəllərin əksəriyyəti pars qızlarıdı?! – dedi, sonra ətrafa baxdı, gözlənilmədən qərar qəbul elədi. – Sənin hücrənə gedək.

## Düşmənin barış təklifi

Düşmənin barış təklifi şahənşahı düşündürdü. Məlum oldu ki, Lidiya kralı II Aliatt ixtilaf mənbəyinin, yəni Kappadokiyanın böyük bir hissəsindən Midiyanın nəfinə imtina eləyir, hətta, iki ölkə arasında sərhədin Halis çayı boyunca keçməsinə etirazı yoxdur. Elçilər sözünü bitirəndən sonra naibi-səltənət onları bayıra ötürdü:

– Cavabımızı gözləyin! – Əmr etdi.

Çadıra çökmüş dərin sükutu şahənşah pozdu:

– Lidiya elçilərinə cavabımız nə olacaq? – deyə soruşdu. – Söz şahzadənindi. Görək oğlumuz, barış tərəfdarıdı, ya yürüş.

Artıq hərbi işlərdə az-çox təcrübə toplamış şahzadə Urran qızğınlıqla səsini ucaltdı:

– Atəşgahım ata, mən yürüş tərəfdarıyam, – dedi. – Lidiyanı əzişdirməsək, müharibə bitən deyil. Bir də, Midiya səltənəti təkcə Kappadokiya ilə kifayətlənə bilməz, axı! Atlarımızı Amşan dənizində[1] çimizdirənə qədər irəliləməli, səltənəti dənizdən dənizə genişləndirməliyik.

İyirmi yaşlı şahzadədən başqa söz gözləməyən şahənşah təcrübəli Tətür Atxaya tərəf döndü:

– Qardaşım, sən də yürüş tərəfdarısan? – deyə söz atdı.

Hökmdarın ən gizli arzularından xəbərdar olan Baş xəfiyyə fikrini bir az əhatəli söyləmək üçün uzaqdan başladı:

– Ulu Xaqan, bilirsən ki, Lidiya kralının kifayət qədər qüvvəsi var. Casuslarımızın dediyinə görə, II Aliattın xəlvətcə topladığı böyük bir qoşun artıq yoldadı, bu gün-

[1] Qara dənizin qədim adlarından biri.

sabah Halis çayının sahillərinə çatacaq. Bəlkə elçiləri göndərməklə başımızı qatır, vaxt udmaq istəyir?

Şahənşah ani fikirdən sonra yerində səbirsizliklə qurcuxan naibi-ləşkər Satrapaqa lağ elədi:

– Sənin rəyini soruşmağa ehtiyac görmürəm! Əlbəttə, naibi-ləşkər barış tərəfdarı ola bilməz! – deyə əlini qaldırdı, hamı səsini içinə çəkəndən sonra üzünü Möbidlər möbidi Amitaxah ataya tutdu. – Atamız, sənin məsləhətin nədir?

Amitaxahın yaşı yetmişi haqlasa da, hələ canı sulu idi. Midiya ordusunun bütün yürüşlərində şahənşahın yanında olur, narahat hərbi həyatın çətinliklərinə mərdliklə dözür, altmış yaşlı cahangirdən daha qıvraq görünürdü. Sözə başlamazdan əvvəl Zərdüşt kahinləri arasında vacib sayılan bir mərasimi yerinə yetirdi. Qolsuz xirqəsinin belinə bağladığı kuştini[1] çıxartdı, dizi üstə qoyub sığalladı, sonra üç dəfə belinə doladı, uclarına xaçvari dörd düyün vurdu. Yalnız bundan sonra sözə başladı:

– Ulu Xaqan, desəm ki, əsgərlərimiz müharibədən yorulub, ölənimiz-yaralımız çoxdu, deyəcəksən, bilirəm. Desəm ki, qara camaat narazıdır, məbədlərə ianə verənlər azalıb, yenə deyəcəksən, xəbərim var. Desəm ki, biz artıq təklənirik, deyəcəksən, başa düşürəm. Əlbəttə, Ulu Xaqan hər şeyi biləndi, bizim məsləhətimizə ehtiyacı yoxdu! Ulu Hörmüzd Ulu Xaqana yar olsun, öz məsləhətləri daha möhtəşəmdi!

Amitaxah ata dolayı yolla istəyini deyəndən sonra çadıra sakitlik çökdü. Şahənşah naibi-ləşkər Satrapaqla təzədən zarafat elədi:

– Görürsən, müqəddəs atamız tora düşmüş şikarı açıb buraxmaq istəyir, – dedi, təkrar Tətür Atxaya müraciət elədi. – Deyirsən, barış təklifi düşmənin hiyləsidir?

---

[1] "Avesta"nın yazıldığı dildə kəmərə deyilir.

Baş xəfiyyə inamsız halda bildirəndə ki, gümanım belədi, şahənşah şübhə ilə:

– Bəlkə bu uğursuz müharibədən II Aliatt da cana gəlib? – deyə soruşdu. – Buna nə deyirsiniz?

Məşəllərin işığında keçən müzakirə gecə yarısına qədər uzandı. Yeni-yeni fikirlər ortaya çıxırdı. Xeyli götür-qoydan sonra savaş qərarı verildi. Naibi-səltənət tələsik soruşdu:

– Ulu Xaqan, qonşu çadırda cavab gözləyən elçilərə nə deyək?

Şahənşah bir az düşünəndən sonra:

– Qoy, onları yaxşıca yedirib-içirtsinlər! Döyüşdən qabaq sağ-salamat ötürsünlər! – dedi.

## Döyüşə hazırlıq

Naibi-ləşkər şad-xürrəm ayağa sıçradı. Yürüş zamanı dərgahda diz çökmürdülər. Şahənşahın qoyduğu qayda belə idi. Satrapaq bütün ömrünü müharibələrdə keçirtdiyindən davasız keçən günlərini ömürdən saymırdı. O, gümüş qolçaq taxılmış sağ qolunu zirehli sinəsinə bir neçə dəfə vurmaqla şahənşahın savaş qərarını alqışladı. Metal cingiltisi çadırı başına götürdü.

Satrapaq dedi:

– Ulu Xaqan, sərkərdələr çadırın önündə düzülüblər. Çağırımmı?

Hücumdan qabaq naibi-ləşkər sərkərdələri bir-bir içəri dəvət edir, şahənşahın hüzurunda onların vəzifələrini sadalayırdı. Şahənşah mülayimliklə:

– Tələsmə, hələ gecədir, sabaha çox var! – dedi, sonra zarafat elədi. – Bundan sonra bir az asta tərpənərsən. Metal

cingiltisini düşmən eşidər, sinc səsi bilər, qorxudan qoyub qaçar, müharibə eləməyə adam tapmarıq. Keç, otur.

Azman Satrapaq özünü itirdi, dəbilqəsini çıxarıb içəridəkilərin təbəssümü altında yenidən yerinə keçdi. Bundan sonra çadıra sükut çökdü.

– Naibi-ləşkər, söylə görüm, bu dəfə Midiya süvarilərini düşmənin üstünə kim aparacaq? – deyə cahangir sükutu pozdu.

Şahənşah Kiaksar görüb-götürməyi sevirdi. Skif qılıncının, kamanının, qısa nizələrinin döyüşlərdə üstünlüyünü görəndən sonra Midiya süvarilərini skifsayağı silahlandırmışdı.

– Bəndəniz, Ulu Xaqan!

Şahənşah bir az düşünəndən sonra qərar qəbul elədi:

– Bu gündən Midiya süvarilərinə sərkərdə Harpaq başçılıq edəcək! – dedi. – Sabahkı döyüşdə isə sağ cinahdan hücuma keçəcək.

Harpaq Satrapaqın oğlu idi. Cavan yaşında cahangirin rəğbətini qazanmışdı. Ehtiyat qoşunun sərkərdəsiydi. Keçən vuruşmalardan gözü qorxmuş cahangir Harpaqın süvarilərdən ibarət qoşununu gücləndirmişdi. Onun tabeliyinə əlavə oxatan, sapandçı alaylar vermişdi.

Satrapaq soruşdu:

– Ulu Xaqan, ehtiyat qüvvələrimizi bəs kimə tapşıraq?

– Ehtiyat qüvvələrimizi minbaşı Kittana həvalə edərsən! – dedi. – İgid oğlandı! Görək, sərkərdəliyi necə olacaq.

Keçən vuruşmaların birində Kittanın süvari alayı düşmənin çoxsaylı süvarisini qaçmağa məcbur eləmişdi. Şahənşah məlum hadisəni nəzərdə tuturdu.

– Kittan hələ lap cavandı, Ulu Xaqan!

– Artıq cavanlara yol açmaq vaxtıdı! Əbədi naibi-ləşkər olmayacaqsan ki! – deyə şahənşah qımışdı, dərhal şahzadə Urrana tərəf döndü. – Skif düşərgəsinə çaparsan, elə orda da qalarsan! Qnyaza deyərsən ki, sübh tezdən hücuma keçirik, işarə verilən kimi, qoy, sol cinahdan düşmənin üstünə yerisin! – dedi.

Şahzadə şikayətləndi:

–Atəşgahım ata, izin ver yanında qalım, skif düşərgəsində at sidiyinin qoxusundan ürəyim bulanır, – dedi.

Şahənşah istehza ilə:

– Birtəhər dözərsən! – dedi. – At iyi verdiklərinə görə skifləri qohumluqdan çıxara bilmərik ki!

Şahzadə inadla:

– Mən atamın yanında olmaq istəyirəm, – dedi!

Şahənşah övlad sevgisindən təsirləndi, amma mehribanlıqla etiraz elədi:

– Əziz oğlum, sərkərdə Atey təcrübəli də olsa, hələm-qələm adamdı, gözün üstündə olsa yaxşıdı, – dedi, amma sözünü bitirə bilmədi, üzü birdən-birə dəyişdi. – Mənsiz davam edin!

O, ağır-ağır taxtdan düşdükdə saray loğmanı ilə köməkçisi özünü çatdırdı, şahənşahın qoluna girib bitişik kiçik çadıra apardılar. Amitaxah ata da əsasına dirənərək onların dalınca getdi.

Axır vaxtlar hökmdar canından şikayətlənirdi. Hərdən ağrılardan nəfəsi tıncıxır, bayılıb lapdan huşunu itirirdi. Həmişə yanında olan saray loğmanı qəribə bir müalicə üsulu icad eləmişdi. Şahənşahın ağrıyan yerinə bəng otlarının tüstüsünü verirdi. Amitaxah atanın nəzarəti altında baş tutan belə bir müalicədən sonra şahənşah özünə gəlir, ağrıları müvəqqəti səngiyirdi.

## Döyüş başlayır

Böyük İdin 69-cu günü, daha dəqiq desək, may ayının 29-da, bir az da dəqiq desək, Möbidlər səyyar atəşgahda sübh ibadətini bitirəndə nəhəng Midiya ordusu şahənşah Kiaksarın əmri ilə yuxudan oyandı. Hava soyuq idi, ayaz adamın iliyinə işləyirdi.

Şahənşahın ağrıları loğmanların dava-dərmanından sonra toxtamışdı. Hücumun vaxtını dəyişmədi.

– Bu uğursuz müharibə məni bezdirib, onu bitirmək lazımdı, – dedi və çadırdan çıxdı.

Halis çayının sahillərini, yaşıl yamacları, çəmənləri, ormanları xəfif duman bürümüşdü. Şahənşahın ardınca çıxan yaxın əshabələri dərgah çadırlarının qurulduğu yüksəklikdən ala-toranlıqda sakitcə tərpəşən orduya qürurla baxırdılar. Bilirdilər ki, hücum başlanana qədər bircə döyüşçünün də cınqırı çıxmayacaq. Təcrübəli sərkərdələr həmişə düşməni bir addım qabaqlamağa çalışırlar. Qəflətən haqlanmış rəqibə döyüşün qaydalarını sırımaq daha asan olur. Əlbəttə, şahənşah Kiaksar belə sadə kələklə böyük üstünlük qazanacağına inanmırdı. Odur ki, qarşı tərəfin də sübh tezdən yuxudan qalxdığını görəndə məxfiliyin mənasızlığını anladı:

– Naibi-ləşkər, qoy, döyüş sincləri çalınsın, – dedi.

İki ordunu bir-birindən ayıran Halis çayının yatağı iki ox mənzili[1] enində idi. Yaz vaxtı olsa da, çayda su heç topuğa çatmırdı.

Hamı qayğılı idi, arada təşəxxüslə gəzən təlxəyə fikir verən yox idi. Tətür Atxa onu yanına çağırdı. Motul zirehli geyimdə idi. Əsləhə ustasının qayırdığı xırda dəbilqə

[1] Orta ox mənzili 250-300 metr arasında olurdu.

ona çox yaraşır, yumruq boyda başında parıldayırdı. Baş xəfiyyə məzələnməkdən özünü saxlaya bilmədi:

– Lap hazır naibi-ləşkərsən ki, cənab Motul! Gərək bundan sonra, təlxəkliyi boşlayasan, – dedi.

– Əlahəzrətin əmrinə müntəzirəm! – deyə təlxək əlini sinəsinə vurub hərbi salam verdi.

İşin özəlliyi onda idi ki, vacib bildiyi adamların heç birini diqqətdən kənarda saxlamayan Tətür Atxanın vəliəhdin xidmətinə verdiyi tək-tük xəfiyyələrdən biri olan Motul neçə ildi şübhə oyatmadan vəzifəsini yerinə yetirirdi. Adətən şəkkak Astiaq xidmətçilərini özü seçirdi, hər adamı bəyənmirdi. İllər keçdikcə Motul onun sevimlisinə çevrilmişdi. Amma vəliəhdin təlxəyi birdən-birə özündən uzaqlaşdırması çox şeydən xəbər verirdi.

Təlxək ciyiltili səslə:

– Əlahəzrət, məni birəlli tutursan ha! Vaxtında mənə naibi-ləşkərlik dərsi keçsəydin, indi görərdin hünərimi! – dedi.

Tətür Atxa istehza ilə:

– Hələ gec deyil, istəsən, sənə indi də dərs keçə bilərəm! Söyləyimmi, hücum necə başlanacaq? – Soruşdu, cavab gözləmədən davam elədi. – Cənab Motul, bilməlisən ki, bir azdan beş cərgə düzülmüş ağır Midiya piyadası çayın sahilində mövqe tutacaq.

– Ola bilməz, əlahəzrət! Mənə elə gəlir ki, Satrapaq oxatanları qabağa buraxacaq.

Tətür Atxa əlini hələ dumanı tam sovulmamış çay yatağına tərəf uzatdı. Motul gördü ki, doğrudan da, uzun nizələrlə, əyri qılınclarla silahlanmış qırx min zirehli əsgər ağır addımlarla çayın sahilinə enir. Onların ayağının zərbindən yer titrəyirdi. Üzünə metal lövhə çəkilmiş qalxanlarını baş-

larının bərabərinə qaldırıb düşmənin oxlarından qoruna-qoruna irəli şığıyırdılar.

– Oxatanlar ağır piyadaların arxasında mövqe tutacaqlar, – deyə Tətür Atxa həvəslə davam elədi. – Onlar döyüş vaxtı piyadaların qalxanları arxasında gizlənirlər! Başqa cür olmaz, oxatana zirehli paltar geyindirmək mümkün deyil, axı! Dizi üstə oturub oxu yayda hazır saxlayır, yalnız kirşanı dartıb-buraxanda ayağa qalxırlar. Bu, oxdanlar boşalana qədər davam edir. Bir azdan bunun şahidi olacaqsan...

– Sonra, əlahəzrət? – deyə Motul maraqdan az qala Baş xəfiyyənin ağzına girsin.

Tətür Atxa gözünü sahildən ayırmadan:

– Sonrası budur ki, bir azdan balta və qılıncla silahlanmış, qalxan taxılı qolunu sinəsinə sıxmış yüngül piyadalar çayın sahilində mövqe tutacaqlar. Lap axırda daş yığılmış səbətləri sürüyən sapandçılar gələcəklər.

– Əlahəzrət, bəs, bizim süvarilər harda qaldı? – deyə çoxbilmiş Motul biliciliklə soruşdu.

– Cənab təlxək, bütün hallarda, döyüşün taleyini süvarilər həll elədiyindən onları lap axırda döyüşə göndərirlər, – dedi, sonra ona buyurdu. – İndi isə, get! Buralarda əl-ayağa dolaşma.

Hava artıq işıqlanmışdı, duman aradan çıxmışdı. Doğmaqda olan Günəşin ılıq şüaları qarşıdan gələn günün isti və günəşli keçəcəyinə şəhadət verirdi.

Şahənşah gözünü durbindən ayırıb qənaətinin səhihliyini yoxlamaq üçün Tətür Atxanı yaxına çağırdı:

– Baxmağın məsləhətdi... – dedi.

Baş xəfiyyənin durbinə baxmağı çox çəkmədi.

– Bəli, Ulu Xaqan, düşmən müdafiəyə çəkilmək fikrində deyil, əksinə, hücuma hazırlaşır.

Şahənşah səbirsizliklə:

– Düşmən qoşunlarının mərkəzdəki seyrək düzülüşünə nə deyirsən? – dedi. – Necə nəticə çıxarırsan?

– Ulu Xaqan, casuslarımızın məxfi məlumatlarına inansaq, Lidiyanın atlı qoşunu bizimkindən iki dəfə çoxdu. Düzdü, onların süvarisi bizimkinə çatmaz, amma sayca üstünlükdən istifadə eləyə bilərlər. Çox güman ki, piyada sıralarının seyrək yerindən süvarilərə dəhliz açacaqlar.

Şahənşah onu təriflədi:

– Afərin, düz tapmısan! Səndən yaxşı sərkərdə çıxardı, – dedi, bir az aralı dayanmış Satrapaqa buyurdu. – Naibiləşkər, süvarilərimizi dərhal döyüş mövqeyinə çıxararsan.

Satrapaq bir az təəccüblə:

– Ulu Xaqan, süvariləri döyüşə göndərmək tez deyilmi?

Şahənşahın səbri tükəndi:

– Yubanma, düşməni qabaqlamaq lazımdı. Onların fikri-zikri döyüşü süvarilərlə başlamaqdı.

Əmri xırdalamağa ehtiyac qalmadı. Satrapaq dərhal üç çapar çağırdı, birini Harpaqın, o birini sərkərdə Ateyin düşərgəsinə yolladı. Üçüncü çapar piyadalara tərəf çapdıqda, şahənşah nə fikirləşdisə, əmr elədi:

– Ehtiyat qüvvələrimizi sol cinaha yaxın çəkərsən.

Satrapaq əmrdən belə bir nəticə çıxartdı ki, skiflərə çox etibar eləmək olmaz. Deyiləni yerinə yetirməyə tələsdikdə şahənşah əllərini bir-birinə sürtdü.

– Gözləyək, görək, düşmənin sonrakı tədbiri nə olacaq.

Tətür Atxa anlamağa çalışdı:

– Ulu Xaqan, yəni II Aliatt müharibənin yeni üsulunu icad eləmək fikrindədi? Birinci zərbəni süvarilərlə endirmək istəyir?

Ömrünün qırx ilini müharibələrdə keçirmiş şahənşah gülümsədi:

– Qardaşım, bu üsul heç də yeni deyil, bu unudulmuş Assur üsuludur. Amma II Aliatt unudur ki, bədbəxt III Aşşur elə bu üsulun qurbanı oldu, – dedi, sonra naibi-səltənətdən soruşdu. – Amitaxah ata qayıtmadımı?

## Sevgidən vacib Vətəndir

Onlar adamların arasından keçib Səccamın hücrəsinə girdilər. Qonaq təklif-filan gözləmədənləmədən bardağı götürdü, gil dolçanı şərabla doldurdu, yanğı ilə başına çəkdi. Dodaqlarını marçıldadaraq keçib oturdu:

– İndi de görüm, Skif qızının qulluqçusu Aspazdan nə xəbər var?

Səccam bilirdi ki, Darasp "skif qızı" deyəndə şahənşah Kiaksarın arvadı Aqniyanı nəzərdə tutur:

– Bir ildi məbəddə görünmür! Tətür Atxanın toruna düşməsə yaxşıdı, – deyə kahin dilləndi.

– Bəs, indiyə qədər qızın taleyi ilə niyə maraqlanmayıbsan?

– Tətür Atxanın qorxusundan saraya yaxın getmək olur ki? – deyə Səccam özünə bəraət axtardı. – Onun casusları bizim məbədə də ayaq açıblar, hərdən buralarda şübhəli şəxslər görürəm.

Darasp onun haqlı olduğunu anlayaraq qırxıq başını sığalladı:

– Bəs, neynəyək? – deyə narahatlıqla soruşdu. – Aspaz bizə vacib lazımdı.

– Aspaz zirək qızdı! Ona heç nə olmaz, – deyə Səccam əminliklə dilləndi. – Olsun ki, oğluna yas saxlayan skif qızı qulluqçularını heç yerə buraxmır.

Pars əsilzadəsi xeyli düşünəndən sonra soruşdu:

– Oğurlanmış şahzadədən hələ də xəbər-ətər yoxdu?

– Yox, heç bir məlumat yoxdu! – deyə Səccam dilləndi. – Skiflər onu, yəqin ki, öldürüblər.

Başını bulayan, güman ki, nəsə bilən, bildiyini gizlədən ağasına çaşqınlıqla baxdı, sonrakı göstərişlərini gözlədi. Darasp uzaqdan başladı:

– Qardaş, Zöhhak axır günlərini yaşayır, tonqala atılacaq od gəlinlərinin ah-naləsi onu tutsun, kəlləsini yerə qoyan kimi Midiyaya çaxnaşma düşəcək. Astiaq zəifdi, belə böyük ölkəni çətin idarə eləsin. Bu dəfə üsyanımız baş tutmalıdı.

– Altı il bundan qabaq da belə deyirdilər! Gördün, üsyandan sonra Parsın başına nə oyun açdılar? – deyə Səccamın üzü ağardı. – Mənə elə gəlir ki, hər şeyi zamanın ixtiyarına buraxmaq lazımdı. Hər şeyə qadir Ulu Hörmüzd bizi qorusun, ölüm-itimdən yaman qorxuram.

Darasp onu sakitləşdirdi:

– Qorxma, bu dəfə biz tək deyilik! Skif çarı İşpak bir yandan, Urartu o biri yandan, biz də cənubdan tərpənsək, Midiya tar-mar olacaq. Bundan sonra sarayı gözdən qoyma. – Lap axırda soruşdu. – Aspazla əlaqə yarada bilərsən?

Səccam bir az fikirləşib:

– Cəhd eləmək mümkündü! Bir adam var, “Qızıl məbəd”ə kömür daşıyan cavan möbidyarı deyirəm, yaxın qohumumdu. Onun vasitəsi ilə, görüm, neynirəm, – dedi, sonra tərəddüdünün səbəbini izah elədi. – Sadəcə, qohu-

mum ağıldan bir az kəmdi. Hər sözü ona deməyə qorxuram!... Görüm, onu bu işə qoşmaq olarmı?

Şah saraylarının əhatəsində olan "Qızıl məbəd"də odun yandırmırdılar ki, hisi-pası saray əmələsini narahat eləyər. Atəşgahdakı tonqallar kömürlə qalanır, alovlandıranda körüklə yelpikləyirdilər.

Darasp tapşırdı:

– Yaxşı fikirdi, amma özünü qoru! Sən bizə lazımsan! – dedi.

Səccam qardaş söz verdi:

– Qoruyaram! – dedi, daha sonra hiylə dolu bir səslə soruşdu. – Yəqin ki, bundan sonra səni "Bəyaz məbəddə" tez-tez görəcəyəm!

– Bəli, səhv eləmirsən! – deyə Darasp qımışdı. – Görək, qohumluğumuz alınacaqmı?

## Ali Baş Kahin Amitaxah

Günəş təpələrin dalından boylananda Amitaxah ata sübh ibadətindən döndü. Şahənşah onu qayğılı qarşıladı:

– Hə, müqəddəs ata, yaralı çadırları hazırdımı? – deyə soruşdu.

Səyyar atəşgahın həndəvərində salınmış yaralı çadırları baş Möbidin ixtiyarında idi. Kahinlər müharibədə yaralanmış döyüşçüləri döyüş meydanından çıxarıb bura gətirir, yaralarına məlhəm qoyur, müalicə olunmalıya dava-dərmanla yardım edir, həlak olanları ölüm komasına keçirirdilər.

– Bəli, Ulu Xaqan, tapşırığını özüm yoxlamışam, – deyə Baş kahin dilləndi. – Şaum ata dediklərimi dəqiqliklə yerinə yetirib.

Şahənşah başını tərpətdi:

– Çox razıyam, müqəddəs ata! – dedi, sonra canıyanıqlıqla onu qınadı. – Özün nahaq gedirdin, gərək ora köməkçilərini yollayaydın. Bilirsən ki, səyyar məbəd açıqlıqdadı, sənə xətər toxuna bilərdi.

Amitaxah ata bir Möbid itaəti ilə təzim etdi:

– Düz buyurursan, Ulu Xaqan, amma ölüm də olsa, ibadətimi ötürə bilmərəm!

Şahənşah onu cırnatmaq həvəsinə düşdü, zarafatla Tətür Atxadan soruşdu:

– Görəsən, müqəddəs ata çadırda atəşdan[1] qarşısında ibadət eləsə, hər şeyə qadir Ulu Hörmüzd onun dualarını eşitməyəcək?

Amitaxah ata Baş xəfiyyəni həlim səslə qabaqladı:

– Atəşgah olan yerdə atəşdana sitayiş eləməzlər, Ulu Xaqan! – deyə gülümsədi, amma şahənşahın söylədiyi küfrü də qulaq ardına vurmadı, üstüörtülü cavab verdi. – Ulu Hörmüzd cəmi günahlarınızı bağışlasın, Ulu Xaqan!

Tətür Atxa incik danışan Möbidlər möbidinin könlünü almaqda şahənşaha yardımçı oldu:

– Müqəddəs atanın duaları, Ulu Xaqanın qılıncı səltənətin dayağıdır.

Amitaxah ata minnətdarlıqla nəsə deyəcəkdi, şahənşah onu qabaqladı, bu gün ikinci dəfə Tətür Atxanı təriflədi:

– Afərin! Səndən yaxşı Baş Möbid çıxardı, – dedi, sonra dərgah çadırına yaxınlaşan Satrapaqdan intizarla soruşdu. – Hə, çaparlardan nə xəbər var?

---

[1] Kahinlər müqəddəs odu atəşdanda özləri ilə gəzdirərdilər.

## Skif sərkərdəsinin xəyanəti

Çox çəkmədi ki, onların intizarına son qoyuldu. Harpaqın düşərgəsinə gedən çapar təzəcə qayıtmışdı ki, Midiya süvariləri sağ cinahdakı düzənlikdə göründülər. Şahənşah məmnun halda:

– Harpaqın cəldliyinə söz ola bilməz! – dedi, sonra Satrapaqdan soruşdu. – Yaxşı, bəs, skiflər harda qaldılar?

Naibi-ləşkər əlini alnına qoyub baxdı, skif düşərgəsinə göndərdiyi çaparın təpənin ətəyində atdan endiyini görcək dilləndi:

– İndi bilərik, Ulu Xaqan! – dedi, təpəni qaça-qaça qalxan çaparın qabağına tələsdi.

Çapar günahkar adamlar kimi ağasının qabağında diz çökdü, nə dedisə, Satrapaq özündən çıxdı:

– Necə yəni, skifləri tapa bilmədim? On min atlı samanlıqda iynə deyil ki, tapa bilməyəsən!

Birdən ağlına nə gəldisə, susdu, quruyub qaldı. Söylənənləri eşidən şahənşah ağır addımlarla onlara yanaşdı. Artıq xəyanət baş verdiyini anlamışdı. Çapar qarşısında kimin dayandığını görmürdü, başını qaldırmadan düdüləyib tökürdü:

– Mənim ağam, sərkərdə Ateyin düşərgəsi boş idi. İns-cins gözə dəymirdi. Ocaq yerləri soyuq idi, külü nəm çəkmişdi. At ləpirləri skiflərin cənuba getdiyini deyirdi.

Çapar bəd xəbər gətirmişdi, cəzalanacağını bilirdi. Canını qurtarmaq ümidi ilə eyni sözləri dönə-dönə təkrarlayırdı.

Şahənşah boğuq səslə:

– Bəs, şahzadə?! – deyə soruşdu, birdən müvazinətini itirib səntirlədi.

Tətür Atxa qabağa atıldı, onun qolundan tutdu:

– Ulu Xaqan, çadıra keç, dincəl, bu işlərlə özüm məşğul olaram...

Cahangirin canı, qanı, fikri-düşüncəsi qovğalarda tavlanmışdı. Hər çətinlik onu yıxa bilməzdi. Sakitcə soruşdu:

– Sən mənə burada lazımsan! – dedi, naibi-səltənət Bixura əmr elədi. – Özünlə iki alay silahlı qulam götür, aydınlaşdır, gör, skiflər hardadır? Şahzadə niyə qeybə çəkilib?

Naibi-səltənət yüyürə-yüyürə silahlı qulamlara doğru getdi, şahənşah Satrapaqa buyurdu:

– Qoy, ehtiyat qüvvələrimiz sol cinahda mövqe tutsun.

– Oldu, Ulu Xaqan! – deyə Satrapaq əlini sinəsinə vurdu, amma şübhəsini də gizlətmədi. – Kittanın on min süvarisi sol cinahı saxlaya bilməyəcək. Həmin istiqamətdən düşmənin iyirmi min süvarisinin hücumu gözlənilir.

Şahənşah qoca sərkərdəni acıladı:

– Səfehsən! Düşmən Kittanın süvarilərini sayana qədər iş işdən keçəcək! – dedi. – Haydı, irəli!

Belə asan hesabı unutmuş Satrapaq özünü itirdi, tərəddüdlə uzaqlaşdı.

## Günəş tutulması

Bəla gələndə tək gəlmir, deyirlər. Bir yandan skiflərin xəyanəti, bir yandan şahzadənin müəmmalı taleyi şahənşahı düşündürərkən naibi-ləşkərin "vay" xəbəri gəldi. Döyüşqabağı qoşunların mövqelərini yoxlayan Satrapaq boğazına dəymiş çovutma oxdan həlak olmuşdu.

Bu vaxt Harpaqın iyirmi minlik süvarisi cəbhənin sağ cinahında, Kittanın ehtiyat qüvvələri sol cinahında mövqe

tutdular. Bunu görən şahənşah uğursuzluqları unutdu, qətiyyətlə Tətür Atxaya:

– İndi II Aliatt görər savaş nədir! – dedi.

Midiya süvarilərinin belə tez peyda olmasını gözləməyən düşmən çaş-baş oldu. Təbillər çalındı. Çayın yatağına enməyə hazırlaşan Lidiya süvariləri geri çəkildilər. Yenə təbillər çalındı, düşmənin piyada sıraları yerindən tərpəndi, suya girdi.

Midiya tərəfdə də sinc səsləri eşidildi. Hər iki qoşun addım-addım ox məsafəsinə yaxınlaşırdı.

Çeşt yerinə ucalmış Günəş sürtülmüş mis tabaq kimi parıldayırdı. Göylərin bir təlatüm qarşısında olduğu göz önündəydi. Bir-birinin qanına susamış düşmənlər bir azdan ölüm-dirim savaşına atılacaqdılar.

Yavaş-yavaş qaralan Günəş qəflətən tamam tutuldu, cəng meydanına toranlıq düşdü. Könül açan yaşıl meşələr, məxmər çəmənlər yaraşığını itirdi, toranlıqda dərələr dağlara qarışdı.

Döyüşçüləri hücuma aparan təbillərin, sinclərin səsi gəlsə də hər iki ordu əmr gözləmədən dayandı, sonra vahimə içində gerilədi, daha sonra qaçhaqaç düşdü.

Günəş tutulması, hətta, Amitaxah ata kimi dünya görmüş adamı da təşvişə saldı. O, diz çökdü, əllərini göyə qaldırıb dualar oxudu. Sonra başını qaldırıb şahənşaha yalvardı:

– Ulu Xaqan, Ulu Hörmüzd eşqinə döyüşü dayandır. Uğurumuz bəd gətirir.

Tətür Atxa da toranlıqda vurnuxur, şahənşahı dilə tutur, baş verəcək bəzi nəsnələrdən xəbərdar edirdi:

– Ulu Xaqan, məqamdı! – dedi: – Əgər skiflərin xəyanəti üzə çıxsa, halımız yaman olacaq. Lidiya qoşunları müdafiəmizi yaracaq.

Şahənşahın kədərli səsi cingildədi:

– Biz hücumu heç cür dayandıra bilmərik! Düşmən zəifliyimizi anlayacaq! Xilasımız hücumdadı!

Tətür Atxa gözünü durbinə dirədi, bərkdən dedi:

– Ulu Xaqan, düşmən geri qaçır, sədlərin arxasına çəkilir.

Bundan sonra şahənşah daha inad eləmədi. Bir azdan sinc səsləri altında Midiya ordusu köhnə mövqelərinə qayıtdı.

Salnaməçilər deyir ki, hökmdarlar Günəşin tutulmasını pis əlamət saydığından, döyüşü dayandırdılar. Lidiya tərəfdə "barış" təbilləri çalındı, Midiya tərəfdə də "barış" sincləri səsləndi. Hökmdarlar təkcə barışla kifayətlənmədilər, qohumluq əlaqələrinin bünövrəsini də qoydular. Lidiya çarı II Aliatt qızı şahzadə Ariyenisi şahənşah Kiaksarın oğlu şahzadə Astiaqa ərə verdi. Bununla da iki səltənət arasında düşmənçiliyə son qoyuldu.

## Elçi Aqar şahənşahın hüzurunda

Qırx gün, qırx gecə uzanan toy mərasimi bitər-bitməz xəyanət yolunu tutmuş skif qoşunlarının və şahzadə Urranın dalınca göndərilmiş qulam alayları naibi-səltənətin başçılığı altında Halis çayının sahillərinə əliboş qayıtdı. Təcrübəli saray məmuru xəcalətdən başını yuxarı qaldırmadan dilləndi:

– Ulu Xaqan, nə skiflərə, nə şahzadəyə heç yerdə rast gəlmədik. Soraqlaya-soraqlaya Babil hüdudlarına, ordan da Kilikiya sərhədlərinə qədər gedib çıxdıq. "Gördüm deyən" olmadı.

– Nədi, o boyda qoşun yerə batdı, ya göyə çəkildi? Birdən şahənşah hiddətlə soruşdu. – Cəllad!

Naibi-səltənət Bixurun ürəyi düşdü, qorxudan dişləri bir-birinə dəyə-dəyə:

– Günahkar qulunu bağışla, Ulu Xaqan! – deyə imdad dilədi, sonra qəzəbdən üzü qaralmış, dodaqları titrəyən şahənşahın ayağına düşdü.

Naibi-səltənət ölümün bircə addımlığında dayandığını anlayırdı. Tətür Atxa onun qanının arasına girdi. Çadıra tərəf qaçan cəlladı qabaqladı, içəri atıldı:

– Elçi Aqar dərgaha düşmək istəyir, Ulu Xaqan, – dedi.

Fikri yayınmış şahənşahın qəzəbi asta-asta soyudu:

– Qoy, gəlsin! – dedi, qapıda dayanmış cəlladı əlinin işarəsi ilə buraxdı, naibi-səltənətə mərhəmətlə, – bəsdi əsdin, keç otur.

Elçi Aqar çar İspakın Midiya paytaxtında daimi nümayəndəsi idi. Sərkərdə Ateyin xəyanətindən xəbər tutan kimi Muğana yollanmış, ordan Halis çayının sahillərinə gəlmişdi. Şahənşah qarşısında diz çökmüş elçi Aqara baxdı, təəccübünü gizlətmədən:

– Qnyaz, qalx, sən mənim təbəəm deyilsən! – dedi. – Elçilərdən dərgahda diz üstə dayanmaq tələb olunmur!

Qnyaz Aqar qalxdı:

– Bu, çarımız İspakın buyruğudur! Sərkərdə Ateyin dönüklüyünə görə üzrxahlığımızdı, – dedi, əli ilə bayırı göstərdi. – Hökmdarımız sərkərdə Ateyin qolubağlı arvadlarını, çolma-çocuğunu, qohum-əqrəbasını, xidmətçilərini, kənizlərini, bütün var-dövlətini, ilxısını şahənşaha ərməğan göndərib. Qoy, xəyanətkarlara həmişəlik dərs olsun!

Şahənşahın üzü işıqlandı, elçi Aqarın üzrxahlığını qəbul elədi. Lütfkarlıqla yerində qurcalandı:

– Mən hökmdar qardaşıma inanıram! – dedi.

## Şahənşah barış-vuruş dilemması qarşısında

Toydan sonra şahənşah Kiaksarın əmrilə silah altında olan yüz minlik Midiya ordusu Lidiya hüdudlarından uzaqlaşdırıldı, Ekbatanın cənubundakı ucu-bucağı görünməyən qumsal düzənliyin ortasında qurulmuş çadırlarda yerləşdirildi.

Sərkərdə Harpaq tabeliyindəki otuz minlik Midiya süvarisinə kifayət qədər əlverişli yer seçmişdi. Yatağı yazdan yaza su görən çayın sahili onun atlılarının ixtiyarındaydı. Kol-kosdan savayı heç nə bitməsə də, bu küləktutmaz çökəklik ilxı üçün əvəzedilməz qışlaq, münasib oylaq idi.

Çadırları səf-səf düzülmüş qoşunu yedirdib-içirtmək üçün padşah xəzinəsindən kisələrlə dolu qızıl xərclənirdi. Qapıları gecə-gündüz bağlanmayan dövlət anbarlarından, ordu saxlanclarından, yaxın-uzaq kəndlərdən hər gün düzəngaha yüzlərlə ərzaq dolu araba üz tuturdu.

Payızın axırına yaxın havalar tamam korlandı, bərk soyuqlar düşdü, gözlənilmədən qalın qar yağdı. Qoşunun yeməyini, atların, qatırların, dəvələrin, ulaqların ot-ələfini, arpa-samanını çatdırmaq çətinləşdi. Bir tərəfdən də çadırları qızdırmaq lazım idi ki, əsgərlər şaxtadan donmasınlar.

Lidiya müharibəsindən sonra şahənşah Kiaksar daha özünə gələ bilmədi. Gündən-günə halı qarışırdı. Tez-tez uşaqlıq xatirələrinə qapılır, gah şah babası Deyoku, gah da şah atası Kaştaritini yada salırdı. Deyəsən, Manna, Urartu, İzirti, Pars, Assuriya, Kappadokiya fatehinin qırx illik hakimiyyətinin sonu çatmışdı. Ona dinclik lazım idi, döyüş meydanı yox, amma qocaman tacidar cəng həvəsi ilə qoşun bəsləyir, qışda belə əsgərləri evlərinə buraxmırdı.

Xəzinədən qoşuna çəkilən xərc barəsində şahənşaha məlumat verən baş xəzinədar Barrin bu gün sözünü bitirəndən sonra alnını taxtın önündə fərşə zərblə toxundurdu, dərindən ah çəkə-çəkə:

– Ulu Xaqan, Ulu Hörmüzd köməyin olsun, ordugahın xərci xəzinəni talan eləyəcək, – dedi.

Ordu səfər vaxtı yerli hakimlərin, müharibə vaxtı işğal edilmiş ölkələrin, barış zamanı isə xəzinənin hesabına dolanırdı. Şahənşah qırx il öncə qoyduğu qaydanı bu gün də dəyişməmişdi. Əlinin işarəsilə baş xəzinədarı susdurdu, soruşdu:

– Hansı qızıldan xərcləyirsən?

Təcrübəli baş xəzinədar şahənşahın xidmətində saç-saqqal ağartmışdı. İşini asanlaşdırmaq üçün hər satraplıqdan, hər vilayətdən, hər vassal ölkədən gələn bac-xəracı xəzinədə ayrı-ayrıləmələrdə saxlayırdı. Hesabını da ayrıca aparırdı.

– Ulu Xaqan, hələ Kappadokiyadan göndəriləni xərcləyirəm...

Şahənşah etibarı, sədaqəti, düzlüyü illərin sınağından çıxmış baş xəzinədarı acılamadı, ehmalca:

– Onda hay-küy salma! Assur qızılına çatanda, mənimlə məsləhətləşərsən, – deyə buyurdu.

İkisi də bilirdi ki, xəzinədəki qızılın tən yarısı Assur qızıldır. Şahənşah Kiaksar 614-cü ildə (e.ə.) Babil padşahı Nabuhpalasarla ittifaqa girmiş, uzun müharibələrdən sonra Assuriyanın dizini yerə qoymuşdu. Müttəfiqlər yüz illərlə ətrafda yaşayan xalqları əsarət altında saxlayan bir ölkənin paytaxtını, varlı-hallı Ninevanın daşını-daş üstə qoymamışdılar, şəhəri xarabazara çevirmişdilər, saysız-hesabsız var-dövlətə sahiblənmişdilər. Əlbəttə, onların qəzəbi bu-

nunla soyumamışdı. Zalımlıqda ad çıxarmış axırıncı Assur hökmdarı III Aşşurla padşah kimi yox, adi bir quldur kimi rəftar olunmuşdu. Aşşurun zəncirləndiyi kəl arabası onu canı çıxana qədər kəndbəkənd, şəhərbəşəhər gəzdirməliydi.

Baş xəzinədar şahənşahı dilə tutmağa çalışdı:

– Ulu Xaqan, indidən tədbir tökmək lazımdır. Bu qarnına şiş batmış əsgərlər doymaq bilmirlər. Belə getsə, qoşun Midiyanı müflis eləyəcək, tezliklə Assur qızılının da sonuna çıxacaq, hələ o yana da keçəcək, – dedi.

Şahənşah əndişə ilə gülümsədi:

– Məsləhətin nədir?

Baş xəzinədar həddini aşdığını hiss edib alnını təkrar fərşə toxundurdu:

– Mən nəkarəyəm ki, Ulu Xaqana məsləhət verəm!

Şahənşah təkidlə:

– Qorxma, de görüm, yerimdə olsaydın, neynərdin?

Baş xəzinədar qorxa-qorxa:

– Ulu Xaqan, müharibə görmüş qoşunu ya yenidən müharibəyə göndərərdim...

Şahənşah fövrən:

– Bu yaxşı fikirdir! Afərin, əsl cahangir kimi düşünürsən! – dedi. – Sonra neynərdin?

– ... ya da evə buraxardım, – deyə Barrin sözünü bitirdi.

Şahənşah kədərlə başını buladı:

– Bu isə axmaq fikirdir, baş xəzinədar! Döyüşlərdə bişmiş əsgərləri evə buraxmaq ağılsızlıqdı! Yadında qalsın, qoşunsuz ölkə, ölkə deyil. Midiya ordusunun zəhmi olmasa, düşmənlər dərhal ayaq açıb üstümüzə yeriyəcəklər. Ölkənin əhalisi axırıncı tikəsini də əsgərə yedirtməlidi ki, əmin-amanlıqda yaşasın.

Həmin gün xəstəhal şahənşah Böyük Şura çağırdı. Aliməqam kahinləri, saray əyan-əşrəfini, sərkərdə və sərkərləri, bütün Midiya satraplarını, vilayət hakimlərini, Midiyaya xərac verən şahları məclisə topladı, qısa məşvərətdən sonra qoşunları silah altında hazır saxlamaq qərarını verdi.

Bundan sonra əyalətlərdən yığılmış qoşunun təminatını da xəzinə boynuna götürdü. Bu, xərclərdən canını qurtarmış satrapların, hakimlərin, canişinlərin, vassalların sevincinə səbəb oldu. Onlar şahənşahın qalibiyyətli müharibələrində topladıqları saysız-hesabsız var-dövləti bica yerə xərcləmək istəmirdilər. Belə məlum olurdu ki, yaxınlarda müharibə olacağı mütləqdir, amma kiminlə, bilmək mümkün deyildi.

## Şahənşahın rəxti-xab keşikçiləri

Özünə qapılmış, deyib-gülməyi yadırğamış şahənşahın kefini açmaq üçün vəliəhd Astiaq tərəfindən saraya çağırılanlar dəridən-qabıqdan çıxırdılar. Amma nə saraya toplaşmış oyunbazların oyunları, nə sehrbazların sehrləri, nə rəqqasələrin rəqsləri nəticə verirdi. Yalnız Motulun zarafatları arada hədəfə dəyir, şahənşahın dodağı qaçırdı. Bundan vəcdə gəlmiş vəliəhd təlxəyi öyrədirdi. Bu Tətür Atxanın xoşuna gəlmədi:

– Əlahəzrət vəliəhd, əndazəni aşmaq olmaz, – dedi.

Vəliəhd onu eşitmək istəmədi:

– Mamu, mən atamı güldürəcəm!

Lakin təlxəyin təqlidləri bəzən əks nəticə verirdi. Onun naibi-ləşkər qiyafəsinə girməsi şahənşahın göz yaşına səbəb oldu.

– Yazıq Satrapaq, səni qoruya bilmədim.

Motulu Skif çarı İspakın geyimində görəndə tacidarı həqiqətən bərk gülmək tutdu:

– Qohum, Muğanda nə var, nə yox! – deyə soruşdu.

Bunu gözləməyən hazırcavab Motul dərhal söz tapdı:

– Ulu Xaqan, daha Muğanın havası mənə düşmür!

– İstəyin nədir?

– Skif çarlığı üçün səfalı yer axtarıram! – deyə Motul ciyildədi. – Ekbatan ətrafı xoşuma gəlir. İcazə versən, elə buralarda məskən salardım...

Şahənşah birdən-birə özündən çıxdı:

– Cəllad! – Qışqırdı.

Tətür Atxa işə qarışmasaydı, Motulun başı cəllad əlində qalacaqdı. Əsəbi şahənşahın cin atına minməsinin səbəbi təlxəkmi idi, ya biçarənin təqlid elədiyi Skif çarı İspakmı idi, bilmək olmurdu.

Payız günləri intizar içində ötüşdü, 585-ci ilin (e.ə.) qışı girdi. Tacidarın tamam yatağa düşmə xəbəri bütün imperiyaya yayıldı.

Böyük İddən savayı daha iki bayramı midiyalılar əziz tuturdu. Bu ənənənin bünövrəsi qırx il qabaq qoyulmuşdu. Böyük İdin 46-cı günü şahənşah təvəllüd tapmışdı, 56-cı günü isə taxta çıxmışdı. Hər il ilin on günü şənliklərin ardı-arası kəsilmirdi. Əhali xəzinənin hesabına şərab içir, buğda unundan hazırlanmış yağlı kökə yeyir, oyunbazların, kəndirbazların tamaşalarına baxır, musiqiçilərə qulaq asır, rəqs eləyib əylənirdi.

Şahənşahın xəstələnməyindənmi, ya müftə yeyib-içməyin əldən çıxmasındanmı, məlum deyildi, əhali sanki qəm dəryasına batdı. Ad gününə, qırx illiyə hazırlıqlar dayandırıldı. Hamı huşsuz, yaddaşını itirmiş, əldən düşmüş,

xəstə, hətta, arada özünü tanımayan, sözünü bilməyən şahənşahın öləcəyini, taxt-tacın vəliəhdə keçəcəyini gözləyirdi.

Şahənşahın rəxti-xabını üç adam qoruyurdu. Başqa heç kimi, hətta hərəmlərini də onun yatağına yaxın buraxmırdılar. Səltənətin bütün ixtiyaratı, gələcək taleyi bu üç nəfərin əlindəydi. Bunlardan biri vəliəhd Astiaq idi, o birisi Baş xəfiyyə Tətür Atxa, üçüncüsü Ali baş kahin Amitaxah ata...

Döyüşə atılmağa hazır dayanmış qoşunun qorxusundan bütün vilayətlərdə, satraplıqlarda əmin-amanlıq hökm sürürdü. Hətta, Midiyanın tabeliyindən çıxmağa girəvə axtaran qüvvələr də, elə bil, qış yuxusuna getmişdilər. Ölkənin dinc övzayı şəkkak Astiaqın xoşuna gəlmədi.

– Parsda işlərimiz necədi? – deyə Tətür Atxadan soruşdu.

– Hələ ki sakitlikdi. – Tətür Atxa ehtiyatla cavab verdi. – Şahzadə Mandanadan yaxşı xəbərlər gəlir.

Astiaq hikkəli-hikkəli:

– Əhəməni törəməsindən gözüm su içmir! – dedi. – Bir hoqqa çıxartmasalar, yaxşıdı! Çətin ayaqda onlara etibar eləmək olmaz.

Ulu Möbid Amitaxah razılaşmadı:

– Əlahəzrət vəliəhd, Pars şahı Kambiz bizə xəyanət eləməz, necə olsa, ortada qohumluq əlaqəsi var!

Lidiya ilə müharibə vaxtı şahənşah Kiaksarın Əhəmənilərlə qohumluq qərarı Midiyanın xeyrinəydi. Qızı Mandananı öz vassalına, Pars şahı Kambizə verməklə etibarsız Pars məmləkətini sədaqətli dosta çevirmişdi.

Astiaq qəribə əminliklə:

– Müqəddəs ata, bu qohumluq başımıza bəla açmasa, yaxşıdı! – dedi.

Tətür Atxa vəliəhdin fəhminə hörmətlə baş əydi:

– Əlahəzrət vəliəhd haqlıdır! – dedi, daha sonra Ulu Möbidə müraciətlə davam elədi. – Müqəddəs ata, xəfiyyələrimiz xəbər gətirirlər ki, Pars əyanları son dərəcə yaxşı silahlanmış dəstələr saxlayırlar, Kambiz şah isə özünü elə aparır ki, guya bundan xəbəri yoxdu. Maraqlı deyilmi?

Astiaq Harpaqı çağırdı. Sərkərdə Pars hüdudlarından təzə qayıtmışdı. Oturanlara məlum oldu ki, şahənşahın əmri ilə, keçən qiyamdan sonra Pars istiqamətində on minlik süvari qüvvə saxlanılır. Harpaq əminliklə dedi:

– Əlahəzrət, hazırda Parsa doğru şaxələnən bütün əsas yollar nəzarətdədi!

Astiaq özündən razı halda Tətür Atxa ilə Ulu Möbid Amitaxah ataya baxdı, sonra Harpaqa Pars hüdudlarına daha iki alay süvari göndərməyi tapşırdı.

– Əlahəzrət, bu alayların vəzifəsi nə olacaq? – deyə sərkərdə soruşdu.

Vəliəhd Harpaqa tərs-tərs baxdı:

– Bu bir ehtiyat tədbiridi! – dedi. – Həm də əsas yollardan savayı Parsa gedən dağ yolları göz altına alınmalıdı.

Harpaq əmri alan kimi qapıdan çıxdı. Astiaq kinli adamdı, hətta xoşuna gəlməyən xırda şeyləri də yadda saxlayırdı, imkan tapan kimi səbəbkarı cəzalandırırdı. Sərkərdə təcrübəsindən bilirdi ki, ən yaxşısı, Astiaqın ağzından çıxanı sorğusuz və dərhal yerinə yetirməkdi.

## Qurbanvermə mərasiminin vaxtı

Dərgahda təbib əlindən tərpənmək olmurdu, biri gəlir, biri gedirdi. Amma nə xeyri? Şahənşahın vəziyyəti günü-gündən xarablaşırdı. Babilistandan, Assuriyadan çağırılmış həkimlər, loğmanlar xəstənin dərdinə məlhəm tapa bilmirdilər. Möbidlər Möbidi Amitaxah ata təklif elədi:

– Əhrimənin gözü doymur, qurban istəyir. Ali Baş Kahinlər Şurasının məsləhəti budur ki, qurbanvermə mərasimləri keçirək, bəlkə Əhrimən Ulu Xaqandan əl götürdü.

Tətür Atxa ehtiyatla:

– Müqəddəs ata, bilirsən ki, şahənşahın qurban mərasimlərinə rəğbəti azdır, – dedi, sonra öz fikrini də gizlətmədi. – Birinin ölümü başqa birini diriltməz!

Amitaxah ata əsəbiləşdi:

– Sənin şübhələrin lap əsassızdır! – dedi. – Bir neçə il bundan qabaq vəliəhd xəstələnmişdi, qurbanvermədən sonra sağalmadımı?

Vəliəhd söhbətə müdaxilə elədi:

– Müqəddəs ata, onda mən xəstələnməmişdim, məni ilan çalmışdı.

– Nə fərqi var? Qurbanvermədən sonra sağaldınmı? – deyə Amitaxah ata inad elədi.

Tətür Atxa yumşaq halda:

– Şahənşahı, Ulu Hörmüzd qorusun, ilan çalmayıb, axı! – dedi.

Bunu qırmızı-qırmızı söyləyərkən, Tətür Atxa müqəddəs atanın könlünə dəyməmək üçün təbəssümünü gizlətdi. Amitaxah ata elə bir ixtiyar yaşda idi ki, heç bir məntiq qarşısında geri çəkilən deyildi. İndi də dediyindən dönmədi. İkisi də intizarla Astiaqa baxdı. Hər iki rəxti-xab keşikçisi

bilirdi ki, tacqoyma mərasiminə qədər qərarları məsləhətli olsa da, axır söz vəliəhdindi.

Astiaq Tətür Atxa ilə razılaşsa da, atasını sevən bir övlad kimi hərəkət elədi, Ali Baş Kahinlər Şurasının tövsiyəsini təsdiqlədi. Onun şahanə fərmanı ilə qurbanvermə mərasimi imperiyanın bütün məbədlərində eyni vaxtda, Böyük İdin 46-cı günü baş tutmalı idi.

Əslində, bütün həyatı ağır-yüngül müharibələrdə keçən Kiaksarın gözündə insan həyatının elə bir qiyməti olmasa da, gözəl-göyçək "od gəlinlərinin" yandırılmasının əleyhdarı idi. Qırx illik hakimiyyəti dövründə bircə yol bu köhnə adətə əl atmışdı. Bu da e.ə. 590-cı ildə baş vermişdi. Onda Midiya taxt-tacının varisi, iyirmi beş yaşlı Astiaqı ilan vurmuşdu. Şahənşah Kiaksar gözünü yeganə oğluna dikmişdi, üstündə yarpaq kimi əsirdi. Beş qız, iki oğul dünyaya gətirmiş bacısı artıq Ulu Hörmüzdə qovuşmuşdu. Təzəlikdə böyük oğlunu da itirmişdi. Nə qardaşları qalmışdı, nə də qardaşı oğlanları, hamısı dünyalarını dəyişmişdi. Astiaq da əldən getsəydi, Midiya şahlıq sülaləsi sona yetəcəkdi. Kahinlər təmiz qanlı vəliəhdi Kiaksarın uzaq qohumları arasında axtaracaqdılar.

Onda şahənşah, qəlbən inanmasa da, qədim adətə tapınmış, Ali Baş Kahinlər Şurasının qərarını təsdiqləmişdi. Elan olunmuşdu ki, bəd ruhları qovmaq üçün bütün imperiyanın möminləri atəşgahlarda dua etməli, ulu Hörmüzdün şərəfinə mərasimlər keçirməli, Əhriməni ovutmaq üçün "od gəlinlərini" oda atmalı idilər.

## Astiaqın Vəliəhd elan olunması

Astiaq böyük qardaşından savayı heç kimi sevmirdi. Urrana isə nifrət eləyirdi. Halbuki, ögey qardaşının taxt-taca iddiasını ciddi qəbul eləmək olmazdı. Astiaqın narahatlığının heç bir əsası yox idi. Hətta, şahənşah Kiaksar səltənəti onun ögey qardaşı Urrana tapşırmaq istəsəydi belə, bu mümkün deyildi, Böyük Kahinlər Şurası buna yol verməzdi.

Astiaq böyük qardaşının ağıl-dərrakəsinin vurğunu idi. Onun varlığından qətiyyən narahatlıq keçirmir, vəliəhd titulunu qısqanmırdı. Bilirdi ki, qardaşı sağalmaz xəstədi, bu gün-sabahlıqdı, lap əlinə fürsət düşsə belə, bu da sual altındaydı, şahənşah tacını başında uzun müddət gəzdirməyəcəkdi.

Böyük qardaşı isə bu gün-sabahlıq olduğunu qəbul eləmirdi, hərdən bədgümanlıqla deyirdi:

– Bu xəstəliyim keçsə, çox yaşayacağam!

Şahənşah Kiaksar varislər arasında üstünlüyü böyük oğluna verirdi. Vücudca zəif Astiaqla etinasız rəftar eləyirdi. Kiçik oğlunun uşaqlıqdan təbiblərin, ovsunçuların, müğlərin əhatəsində olduğundan dava-dərmana qarşı xüsusi marağı vardı. Həddi-buluğa çatanda təbiblərdən az bilmirdi. Çəməndə-çöldə bitən yüzlərlə növ ot-əncəri bir-birindən ayırır, təbiətdəki zəhərli bitkiləri tanıyırdı. Ovsunçulardan da bəzi şeylər öyrənmişdi. İlanlarla qorxmadan davranır, cəldlikdə onlardan geri qalmırdı. Otağının ortasında qoyulmuş yekə saxsı küpdə iki gürzə saxlayırdı. İlanın biri xoşxasiyyət idi, vəliəhd ehtiyat eləmədən əlinə götürürdü, o bir isə hirsliydi, sancmağa girəvə axtarırdı. Həmin əsəbi ilan onu bir neçə dəfə çalmışdı. Ancaq gecə-gündüz içdiyi

dava-dərmandanmı, ya başqa səbəbdənmi, bilmək olmurdu, zəhər vəliəhdə təsir eləmirdi, ilan çalan günü qızdırması qalxır, sonra yaxşılaşırdı. Onun saraydakı otaqlarına çox az adam girməyə razı olurdu. Ləmələrdəki qablarda nə olduğunu bircə özü bilirdi.

Bir dəfə qardaşı otağına gəldi. Üzündə ağrı və qətiyyət var idi.

– Məni ilanlarınla tanış eləsən, vəliəhd titulunu sənə verəcəyəm!

Astiaq acıqlandı:

– Ulu Hörmüzd köməyin olsun, bu fikri başından çıxart, – dedi. – Mən qardaş qatili ola bilmərəm!

Qardaşı kinayə ilə:

– Neynək, zəhərsiz də ötüşərik! – deyə söyləndi.

Elə də oldu. Lidiya ilə müharibə ərəfəsində böyük qardaşı canını tapşırdı. Astiaq vəliəhd elan olundu.

Şahənşahın bütün diqqəti yalnız bundan sonra kiçik oğluna yönəldi. Bir dəfə sarayın vəliəhd yaşayan hissəsinə baş çəkdi, gördüyündən dəhşətə gəldi. Astiaq boğazından tutduğu gürzəni boynuna dolamışdı:

– Oğlum, bu həşəratı rədd elə, sancacaq səni!

Astiaq şahənşahın səsinə çevrildi, ilanı tələsmədən özündən araladı, saxsı küpənin dibinə buraxdı:

– Çalmaz, mehriban ata, biz onunla dostuq, – dedi.

Şahənşah oğlunun həyatını öz həyatından daha qiymətli hesab edirdi:

– İlanla dostluğun tutmaz, bu qədər yaxınlığın axırı yoxdur!

– İlan insanlardan daha sədaqətlidir. Xislətində çalmaq olsa da, çalmır! İnsanın xisləti başqadır, amma ilandan betər

sancır. Güman ki, öyrəndiklərim sabah karıma gələcək, – deyərək atasını məntiqlə tərksilah elədi.

Sarayda bu aludəçiliyinə görə ondan qorxurdular. Bütün qəfil ölümlərdə vəliəhdi günahlandırdılar.

Əlbəttə, Astiaqın yaxşı xasiyyəti də vardı. Bəzi oğullar kimi taxt-tac hərisi deyildi, atasına ölüm arzulamırdı. Şahənşah, hətta, buna görə də onu qınayırdı:

– Hakimiyyət elə bir şirin matahdı ki, onu atadan-anadan artıq sevməsən, əlində saxlaya bilməzsən.

Astiaq qətiyyətlə:

– Məni yoldan çıxara bilməzsən, Atəşgahım ata. Sən nə qədər çox yaşasan, mənim xeyrimdi. Gec-tez bu səltənət mənə çatacaqsa, tələsməyin nə mənası! – dedi.

## Şahənşahın sağalması

Dərgahdan çıxan yüzlərlə çapar imperiyanın yollarında çapırdı. Şahənşah şərəfinə baş tutacaq qurbanvermə mərasimlərini gözləmək iqtidarında deyildi, artıq ölümqabağı xırıltısı eşidilirdi.

Vəliəhd Astiaq sərt, adamayovuşmaz idi, amma bir oğul kimi valideyn sevgisindən məhrum deyildi. Rəxti-xabın o biri keşikçilərindən soruşdu:

– Ulu Xaqanın axır məkanını hazırlamaq vaxtı çatıbmı?

Bir neçə il bundan qabaq şahənşah həyatın faniliyini anlayıb, özü üçün saray ilə "Qızıl məbəd" arasındakı hündür təpədə, sadə bir "ölüm odasının" bünövrəsini qoymuşdu, ancaq başı müharibələrə qarışdığından tikintisi yarımçıq qalmışdı. Son mənzil üçün şəhərin axarlı-baxarlı, güllü-çiçəkli bir guşəsi seçilmişdi. Üstü açıq ölüm odasını geniş,

dairəvi üstübağlı eyvan tamamlayırdı. Şəhər eyvana qalxanın ayağı altında qalırdı. Yeddi rəngli qala divarları və onlar arasındakı məhəllələr, uzaq ordugah burdan aydın görünürdü.

Şahənşahdan ümidini üzmüş Tətür Atxa da, Ulu Möbid Amitaxah da vəliəhdlə razılaşdı:

– Deyəsən, vaxtıdı!

Vəliəhd göstəriş verdi ki, bünövrəsi şahənşah tərəfindən qoyulmuş, yarımçıq "ölüm odasının" tikintisi tezliklə başa çatdırılsın, divarları, döşəməsi başdan-başa qızıla tutulsun, daş-qaşla bəzədilsin, eyvan döşəməsi, tavanı isə fil sümüyü ilə işlənsin, naxışlansın... Cahangir dünyanı tərk eləyəndən sonra üstüaçıq "ölüm odasında" cənazəsi qızıl mafədə qoyulacaq, bədəni, müqəddəs torpağı murdarlamasın deyə qurd-quşa yem olacaq, lap axırda qalan sür-sümüyü toplanacaq, yandırılıb havaya sovurulacaqdı.

Amma "sən saydığını say, gör fələk nə sayır". Ehtimallar doğrulmadı, vəliəhd Astiaqın kimsənin yanında açıb-ağartmadığı təəssüfünə rəğmən, Böyük İdə bir həftə qalmış, şahənşah Kiaksar gözlənilmədən yaxşılaşdı, Əhrimənin cəngindən qurtulub ölüm libasını üstündən atdı, yenidən dirçəldi, qızıldan süslənmiş taxta qədəm basdı.

Şahənşah bir neçə günə saray əyan-əşrəfinin ipini yenidən əlinə yığdı. İmperiyanın övzayı ilə tanış oldu, vəliəhdin verdiyi bütün qərarları bəyəndi. Yalnız iki göstərişinə irad tutdu. Birinci "ölüm odası"nın dəbdəbəsinə toxundu:

– Əziz xələfim, bilməlisən ki, ölkə israfla idarə olunmaz! Qızılın ölüyə nə faydası? Sən dirilərin qeydinə qal! Sən Midiyanın dərdini çək! Məndən sonra ölkəni sən idarə eləyəcəksən, – dedi, təəssüflə əlavə elədi. – Mənim "ölüm

odama” sərf olunan qızıllar hayıfdı, bununla neçə alay qoşun saxlamaq olardı!

Aylarla tacidarın rəxti-xabını qoruyan Tətür Atxa da, Ulu Möbid Amitaxah ata da onun böyüklüyü önündə baş əydilər, vəliəhdə də belə bir padşah olmasını arzuladılar.

Bir az susandan sonra şahənşah üzünü Amitaxah ataya tutdu:

– Vəliəhd hələ cavandır, təcrübəsizdir, amma biz bilirik ki, yaşamaq bir ağır yükdü! Vaxtında dünyanı tərk eləmək böyük xoşbəxtlikdi! – dedi, sonra qurbanvermə mərasimini yüngülcə lağa qoydu! – Ömrümüzü, yüzlərlə gözəl qızı tonqala atmaqla uzatmaq bizə yaraşmaz!

Bu sözlərin qarşısında rəxti-xab keşikçiləri mat qaldılar. Ancaq şahənşah nədənsə risk edib, Böyük İdin 46-cı gününə təyin olunmuş qurbanvermə mərasimlərini dayandırmadı.

## Misirə yürüşün müzakirəsi

Ölkə yenidən keçiriləcək şənliklərin hazırlığına başladı. Şahənşah mənası ancaq ona məlum sərəncamlar imzalayır, qərarlar, göstərişlər verir, hamını vahimədə saxlayırdı. Bu vədələrdə ən çox durub-oturduğu adam Tətür Atxa idi.

Müxtəsər hazırlıqdan sonra ən etibarlı adamları kiçik Şuraya yığdı. Adətən belə toplantılar ali baş kahin Amitaxahın, vəliəhd Astiaqın, həm da cəllad başı kimi tanınan xəfiyyə Tətür Atxanın, bir də naibi səltənət Bixurun iştirakı ilə keçirdi. Əvvəllər belə məclislər naibi-ləşkərsiz ötüşməzdi. Mərhum Satrapaq Ulu Hörmüzdə qovuşandan sonra tutduğu vəzifə, hələ ki, boş qalırdı.

Şahənşahı həmişə olduğu kimi, ilk növbədə ordu maraqlandırırdı. Qoşun başçılarını bir-bir hüzuruna çağırır, əsgərlərin vəziyyətini, ehtiyaclarını soruşurdu. Bu dəfə nə hər iki növ piyada hissəsinə (qoşunlar arasında fərq onda idi ki, bir piyada qoşunun əsgərləri nizə, qılınc və qalxanla, o birisininki isə balta, qılınc və qalxanla silahlanırdı), nə oxçulara, nə sapandçılara, nə düşmənə daş və qaynar Midiya yağı atan mancanaqçılara vaxt ayırdı. Süvarilərin sərkərdəsi Harpaqı ətraflı sorğu-suala tutandan sonra mətləbinin izharına keçdi:

– Atan Satrapaqın taxt-taca, səltənətə xidməti sədaqət nümunəsi olub. Otuz ilə yaxın Midiya ordusunun naibiləşkəri olub. Güman edirəm ki, sən də mənə, mən Ulu Hörmüzdə qovuşandan sonra vəliəhdimə atan kimi sədaqətlə xidmət eləyəcəksən, – dedi, sonra bir az fasilə verdi. – Bu gündən sən naibi-ləşkər təyin olunursan. Bundan sonra Kiçik Şuranın iştirakçısısan. Keç, zindanbanın yanında otur, sənin yerin oradır!

Hamı qımışdı, şahənşah Kiaksar dediyi sözə özü də güldü:

– İşinizdə bir oxşarlıq var!

Harpaqın canından bir rəşə keçdi, amma qalxmadan dizi üstə göstərilən yerə süründü.

Padşah baş xəzinədar Barrinin də məlumatına qulaq asdı, biləndə ki, xəzinədəki qızıl misqal-misqal artır, amma batmanla azalır, vecinə almadı:

– Sən isə bunun əksini istəyirsən!

Barrin başını fərşdən qaldırmadan dedi:

– Yəqin pis olmazdı, Ulu Xaqan!

Barrin baməzə adamdı, şahənşah bəzən onunla məzələnməyi xoşlayırdı.

– Ay səfeh, başını qaldır, dediyini zorla eşidirəm! – dedi, xəzinədar üzünü fərşdən ayırandan sonra soruşdu. – Bilirsən ki, xəzinədə qızılın batmanla artması üçün müharibə lazımdı?

– Bəli, Ulu Xaqan, mən bunu bilirəm!

Şahənşah taxtdan düşdü, dərgah otağını dolandı, yerinə qayıdıb Barrinə xitabən:

– Sən daha nə bilirsən, ay yoluq? – dedi.

Baş xəzinədar cəsarətsizliyini və ümidsizliyini büruzə verdi:

– Ulu Xaqan, onu da bilirəm ki, xəzinədəki qızıl batmanla artmasa, qoşun saxlamaq olmaz. Bunun üçünsə müharibə lazımdı...

Şahənşah tələsmədən dərgahdakıları bir-bir süzdü, yenidən nəzərləri xəzinədarın üstündə dayandı:

– Yəni, müharibə vacib lazımdı?!

– Vacibdən vacib, Ulu Xaqan!

Dərgahda iznsiz danışmağa ixtiyarı olan vəliəhd dilləndi:

– Atəşgahım ata, Midiya ətrafındakı ölkələrin hamısı bizə tabedi. Navuhdanosor qohumumuz, ölkəsi Babil müttəfiqimizdi, Aliatt qohumumuz, ölkəsi Lidiya dostumuzdu. Car İşpak Dar Keçidin keşikçisi, həm də qohumumuzdu. Müharibə edilməli bir ölkə qalıbmı?

Şahənşah fikri dağınıq dilləndi:

– Eşidirsən, Barrin, vəliəhd deyir ki, müharibə edilməli ölkə qalmayıb. – Sonra altdan-altdan xəzinədara baxıb soruşdu. – Buna nə deyirsən?

Baş xəzinədar dolayı bir cavab verdi:

– Ulu Xaqan, deyirlər, məşriqdə bir ölkə var, adı dəqiq yadımda deyil, orada qızıl elə boldu ki, ölən padşahlar üçün

qızıldan dağ boyda ehram tikirlər. O ehramların bircəciyini gətirsək, bəsimizdi, həmin qızıla dünyanın ən böyük ordusunu yaratmaq olar.

– Afərin, məlumatlı adamsan! – deyə şahənşah baş xəzinədarı tériflədi. – Keç, zindanbanın o biri tərəfində otur. O da məlumatlıdır, söhbətiniz tutar! Bundan sonra sənin yerin ora olacaq.

Baş xəzinədar bilirdi ki, şahənşah onun qədrini bilir, cəzalandırmaz. Amma özünü elə apardı ki, guya qorxudan az qala zağ-zağ əsir, ürəyi gedir. Yalvara-yalvara:

– Ulu Xaqan, məni vəliəhdin başına dolandır, – dedi. – Günahım varsa, cəzamı özün ver, yaxamı bu Əhrimənin əlinə vermə.

Şahənşah şənləndi, şaqqanaq çəkdi:

– Qorxma, hələ sənin növbən çatmayıb. Əksinə, sədaqətini qiymətləndirmək vaxtın çatıb, – dedi. – Bu gündən sən də Kiçik Şuranın üzvüsən.

Baş xəzinədar üzündə bircə əza da tərpənməyən zindanbanın o biri tərəfinə süründü. Şura üzvləri bu səhnəni izləsələr də gülmədilər, şahənşahın məramı aydınlaşmışdı, hamı qızıl ehramlı ölkənin adını lap dəqiq bilirdi. Midiyanın uzaq Misirə hərbi yürüşü cəlbedici olsa da, nəticəsi dumanlı idi.

Şuradakılar yaxşı bilirdilər ki, Misir fironlarının bitərəfliyi səbəbindən şahənşahın Assur üzərində qələbəsi baş tutmuşdu. Möbidlər möbidinin də qələbədə zəhməti vardı. 615-ci ildə (e.ə.) fironların siyasətinə böyük təsiri olan Amon-Ra kahinlərini Midiya tərəfinə çəkmək üçün uzun bir yol qət eləmiş, Nil çayının sahillərinə gedib çıxmışdı. Ona hədiyyə verilən durbin həm dostluq, həm etibar, həm

də təhdid nişanəsi idi. Bununla Amon-Ra kahinləri demək istəyirdilər ki, biz durbin kimi uzaqgörənik!

Dərgahda iznsiz danışmaq ixtiyarı olan Ali Baş kahin Amitaxah ata dişsiz ağzını marçıldatdı:

– Ulu Xaqanın bütün qərarları müdriklik nişanəsidi, – dedi, sonra ehtiyatla soruşdu. – Bu müharibəyə Midiyanın qüvvəsi çatarmı?

Şahənşah ayın-arxayın taxta yayxandı:

– Mən bunun qayğısına qalmışam, Ulu Möbid, biz tək deyilik! Güman ki, Navuhdanosor da, Aliatt da, İşpak da təklifimi qəbul edəcək, bizə qoşulacaq.

Daha Şura üzvlərindən heç birindən səs çıxmadı. Şahənşah yorğun halda:

– Tətür Atxadan başqa hamı azaddır! – dedi.

## Vəliəhdin gəlişinə hazırlıq

Yaz əməlli-başlı yubanırdı, havalar həddən artıq soyuq keçdiyindən atəşgahlarda seyrəklikdi, yalnız ilaxır çərşənbələr təntənəli keçirdi. Həmin günlərdə qar-boran da adamların qabağını ala bilməzdi.

Bütün məbədlərdə Böyük İd bayramına hazırlıqlar gedirdi. Dam-daş ağardılır, həyət-bacalar sahmana salınır, sütunlar pardaxlanır, sınıq döşəmə daşları dəyişdirilir, mehrablar rənglənirdi.

“Bəyaz məbədin” möbidləri, möbidzadələri, möbidyarları, xidmətçiləri də yorulmaq bilmədən çalışırdılar. Hər gün tonqallar qalanır, “od gəlinləri” musiqi sədaları altında mehraba qalxır, ayin nəğmələri oxunur, bir sözlə, mərasim tam qaydasıyla keçirilir, zəvvarların, ziyarətçilərin, tapı-

nanların, qonaqların alqışları altında axşama yaxın bitirdi. Məbədin geniş həyəti, məbədətrafı küçələr dilənçilərin, küçə qadınlarının, aradüzəldənlərin, macəra axtaranların ixtiyarında idi. Bu adamlar adi günlərdəkindən fərqli olaraq nisbətən səliqəli geyinsələr də, onları üzdən, davranışından tanımaq çətin deyildi.

"Bəyaz məbədin" baş Möbidi Şaum ata saray qasidinin gəlişindən əl-ayağa düşmədi, aldığı məlumatı götürqoy elədi, sübh ibadətindən sonra yeməkxanaya tələsən kahinləri yubatdı, xəbəri onlarla bölüşdü. Eşidilən həyəcan dolu çığırtılar onun əlinin bir işarəsi ilə kəsildi:

– Qardaşlar, yaxın günlərdə əlahəzrət Astiaq məbədimizi ziyarət edəcək. Yubanmadan atəşgahı şahzadənin gəlişinə hazırlamaq lazımdı. Biz izzətli, şərəfli qonağı layiqli qarşılamalıyıq! – dedi.

Hamı dağılışdı. Baş Möbid Səccam qardaşı, bir də köməkçisini saxladı.

İbadət otağı böyük və pəncərəsiz idi. İçəridə yanan beş-altı məşəl də qaranlığı tamam qova bilmirdi. Otağa məbəd cəbbəxanası da demək olardı. Divarlarda qarmaqdan asılmış qılınclar, nizələr, çapacaqlar heç də yaraşıq üçün deyildi, əsl döyüş silahları idi. Kahinlərin birinci borcu atəşgahı, yanan əbədi odu düşməndən qorumaqdı. Həmişə məbədin damında gəzişən keşikçi təhlükə görən kimi mis sinci tunc toppuzla üç dəfə vurmalıydı. Bunu eşidən hər bir məbəd əməlləsi ibadət otağına tələsməli, silahlanmalı idi.

Səccam qardaş keçib baş Möbidlə üz-üzə oturdu, dərhal fikrini bildirdi. Onsuz da qarşılama mərasiminin bütün ağırlığı onun üzərinə düşürdü.

– Ata, biz şahənşahın gəlişini gözləyirdik, axı! – dedi.– Bəs, nə oldu?

Baş Möbid təntənə ilə dedi:

– Əlahəzrət Ulu Xaqan, ulu Hörmüzd ona yar olsun, deyirlər, nasazlıqdan sonra hələ özünə gəlməyib.

Baş Möbidin köməkçisi astadan maraqlandı:

– Ata, bəs, əlahəzrət şahzadə haçan təşrif gətirəcək?

Şaum Ata:

– Bilmək olmur, – dedi. – Bəlkə sabah gəldi, bəlkə bir həftədən sonra gəldi...

Səccam qardaş:

– Ata, heç bilirsən, atəşgahı ziyarətçilərimiz nə günə qoyurlar? Hər yer zığın, palçığın, tör-töküntünün içindədi. Çatdırarıqmı? – dedi.

– Nə təklif eləyirsən, qardaş, əlahəzrət şahzadəyə deyək ki, sənin gəlişinə hələ hazır deyilik? Gəlmə? – deyə Şaum ata əsəbiləşdi.

Səccam qardaş udqundu:

– Ata, məbədin səliqə-sahmanını bir-iki günə çətin başa çatdıraq! – dedi. – Bir həftədən çox vaxt aparacaq.

Şaum ata kahinə baxdı:

– Əlbəttə, bəxtimizdən ziyarətçilərimiz bir az pintidilər, vaxtımız dardı, amma bu heç nəyi dəyişmir, – deyə yüngül bir istehza ilə davam elədi. – Sizə xatırladıram ki, əgər əlahəzrət şahzadə narazı qalsa, biz özümüz də çirkli-pasaxlı ziyarətçilərimizin gününə düşə bilərik. Siz ki, onun xasiyyətini yaxşı bilirsiniz.

Səccam qardaş pərt halda:

– Elə mən də ondan qorxuram da! Şahzadə Astiaq hirslənəndə üzünü görmə, heç kahinlərə də rəhm eləmir! Onları da Bikini dağındakı daş karxanasına göndərir.

Köməkçi həmkarının sözünə qüvvət verdi:

– Elədi, – dedi. – Hayıf şahzadə Urrandan! Necə ürəyi-yumşaq idi!

Səccam qardaş həvəslə yada saldı:

– Hələ səxavətini demirsən! Hər gəlişində bizə qızıl pul bağışlayırdı! – dedi, sonra maraqlandı. – Ata, sən saraya gedib-gəlirsən, bilməmiş olmazsan, o bədbəxtin taleyindən xəbər varmı?

Şaum Ata bildiyini tabeliyində olanlarla bölüşmək fikrində deyildi:

– Məlumatım yoxdu, – deyə könülsüz dilləndi, sonra köməkçilərini mürəxxəs elədi. – Qardaşlar, gedin, hazırlıq görün, daha artıq söhbətin yeri deyil!

Qapıdan çıxan kahinlərə buyurdu:

– Kandül bacını yanıma göndərin. Hücrəmdə olacağam.

## Kandül Şaum atanın hüzurunda

Kandülün çöhrəsi baxanı vahiməyə salırdı, sifəti sönmüş ocaq yerinə oxşayırdı. Dediyinə görə, cüzamdan sonra bu günə düşmüşdü. Amma səsi özgə möcüzəydi. Kandül oxuyanda ziyarətçilər vəcdə gəlirdilər. Geyimi, görünüşü elə idi ki, yaşını təyin eləmək çətindi. “Möbidə bacı” çağırılsa da, Möbidə deyildi, adi xidmətçiydi. Amma bacarığı ilə baş kahinin əvəzedilməz köməkçisinə çevrilmişdi. Məbəddəki qız-qadının, od gəlinlərinin bəzək-düzəyinə, yemək-içməyinə, hətta, oturuş-duruşuna baxırdı. Onların təmizliyi, yatağı da Kandülün nəzarətində idi. Mərasimlərə hazırlaşanda məşşatələrin hər işinə qarışır, gəlinlərin görünüşü ürəyincə olmayanda rahat buraxmırdı. Şaum ata yeddi mehrab qurandan sonra Kandül bacının işi bir az da artmış-

dı. Əvvəllər bir od gəlininə qulluq eləyirdisə, indi yeddisinin qayğısına qalırdı.

Şaum ata hücrəsinə çatanda Kandül artıq qapıda onu gözləyirdi. Baş kahinin işlərini aparan möbidyar (əsli-kökü müğ tayfasından olmayan kahin) onların ayağına qalxdı, hücrənin zil qaranlığında yoxa çıxdı. Keçib oturandan sonra Şaum ata soruşdu:

– Bacı, qızlarımızın rahatlığını pozan yoxdu ki?

Kandül təəccübləndi:

– Bu mümkünsüzdü, müqəddəs ata! Ulu Hörmüzdün dərgahında sakitlikdi! – dedi, fövrən soruşdu. – Şübhənizə səbəbmi var?

Məbədin bir qanadı "od gəlinləri"nin, onların rəfiqələrinin, qulluqçularının, məşşatələrinin ixtiyarına verilmişdi. Tikilinin həmin hissəsi kənar adamlardan qorunurdu. Baş Möbiddən başqa heç bir kişi ora qədəm basa bilməzdi.

Şaum ata ılıq təbəssümlə:

– Təəccüblənirsən, bacı! Məgər insanların hamısı Ulu Hörmüzdə tapınır? Heç Əhrimənə sitayiş eləyən yoxdur? – dedi.

Kandül razılaşdı:

– Əlbəttə var, müqəddəs ata! – dedi, sonra qətiyyətlə əlavə elədi. – Amma mən "od gəlinləri"nin səltənətini bir qara köpək kimi möhkəm qoruyuram! Buna şübhən olmasın!

Şaum ata mətləb üstə gəldi:

– Yaxşı, bacı, Pars qızı Kijəni dünən gözüyaşlı gördüm, söylə görüm, onun ağlamağının səbəbini öyrəndinmi?

Kandül dərhal cavab verdi:

– Əlbəttə, müqəddəs ata! Kijə dedi ki, yuxuda anamı görmüşəm, yadıma düşdü, qəhərləndim! – dedi. – Narahat olma, ovutdum, ona təsəlli verdim, sakitləşdirdim!

Qadın hər dəfə danışanda yarıqaranlıq otaq ecazkar, məlahətli səsindən elə bil işıqlanırdı. Şaum ata aramla:

– Bacı, onu başa salarsan ki, müqəddəs odların yavrusuna mehrabda ağlamaq yaraşmaz! – Sonra müqəddiməsiz sözünü dəyişdi. – Yəqin ki, vacib ziyarətçinin gəlişindən agahsan? – Şaum ata təsdiq əlaməti olaraq başını tərpədən Kandülə ağzını açmağa imkan vermədi: – Bacı, bundan sonra “od gəlinləri”nin, onların rəfiqələrinin, məşşatələrinin, boğça daşıyanlarının, hətta kənizlərinin bəzək-düzəyinə, geyiminə özün baxarsan. Hətta, nəğməkar qızları da, musiqiçiləri də gözdən qaçırma, onların da üst-başı yaraşıqlı olmalıdır.

– Müqəddəs ata, nəğməkar qızlarla musiqiçiləri mehrabın arxasında kim görəcək ki? – deyə Kandül təəccüblə soruşdu.

Şaum ata söylədi ki, vəliəhd bir müddət möbidlik dərsi alıb, onu aldatmaq çətindir, məbədin bütün gizlinlərindən xəbərdardır, mehrabın arxasına keçə bilər. Kandül vəliəhdin haçan gələcəyini öyrənmək istədi.

– Dəqiq vaxtı məlum deyil, bacı. Yəqin ki, bir neçə gün çəkəcək. Vəliəhdin gəlişinə qızlar da, musiqiçilər də mehrabda gözləməlidir, bütün məbəd əmələsi ayaq üstə olmalıdır. Vəliəhdin məiyyəti yetişən kimi mərasim başlanmalıdır.

Kandül narazılığını gizlətmədi:

– Havalar yaman soyuq keçir, müqəddəs ata! – dedi. – Qızlar uzun müddət soyuqda qalsalar, göm-göy göyərəcəklər, daha heç bir vəsmə, ənlik-kirşan kömək eləməyəcək, gözəl üzləri əvvəlki təravətini itirəcək, əsər-əlamət qalmayacaq!

Şaum ata fövrən cavab verdi:

– Odabaşıya mənim adımdan tapşırarsan ki, hər gün mərasim oldu, ya olmadı, tonqallar qalansın! Qoy, qızlarımız müqəddəs ocaqların istisinə qızınsınlar. Oldumu? Daha bir sözün yoxdursa, gedə bilərsən.

Kandül ala-toranlıqda Şaum atanın üzünü görmək üçün qabağa əyildi:

– Ata, şahənşah qurbanverməni dayandırmadı?

Qadının səsindəki təşviş bütün həyatını möbidliyə həsr eləmiş Şaum atanı açmadı, amma səbrlə:

– Hələ yox, bacı! – dedi, sonra danlaqla davam elədi. – Hər şeylə maraqlanmağı boşla, Kandül. Bizim işimiz mərasimi bütün qaydası ilə keçirməkdi.

Kandül geri çəkilmədi, təkidlə soruşdu:

– Ata, işdi, Böyük İdin 46-cı günü qurbanvermə qüvvədə qalsa, neynəyəcəyik?

Şaum ata Kandülü sakitləşdirməyə çalışdı:

– Hamı bilir ki, şahənşah «od gəlinləri»nin yandırılmasının tərəfdarı deyil. Güman ki, qurbanverməni dayandıracaq, – deyə yenə nəsə demək istəyən Kandülün sözünü ağzında qoydu. – Başqa cür olsa belə, şahənşahın əmrini yerinə yetirərik! Ulu Hörmüzdün yolunda verilən qurbanlar bizi qorxutmamalıdı. Yaxşı, bacı, daha vaxtım yoxdur, get, qızların yanında ol.

## Tətürlə şahənşahın söhbəti

Baş xəfiyyə, hamı gedəndən sonra durub yerini dəyişdi, taxta daha yaxın oturdu. Şahənşah bir qurtum şərab içib qədəhi gümüş siniyə qoydu. Axır vaxtlar bəng otları ilə

zənginləşdirilmiş müqəddəs haomaya[1] aludə olmuşdu. İçkidən sonra içindəki ağrılar səngiyirdi.

– Hə, necə gediş idi? Xoşuna gəldimi? – deyə qürurla soruşdu. – Misir yürüşü kimi əsrarəngiz səfərdən könlün açıldımı?

Tətür Atxa onu təriflədi:

– Ulu Xaqan, əla gediş idi! Hamını inandıra bildin. Hətta Ulu Möbid də inandı.

Şahənşah şübhə ilə iradını bildirdi:

– Burada səhvin var! Amitaxah atanı aldatmaq müşkül, – dedi, qısa fasilədən sonra təşvişlə soruşdu. – Şahzadə Urranın sui-qəsddə iştirakı səhihdirmi?

Tətür Atxa başını tərpətdi:

– Səhihdir, Ulu Xaqan! Hazırda səltənətin bütün xəfiyyələri, casusları göz-qulaqdadır, şahzadədən xəbər çıxan kimi ərz eləyəcəm. Bizi sui-qəsdlə qorxutmaq olmaz! – dedi, müsahibini sakitləşdirdi. – Yadındadı?

Şahənşahın yadında idi. Mərhum Midiya şahı Kaştariti başını yerə qoyan kimi qohumları iyirmi yaşlı Kiaksarın haqqını tanımaq istəmədilər. Əmiləri ölkənin düşmənləri ilə əlbir olmaqdan belə çəkinməmişdilər. Taxt-tac iddiaçıları o qədər çox idi ki, xeyirxah Kiaksar süd qardaşının məsləhəti ilə paytaxtı tərk eləmişdi. Yalnız iddiaçılar bir-birini qırıb-çatandan sonra geri qayıdıb hakimiyyətə yiyələnmişdi. Bunları xatırlayan şahənşah razılıqla:

– Sənin o vaxtkı gedişin dahiyanə idi, qardaş! – Və köksünü ötürüb əlini qədəhə apararaq şikayətləndi. – Sui-qəsdlərdən can qurtara bilmirəm, deyəsən, ömrümün axırına kimi mənimlə yol yoldaşıdılar.

---

[1] Haoma - bahalı şərab.

## Darasp sirrini Səccama açır

İmperiyanın bütün məbədlərində pars casusları vardı. Darasp Midiyanı dolanır, möbidlərin, dəsturların, möbidyarların topladığı məlumatları yığır, ən vaciblərini Parsarqada çatdırırdı.

O, "Bəyaz məbədə" ayaq açmışdı. Demək olar ki, hər gün gəlir, sütunların arxasında dayanıb mərasimlərə baxırdı, Kandülün oxuduğu mahnılara qulaq asırdı. Bundan Səccam ata təşvişə düşdü. O, Tətür Atxanın xəfiyyələrindən qorxurdu. Bir dəfə özünü mənasız yerə təhlükəyə atan Daraspa iradını bildirdi, bu barədə Parsarqada yazacağı ilə onu hədələdi.

Darasp bir az fikirləşdi, başqa bir yol tapmayıb başına gələnləri kahinə danışdı. Səccam eşitdiyi hekayətdən təsirlənib əsilzadəyə canı yandı:

– Nə müsibətlər çəkmisən, əlahəzrət! – dedi, sonra üzr istədi. – Bağışla, bayaq bilmədən könlünə dəydim.

Darasp onun üzrxahlığını qəbul eləyib kahinə Kandül barəsindəki şübhələrini söylədi.

– Güman ki, sənin Kandül bacı dediyin qadın mehrabdan qaçan həmin od gəlinidi, adını dəyişib. Üzünü də o günə özü salıb.

Səccam qardaş heyrətdən çığırdı:

– Ola bilməz! – dedi, sonra tərəddüdlə. – Yaxşı, indi neynəmək istəyirsən?

Darasp başını qaldırmadan:

– Hələ bilmirəm! Fikirləşməliyəm! – deyə məbədi tərk eləyəndə yeni ünvanını kahinə bildirdi. – Xidmətçilərimdən biri yoxa çıxıb, ələ keçib, ya qaçıb, bilmirəm, hər ehtimala qarşı qaldığım yeri dəyişmişəm ki, Tətür Atxanın adamları izimə düşməsinlər.

## Od gəlini Kijənin iztirabları

Böyük İdin 46-cı günü yaxınlaşdıqca gecələr od gəlini Kijənin gözünə yuxu getmirdi. Geniş hücrəsini səhərə qədər dolanır, tora düşmüş quş kimi çırpınır, xilas yolu axtarır, tapa bilmirdi.

Bir gün müqəddəs tonqala atılmalı, təni işıqlı dünyadan ayrılmalı, ruhu göylərə qalxmalı, Ulu Hörmüzdə qovuşmalıydı. Neçə gün idi ki, od gəlinlərinin bədəninə ətirli yağlar, saçlarına parıltı verən məhlul çəkilirdi. Yemək vaxtı süfrəyə gətirilən bütün içkilərə bəng otlarından hazırlanmış bihuşedici maye və tünd şərab qatılırdı.

Hər gün olduğu kimi bu gün də gözəlliyi ilə ürəkləri fəth edən od gəlinləri alqışlar altında mehrabda dayanıb yüzlərlə adamın diləyini dinləyirdilər.

Bu gün lap soyuq idi. “Od gəlinləri” əl-ayaq çəkilən kimi tələsik mehrabdan endilər. Kandül bacı axırıncı pillədə dayanıb od gəlinlərini bir-bir qarşılayır, rəfiqələrinin müşayiəti ilə hücrələrinə yola salırdı. Axırda bacının sevimlisi Kijə düşdü. Kandül ürəyi yanıqlıqla qoluna girdi:

– Gedək, od gəlini, rəngin yaman ağarıb! Yorğun görünürsən, sənə dincəlmək lazımdı! – dedi. – Çalış ki, səni kədərləndirən şeylər barədə düşünməyəsən!

Kijə könülsüz:

– Olmur, bacı! Gözümü yuman kimi dünya-aləm gözümdə qara geyinir, halsızlaşıram. Bu yorğunluğu canımdan ancaq əbədi odlar çıxara bilər, – dedi, məhzun-məhzun gülümsədi. – O gün də uzaqda deyil.

Bu vaxt sütunların dalından çıxan bir dilənçi onların qabağını kəsdi, diz çökdü, xırıltılı səslə:

– Odlar gəlini, mənim diləyim var! – dedi. – Amma təklikdə deməliyəm.

Kijə heyrətdən yerə mıxlandı. Dilənçinin cındır başlığına aldanmadı, Daraspı səsindən tanımışdı. Onu yolundan kənar eləməyə çalışan Kandül bacıya:

– İşin yoxdu, qoy diləyini söyləsin, – dedi, sonra əlavə elədi. – Bacı, get, qardaşımızın diləyini dinləyib gəlirəm!

Bu iltimasda Kandül bacı şübhə doğuran heç nə görmədi, onlardan aralandı. Od gəlininə diləyini təklikdə söyləmək istəyənlər çox idi.

Tək qaldıqlarına əmin olmaq üçün ətrafa boylanan Darasp:

– Mehribanım Kijə, məni gözləmirdin, eləmi?

Kijə hüznlə dedi:

– Dünən səni görəndə bütün varlığım sarsıldı! Damarlarımda donmuş qanım yenidən hərəkətə gəldi! Heyhat! Bu bir zəiflik idi, keçdi getdi! Yolumdan dönə bilmərəm. Mən barmağında müqəddəs atəşgahın üzüyünü gəzdirən od gəliniyəm! Bizə Ulu Hörmüzdün məsum yavruları deyirlər.

– Mehriban Kijəm, boşla bu sözləri! Sən mehrabda deyilsən, – deyə Darasp onun sözünü kəsdi. – Mənsiz sən məhv olacaqsan!

– Nə olar, demək nəsibim beləymiş, – deyə Kijə kədərlə pıçıldadı. – Nəyin bahasına olursa-olsun yaşamaq insana şərəf gətirmir. Mən verdiyim andları poza bilmərəm.

Darasp inildədi:

– Mən sənsiz yaşaya bilməyəcəm.

– Məndən uzaq ol, – deyə Kijə göz yaşı tökdü. – Sən mənim qəlbimi parçalayırsan!

Kandül bacı uzaqdan səsləndi:

– Od gəlini, gəlirsənmi?

Kijə aralanmaq istədikdə Darasp onun qolundan tutdu. Qız ondan gözlənilməyən bir sərtliklə oğlana acıqlandı:

– Əlini çək, zavallı, bilmirsən ki, "odlar gəlini" toxunulmazdır!

Darasp əlini ixtiyarsız geri çəkdi. Od gəlini Kandül bacıya tərəf tələsdi.

## Atəşgahın müştərisi

Bir qayda olaraq hər il, Böyük İdin yeddinci günü bayram şənlikləri başa çatır, gün günortanı keçəndə ziyarətçilərin, zəvvarların, ibadətçilərin, tapınanların ayağı məbədlərdən çəkilir, tonqallar öləziyir, əhali gündəlik qayğılarına qayıdır, atəşgahlara təntənəli sükut çökürdü. Yalnız bundan sonra mərasimlərin bütün ağırlığını çiyinlərində daşıyan möbid qardaşlar, möbidə bacılar, cəmi məbəd əmələsi yorğun-ağrın sövməsinə tələsirdi.

Bu il alınmadı. Vəliəhd Astiaqın gəlişini gözləyən "Bəyaz məbəd"də hamı ayaq üstə idi. Səccam qardaşın dincəlmək növbəsi çatanda sevindi. Elə təzə uzanmışdı ki, keşikçinin harayına qalxmalı oldu. Artıq axşam düşürdü. Başını hücrənin qapısından çıxarıb qeyzlə soruşdu:

– Nə olub?

Keşikçi bir az səsini endirib bildirdi ki, şamanxanadan gəlib şərab istəyirlər.

Qala divarlarından xeyli aralı salınmış skif məhəlləsində Tanrı Aresin şərəfinə tikilmiş məbədə xalq arasında "şamanxana" deyilirdi. Səccam qardaş laqeyd halda əlini yellətdi:

– Elə də vacib adamlar deyil! Qoy, səhər gəlsinlər, – dedi, hücrəsinə girmək istədi.

Keşikçi qabağına qaçdı:

– Şaman getmir, deyir, şərabsız qayıda bilmərəm, – dedi. – Arabası da zirzəminin qabağındadı. Daimi müştərimizi əliboş qaytaraq, deyirsən?

Səccam qardaş hirsləndi:

– Sən icazəsiz içəri araba buraxmısan? – deyə çımxırdı. – Baş Möbidin qəzəbindən qorxmursan?

## Skif Ağit

Səccam keşikçi ilə ağız-ağıza verməyin mənasızlığını anlayıb başını qapıdan çəkdi, qolsuz qalın əbasını sədrinin[1] üstünə geyindi, kuştini üç dəfə belinə dolayıb dörd düyünlə bağladı, hücrədən çıxıb anbara tərəf üz tutdu. Çökəkdə, zirzəminin qapısında dayanmış arabada tanış skif oturmuşdu. Səccam hirslə:

– Ulu Hörmüzdün gündüzü sizə azlıq eləyir? Elə gərək Əhrimən kimi gecə gələsiz? – dedi, sonra zirzəminin qapısını açan azad qullara buyurdu (bunlar məbədin bazardan alıb azadlıq bəxş elədiyi qullar idi): – Özünüzlə məşəl götürün, içəri qaranlıqdı.

Qullar adətkərdə bir hərəkətlə arabadakı çənbərləri endirdilər, dığırladıb apararkən zirzəminin qapısında yanan məşəllərdən birini özləri ilə götürdülər.

Skif sərxoş səslə:

– Hörmətli Səccam, şər hələ təzə qarışır, gecə deyil... Bağışla, bu gün zəvvarlarımız çox idi. Məbəddəki şərab ehtiyatı bivaxt qurtardı!...

---

[1] Ağ köynək

Səccam rişxəndlə:

– Sizin zəvvarlar məbədə şərab içməyə gəlirlər, ya ibadət eləməyə?

Səccam qardaşın bu skifdən xoşu gəlmirdi. Adı Ağit idi. Ondan həmişə pəyə iyi gəlirdi, yəqin ki, gecələr at axurunda yatırdı. Dillərini də əla bilirdi, lazım gələndə lap midiyalı kimi səlis danışırdı.

Ağit qətiyyən incimədi:

– Skiflərin tanrıları çoxdu! Onlar bütün tanrıların şərəfinə içməsələr, ibadətləri batil sayılır.

Səccam gülüşünü saxlaya bilmədi:

– Əcəb ibadətdi! Bunların məbədinə bax! Elə bil meyxana açıblar! Belə getsə, sizə çaxır çatdırmaq olmaz ki! – dedi.

Skif də güldü:

– Nədi, çaxırı havayı verirsən bəyəm, şikayətlənirsən də? Sizin bu sirkə dadı verən çaxırınızı aparanda ovcunuza gümüş pul sayırıq! Bizim hesabımıza məbədiniz varlanır, hələ naz da satırsan!

Əslində, skifin dediyində bir həqiqət vardı. Bir neçə il bundan əqdəm, şahənşah Kiaksar paytaxtın qala divarlarının o tərəfində məhəllə salmış skiflərə, cuhudlara, yunanlara, hindlilərə ibadətgah tikməyə icazə vermişdi. Təzə ibadətgahlar şərabı “Bəyaz məbəddən” alırdılar. Ən yaxşı müştəri skif şamanları idi. Ağına-bozuna baxmadan, hətta işə yaramayan, turş, lap zəqqətun dadan çaxırları çənbər-çənbər alıb aparırdılar.

Səccam söhbəti dəyişdi, mülayimliklə:

– Həmişə cüt gəlirdiz? O biri tayın hanı? Hə, Bittey şamanı deyirəm. Yaman şən adamdı, heç vaxt zarafatından qalmırdı. – Soruşdu.

Skif gülərək:

– Hə, o zarafatcıl dostun qaçıb! Baş şamanın saxlancına əl gəzdirib aradan çıxıb. İndi onu axtarırlar. – Söylədi.

Səccam nifrətlə dodaqlarını büzdü:

– Sizdə şamanlar da oğurluq eləyir?

Ağit onun dediyinin başına ip salmadı:

– Kahin də adamdı da! – dedi. – Bundan sonra alveri səninlə mən eləyəcəyəm, Bittey şamanı unut, – dedi.

Fəhlələr çənbərləri dığırladıb gətirdilər. Ağit yerə hoppandı. Fəhlələrlə köməkləşib çənbərləri arabaya qaldırdı. Səccam Ağitin verdiyi bir ovuc gümüş pulu saydı, dilini razılıqla nırçıldadıb, xalatının dərin cibinə qoydu, skiflə sağollaşmadan hücrəsinə tərəf uzaqlaşdı.

## Lidiya qızılı

Kahin heç üst paltarını çıxarmağa macal eləmədi, Ağit içəri təpildi. Səccam özünü saxlaya bilmədi, kobudluqla soruşdu:

– Yaxamdan əl çəkməyəcəksən? Daha nə istəyirsən?

Ağit onun kobudluğunu qulaqardına vurub haoma istədiyini bildirdi. Kahin başını buladıqda skif cibindən bir neçə gümüş pul çıxartdı:

– Hörmətli Səccam, baş şamanımız xəstələnib, haoma istəyir! Deyirlər, dərdinə əlac eləyəcək, – dedi. – Çox istəmirəm, bir dolça versən minnətdar olaram.

Səccam həqiqətən özündən çıxdı:

– Ay kafir, pullarını gözümə soxma! Bilirsən ki, müqəddəs içkinin ixtiyarı məndə deyil, baş Möbiddədir...

– Sən məni aldada bilməzsən, Səccam qardaş! Mən bilirəm ki, sən məbəddə baş Möbiddən sonra ixtiyar sahibisən.

Neynək, özün verə bilmirsən, məni baş Möbidin yanına ötür, qoy, xahişimi ona çatdırım, – deyə Ağit dil tökdü.

Səccam hirsli-hirsli qımışdı:

– Bəli də! Elə bilirsən, müqəddəs atanın işi elə sənin kimi sərxoş kafirlərdi! Açıl başımdan!

Ağit daha yalvarmadı, yenidən əlini cibinə atıb bir qızıl pul çıxartdı, Səccama uzatdı:

– Bunu baş Möbidə versən, məni qəbul eləyəcək! – dedi.

Səccam hücrəsini gün kimi işıqlandıran qızıla heyranlıqla baxdıqda skif astadan dedi:

– Bu, Lidiya qızılıdı! – dedi və mənalı-mənalı Səccama baxdı. – Hardan aldığımı soruşma, bunu sənə yox, baş Möbidə deyəcəyəm.

Kahinin beynindən nə keçdisə, skifdən gözləməyi xahiş elədi, baş Möbidin hücrəsinə tələsdi. Tezliklə qayıdıb dedi:

– Sabah gələrsən! Baş Möbid indi yerində yoxdu.

## Daraspın Kijəni qaçırmaq istəyi

Səhərisi məbədə gələn Darasp məsləhət istədikdə Səccam inamsız halda:

– Bəlkə səhv eləyirsən? – deyə soruşdu. – Kandül bacı baş Möbidin sevimlisidi. Gedib şikayət eləsə, ikimiz də məhv olarıq.

– Cəhd eləmək lazımdı! – deyə Darasp qızğınlıqla dilləndi. – Onun köməyi olmadan Kijəni buradan qaçırmaq olmaz.

– Əgər qəti əminsənsə...

– Əminliyimi indi yoxlayarıq, – deyə Darasp kədərlə gülümsədi. – Adam göndər Kandülü çağırsın. Gələndə, onu bir yerdə sorğu-suala tutarıq.

Səccam onun söylədiyi kimi elədi. Çıxıb gözətçini Kandülün dalınca göndərdi. Sonra dünən axşam başına gələni danışdı:

– Əlahəzrət, sən bilən, sərxoş skifin baş Möbidlə nə işi ola bilər? Lidiya qızılı onda nə gəzir? – deyə soruşdu: – Buna necə baxırsan? Onları güdümmü?

Daraspın başında aləm bir-birinə qarışmışdı. Kahinin söylədiyi əhvalatın məğzini tuta bilmədi, sadəcə:

– Boş şeydir, bundan da vacib işlərimiz var! – dedi.

## Darasp Kandülün sirrini açır

Bu vaxt qapı açıldı. Kandül hücrəyə girəndə Səccam qardaş kənarda oturmuş yad adamı ona təqdim elədi:

– Bacı, keç əyləş, bu adam bizim kahin qardaşlarımızdandı, – dedi. – Sənə bir neçə sualı var.

Keçib oturandan sonra Kandülün məlahətli səsi hücrəni doldurdu:

– Eşidirəm, kahin qardaş.

Darasp bacının səsindəki qüdrətdən fərəhlənərək açıq danışdı:

– Məni sənin hamiliyində olan "od gəlinləri"nin biri maraqlandırır.

– Nə mənada maraqlandırır?

– Kişi kimi maraqlandırır!

Kandül bir Səccam qardaşa, bir də yad kahinə baxdı, sonra qətiyyətlə:

– “Od gəlinləri” Ulu Hörmüzdə məxsusdu! Onlarla bəni-insan maraqlana bilməz, – dedi, ancaq marağını gizlədə bilmədi. – Hansı od gəlinindən söhbət gedir?

– Məni Kijə maraqlandırır, bacı. Səndən gizlətməyəcəyəm, o qız bura düşməzdən qabaq nişanlım olub! – deyə Darasp məhəbbətinin tarixçəsini qısaca Kandülə danışdı. – Mənə kömək elə, bacı!

– Sənin söylədiklərin ürəyimi parçalasa da, heç nə eləyə bilmərəm. Hətta, istəsəm də, bu mümkün deyil! İndi onlar Ulu Hörmüzdə qovuşmaq üçün hazırlaşırlar. – Udqundu, birdən hirslə əlavə elədi. – Mən yalnız Səccam qardaşın xətrinə dediklərinə dözürəm. Ulu Hörmüzdə and olsun ki, mən səni Tətür Atxanın xəfiyyələrinin əlinə verərdim!

Darasp onun hədə-qorxusunu eşitmirmiş kimi, mənalı-mənalı baxdı:

– Mən təhsilimi müqəddəs Şiz şəhərində almışam! Orada dillərdə dastan olan bir rəvayət dolaşır. Adamlar indi də mehrabdan qaçmış gözəl səsli Vəçəni unutmayıblar. Xəfiyyələr hələ də onu axtarır.

Kandülü elə bil ildırım vurdu. Dili dolaşdı:

– Məni ələ verməyin! Nə desəniz, eləyərəm, – dedi.

– Nə qədər ki, sözümüzdən çıxmayacaqsan, səni ələ vermərik, – deyə Darasp bədxahlıqla gülümsədi, onu dərhal xəbərdar elədi. – Bizi aldatmaq fikrinə düşsən, özünü ölmüş bil! Bilirsən ki, barəndə verilən qərar qüvvədədir! Tutan kimi tonqala atacaqlar!

Kandül zəif bir ümidlə:

– O vaxtdan beş il keçib, – dedi. – Mən indi kimə lazımam!

– Heç elə şey yoxdu! Elə xəyanətlər var ki, illər keçəndən sonra da cəzasız qala bilməz! Bu görk üçün lazımdır, – dedi.

– Mən özüm öz cəzamı vermişəm! – deyə Kandül üzünü göstərdi. – Ələ keçməmək üçün cüzam xəstələrinə qoşuldum. Yara-xora məni bu günə qoydu.

Daraspın ona yazığı gəlsə də:

– Sənə bu da azdı! – dedi.

## Daraspla Kijənin ikinci görüşü

Elə həmin gün Kandülün köməyi ilə baş tutan ikinci görüş də Daraspa könül rahatlığı gətirmədi. Kijə yad kimi aralı dayanmışdı. Darasp titrək səslə:

– Mehribanım Kijə! Mən səni tapmaq üçün Midiyanı başdan-başa gəzmişəm! Əldən-ayaqdan düşənə qədər axtarmışam. Ümidimi heç vaxt itirməmişəm, – dedi, və qıza tərəf bir addım atdı: – İndi əbədi odlar da səni əlimdən ala bilməz!

Kijə əlinin hərəkəti ilə onu dayandıranda Darasp alındı:

– Məni görməyinə heç sevinmədin? – deyə soruşdu.

– Ulu Hörmüzdün üzüyünü gəzdirən qız yad kişinin gəlişinə sevinə bilməz, – deyə Kijə dilləndi.

Darasp qızğınlıqla:

– Deməli, mən yad kişi oldum? Neynək! – dedi, sonra gizli bir ümidlə söhbəti dəyişdi. – Söylə görüm, necə gəlib bura düşdün?

Kijə köksünü ötürdü:

– Qiyam başlar-başlamaz kəndin bütün kişiləri Parsraqada getdilər, bir də geri qayıtmadılar. Bir həftə keçmədi ki, Midiya əsgərləri kəndə girdilər. Evlərimizi yandırdılar, qadınları, qızları, kiçik uşaqları qabağına qatıb apardılar. Bizi Ekbatanın hərrac bazarına çıxartdılar. Sənin bacılarını

bir tacir aldı, məni qoca bir kişi aldı. Elə bildim özünə arvad aparır, özümü öldürəcəkdim, Ulu Hörmüzdün rəhmi gəldi, demə, qocanın əhdi varmış, məni Bəyaz məbədə bağışladı. Od gəlini libasını geyinəndən sonra bütün həyat gözümdə dəyişdi.

– Mən səni xilas edə bilərəm! Hələ gec deyil! – deyə Darasp pıçıldadı. – Böyük İdin 46-cı gününə nə qalıb ki!

– Mən artıq özümü hazırlamışam, odun-alovun qoynuna atılmağa hazıram!

Kandül başını içəri uzatdı:

– Qardaş, od gəlinləri mehraba çıxmalıdı! – dedi, Daraspa qorxa-qorxa baxıb vəd verdi: – Lazım olsa, sizi yenə görüşdürərəm...

Kijə arxaya baxmadan Daraspdan aralandı, açıq qapıdan bayıra çıxdı.

## Skif Ağit Şaum atanın hüzurunda

Səccam deyilən vaxtda gələn skifi yanına alıb baş Möbidin hücrəsinə apardı. Şaum ata ibadətini bitirsə də hələ də diz üstə oturmaqda idi. Hücrəyə girən skifi əlilə yaxına çağırdı. Söhbətdə iştirak eləmək arzusu ilə oturmaq istəyən Səccama astadan dedi:

– Qardaş, bizi tək burax.

Yeddi rəngli qalın qala divarları ilə əhatə olunmuş Ekbatanın axırıncı qala divarlarına söykənmiş “Bəyaz məbəd”, əslində, el-oba arasında “Qara məbəd” kimi tanınırdı. Bunun səbəbi vardı. Əvvəla, qara daşlı qala divarları ilə ağ daşlı qala divarları arasındakı geniş ərazidə şəhərin ən kasıb əhalisi yaşayırdı. Məhəllələr böyük olsalar da sakinləri,

deməkolar ki, cəmiyyətin tör-töküntüləri idi. Bura avaraların, dilənçilərin, küçə fahişələrinin, günəmuzd fəhlələrin, cəza çəkmiş, azadlığa buraxılmış qulların, oğruların, şahənşah Kiaksarın ardı-arası kəsilməyən müharibələrində şikəst olmuş əsgərlərin, hər cür başkəsənlərin məskəniydi. Burada yaşayanları nə qızıl hasarın arxasındakı Şah məbədinə, nə əsilzadələrin yığıldığı Göy məbədə, nə də əsnafın, sənətkarların tapındığı Narıncı məbədə buraxırdılar. Onların getdikləri yer elə "Qara məbəd" idi.

Şaum ata Amitaxah atanın xeyir-duası ilə cavan yaşında baş kahin rütbəsinə ucalmışdı. Lidiya müharibəsində iştirakı ona ad-san gətirdi, şahənşahın nəzər-diqqətini cəlb elədi. Ordugahın səyyar məbədini ucaltmış, yaralı çadırları qurmuş, loğman-kahinlər hazırlamışdı.

Onun Bəyaz məbədə gətirdiyi yenilikləri hətta köhnə fikirli Ulu Möbid Amitaxah ata da alqışlamışdı, bunları ölkənin başqa atəşgahlarına da məsləhət görmüşdü.

... Şaum ata skifə qarşısında yer göstərib dərhal onu suala tutdu:

– Hə, skif, mənə nə demək istəyirsən? Lidiya qızılı səndə hardandı? Səni bura kim göndərib?

Ağit astadan, tamamilə ayıq səslə onun sözünü kəsdi:

– Müqəddəs ata, mən skif deyiləm, midiyalıyam. Müqəddəs müğlər vətəni Muğandanam. Uşaq ikən skiflərə əsir düşdüm, qul oldum. Bura məni heç kim məqsədli göndərməyib, özüm gəlmişəm. Gəlmişəm doğma ölkəmə xidmət eləyim.

Şaum Ata müsahibinin qəlbini oxumağı bacarırdı. Elə bu səriştəsinə görə də əsil müğ kimi şöhrət tapmışdı. Qəflətən Ağitin əlindən tutdu, bir anlığa düz gözlərinə baxdı. Bu o

qədər sürətlə baş verdi ki, müsahibi yayına bilmədi. Baş Möbid əlini çəkdi:

– Hə, sən doğru danışırsan, məni aldatmırsan! – dedi, sonra əlavə elədi. – Biz yerliyik, mən də Muğandanam!

Bunu eşidən Ağitin gözləri yaşardı, bürüncəyinin çiynini açdı, damğa yerini göstərdi, yanğı ilə dilləndi:

– Mənim kimi bədbəxt adam çətin tapıla! Öz ölkəmdə, doğma Midiyamda qulam. Başıma gələnləri eşitsən, müqəddəs ata, cızdığın çıxar.

Şaum ata onun halından mütəəssir oldu, yerlisinə ürəyi yandı, amma söhbəti məcrasına qaytardı:

– Qardaşım, bu söhbətə vaxtımız olacaq! Sən Lidiya qızılından danış, söylə görüm, əlinə hardan keçib? – Soruşdu.

Baş Möbidin "qardaşım" kəlməsindən Ağitin üzü işıqlandı, sakitləşdi:

– Mən qızılı bir skifdən almışam. Bir bardaq şərab istədi, mən də verdim.

– Bir bardaq şəraba bir qızıl? – deyə baş Möbidin sifəti açıldı. – Çox deyilmi?

Ağit də təbəssümlə:

– Müqəddəs ata, həmin adam sərxoş idi, – dedi. – Bildiyimi indi ətraflı söyləyəcəm...

## Ağit qəsdin üstünü açır

Bu vaxt hücrənin qapısı açıldı, Səccam qardaş özünü içəri təpdi:

– Saraydan gələnlər, müqəddəs ata, səni istəyirlər, – dedi. – Naibi-ləşkər Harpaqın köməkçisi sərkərdə Kittandı. İki kiçik zabit də onu müşayiət eləyir.

Baş Möbid bir anlıq tərəddüddən sonra:

– Onları yeməkxanaya apar, yaxşı şəraba qonaq elə, mən də söhbətimi bitirib gəlirəm, – dedi.

Səccam qardaş gedəndən sonra Şaum ata skifi bir daha tələsdirdi:

– Görürsən, vaxtım yoxdu, söhbətini qısa elə.

Ağit dilləndi:

– Bir neçə aydı görürəm, skif məhəlləsi genişlənir, yeni-yeni adamlar gəlir. Məlumdu ki, skifə ev lazım deyil, at-arabası oldu, bəsidi... Təzə gələnlər özlərini tacir kimi aparsalar da, davranışından dərhal bilinir ki, bunlar keçmiş əsgərlərdi, geyimlərinin altında əsləhə gəzdirirlər. Dünən gecə meyxanaya çaxır aparmışdım. Özüm də yaxşıca vurmuşdum, möhkəm dəm idim. Meyxana isti idi, bayırda sazaq vardı, məbədə qayıtmağım gəlmirdi, xəlvətə salıb nərdivanla bana qalxdım. Özümü isti küləşin arasına verdim, ləzzətlə yatdım.

Baş Möbid köksünü ötürdü:

– Səni and verirəm Ulu Hörmüzdə, qısa elə, – deyə xahiş elədi.

– Qurtarıram, müqəddəs ata! – deyə Ağit yenə rəvan səslə dilləndi. – Səhərə yaxın səsə oyandım. Taxtaların arasından aşağı baxdım, gördüm içəri adamla doludu. Ancaq aralarında bircə tanış sima görmədim. Bunlar vaxtını meyxanada keçirən əyyaşlara oxşamırdılar. Hamısı skif əyanlarıydı. Ortadakı masada oturmuş iki nəfərin ətrafına toplaşmışdılar. Onlardan birinə qnyaz Atey, digərinə şahzadə Urran müraciət eləyirdilər.

Baş Möbid diksinərək tələsik soruşdu:

– Şahzadə Urran? Səhv eləmirsən ki?

Ağit başını buladı:

– Müqəddəs ata, mən özüm səndən daha çox təəccüblənmişdim! Deyəsən, məclisin axırı idi. Skiflər bir-bir gəlib şahzadənin əlini öpürdülər. Lap elə bu vaxt daha bir skif içəri girdi. Qnyaz Atey sevinclə "Bu da bizim elçimiz! – dedi. – Hörmətli Aqar, biz səni çoxdan gözləyirik!" – dedi. Aqar vaşaq dərisindən olan kürkünü çıxararaq "Tətür Atxanın adamları gecə də yatmır! Hey evimin həndəvərində fırlanırlar! Onları yuxuya verməmiş nə təhər gəlim! – söylədi, sonra şahzadə Urranı qucaqladı. – Şahzadə, darıxma, hər şey danışdığımız kimi olacaq! Bir gün Midiya taxtına səni çıxaracağıq!"

Ağit söhbəti yarımçıq qoydu, ləmədəki şərab bardaqlarına həsrətlə baxıb dodaqlarını yaladı, davam elədi: – Şahzadə Urran qaşqabağını töküb kənara çəkildi: "Keçən dəfə də elə deyirdin" dedi. Elçi Aqar şahzadəyə: "Sən gəl, kin saxlama, biz hamımız sənin üçün çalışırıq! Bikini meşələrində yekə bir ordu yaradıram, sərkərdəsi də sən olacaqsan! – dedi. – Anan Aqniyaya söz vermişəm ki, oğlun Midiyanın padşahı olacaq!" Şahzadə ilə elçi yenidən qucaqlaşdılar. Bundan sonra çox oturmadılar. Qnyaz Atey dedi ki, tezliklə yenə yığışarıq, doyunca danışarıq. Onlar dağılışanda xoruzun birinci banı idi. Bu qədər, müqəddəs ata.

Bu yerdə baş Möbid əlini sinəsinə qoyub Ağitə baş əydi:

– Sən həqiqi midiyalı kimi hərəkət eləmisən! – dedi. – Bundan sonra eşitdiklərini, gördüklərini yubanmadan mənə çatdırarsan.

– Bəs, mənim taleyim necə olacaq? Əgər skiflər bilsələr ki, mən onları satıram, mənim həyatımın qiyməti bir dolça çaxırdan da ucuz olacaq, – deyə Ağit dilləndi.

Baş Möbid gülümsədi:

– Bundan sonra öz həyatın üçün narahat olma!

## Müharibə hazırlığı

Baş Möbid yeməkxanaya girəndə artıq hər iki kiçik zabit sərxoş idi. Hətta, sərkərdə Kittanın da dili topuq çalırdı. Gəlişinin səbəbini dirənə-dirənə izah elədi:

– Naibi-ləşkər Harpaq mənə tapşırıb ki, üzümlükləri olan bütün məbədlərə baş çəkim, şərab ehtiyatının miqdarını öyrənim, müqəddəs ata, – dedi. – Haoma ehtiyatından başlayaq.

Kahinlərin "müqəddəs içki" adlandırdığı yaxşı şərabı əhalinin aşağı təbəqəsi "haoma" adlandırırdı. Belə məlum olurdu ki, qonaq nəsli-nəcabəti olmayan bir ailədəndi. Bu da təəccüblü deyildi. Sərkərdə Harpaq aşağı təbəqədən olanlara üstünlük verirdi, əyan balalarından uzaq qaçırdı.

Baş Möbid Kittanın deyimini dolayı yolla təshih elədi:

– Bu günə "müqəddəs içki" ehtiyatımız əlli bardaqdı. Və sizi inandırıram ki, o çox möhkəm qorunur, – dedi. – Adi şərab isə boldu, minlərlə dolu küpümüz var.

Kittan enli qolçağından bir gil lövhəcik çıxartdı, tunc tiyə ilə baş Möbidin söylədiklərini qeyd elədi.

Məbədlərdəki şərab ehtiyatı ordunun ixtiyarında idi. Müharibə başlayanda dəri tuluqlara doldurulub azuqə daşıyan arabalara yüklənirdi. Bəzən azuqəsi gecikmiş əsgər daş kimi arpa cadıya möhtac qalırdı. Onda çaxır köməyinə gəlirdi. Daş kimi çörəyi cama doğrayır, üstünə tuluqdan çaxır əlavə eləyir, yumşaldıb yeyirdi. Haoma isə yalnız yüksək çinli zabit heyətinə verilirdi.

Kittan gil lövhəciyi qolçağında gizlətdi, sərxoş bir dovtələbliklə:

– Haoma ehtiyatını iki dəfə artırmaq olmazmı? – deyə soruşdu .

Baş Möbid təbəssümünü gizlətdi:

– Bu mümkün deyil, hörmətli Kittan. Onu hazırlamaq uzun vaxt tələb eləyir, bizim istəyimizdən asılı deyil.

Kittan nəsə bilirmiş kimi başını tərpətdi, qalxdıqda kiçik zabitlər də ayağa sıçradılar. Onlar baş əyib dinməz-söyləməz yeməkxanadan çıxdılar. Kittan hallandığından atın üstünə zorla qalxdı:

– Müqəddəs ata, mənə elə gəlir ki, şahənşah yenə müharibəyə hazırlaşır. Güman ki, məbədləri ziyarət eləməyə vaxtı olmayacaq, – dedi, sonra kahinin sözsüz sualına cavab verdi. – Nizələrin tuşlandığı ölkə hələ məlum deyil, qoşunlar ordugaha toplanandan sonra bilinəcək. Görünür, şahənşah müharibəsiz keçinə bilmir.

## Tətürün vəzifələri artır

Tətür Atxa əsilli, köklü-köməcli müğlərdəndi, Möbid kimi geyinirdi, amma möbidzadə olsa da, məbəddən cavan yaşında uzaqlaşmışdı, qəlbinə daha yaxın olan bir işin qulpundan yapışmışdı. Xidmətə zindanbanlıqdan başlamışdı. Hökmdarın qəzəbinə tuş gələn əyan-əşrəfi əlinin altından keçirirdi. Vəzifəsini ləyaqətlə yerinə yetirdiyindən bədnam şöhrəti özündən qabaqda irəliləyirdi. Tətür Atxa təkcə zindan rəisi deyildi, həm də şahənşahın baş xəfiyyəsiydi. O, dövlətin görən gözü, eşidən qulağıydı. Nəinki Ekbatanda, nəinki Midiyada, nəinki satraplıqlarda, hətta qonşu ölkələrdə baş verənlər də gözündən qaçmırdı. Tabeliyində yüzlərlə casus, xəfiyyə, araqarışdıran, xəbərçi vardı. Xəzinədən ona ayrılan vəsaiti qızırqanmadan xərcləyirdi, təki heç bir hadisə onun iştirakı olmadan baş tutmasın.

Şahənşah Kiaksar, bir vaxtlar, xəyanətkar baş xacəni zindana saldırandan sonra onun vəzifəsini də Tətür Atxaya həvalə elədi. İlk dəfə xəfiyyəbaşını titrəmə tutdu, hərəmxanaya göz qoymaq xatalı iş idi, hər an şahənşahın qəzəbinə tuş gələ bilərdi.

## Aspaz

Tətür Atxa dərgahdan çıxan kimi zindanın böyründəki hücrəsinə qayıtdı. İçəri girəndə qapıda dayanmış fərraşlardan birinə astadan nəsə tapşırdı. Hücrədə masa arxasında çalışan mirzələrdən yaşlısı dərhal ayağa qalxdı, adətkərdə hərəkətlə bardaqdan dolçaya bir-iki qurtum haoma süzdü, ağasına uzatdı. İçkidən sonra yorğunluğu tədricən canından çıxan Tətür Atxa qonşu otağa keçdi. Fərraşın qabağına salıb gətirdiyi qadına dedi:

– Sən kimə minnətdar olduğunu deyəsən, unutmusan?

Geyim-kecimli gözəl qadının rəngi ağardı:

– Elə şeymi olar? – dedi. – Mən həmişə ağamın quluyam!

Tətür Atxa qırx ildi şahənşaha xidmət eləyirdi. Hörümçək kimi toxuduğu torlar bütün imperiyanı bürümüşdü. İşinə yararlı adamları cəmiyyətin aşağı pilləsinə düşmüş, səfalət içində yaşayan gözəl qız-qadınların arasında tapırdı. Onlara müəllim tutur, hərtərəfli hazırlayır, yedizdirir-içirdir, geyindirib-kecindirir, yalançı şəcərə verirdi. İllər keçdikcə bu gözəllər şah hərəmlərinin, saray xanımlarının qulluqçusuna, məşşatəsinə, dərzisinə, boğça daşıyanına çevrilirdilər. Şahənşah tərəfindən satraplara, hakimlərə, vassallara, canişinlərə hədiyyə göndərilən qadınların da arasında ola

bilərdilər. Bu adamların ayağına bağlanmış gözəgörünməz tellər Tətür Atxanın əlindəydi. Lazım olanda həmin adamları hərəkətə gətirmək üçün barmağını tərpətmək kifayət idi.

Qarşısında dayanan qadın belələrinin bariz nümunəsi idi. Vaxtında şahənşahın arvadlarından biri, Skif çarı İşpakın bacısı xanım Aqniyanın xidmətinə verilmişdi. Adı Aspaz olan qız Pars satraplığındandı. Tezliklə xanımın etibarını qazandı. Əsl tapıntı idi, əlindən nə desən gəlirdi. Məşşatəliyi, dərziliyi, türkəçarəsi, aşpazlığı, qan almağı bacarırdı. Xanım da, şahzadə Urran da çiməndə Aspazsız keçinmirdi. Onun hamamda əlləri, barmaqları, ayaqları ilə çıxartdığı oyundan sonra ölü də dirilərdi. Bir sözlə, Aspazın bilmədiyi şeyə qurd düşərdi.

Aspaz xanım Aqniya barəsində öyrəndiyini ağasına vaxtlı-vaxtında çatdırırdı. Amma Tətür Atxa arada hədə-qorxu gəlirdi ki, qadın cızığından çıxmasın, qudurub yolunu azmasın.

– Eləsə, söhbət elə görüm, xanım Aqniyanın yasdan çıxmağının səbəbi nədi?

Tətür Atxanın donuq gözlərinə, nazik dodaqlarına, meyit rəngində sifətinə, qırxıq uzunsov başına vahimə ilə baxan Aspaz tələsik pıçıldadı:

– Bilmirəm, mənim ağam! – dedi. – Biz özümüz də mat-məəttəl qalmışıq. Xanım Aqniya şahzadə yoxa çıxandan yas saxlayırdı. Elə bil birdən-birə havalanıb, musiqiçiləri çağırıb, düşüb ortaya oynayır, hamımızı da rəqs eləməyə vadar edir.

Tətür Atxa onun sözünü kəsdi:

– Yaxşı, xanım Aqniyada dəyişiklik haçandan başlayıb? – deyə soruşdu, masaya yanaşdı, ağ kətanı götürdü, altında olan alətləri sahmana saldı. – Ətraflı danış...

– Dünən günortadan sonra, mənim ağam! – deyə qulluqçu masanın üstündəki işgəncə alətlərinə dəhşətlə baxıb birnəfəsə düdüləyib üyüdüb-tökdü. – Xanım İd bayramının dördüncü günü geyinib-kecindi, bizə də hazırlaşmaq əmri verdi, xacəyə Bəyaz məbədə getmək istəyini çatdırdı. Dərhal təxti-rəvanlar gəldi, hamımız mindik. Keşikçilər qabağa düşdülər, Bəyaz məbədə gəldik. Burda zəvvarlar, ziyarətçilər, ibadətçilər, sitayiş eləyənlər çox idi. Ziyarət elədik, geri qayıdanda artıq xanım dingildəyirdi, ovqatı yuxarıydı, əvvəlki adam deyildi.

– Məbəddə xanıma yanaşan oldumu?

– Xeyr, ağam, keşikçilər heç kəsi yaxın qoymurdular. Yalnız qoca bir dilənçinin ah-zarı xanımın diqqətini cəlb elədi, onun işarəsi ilə qocanı təxti-rəvana yaxın buraxdılar. Mərhəmətli xanım ona sədəqə verdi. Dilənçi də boynunda gəzdirdiyi balaca mis lövhəciyi çıxardıb xanıma bağışladı.

Tətür Atxa düşüncəli halda:

– Lövhəcik? Lövhəciyin üstündə yazı var idimi? – Soruşdu.

Aspaz qətiyyətlə:

– Xeyr, mənim ağam, üstündə bir dairə cızılıb, içində iki göz, ağız-burun çəkilib. Vəssalam, yadımda qalan budur... – dedi. – Həmin lövhəcik indi də xanımın bəzək masasındadır.

Tətür Atxa maşaya oxşar bir alət əlində otağı gəzdi, sonra keçib ayaqlarını altına yığıb oturdu, belini divara söykədi:

– Başqa bir sözün yoxdursa, get, – dedi.

## Tətür Atxa Aspazın inadını qırır

Aspaz Tətür Atxanın yarızirzəmidə yerləşən xanəsindən az qala qaça-qaça uzaqlaşsa da vücudunu saran qorxu keçmirdi. Qızıl qala divarlarının əhatəsində, təpədə yerləşən şah saraylarına tərəf irəlilədikcə düşüncəsi rəvanlaşdı. Ağlına nə gəldisə, yarı yolda dayandı, qorxusuna dov gəlib geri qayıtdı.

Onu tanıyan fərraşların yanından dinməz ötdü, bir az bundan qabaq çıxdığı otağa girdi. Tətür Atxa tövrünü dəyişmədən oturmuşdu, elə bil onun qayıtmağını gözləyirdi. Qadın onun qarşısında diz çökdü:

– Mənim ağam, günahımdan keç! Sənə yalan demişəm, – dedi. – Əhrimən məni yoldan çıxartdı.

Tətür Atxanın üzündə özündən razı bir təbəssüm peyda oldu, qadının mütiliyinə aldandı:

– Geri qayıdacağını bilirdim, – dedi. – Hə, indi gizlətdiyin nə varsa, mənə söylə!

– Mənim ağam, dediyim mis lövhəciyi şahzadə Urran göndərib. Bu mis lövhəcik... – deyə qadın sözə başladı.

Tətür Atxa əlinin işarəsi ilə onu dayandırdı:

– ... Şahzadə Urranın boynundan asılmış qızıl lövhəciyin surətidir. Üstünə cızılmış dairə, dairədəki göz-qaş, ağız-burun skiflərin Günəş tanrısı Aqninin təcəssümüdür. Bu tilsimi xanım Aqniya Skifyadan gətirib, həmişə oğlunun boynundan asırdı ki, Günəş Tanrısı Aqni onu qorusun. Mis lövhəciyin aşağısında cızılmış, bir-birindən kiçik iki "günəş" isə xanım Aqniyaya və sənə işarədir. Bununla Urran ikinizi də Günəş Tanrısı Aqni qədər istədiyini bildirir. Hə, deyəcəyin budursa, mən bunları sənsiz də bilirəm.

Aspazın çöhrəsində oxunan qorxu, heyrət və heyranlıq bir-birinə qarışmışdı. Sarsılmış halda dilləndi:

– Ağam, sənin dünyada bilmədiyin bir şey varmı?

– Var, niyə yoxdur ki? – deyə Tətür Atxa qadını bir də sarsıtmağa səy elədi. – Məsələn, yalan danışmağının səbəbini dərk edə bilmirəm. Fikirləşirəm ki, yaxşı, əlimin altında olan qadınların ən ağıllısı budursa, bəs, axmağı nə təhərdir!

Aspaz dili dolaşa-dolaşa dedi:

– Mən şahzadəni sevirəm, mənim ağam! Yalanımla onu qorumağa çalışırdım, – dedi.

Tətür Atxa gülümsədi:

– Nə sevgibazlıqdır, axı! İnandırıcı yalan deyil! – dedi.

– Hər halda, mənim şahzadəyə sədaqətimə kimsə şübhə edə bilməz. Xanım Aqniya başıma nahaq yerə and içmir ki! – deyə Aspaz geri çəkilmək istəmirdi. – Bir sözlə, bütün əmrlərinizə tabeyəm, amma şahzadə haqqında daha casusluq eləməyəcəm.

Tətür Atxa ayağa qalxdı, baxışları ilə qadını yerlə yeksan eləməklə kifayətlənmədi:

– Bilirsən ki, səni cəzalandırmaq, gözəl çöhrəni korlamaq elə də çətin deyil.

– Mən sevdiyim adamın ölümünə bais ola bilmərəm, – deyə Aspaz astadan çığırdı. – Bu yolda işgəncələrə də hazıram.

Tətür Atxa qadının sayıqlamalarına fikir vermədi:

– Əgər inad eləsən, xanım Aqniya da, şahzadə də, bu azmış kimi bütün saray da öyrənəcək ki, sən adicə meyxana şortususan, heç də pars əsilzadəsinin qızı deyilsən. Hamı səndən üz döndərəcək.

Aspaz inadla susurdu. Onun müqaviməti Tətür Atxanı əyləndirirdi, özündən çıxarmırdı:

– Hələ bu nədir ki! Yadında qalsın, sənin əsil atanın da, əsil ananın da, kiçik qardaş və bacılarının da həyatı mənim əlimdədir. Hələ ki, mənim sənə verdiyim, sənin onlara göndərdiyin pulların hesabına qayğısız dolanırlar. Kiçik bir etibarsızlığın onları bəla girdabına yuvarladacaq.

Bu yerdə Aspazı ağlamaq tutdu. Sevdiyi adamlar olmasaydı, çoxdan başına çarə qılmışdı. Onları təhdid edən təhlükə həmişə əl-qolunu bağlayırdı. Çarəsizlikdən qadının gözündən gildir-gildir yaş gəldi. Tətür Atxa onun sakitləşməyini gözləyib soruşdu:

– Nə deyirsən?

Aspaz onun ayaqlarına düşdü:

– Ağam, aman istəyirəm, – dedi.

Tətür Atxa özündən razı halda ayağına ilan kimi suvaşan qadına yeni bir tapşırıq verdi.

## Şaum Ulu Möbidin hüzurunda

Möbidlər möbidi, Ulu Möbid Amitaxah ata Bəyaz məbədin baş kahininin gətirdiyi xəbəri sakit qarşıladı. Lidiya müharibəsində yoxa çıxan, hələ də öldüsü-qaldısı bilinməyən şahzadə Urranın peyda olması onun çoxdankı şübhələrinə rəvac verirdi. Bilirdi ki, hər baş verən hadisənin bir mənası var, səbəbsiz hadisə olmur.

– Həmin adam səni aldatmır ki? – deyə qoca soruşdu.

Şaum ata başını buladı:

– Məni aldatmaq mümkün deyil, ata.

Amitaxah ata kahinlərin sıralarını yeniləmək arzusu ilə Şaumatı – möbidzadə olmadığını bilə-bilə – baş kahin rütbəsinə ucaltmışdı. Yetirməsi nəinki qəlbləri oxuyurdu, hətta divarın o tərəfində baş verənləri də görürdü. Onun bu keyfiyyətindən dəfələrlə istifadə elədiyindən, bacarığına şəkk eləmirdi.

Mühüm bir qərar vermək lazım idi. Ulu Möbid belinə doladığı kuştini, yəni ağ qoyun yunundan hörülmüş enli belbağını tələsmədən açdı, dizinin üstündə qoyub sığalladı, yenidən üç dəfə belinə doladı, uclarına dörd düyün vurdu. Yalnız bundan sonra dilləndi:

– Təcrübəmdən bilirəm ki, bu işdə Tətür Atxasız keçinə bilmərik. Sən nə fikirdəsən?

Şaumatın fikri başqa idi, amma öz dərrakəsindən daha çox Ulu kahinin təcrübəsinə inandığından əllərini sinəsinə qoyub başını əydi:

– Müdrikliyinizin önündə səcdə edirəm! – dedi.

Ulu kahin yüngül bir istehza ilə Şaumata baxdı, onun qəlbindən keçənləri kitab kimi oxuyaraq qapıda dayanmış möbidyarı çağırdı:

– Hörmətli Atxanı bura dəvət elə!

## Şaumun həyatı

Şaumun uşaqlığı Muğanda keçmişdi. Atası odunçuluqla başını dolandırırdı. İşi meşədən odun gətirmək, atəşgahdakı ocaqxananın külünü təmizləmək, odabaşının buyruqlarını yerinə yetirməkdi. Məbəd Peştəsər dağlarının qurtardığı, Muğan düzünün başlandığı yerdə tikilmişdi. Camaat naxırını, ilxısını, sürüsünü yayda dağlara qaldırırdı, qışda

Muğana endirirdi, gen-bol yaşayışını qururdu. Bir qayda olaraq yaylağa qalxanda, qışlağa enəndə ziyarətindən də qalmırdı.

Odunçu anasını erkən itirmiş kiçik Şaumu həmişə yanında gəzdirirdi. Kahin olmağı arzulayan oğlunu başa salırdı:

– Bala, biz möbidzadə deyilik ki, kahin olasan. Qismətimiz kömürçülükdü. Bir az ağılın olsa, odabaşı köməkçisi ola bilərsən.

Kiçik Şaum atasının sənətini sevmirdi. Ulu Hörmüzd eşqinə oda atılmış gəlinlərin harayını, əzabdan qıvrılmağını, inildədiyini bir neçə dəfə görmüşdü. Belə vaxtlar yayılan üfunət iyindən ocaqxanada dayanmaq olmurdu. Səriştəli kömürçü oğlu baş Möbidin ətrafında fırlanır, onun buyruqlarını həvəslə yerinə yetirirdi.

On dörd yaşı tamam olanda kəndə bəla gəldi.

Payızın ortaları idi. İcmanın çoban-çoluğu heyvanı qışlağa endirməyə hazırlaşırdı. Skif atlıları gözlənilmədən kəndin başının üstünü aldı. Onlara az-çox müqavimət göstərən silahlı kahinlər oldu. Bu da çox çəkmədi. Qoca baş Möbid aldığı ağır yaradan huşsuz uzanmışdı. Sonra yarımcan halda sürünüb özünü ocaqxanaya saldı. Burada daldalanan kiçik Şaumu görüb sevindi.

– Ulu Hörmüzd səni mənə ərməğan göndərib! – dedi və onu yaxına çağırdı. – Oğlum, mən ölürəm, Zərdüşt peyğəmbərin təbərrükünün xilası sənin boynuna düşür. Ulu Hörmüzd naminə...

Şaum gözü yaşlı dedi:

– Müqəddəs ata, Ulu Hörmüzd naminə ölümə də gedərəm.

Qoca inildəyərək:

– Sözümü kəsmə, axır nəfəsimdi, qulaq as! Gözləyərsən, qaranlıq düşsün, sonra hücrəmə gedərsən. Əsamı, mis camımı, duvağımı, bir də möhürümü götürərsən. Bunlar Zərdüşt peyğəmbərdən mənə miras qalıb. Ekbatanda Möbidlər möbidi Amitaxah ataya çatdırarsan. O, mənim şəyirdlərimdəndi. Müqəddəs Şizdə təhsil alanda ona dərs demişəm. Amitaxah atanın köməyi ilə kahin olarsan. – Söylədi.

– Müqəddəs ata, mən möbidzadə deyiləm, kahin ola bilmərəm, – deyə Şaum pıçıldadı. – Həm də mən paytaxtın yolunu tanımıram!

– Soruşa-soruşa gedərsən! Sözümü kəsmə! – deyə qoca təkrarən xırıldadı. – Bu gündən sən mənim oğlumsan! Soyadımı götürərsən, adımı həmişə uca tutarsan! Axxx!

Qoca sözünü bitirməmiş canını tapşırdı. Şaum skiflərin qorxusundan iki gün ocaqxanada qaldı. Yalnız üçüncü gün, aranın sakitləşdiyinə əmin olandan sonra baş Möbidin dağılmış hücrəsinə baş çəkdi. Zərdüşt peyğəmbərin təbərrüklərini götürdü, Ekbatana yol aldı. Altı ay yol elədi, apardığı təbərrüklərin kəramətindənmi, ya özünün bəxtigirliyindənmi, məlum deyildi, sağ-salamat imperiyanın paytaxtına yetişdi. Baş məbədə getdi.

Cavanın söylədikləri nağıla oxşasa da, Möbidlər möbidi ona inandı, qoca müəlliminin xatirəsini uca tutaraq Şaumu himayəsinə aldı.

## Şahənşah Urrandan xəbər tutur

Tətür Atxa bildiklərini, şahənşahın izni ilə taxtın böyründə dizi üstə oturub, onun qulağına pıçıldayırdı.

Kiaksarı heyrətləndirmək mümkün deyildi:

– Xeyr ola, niyə zəif səslə danışırsan?

– Hər ehtimala qarşı, Ulu Xaqan! – deyə Tətür Atxa yenə pıçıldadı. – Ehtimal ki, söhbətimizi dinləmək istəyənlər var. Düşmənlərimiz hətta dərgaha soxulublar.

Şahənşah xəfiyyənin boş söz danışmadığını bilirdi:

– Sözünü de! – deyə astadan buyurdu.

– Ulu Xaqan, şahzadə Urran sağdır...

Qoca cahangir diksindi, amma yenə özünü tox tutdu:

– Bu yaxşı xəbərdir, – dedi.

Tətür Atxa onu başa düşməyə çalışdı:

– Heç də yaxşı xəbər deyil, Ulu Xaqan! – Söylədi. – Şahzadənin oğurlanması, öldürülməsi yalan imiş. Deməə, şahzadə xəyanət yolunu tutubmuş!

Bildiyinin hamısını danışandan sonra qoca cahangirin üzü işıqlandı, elə bil şad xəbər almışdı. O, fikirlərini baş xəfiyyədən başqa kimdən desən gizlədə bilirdi. Tətür Atxanı aldadanda uşaq kimi sevinirdi. Bu dəfə də elə oldu.

Şahənşah acı-acı gülümsədi:

– Görürsən, necə dərrakəli oğlum var? Elə buna görə də onu hamıdan çox istəyirdim də! İşə bax da, Midiyanın baş xəfiyyəsinin gözünün qabağında bu boyda həngamə qoparıb!

Tətür Atxa pərt oldu. O, padşahın haqlı olduğunu anlayırdı. Şahzadənin xəyanət girdabına düşməsi nəzərindən yayınmışdı. Görünür Urranın skif müəllimləri ondan daha çevik, daha tədbirli imiş. Amma Ulu Hörmüzd səltənətin keşiyində durduğundan sui-qəsdçilərin arzusu ürəyində qalmışdı. Tətür Atxa qızışdı:

– Ulu Xaqan, icazə versən, o dərrakəli şahzadəni hüzuruna gətirərəm! İki-üç alayla skif məhəllələrini həlqəbəguş edərəm. Həmlə vaxtı qırılan qırılacaq, sağ qalanlar əsir alınacaq. Şahzadəni tutub hüzuruna gətirəcəyəm.

– Sənə nə olub? Əhriman ağlını aparıb? Deyirsən, şahzadə o qədər axmaqdı ki, oturub skif məhəlləsində səni gözləyir? Ay-hay! Gözlə, görək, bu xəyanətin ucu hara gedib çıxır, – deyə şahənşah son qərarını verdi, sonra qapıda peyda olan naibi-səltənətdən soruşdu: – Nə işdi?

Bixur əli döşündə qabağa qaçdı:

– Babilin, Lidiyanın elçiləri dərgaha düşmək istəyirlər.

Əlinin sərt işarəsi ilə yoxa çıxan naibi-səltənətin dalınca baxmadan şahənşah astadan soruşdu:

– Bəs, arvadımın qəsddə iştirakına nə deyirsən?

Tətür Atxa cahangirin səsindəki sərtlikdən büzüşdü, hər ehtimala qarşı xanımı müdafiə elədi:

– Xanım Aqniya sui-qəsdçi deyil, sadəcə, oğlunu sevən bir anadır.

Şahənşah təəssüflə:

– Atasına qarşı gedən bir oğulu sevən ana!

– Bircə oğlu olan ananın başqa seçimi yoxdu! – deyə Tətür Atxanın cavabı hazır idi.

Xəfiyyənin cavabı şahənşahı, qismən də olsa, ovundurdu, ürəyindən xəbər verdi.

## Elçilər

Yalnız bundan sonra əllərini bir-birinə vurdu, içəri girən naibi-səltənətə buyurdu. Ancaq gələn elçilərə çox vaxt ayırmadı. Onlara heç oturmağı da təklif eləmədi. Dedi:

– Elçilər! Hökmdarlarınıza çatdırın ki, şahənşah Kiaksar Misir ölkəsinə səfərə hazırlaşır. Gözlənilən böyük qənimətlər barəsində danışıb vaxtınızı almayacağam, özünüz də məlumatlı adamlarsınız. Bir sözlə, hökmdar qardaş-

larımı yanımda müttəfiq qismində görmək istəyirəm, onların yürüşdə iştirakını arzulayıram.

Elçilərə bir-bir söz verdi. Onları fikri dağınıq dinlədi, gəlişigözəl iki-üç cümlə ilə mürəxxəs eləyəndə təkrarən tapşırdı:

– Məni şanlı Midiya ordusuna qoşulacaq Babil, Lidiya qoşunlarının sayı maraqlandırır. Yubanmadan ölkələrinizə gedin. Mənə hökmdar qardaşlarımdan cavab gətirin.

Elçiləri ötürüb qayıdan naibi-səltənətə buyurdu:

– Sabah qnyaz Aqarı hüzuruma çağırarsan. Skif çarına ismarışım var.

## Midiya ayağına batan tikan

Dərgahda yenidən ikilikdə qalandan sonra taxtın axırıncı pilləsində oturmuş baş xəfiyyə müqəddiməsiz bayaqkı söhbətə qayıtdı:

– Ulu Xaqan, Midiya səltənətinə qarşı sui-qəsdi İşpaka bağışlamaq olmaz, – dedi. – Bir də Midiya səltənətinin ayağına iyirmi səkkiz il öncə batmış, artıq irinləmiş tikanı çıxarmaq vaxtıdır.

Şahənşah dərhal dilləndi:

– Qardaşım, səndən nə gizlədim, qorxuram adım salnamələrdə namərd kimi çəkilsin, – dedi.

– Günahlarını boynuma götürməyə hazıram! – deyə Tətür cəsarətləndi. – Uşaqlıqdakı kimi cəzanı da çəkməyə hazıram!

– Lap uşaqlıqdakı kimi? – deyə şahənşah da qeyri-ciddi surətdə zarafatlaşdı.

Şahənşah hər dəfə Tətür Atxanı görəndə mehriban dayəsi yadına düşürdü. Süd anasının xoş xatirəsi həmişə qəlbini isidirdi. O uşaq olanda, Mataha şuluqluq salan şahzadə Kiaksarın yerinə oğlunu cəzalandırırdı. Anasının şapalaqlarına dinməz dözən Tətürün səsi çıxmazdı.

– Xaqan qardaşım, namərd düşmənlə mərd davranmaq mümkün deyil! Bəraət axtarmağına dəyməz! Xaqan qardaşım, Astiaqın taxtda rahat oturmağını istəyirsənsə, skif kələfini çözməlisən! Bunu Midiyanın gələcəyi naminə eləməlisən, – deyə Tətür qətiyyətlə dilləndi, şahənşahın fikrə getdiyini görüb başqa bir arzusunu da dilinə gətirdi. – Muğanı təmizləyəndən sonra cənuba yürüş eləmək pis olmazdı.

Bu dəfə tacidarın cavabı hazır idi:

– Olmaz, qardaş, Parsı rahat qoy! – dedi. – Ekbatana keçən gəlişində şahzadə Mandana deyirdi ki, Kambiz şahənşahı bir ata kimi sevir!

– Ulu Xaqan, Kambiz şahənşahı sevmir, ondan qorxur! – deyə Tətür Atxa özünəməxsus həqiqəti dilinə gətirdi.

Şahənşah məsxərə ilə duruxdu:

– Atadan qorxmağın nəyi pisdir ki? – dedi.

Tətür Atxa onun yadına saldı:

– Bəs, pars əsilzadələrinin silahlı dəstələri?

Şahənşah üzünü turşutdu:

– Bilirsən ki, həmin dəstələr boş şeydir! Belə bir qüvvə ilə Midiya səltənətinə batmaq mümkün deyil. Pars, çox istəsə də, ortaya iyirmi mindən artıq qoşun çıxara bilməz! – dedi, sonra bayaqkı məsxərə ilə fikrini tamamladı. – Öz erkəklik borcunu yerinə yetirməyə qorxan Kambiz şah Midiyanın qüdrətinə qarşı getməz.

Parsarqada ər evinə yola salınan şahzadə Mandananın xidmətinə verilmiş xacələrdən biri Tətür Atxanın yaxın adamıydı. O, söyləyirdi ki, Kambiz şah şahənşahdan qorxduğundan kişilik borcunu layiqincə yerinə yetirə bilmir, şahzadə Mandana yaxınlara qədər bakirə qalmışdı. Yalnız şahənşahın ölüm odasının hazırlandığından xəbər tutandan sonra şah ürəklənmiş, sevimli arvadını yatağına salmışdı.

Tətür Atxa təslim oldu:

– Ulu Xaqan hər şeyi nəzərə alıbsa...

Şahənşah sözünü kəsdi:

– Mən Parsın şah sülaləsinin nizamını əlli il müddətinə sıradan çıxarmışam! Qalanı varislərimin işidir. O dünyadan xələflərimin yerinə ölkəni idarə eləmək mümkün olsaydı...

## Şahzadə Urran

Şahzadə Urran, doğrudan da, axmaq deyildi. Bəlkə də Midiya taxt-tacına iddialı olanlar arasında ən tədbirlisi idi. Bilirdi ki, gəlişindən bir gün xəbər tutacaqlar. O, Tətür Atxanın adamlarından yayınmaq üçün skiflər yaşayan məhəllədə gündüzlər görünmürdü. Qaldığı yeri də tez-tez dəyişirdi.

Bir neçə günlüyə yoxa çıxmış Atey gələn kimi Urranı dilə tutdu:

– Ekbatanda qalsan ələ keçərsən, şahzadə, gedək mənimlə. Bikini meşələrində sənin üçün elə cah-calal yaratmışam ki, padşahlar həsəd aparar.

Onlar yaş fərqinə baxmayaraq qürbətdə yaşayanda bir-birinə bağlanmışdılar. Dostluqları günü-gündən möhkəmlənirdi. Aralarında bir sirr qalmamışdı. Urranın

sevgisindən xəbərdar idi. Ona görə Atey özünü saxlaya bilmədi:

– Ha-ha-ha! Nə yapışmısan Aspazdan! Sənə qadın qəhətdi? – deyə dişlərini ağartdı. – Söz verirəm ki, meşədə qulluğunda bir dəstə skif gözəli dayanacaq! Gecə-gündüz başına dolanacaqlar. Bütün arzularını yerinə yetirəcəklər.

Urran bəhanə gətirdi:

– Sənin skif gözəllərindən at tövləsinin iyi gəlir! Əl çək yaxamdan! Yengə deyilsən ki! Mənə Aspazdan başqa qadın lazım deyil! – deyə Urran üzünü çevirdi.

Atey onu inandırmağa çalışdı:

– Əziz şahzadə, işlərimizi sahmana salan kimi Ekbatandan çıxmalıyıq, bura qorxuludur! Sənə söz verirəm, sevgilin Aspazı, nəyin bahasına olursa-olsun, meşəyə gətirəcəm.

## Atey Urranı başa salır

Ekbatanın qala divarlarından kənarda da bir böyük şəhər yaranmışdı. Gəlmə tacirlər, sənətkarlar Bikini dağının ətəklərində böyük məhəllələr salmışdılar. Qarışıq bir yaşayış məskəni yaranmışdı, it yiyəsini tanımırdı.

Şahzadə burada sığınacaq tapmışdı. İki gözlü bir komanı satın almışdı. Otaqların nisbətən abırlısında özü, o birisində nökərləri qalırdı. Maraqlananlara özünü tacir kimi təqdim eləyirdi. Ata yox, qatıra minirdi. Nökərlərin koması həm də tövlələri idi. Minikləri orada saxlayırdılar.

Sərkərdə Atey iki günlüyə gəldiyindən ayrıca mənzil axtarmadı, şahzadənin komasında yerləşdi. Otağı nifrətlə nəzərdən keçirib:

– Bu koma sənin axırına çıxacaq, şahzadə! – deyə xəz kürkünə büründü.

Şahzadə ayaq üstə idi, otağın ortasındakı ocağa bir-iki çırpı atdı:

– Elədir, xaraba isinmək bilmir, – dedi. – Bayırda yazdı, içəridə adamın damarlarında qanı donur. Xəstələnməsəm, yaxşıdı.

Atey onu cırnatdı:

– Sənə bu da azdı! Padşahlıq arzusuna düşməsəydin, indi kefi kök yaşayırdın. Qardaşın Astiaqın çəkmələrini cütləsəydin, xəncərinin qaşı düşərdi?!

Əlbəttə, Urranın taxt-taca heç bir ixtiyarı çatmırdı. Səltənətə Kiaksarın birinci arvadından, yəni bacısından doğulan uşaqlar gələ bilərdi. Bütün bunları anlayan, anladığını qəbul eləməyən şahzadə qnyazı acıladı:

– Yum ağzını! Sənin qorxaqlığın olmasaydı, mən indi həqiqətən şahənşah idim.

Atey dərhal ciddiləşdi:

– Bilirsən ki, mən qorxaq deyiləm! – dedi. – Skifin qorxağı olmur...

Şahzadə Urran bunu anlayırdı. O, skiflərin əhatəsində böyümüşdü. Anası oğlunun xidmətində dayanan dayələrin, qulluqçuların, nökərlərin mənşəcə Skif olmasını tələb eləyirdi. At sürməyi, ox atmağı, qılınc çalmağı ona skif əsgərləri, yazı-pozunu isə Midiya kahinləri öyrədirdi.

Urran dediyindən dönmədi:

– Hər halda sənin günahından biz indi bu komadayıq! – deyə şahzadə hirsli-hirsli otağı dolandı. – Düşərgəyə həmlə eləməli idin, atamı da, əyanlarını da əsir almalı idin!

Onlar bir ilə yaxındı mübahisə eləyir, baş tutmayan suiqəsddə bir-birini günahlandırırdılar. Sərkərdə Atey boynu-

na almasa da, qəlbən suçunu anlayırdı. Lakin həmişə, hər dəfə özünə bəraət axtarıb tapırdı:

– Şahzadə, Halis çayının sahillərində sənin istəyini yerinə yetirmək ağılsızlıq idi. Biz qabaqcadan hər şeyi danışmışdıq, axı! Yadında saxla, bu işdə tələsmək olmaz, tələsgənlik başımıza bəla açacaq. Səni inandırıram ki, vaxt gələcək, başında qızıl tac qızıl taxta qalxacaqsan!

Şahzadə özü də bilirdi ki, on min skiflə, nə qədər igid olsalar da, yüz minlik Midiya ordusunu açıq döyüşdə yenmək mümkün deyil.

– Həmin ərəfədə bizim vəzifəmiz skif süvarilərini Midiya ərazisinə maneəsiz keçirmək, Ekbatana yaxın yerləşdirmək idi. Buna nail olduq. Qalır girəvə gözləmək!

## Ateylə Aqarın planları

Bu vaxt komaya elçi Aqar girdi. O da sadə geyimdəydi. Mübahisənin məğzini biləndə:

– Şahənşahın əmrilə sabah yola çıxmalıyam, Muğana getməliyəm, xeyli vaxt yanınızda olmayacağam, – dedi, sonra narazı halda əlavə elədi. – Siz isə burda əl-ələ verməkdənsə, didişirsiniz.

Atey qalxdı, yanında qonağa yer düzəltdi:

– Elçi Aqar, şahzadə ilə biz didişmirik, səhvlərimizin kökünü axtarırıq! Dünənki uğursuzluğu unutsaq, sabah uğur qazana bilmərik! – dedi, sonra istehza ilə soruşdu. – Hə, ölü Xaqanla görüşün necə keçdi?

Elçi Aqar sözə başladı:

– Pis olmadı! Şahənşah açıq bildirdi ki, Misirə hücum eləmək fikrindədi. Dediyinə görə, Babil padşahı No-

vuhdonasor əlli min, Lidiya kralı II Aliatt altmış min qoşunla səfərə çıxacaqlarını boyun olub. Sonra şahənşah üzünü mənə tutub etiraf etdi ki, yaxşı olardı, skiflər də öz qüvvələri ilə bu müharibənin iştirakçısı olsunlar, var-dövlət qazansınlar. Yazın ortasında, Böyük İdin əlli altıncı günü şahənşahın tacqoyma mərasiminin qırx illiyi bayram ediləcək. O vaxta qədər qüvvələr cəmləşəcək, bayram şənliklərindən sonra qoşun yürüşə tərpənəcək.

Atey başa düşmədi:

– Deyirsən, Babillə Lidiya qoşunları Ekbatana gələcək?

– Yox, onların qüvvələri Midiya ordusuna yolda qoşulacaq. Skif qoşunu isə Ekbatan altına gələcək, Midiyanın əsas ordu birləşmələri ilə bir yerdə səfərə çıxacaq. Çalışaram, əlahəzrət İşpak otuz min qüvvə göndərsin...

Atey qətiyyətlə:

– Midiyanın elə otuz min süvarisi var, mən hələ piyada qoşunlarını demirəm. Biz otuz minlə Midiyaya bata bilmərik.

– Bəs, bilmirsən ki, hər skif döyüşçüsü üç Midiya döyüşçüsünə bərabərdir! – deyə Aqar barmağını qaldırdı. – Sənin on minlik qoşunun hardadı? Onları Midiya hüdudlarına gətirmək lazımdı.

Atey qətiyyətlə:

– Babil sərhədində hazır dayanıb əmrimə müntəzirdir, – dedi. – Amma hələ yerindən tərpətmək olmaz, şübhə oyadarıq.

Elçi onu başa saldı:

– Qnyaz, əlverişli yer Zaqroş dağlarının ətəkləridir. Qoşunu mümkün qədər Ekbatana yaxın yerləşdirmək sərfəlidir. Həm ətrafda yaşayan parsların skiflərə dost münasibətindən bəhrələnmək olar, həm də döyüşçüləri xırda

dəstələrə bölüb tacir karvanlarına qoşub paytaxta gətirmək asanlaşar. Şahənşahın tacqoyma mərasiminə iki ay var hələ!

– Bunu danışdıq! – deyə Atey dilləndi, sonra əndişə ilə elçini inandırmağa çalışdı. – Dostum Aqar, Midiya ilə çarpışmaq üçün, hətta qırx min qüvvə də azdı.

Aqar hərbi işdə ondan daha çox səriştəli sərkərdə Ateyin yadına saldı:

– Bilirsən ki, bizim Bikini dağındakı düşərgəmizdə də on min atlımız var. Onları nəzərə almırsan?

Atey köksünü ötürdü:

– Nəzərə alıram! Amma o bizim ehtiyat qüvvəmizdir! Sən çarı dilə tut, qoy Ekbatana əlli min əlahiddə qüvvə göndərsin.

Elçi Aqar daha inad eləmədi:

– Yaxşı, cəhd eləyərəm. Yəqin ki, razı olar. Dostumuz İşpak torpaqlarını genişləndirmək arzusundadır... Əlahəzrət şahzadə buna necə baxır?

Şahzadə fikirləşmədən:

– Bu iş baş tutsa, mən Zikertu[1] ətrafı ərazini dayıma peşkəş eləməyə hazıram! Güman ki, dayım razı qalacaq.

Hər iki skif hörmətlə baş əydi. Sevincdən başını itirmiş sadəlövh Urran skiflərin istehza ilə qımışdıqlarını görmədi.

## Darasp elçi Aqarın hüzurunda

Muğandakı Skif çarlığına yola düşməyə hazırlaşan elçi Aqarı məşğuliyyətindən mirzəsi ayırdı.

– Qnyaz, qapıda səni görmək istəyən müsafir var, – dedi.

Qnyaz başını qaldırmadan:

[1] Ərdəbil.

– Kənar adamdısa, rədd elə, getsin, – deyə cavab verdi.

Mirzə sarışın, orta yaşlı bir kişiydi. Bu qapıda çoxdan qulluq eləyirdi. Ayağını götürüb-qoydu, çəkinə-çəkinə təkid elədi:

– Müsafir kənar adam olmağına kənar adamdı, qnyaz, amma vacib şəxsə oxşayır. Midiya dilində sərbəst danışsa da, səhv eləmirəmsə, mənşəcə parsdı, – deyə biliciliklə dilləndi və ona bir bürünc fiqur uzatdı. – Bunu müsafirimiz ovcuma basıb dedi ki, ağana çatdır.

Parıldayan bürünc fiqur üç tinli Skif ox ucluğu idi. Üstündə çar İspakın uşaqlıq ayamasının baş hərfləri həkk olunmuşdu. Silah ustaları tərəfindən sifarişlə tökülmüşdü. Çar bunları ayrıca səlahiyyət sahiblərinə paylayırdı ki, bir-biri ilə əlaqə saxlayanda istifadə eləsinlər.

Çar İşpak tədbirli hökmdar kimi ad çıxarmışdı. Şahənşah Kiaksardan xəlvəti Kambiz şahın sarayında vəkilini saxlayırdı. Tunc ucluğu göndərən həmin adam idi.

Tətür Atxanın casuslarının qorxusundan həmin adamın adı heç bir yerdə çəkilmirdi. Elçi Aqar naməlum skifin varlığından məlumatlı idi, amma şəxsən tanımırdı.

Parsı içəri buraxdılar. Qnyaz adı sənədlərdə, məktublarda hallanmayan skifdən etibarlılıq nişanəsi gətirmiş müsafiri diqqətlə gözdən keçirtdi. Parsın inamlı davranışı xoşuna gəldi. Onun əsilzadə, adının Darasp olduğunu öyrənəndən sonra yer göstərdi:

– Keç, otur, əsilzadə! – deyə hörmətlə dilləndi. – Kasıb komama xoş gəlmisən!

Midiya əyanları kimi cah-calal içində yaşayan, öz dəbdəbəli evini koma adlandıran Aqarın qondarma təvazökarlığı Daraspın istehzasına səbəb oldu. Dodaqucu gülümsədi:

– Qnyaz, vaxtını çox almayacam! – dedi. – Bilirəm, yol üstəsən, hökmdar İspakın hüzuruna tələsirsən.

Elçi Aqar udqundu, onun hara, nə üçün getdiyini çox az adam bilirdi. Təkəbbürlə dilləndi:

– Görünür, əsilzadə çox məlumatlı cənabdır!

Darasp qnyazın təkəbbürlü atmacasını boş buraxmadı:

– Bəli, qnyaz səhv eləmir, səltənət daxilində baş verənlər gözümüzdən yayınmır! – dedi, sonra təntənə ilə əlavə elədi. – Mənə tapşırılıb ki, əlahəzrət Kambiz şahın narazılığını skif çarı İspakın dərgahdakı elçisinə çatdırım.

Elçi Aqar soyuq halda qısaca:

– Əlahəzrət Kambiz şahın narazılığına səbəb nə imiş? – Soruşdu.

– Əlahəzrət Kambiz skif çarı İşpakın sirli davranışından narazıdır, – deyə Darasp da qısaca cavab verdi.

Elçi Aqar mülayimləşdi:

– Biz dostlarımızdan sirr saxlamırıq.

Darasp qırxıq başını sığalladı:

– Biz də elə bilirdik! Şərqin hər yerinə səpələnmiş skif alaylarının Babil hüdudlarında cəmləşməsi məlum olandan sonra fikrimizi dəyişmişik.

Qnyaz Aqar hamıdan gizli saxlanılan sirrin faş olmasından özünü itirdi. Qətiyyətsiz halda:

– Belə alayların varlığından xəbərim yoxdur, amma sənin dediklərini aydınlaşdıraram!

Darasp gülümsədi:

– Boşla, qnyaz, gizlətməyin mənası yoxdur! Bu bir həqiqətdir, axı! Əlbəttə, skif qüvvələrinin Zaqroş yaylasında, pars ərazilərində peyda olması yaxşı əlamətdi. Burdan Ekbatana zərbə endirmək əlverişlidi. Qüvvələrimizi birləşdirə bilsək, Midiya qabağımızda dayana bilməz.

Qnyaz Aqar təslim oldu, amma çar İspakla razılaşdırmamış bu barədə söhbət açmaq fikrində olmadığını bildirdi:

– Gedib qayıdandan sonra danışarıq! İndi heç nə deyə bilmərəm, – dedi, sonra sağollaşdı. – Bir aydan sonra görüşənə qədər, əsilzadə!

Darasp ayağa qalxdı, ayrılanda elçi Aqarı düşündürən bir ifadə işlətdi:

– Bəlkə daha tez görüşdük! Hər şey Kambiz şahın qərarından asılıdır.

## Aqniyanın qəzəbi və tapşırığı

Xanım Aqniyanın qanı qara idi. Şahənşah xəstəlikdən qalxandan sonra bir dəfə, o da ayaqüstü, onun yataq otağının qapısını açmışdı. Xacə daha xoş xəbər yox, bəd xəbər gətirirdi. Bu dəfə də tüksüz üzündə hiylə kölgə kimi gəzir, amma şirin-şirin deyirdi:

– Şahənşah bu gün gələ bilməyəcək, xanım. Dedi ki, dövlət işlərindən başı açılan kimi xanım Aqniyanın yanına təşrif gətirəcək! Özü belə buyurdu.

Xanım Aqniyanın səsi hirsindən dəyişdi:

– Axı, bu gün mənim növbəmdi! Şahənşah gecəni mənim yanımda keçirməli idi! – deyə fısıldadı. – Bir həftədi mən bu günü gözləyirəm.

Bütün saray bilirdi ki, şahənşah vaxtının çoxunu cavan arvadının, Tarmakis satrapının kiçik qızının yanında keçirir. Xanım Aqniya hikkə ilə ayağını yerə döydü:

– Əlbəttə, indi mən əlahəzrətin nəyinə lazımam! Gör, Tarmakis cüllütünə necə uyub ki, mən tamam unudulmuşam! – dedi.

– Elə demə, xanım, Tarmakis cüllütü dediyin qız dünya gözəlidir! Şahənşahın hərəmləri kifir ola bilməz! – deyə xacə onu çəkinə-çəkinə təshih elədi.

Xanım hikkəli olsa da, səhvini anladı:

– Bəli, şahənşah məndən daha cavan, məndən gözəl qızla eyş-işrət keçirir! – deyə ağlar səslə astadan çığırdı, sonra hirsini xacənin üstünə tökdü. – Sənin üçün elədiklərim gözündən gəlsin, xacə! Görüm səni Aresin ildırımları vursun! Əhrimən oğlu Əhrimən, niyə şahənşahı yanıma gətirə bilmirsən?

Xacə başını aşağı saldı. Doğrudan da, bir zaman şahənşahın sevimlisi olmuş xanım Aqniya ona çox mərhəmətlər göstərmişdi. Xacə xanımı sakitləşdirməyə çalışdı:

– Xanım, şahənşah eyş-işrətlə məşğul deyildi, Tarmakis satrapı ilə dövlət işlərini müzakirə eləyirdi.

Xanım təəccüblə:

– Təzə xanımın atası saraydadır?

– Bəli, hörmətli Tarmakis satrapı saraydadır! Deyəsən, sabah yola düşür, – deyə xacə dilləndi, sonra qətiyyətlə söz verdi. – Xanım, inan mənə, şahənşah işini qurtaran kimi sənin yanına gətirəcəm.

Xacə gedəndən sonra bir az sakitləşmiş xanım Aqniya Aspazı narazı qarşıladı:

– Sən də lazım olanda tapılmırsan! Bir belə vaxtı harda idin? – deyə onu danladı.

Qulluqçu mülayimliklə icazəli olduğunu bildirdi. Xanım dünən Aspazın ata-anasına baş çəkməyə rüsxət istədiyini yadına salıb ağızucu soruşdu:

– Evinizdəkilər salamatdır?

– Pis deyillər! – deyə Aspaz qısaca cavab verdi.

Qulluqçunun səsindəki inciklik xanım Aqniyanı düşündürdü, barışdırıcılıqla dedi:

– Bilirsən ki, sənsiz işim aşmır, – deyə onun könlünü aldı. – Sənə bir məxfi tapşırığım olacaq. Elə günü sabah “Bəyaz məbədə” gedib mənə lövhəciyi verən dilənçini taparsan, – deyə bəzək masasının üstündəki mis lövhəciyi götürdü, öpüb ona uzatdı: Bunu dilənçiyə göstərib deyərsən, ana Urranı görmək istəyir. Görək, cavabı nə olacaq...

Qulluqçu qadın dərhal ayağa qalxdı, sevincini gizlətmək üçün başını aşağı saldı:

– Oldu, xanım, – dedi.

Aqniya onu daha da şirnikləndirmək üçün:

– Əgər sədaqətlə xidmət eləsən, tezliklə özün də xanım olacaqsan! – dedi. – Səni həm azad eləyəcəyəm, həm də skif qnyazlarından birinə ərə verəcəyəm.

Aspaz özünü xanımın ayağına atdı:

– Məni Urrandan ayırma, xanım! Mən ölənə qədər sizin qulluğunuzda duracağam, – dedi, sonra ayağa sıçrayıb soruşdu. – Sabah məbədə piyada gedim?

Qulluqçunun sədaqətindən məmnun qalan xanım Aqniya:

– Yox, piyada yol uzaqdı, Şah məbədinin yanından xəm-xurd daşıyan arabalar keçir, birini saxlayarsan, adımdan istifadə eləyərsən, minib gedərsən, – dedi.

Şahzadə ilə keçirtdiyi günləri yada salan Aspaz həsrətlə köks ötürdü.

## Urranın qadınlara laqeydliyi

...Əlbəttə, bir qız kimi zərif olan yeniyetmə Urranın gözəlliyi xanım Aqniyanın könlünü açsa da, onun saraydakı qız-gəlinlərə laqeydliyi düşündürücü idi. Əndişəsini şahənşahla bölüşdü. Xeyli götür-qoydan sonra Tətür Atxanı bu işə qoşdular. Xanımı dinləyən baş xəfiyyə xeyli sorğu-sualdan sonra:

– Şahzadənin qadınlara qarşı laqeydliyinin səbəbini tapmağa çalışaram! – deyə söz verdi.

Baş xəfiyyənin əlinə fürsət düşdü. Öz adamını xanım Aqniyanın məiyyətinə qoşmaq imkanı qazandı. Yeniyetmə Urrana bir-iki gün göz qoyandan sonra baş xəfiyyə əlinin altında olan qızları nəzərdən keçirtdi. Onlardan dörd-beşini ayırdı. Nəticəni tez əldə eləmək üçün gözəllərini, dərrakəlilərini, naz-qəmzəlilərini seçmişdi. Qızların hər birinə ayrı-ayrılıqda fikrini izah elədi, tapşırdı ki, həyətdə oynayan Urranın nəzərini cəlb eləməyə çalışın. Tətür Atxa necə düşünmüşdüsə, elə də oldu. İyirmi yaşlı gözəl Aspaz qeyri-rəsmi, xəlvəti müsabiqədə uğur qazandı.

Şahzadə dərhal yad qıza vuruldu. Bir gün oxatma məşqini yarımçıq qoydu, onun dalınca düşdü. Aspazı gümüşü qala divarlarının yanındakı evlərinə qədər izlədi. Tətür Atxa qıza daşdan keçən bir şəcərə düzəltdiyindən hər şey yüksək səviyyədə alındı.

Xanım Aqniya xəfiyyəni yanına çağırdı, dedi ki, belə nam-nişanda bir qız var, Urranın xoşuna gəlib. Baş xəfiyyə özünü bilməməzliyə vurdu, söz verdi ki, qızı tapsın.

– Axtarmağa ehtiyac yoxdur! – deyə xanım Aqniya həvəslə güldü. – Oğlum qızı evinə qədər pusub. Deyəsən,

əsilzadə ailəsindəndi. Evləri gümüş qala divarlarının lap böyründədir.

– Mən qızın valideynlərini sənin yanına gətirə bilərəm. Güman ki, izdivaca razı olarlar.

Xanım Aqniyanın acığı tutdu:

– Əlahəzrət, mən şahzadəyə arvad yox, məşuqə axtarıram, – dedi. – Onu erkən yaşda evləndirmək fikrim yoxdur.

– Madam ki, qız şahzadəyə məşuqə kimi lazımdı, onda valideynlərindən satın alarıq.

– Bu yaxşı fikirdi, – deyə Aqniya razılaşdı.

Şahzadə Aspazı yatağına salandan sonra xanım Aqniyanın ürəyi üstünə gəldi, amma narahatlığı tam keçmədi. Oğlu yenə də başqa qız-gəlinə gözünün ucu ilə də baxmırdı. Elə bil Aspazdan başqa heç kimi görmürdü.

## Tarmakiz satrapının düşmənçiliyi

Tarmakis satrapı Dandonu təcili paytaxta çağırılmışdı. Şahənşahın qayınatası nüfuzlu əsilzadə idi, müqəddəs Şiz şəhərindəki atəşgahın da baş Möbidi idi. Bir tərəfdən peyğəmbər Zərdüştün ailəsi ilə qohumluğu, o biri tərəfdən qədim müğlər nəslinə mənsubluğu ona məclislərdə başda, yəni şahənşahdan, onun vəliəhdindən sonra oturmaq haqqı verirdi. Midiyanın başqa əyan-əşrəfi, hətta, Ulu Kahin Amitaxah belə Dandondan qabağa keçə bilməzdi.

Satrap taxta yaxın oturmuşdu, üzünü şahənşahın ətəyinə toxundurub sözə başladı:

– Ulu Xaqan, skifləri yola gətirmək çox çətindi. Onlar addım-addım ərazilərini genişləndirirlər. Əvvəl Böyük Muğana, sonra Kiçik Muğana sahibləndilər, bu onlara azlıq

elədi, indi dağətəyi kəndlərə gəlib soxulublar. Bir də gördün, dağları aşıb satraplığın mərkəzində peyda oldular.

Şahənşah onun sözünü ağzında kəsdi:

– Qohum, dünən axşam hərəm otağında bu barədə xeyli söhbət elədik. Sən məni inandıra bilmədin, – dedi. – Birdəfəlik yadında saxla, skiflər bizim müttəfiqimizdir. Mən onlara qarşı getmərəm.

Dandon dikbaşlıqla dedi:

– Ulu Xaqan, iyirmi səkkiz ildir ki, skiflər Termakis satraplığının bir hissəsini zəbt eləyib, Midiya səltənətində öz dövlətlərini qurublar, Midiya maqlarını qula çeviriblər, atəşgahlarımızı dağıdıblar. Buna hələdəmi dözməliyik?

Satrapın Kiçik Şuraya çağırılmasında təəccüblü heç nə yox idi, təəccüblü satrapın şahənşahın hüzurunda fikrində israr eləməsiydi. Adətən belə özünə vurğunluğun, yekəxanalığın, dikbaşlığın axırı yaxşı nəticələnmirdi. Amma şahənşah ibarəylə dilləndi:

– Qohum, səndən yaxşı naibi-ləşkər çıxardı, hayıf ki, bu vəzifə Harpaqın əlindədi.

Gözlənilmədən vəliəhd Astiaq Tarmakis satrapının köməyinə gəldi:

– Mehriban ata, cənab Dandon haqlıdır! Skiflərlə haqq-hesab çəkmədən Misirlə müharibə eləmək mənasızdı. Tam əminəm ki, İşpak arxadan kürəyimizə bıçaq saplamağa hazırlaşır.

Şahənşah vəliəhdə diqqətlə baxmaqla kifayətləndi, cavab verməyi münasib bilmədi. Harpaq izn istəyib dilləndi:

– Ulu Xaqan, əlahəzrət vəliəhd düz buyurur! Tarmakis satrapının hazırlıqlı on min süvarisi, on min də piyada qoşunu var. İstəsə, bir eylə də qoşun yığa bilər. Ordugahdakı

qüvvələrimizi Muğana yeritsək, skifləri darmadağın eləyərik.

Şahənşah nə baş xəzinədarın, nə Tətür Atxanın, nə də Amitaxah atanın rəyini soruşdu, bilirdi ki, onlar da vəliəhd kimi skiflərin düşmənidir. O, üzünü satrapa tutub dedi:

– Bundan sonra aranı qarışdırmağı boşla, qohum! Təkrar deyirəm, mən skiflərə qarşı getmərəm. Əvvəla, skiflər bizim şimal sərhədlərimizi, Andiya[1] dənizi ilə Qaf dağı arasındakı keçidi qoruyurlar. İkincisi, skif çarı yaxın qohumumuzdu... Yenə sadalayım, ya kifayətdir?

## Aspaz Səccam hüzurunda

Aspaz xanım Aqniya deyən kimi elədi. Şəhərin o başına getmək üçün arabalardan birinə mindi. Heç bir saat keçməmişdi ki, o, "Bəyaz məbəddə" idi. Seyrək ziyarətçi axınına qoşuldu. Atəşgahın girəcəyində ianə toplayanların arasında tanış dilənçini gördü. Yanından keçəndə lövhəciyi onun koruş gözlərinin önündə yellətdi, sonra tələsmədən qabağındakı mis cama ianə atdı.

– Anası Urranı görmək istəyir, – deyə pıçıldadı.

Dilənçi laqeyd halda qolçağından çıxartdığı əski parçasını qadının ianə atan əlinə basdı:

– Tanrı Tabutu[2] köməyin olsun! – dedi, lap astadan mızıldandı. – Urran anasını yox, Aspazı görmək istəyir, onu yanına çağırır. Qoy, Böyük İdin səkkizinci günü skif məhəlləsinə gəlsin, bələdçi onun yolunu gözləyəcək.

---
[1] Xəzər dənizi.
[2] Skif tanrılarından biri.

Aspaz bilirdi ki, Tabutu skiflərdə ailə tanrısıdır, Ulu Hörmüzdə tapındığından yad tanrıların köməyinə qətiyyən ehtiyac duymurdu. Amma dilənçinin sözü onu elə sevindirdi ki, aralananda yad tanrını alqışladı:

– Tabutuya eşq olsun! – dedi.

Qadın sonra tələsik atəşgaha girdi, fikri dağınıq ziyarət elədi. Səccam ata qəflətən qarşısına çıxanda uşaq kimi sevindi, dinməz onun dalınca düşdü. Məbədin arxasına keçdilər. Səccam qardaş dedi ki, bura xəlvət yerdir, sərbəst söhbət eləyə bilərik. Sonra bir də ətrafa boylanıb qadını danladı:

– Hardasan? Niyə mənimlə əlaqə yaratmırsan? Vətənə beləmi xidmət eləyərlər?

Qadın and-aman elədi:

– Bir ilə yaxındı, saraydan çıxmaq mümkün deyil, Səccam qardaş! Xanım Aqniya məni gözündən qoymur. Digər tərəfdən, Tətürdən bərk qorxuram, hər yerdə adamları var, cənginə düşsəm, amanımı kəsəcək...

– Yaxşı, uzatma görüm, nə öyrənmisən, söylə! – deyə Səccam qardaş gözəl qadına acıqlandı. – Hamımız Tətürün əlinə düşə bilərik. Qorxulu da olsa, gərək Vətənə xidmət eləyək. Bizi bu iş üçün hazırlayıblar.

Aspaz başını tərpətməklə kahinlə razılaşdığını anlatdı, sonra qadınlara məxsus bir dəqiqliklə eşitdiklərini ətraflı danışdı. Məlumatın vacibliyi kahini həyəcanlandırdı, kuştini açıb-bağlayandan sonra bir az sakitləşdi.

Skiflər tərəfindən bir il bundan əvvəl oğurlanmış şahzadə Urranın Ekbatana gizli qayıtması Səccam qardaşın şübhələrini doğrultdu. Beynindən sürətlə bir fikir keçdi. İki gün bundan qabaq baş Möbidlə diz-dizə oturub söhbət

eləyən sərxoş skif yadına düşmüşdü. Bir daha əmin oldu ki, yeni sui-qəsdin təməli qoyulur, qızğın hazırırlıq gedir. Qadını ürəkdən təriflədi:

– Afərin! Sən, doğrudan qeyrətli bir Pars qızısan! Şahzadənin gizləndiyi yeri öyrənən kimi dərhal məni taparsan, – dedi.

Özünü tərifdən fərəhlənmiş kimi aparan qadın Səccamdan xahiş elədi:

– Daha kömürçü oğlanla mənə sifariş göndərmə! Deyəsən, mənə vurulub!

Səccam qardaş güldü:

– Kömürçü oğlansız keçinə bilmərik. Ancaq narahat olma, onun tənbehini eləyərəm, – deyə hiyləgərliklə köks ötürdü. – Sənin gözəlliyini görən sənə vurulmasın, neyləsin! Mən bu qocalığımla sənə baxanda gözüm qamaşır.

Aspazın halı xeyli yaxşılaşdı:

– Sənin baxmağının qorxusu yoxdu, kömürçünün baxmağı xatalıdı! Özü də hır-zır qanmır, başlayıb keşiyimi çəkməyə, – dedi və sağollaşdı.

Kahin ondan aralanmaq istəyən qadını yubatdı, asta-asta son tapşırığını verdi:

– Məbəddən çıxmazdan qabaq bütün kahinlərə tək-tək yaxınlaşarsan, bir-iki kəlmə söhbət eləyərsən, xeyir-dualarını alarsan, – dedi və əsas səbəbini izah elədi. – Bizi pusan varsa, qoy, çaş-baş qalsın.

## Naibi-ləşkər Harpaq

Harpaqın uşaqlıqdan atasının böyründə olduğundan çox şey öyrənmişdi. Bilirdi ki, naibi-ləşkərin fəaliyyəti bitib-tükənmir. Qoşunun silah-sursatı, yeməyi-mətbəxi, arabası-qatırı, atların arpası-yemi, sənətkar emalatxanaları onun əlində cəmləşirdi.

Kiçik Şuradan çıxan kimi atını ordugaha çapdı. Sərkərdələri naibi-ləşkərin çadırının önündə düzülmüş gördü. Qoşunun artıq onun təyinatından xəbərdar olması Harpaqı məmnun elədi. Amma sərkərdələrin alqışlarını əlinin işarəsi ilə dayandırdı, qısaca, amiranə dedi ki, bizi, Misirə uzun səfər gözləyir, vaxtınızı boş yerə itirməyin, qoşunun ehtiyacları ilə ciddi surətdə məşğul olun!

– Dincələndə əsgərin qarnı tox, yeri isti olsa, müharibə vaxtı hər cür çətinliyə dözəcək, – söyləməklə fikrini yekunlaşdırdı.

Sonra yeni naibi-ləşkər köməkçilərini yanına çağırdı. Onlara şərab, ot-ələf, taxıl ehtiyatını yoxlamaq göstərişini verdi. Silah-əsləhə emalatxanasına etibarlı bir adamı rəis təyin elədi. Lap axırda mühəndis qoca Darzəni yanına çağırdı, izhar elədi. Misir şəhərlərinin qala divarlarını sərt deyirlər, onları dağıtmaq üçün yüz yeni katapult qurulmalıdır. Mülayimliklə:

– Nə istəsən, sənə veriləcək, təki katapultlar yazın axırına hazır olsun, – dedi. – Bu dəfəki düşmənimiz açıq müharibəni xoşlamır, hündür qala divarlarının arxasında gizlənməyə üstünlük verir. Dediyim vaxtda avadanlıq hazır vəziyyətdə olmalıdır.

– Bu, çətin olacaq, – deyə qoca mühəndisin başı titrədi.

– Əmrimi yerinə yetirməsən, sənin özünü katapulta qoyub atmaq mənim üçün çətin olmayacaq, – deyə Harpaq qocaya gözünü ağartdı. – Get, katapultları hazırla!

## Misirlə müharibə hazırlığı

İki gün keçmədi ki, Harpaqı şahənşahın hüzuruna çağırdılar. Naibi-ləşkərin əhatəli məlumatına cahangir laqeyd qulaq asırdı, sonra sağında, bir az aşağıda oturmuş vəliəhd Astiaqdan soruşdu:

– Sən mənim əvəzimdə məbədləri gəzib nəzir-niyaz payladınmı?

Müharibəyə hazırlıq mövzusundan yayınan şahənşaha vəliəhd məbədlərə ziyarəti barədə məlumat verdi:

– Bəli, atəşgahım, ata, bütün məbədlərə baş çəkmiş, ziyarət eləmişəm! "Bəyaz məbəd"də də oldum. Doğrudan da, yeddi od gəlininin tonqalın ətrafında rəqsi necə möhtəşəm tamaşa imiş! Baş Möbid Şaum ata daha nələr kəşf eləməyib?! Danışmaqla qurtaran deyil!

Şahənşah solunda oturmuş Ulu Möbid Amitaxah ataya tərəf çevrildi:

– Atamız, sən buna nə deyirsən? Şaum atanın adı çəkiləndə vəliəhdin dili ağzına sığmır, halbuki ona adam bəyəndirmək çətindir. Kahinin xidmətlərinin dəyərini vermək vaxtı hələ çatmayıb? – deyə soruşdu: – Onu Ali kahinlər Şurasına dəvət elə! Qoy, vədə çatana qədər sənin əlinin altında çalışsın, dövlət işlərindən xəbərdar olsun, öyrənsin, təcrübəsini, səriştəsini artırsın.

Ulu Möbid şahənşahın istəyini bilirdi. Vəliəhdin ürəyincə olan adamı özünə davamçı seçməliydi.

– Ulu Xaqanın bütün qərarları müdriklik nişanəsidir! Şuranın iki üzvü tərəddüd eləyir, amma tezliklə inamsızlıqları keçəcək, Şaumat qardaşımız sıramızda olacaq.

– Lap yaxşı! – deyə şahənşah zorla yerində dikəldi, naibi-ləşkərə tərəf döndü. – Hökmdar qardaşımız İspakın süvariləri yaxın günlərdə ordugaha gələcək. Onları ləyaqətlə qarşılamaq lazımdır.

Naibi-ləşkər dərhal xəbər aldı:

– Ulu Xaqan, skiflər nə qədər qüvvə ilə gələcəklər?

– Hələ dəqiq məlumatım yoxdur, – deyə şahənşah dilləndi. – Lakin mənim hesabıma görə, İşpak əlli minə qədər süvari çıxarmaq iqtidarındadır. Odur ki, ordugahın ortasında gündoğana doğru beş min çadır qurarsan, qonaqlarımızı rahat, gen-bol yerləşdirərsən.

Dizi üstə oturmuş Harpaq başını dizlərinə toxundurdu. Şahənşah davam elədi:

– Təzə çadırlar qırmızı rəngdə bərq vurmalıdır. Qohumumuz al-qırmızını xoşladığından, qoy, könlü-gözü xoş olsun.

Harpaq başını təkrar dizinə toxundurdu. Şahənşah xeyli müddət susdu, sonra mənası oturanlara aydın olmayan, bir-iki başqa göstəriş də verdi:

– Təcili beş qəz uzunluğunda nizələr hazırlatdırarsan. Bütün piyada əsgərlərimizi onunla silahlandırarsan! Qoşun uzun nizəyə alışsın deyə hər gün məşqə çıxararsan. Hər həftə nizəatma yarışları keçirərsən. Fərqlənənləri mükafatlandırarsan...

Harpaq şahənşahı anlamaq qüdrətində olmasa da:

– Oldu, Ulu Xaqan! – dedi.

Şahənşah axırıncı göstərişini verdi:

– Çoxlu Midiya yağı tədarük elə, tezliklə bizə lazım olacaq, – dedi. – Sən azadsan!

Özünü itirmiş naibi-ləşkər dərgahdan əzgin halda çıxdıqda şahənşah Kiaksar vəliəhddən soruşdu:

– Hə, seçimimdən razısan? – Soruşdu. – Mənə elə gəlir ki, Harpaqdan yaxşı naibi-ləşkər çıxacaq!

Astiaq şəkkaklıqla şahənşahın söylədiklərini cavablandırdı:

– Hələ bilmək olmaz, Ulu Xaqan. Naibi-ləşkərin yaxşı-pisliyi müharibədə bilinir. Gözlənilən Misir səfərində hər şey aydınlaşacaq.

Kiaksar oğlu ilə razılaşdı:

– Az bilmirsən ha! Bəli, çox istərdim ki, xələfim məndən daha yaxşı padşah olsun, taxt-tacı əlində möhkəm saxlasın, səltənətimizin şərəfini qorusun, adımızı ucaltsın!

– Sənin narahatlığına səbəb nədi, atəşgahım, ata? – deyə Astiaq valideynini anlamağa çalışdı.

Şahənşah:

– Məni Midiyanın gələcəyi narahat eləyir! – deyərək, Ulu Möbidin donuq, ifadəsiz çöhrəsinə baxdı, bir təskinedici cavab tapmayıb, köksünü ötürdü.

## Urran qiyamçılar düşərgəsində

Şahzadə Urran arxada, iki nökəri və bələdçi qabaqda gedirdi. Ekbatandan qaş qaralanda çıxsalar da, yalnız o biri gün günorta sərkərdə Ateyin düşərgəsinə çatdılar. Bikini ətrafı meşələr sıx və keçilməz idi, bələdçi yolu gah itirir, gah da tapırdı, ancaq onları mənzilbaşına macərasız çatdırdı.

Ateyin düşərgəsinə ordugah da demək olardı. İki dağın arasında, çay sahilində qurulmuş təpəsi şiş yurtların, talalarda bir-birilə yarışan döyüşçülərin, bol otlaqlarda otlayan harın atların sayından aydın olurdu ki, burada cəmləşən hərbi hissə Babil hüdudlarından uzun yol keçib gələnə oxşamır.

Şahzadəni sərkərdə Atey sevinclə qarşıladı. Onu bayırdan görkəmi o biri yurtlardan seçilməyən, amma içi dəbdəbə ilə döşənmiş xanəsinə apardı. Qürurla soruşdu:

– Hə, şahzadə, ordugah xoşuna gəldi?

Şahzadə sevincini gizlətmədi:

– Əlbəttə, xoşuma gəldi! – dedi, sonra əminliklə əlavə elədi. – Bunlar sənin Babildəki alaylarına oxşamır! Toxdular, cın-cındır içində deyillər.

– Düz tapmısan! – Atey təsdiqlədi. – Babildəki qüvvələrim də tezliklə bura təşrif gətirəcək, onları da geyindirib-kecindirərik.

– Bu elçi Aqarın dediyi dəstədir?

– Dəstə? Söz danışdın də? – deyə Atey onu qınadı. – Meşədə düz on min atlı var!

Şahzadə Urran sərkərdə Ateyin söhbətindən anladı ki, bu dəfə Skif çarı İşpak şahənşah Kiaksara qarşı böyük hərbi qüvvə çıxarmaq fikrindədi. Hazırda Qara dəniz sahillərinə səpələnmiş skif çarlarından kömək gözləyir. İspak bilir ki, Midiya iyirmi səkkiz il əvvəlki Midiya deyil, onu yenmək çətin olacaq!

Urran işin ciddiliyinə işarə edib mətləbi açdı:

– Bəs, müharibə eləmək üçün belə mövqe seçərlər? Meşədə-dağda gizlənərlər?

– Şahzadə bilməlidir ki, Ekbatandan Babilistana gedən yol qarşıdakı dağın ətəyindən keçir! Misirə gedən qoşun

mütləq həmin yoldan ötməlidi. Birinci zərbəni burada endirəcəyik. Bunu İşpak özü fikirləşib.

Sərkərdə Ateyi Urran qınadı:

– Sən dayım çar İşpakdan elə danışırsan ki, elə bil badə yoldaşı olmusunuz! Çar haqqında hörmətlə danışarlar!

Atey cavanın sadəlövhlüyünə ağız büzdü:

– O, elə mənim badə yoldaşım olub. Çarlığımızı qurana qədər tez-tez Andiya dənizi ilə Qaf dağı arasındakı dar keçiddən adlayır, Midiya torpaqlarına hücum eləyir, yerli əhalini çapıb-talayır, atını, mal-qarasını əlindən alır, özlərini əsir götürürdük. Midiya ordusu yetişənə qədər aradan çıxırdıq, geri, Qara dəniz sahillərinə qayıdırdıq. Kefi kök yaşayırdıq.

– Deməli, siz əsilzadə yox, quldurbaşı olmusuz? – deyə Urran təəccübləndi. – Bəs, dayım necə padşah oldu?

Sərkərdə Atey söylədi ki, İşpakın həm gücü var idi, həm də kəlləsi! Bir səfərdən sonra skif çarına çapqın vaxtı gətirdiyi bir ilxı seçmə Midiya atı hədiyyə elədi, qoşun toplamağa icazə aldı.

– Biz Skif alaylarını cənuba doğru apardıq, – deyə Atey davam elədi: – Muğan düzündə məskən saldıq, İşpak özünü çar elan elədi. Midiyanın başı Assuriya ilə müharibəyə qarışmışdı. Çətin durumda olan şahənşah Kiaksar İşpakın elçisini yaxşı qarşıladı, barışığa razı oldu, hətta qorxu-hürkü bilməyən skif alaylarının köməyi ilə Assuriyanı məğlub elədi. Beləcə, Muğanda yerimizi bərkitdik.

Şahzadə gizli bir hiddətlə:

– Deməli, Midiyanın yaman günündə torpaqlarını tutmusuz! – dedi, sonra Ateyin söylədiklərinə marağını itirdi, biganəliklə soruşdu. – Bu ordugah çoxdan qurulub?

Atey gizlətmədi:

– Bir-iki il olar, – dedi, ani nə düşündüsə, lap dəqiqləşdirdi. – İşpak Midiya taxt-tacını ələ keçirmək fikrinə düşəndən sonra.

– Deməli, dayım mənim üçün yox, özü üçün çalışır? – deyə Urran incik dilləndi.

Sərkərdə Atey onu sakitləşdirdi:

– Darıxma, uduşda sən olacaqsan! Bilirsən, şahzadə...

Qnyaz bayırda qalxan hay-küyün səbəbindən sözünü bitirmədi, təlaşla çadır-yurtdan çıxanda:

– Görüm, nə məsələdi, – dedi.

## Urranın məsləhəti

Ateyin qayıtması çox çəkmədi. Şahzadə səbirsiz halda:

– Nə olub, qnyaz? – Soruşdu. – Yoxsa müharibə tanrısı Ares təşrif gətirib?

– Elə bir şeydi! – Atey üzünü turşutdu. – İşə bax ha, bu keçilməz meşələrdə də yad adamlar peyda olub! Keşikçilər çayın o tərəfindəki talada iki nəfər görüb, onları oxa tutublar.

– Qərarın nə oldu?

– Çayın o tərəfinə bir kəşfiyyat dəstəsi göndərdim! Tapşırdım ki, həmin adamların dirisini, ya da ölüsünü tapıb gətirsinlər. – Təəssüflə əlavə elədi. – Ordugahın yeri dəyişilməlidi.

Şahzadə gümanla yaddaşını qurdaladı:

– Həmin şəxslər Tətür Atxanın güdükçüləridirsə...

Atey onun sözünü kəsdi:

– Yox, bunlar güdükçü deyillər. Güdükçü axmaqdı bəyəm, açıqlığa çıxsın? – deyə etiraz elədi. – Yol azmış adamlara oxşayırlar.

Urran gümanını axıra çatdırdı:

– Əgər güdükçüləridirsə, ordugahın yeri dəyişilməlidir. Amma təzə ordugah qurmaqdansa, çadır yurtların üstü şaxşüvüllə örtülsə, yaxşıdı, qoy, kənardan komaya oxşasınlar. Meşədə koma görən heç nədən şübhələnməz.

Atey təklifin mükəmməlliyinə heyran qaldı:

– Bu sərkərdələrə layiq tədbirdi! – deyə Atey hörmətlə dilləndi. – Sadə, sadə olduğu qədər də dahiyanədir! Bu saat əmr verərəm...

Urran tərifi qulaqardına vurdu, onu bayaqdan məşğul edən sualı verdi:

– Dayan, qnyaz, Aspazı gətirmək yadından çıxmayıb ki?

Atey Urranı sakitləşdirdi:

– Yadımdan çıxmayıb! Sevgilin bir-iki günə burdadır! Verdiyin əski parçasını ona çatdırmışıq. – Hiyləgərliklə əlavə elədi. – Hələlik xidmətində skif gözəlləri duracaq.

## Naməlum adamların axtarışı

Naməlum adamların meşədə görünməsi ordugahda əməlli-başlı narahatlıq, təlatüm yaratdı. Açıqlıqda nə vardısa, yığışdırıldı, çadır yurtların üstü ağac budağı ilə örtüldü. Atlar meşənin dərinliyində təzəcə sazlanmış xalxallara salındı.

Axtarışa göndərilmiş kəşfiyyat dəstəsi iki gündən sonra əliboş qayıtdı. Dəstəbaşı, qaya parçası kimi sərt skif, ağızdan pərtöv idi. Urran skifcə az-çox bilsə də onun dediyinin heç yarısını anlamırdı. Skif günahkar olduğundan özünü

təmizə çıxarmaq fikrində deyildi, sərkərdə Ateyin söyüşdanlağına dinməzcə dözürdü.

– Sarsaq heyvan! Axtardığın adamlar quş olub göyəmi uçdular?

Dəstəbaşı eyni şeyi bir də təkrarladı:

– Qnyaz, meşəni ələk-vələk eləmişik, hətta karvan yoluna çıxmışıq. Keçən karvanlardan soruşmuşuq, onları “gördüm” deyən olmadı. Dağın o tərəfində, vadidə bir türkmən köçü düşmüşdü. Ora getdik, onlardan da xəbər aldıq. Tanrımız Aresin ildırımlarına and olsun, dedilər görməmişik...

– Tanrı Aresin ildırımları sənin başına düşsün! – Atey onu qarğıyıb azca sakitləşdi. – Yaxşı, sarsaq, türkmən köçündən danış! Hardan gəlib, hara gedir? Karvan yolunun ətrafında çoxmu qalacaq?

Nəhayət, danlaqdan canını qurtarmış dəstəbaşı həvəslə cavab verdi:

– Öz dediklərinə görə, məğribdən gəlib məşriqə gedirlər. Hər dəfə Misir ehramlarına qədər gedib çıxır, sonra qayıdırlar. Dedilər, yolumuz Çinə doğrudur. Bir-iki gün dincimizi alıb tərpənirik. Onların ilxıları, naxırları, sürüləri bütün vadini tutmuşdu. Saysız-hesabsız kibitkaları vardı. Bizi yaxşı qarşıladılar, qonaq elədilər. Söhbət elədik, ayrıldıq.

Atey hirsləndi:

– İki daşın arasında türkməncə hardan öyrəndin, ay sarsaq? Sənə Midiya dilini iyirmi ildir öyrədə bilmirik...

– Müqəddəs Aresə and olsun ki, türkmənlərlə elə Midiya dilində danışırdıq, qnyaz. Onlar özlərini elə midiyalı sayırlar. Deyirlər, Misirdən Çinə qədər ərazi otlaqlarımızdı, – deyə dəstəbaşı and-aman elədi.

Sərkərdə Atey heyrətini gizlətmək üçün dəstəbaşını yanından qovdu:

– İtil gözümdən, əbləh! – dedi, qapıdan çıxmış dəstəbaşının dalınca qışqırdı. – Dediyinin çoxu yalandı.

Urran etiraz elədi:

– Elə deyil, qnyaz! Mənə dərs deyən möbidlərə inansaq, dəstəbaşı yalan demir. Midiya dövlətini elə türkmənlər qurub, bütün türkdilli, parsdilli qəbilələri birləşdirib imperiya yaradıblar.

Atey maraqlandı:

– Bəs, Pars qövmünün narazılığına səbəb nədir? Gah orda, gah burda qiyam qaldırırlar! Qəribə odur ki, midiyalılar çox vaxt parsca danışırlar.

Urran diplomatik dünyagörüşünü ortaya qoydu:

– Mənə elə gəlir ki, parslar dövlətçilikdə ikinci yerlə razılaşmırlar, birinci olmaq istəyirlər.

## Aqar çar İşpakın hüzurunda

Aqar xeyli aralı atdan düşdü. Düzəngahın ortasında on minlərlə təpəsi şiş çadır yurtlarla əhatə olunmuş, bir az qəlbidə ucaldılmış çar İşpakın qırmızı çadırına həyəcansız baxa bilmirdi. Ayağının altına salınmış qırmızı payəndazın üstünə ayaq basanda ucaldığı məqamdan qürur duydu. Parçası qızıl sapla işlənmiş çadırın ətrafına yığışan skif əyanlarını başı ilə salamladı, sonra qapıdan içəri adladı, köhnə ilxıçı yoldaşının qarşısında diz çökdü, baş əyib taxta tərəf iməklədi.

İçəridə çar İspakdan başqa heç kim yox idi. O, çadırın ortasında qoyulmuş qızıl taxtından düşdü, iməkləyən Aqarı qaldırıb qucaqladı:

– Biz ikilikdə olanda bu artıq şeydir, qardaşım Aqar! – dedi, taxtın böyründə yer göstərdi. – Otur, söylə görüm, nə xəbərlə gəlmisən?

Onların söhbəti çox çəkmədi. Aqarın Ekbatandan Muğana göndərdiyi çaparların ardı kəsilmirdi. Çar İşpak hər şeydən hali olduğundan Aqarın sözünü kəsdi:

– Bacım Aqniyanı gördünmü? Kefi yaxşıdırmı? Bəs, dostumuz Atey necədir?

– Hökmdar, xanım Aqniya Urrandan soraq alandan sonra yaxşılaşıb, – deyə Aqar suallara növbə ilə cavab verdi. – Atey də pis deyil, bircə ailəsindən ötrü bərk darıxır.

– Bilirsən ki, Ateyin xəyanəti barəsində xəbər tutan kimi mən onun ailəsini burada, Muğanda saxlamadım, şimala yola saldım. Kiaksar məlumat ala bilərdi. Onda fırıldağın üstü açılardı, – deyə İşpak dilləndi.

Aqar çarı təriflədi:

– Amma yaxşı fənd işlətdin, Kiaksarı aldatdın! Qulqaravaşı sərkərdə Ateyin arvad-uşağı kimi Ekbatana göndərdin.

– Mən hələ də Kiaksarın aldandığına əmin deyiləm!

– Əvvəl mən də əmin deyildim, amma xanım Aqniya ilə görüşəndən sonra arxayınlaşmışam. Bir də şahənşahın taxt otağını dinləyən adamlarımız da var, axı! – Aqar döşünə döydü. – Mən sənin çörəyini boş yerə yemirəm, qızılını da bica yerə xərcləmirəm. Midiyalılar var-dövlət hərisidir, şirnikləndirib satın alıram!

Çar İspak qaşqabağını tökdü:

– Belə özündən bədgüman olma! – dedi. – Bu dəfəki cəhdimiz boşa çıxsa, iyirmi səkkiz illik zəhmətimiz batacaq. Bir daha Kiaksarı məsumluğumuza inandırmaq çətin olacaq. O boyda imperiya ilə təkbətək qalacağıq.

Aqar həyəcanlandı:

– Yox, yox! Bu dəfəki cəhdimiz uğurlu alınacaq. Yaxşı hazırlaşmışıq. Həm də biz heç də tək deyilik, hökmdar, Parsarqaddakı elçimiz parsları da razı salıb. Onlar kömək eləməyə hazırdır. Yaxınlarda Kambizin elçisi yanına gəlməlidir.

– Bəs, Urartudan səs çıxmadı?

– Hələ ki cavabları yubanır. Əslində, Urartu çarı Rusaya çox da inanmaq olmaz, hökmdar! Yəqin Midiyanın boyunduruğundan zövq alır, – dedi, sonra əlavə elədi. – Bu gəlişimdə hər şeyi səninlə razılaşdırmaq istəyirəm. Süvarilərimiz Ekbatan ordugahında yerləşəndən sonra hər şey əlimizdə olacaq. Qoşun şahənşahın taxta çıxmağının qırx illiyini bayram eləyəcək. Hamı məsti-xumar olacaq. Səhərisi gün, Böyük İdin əlli altıncı günü ilk dəfə ordugahı piyadalar tərk edəcək. Sonra sapandçılarla ox atanlar, daha sonra mancanaqlar və ərzaq arabaları tərpənəcək. Onlar beş günə Babil yoluna çıxacaqlar. Burada Ateyin pusquda dayanmış süvariləri bir həmlə ilə onların işini bitirəcəklər və Bikini dağında tonqallar yandıracaqlar. Ordugahdakı süvarilərimiz Bikini dağında yanan tonqalları görən kimi Midiya süvarilərinə hücum eləyəcək. Onları qılıncdan keçirəndən sonra Ekbatan bizim ixtiyarımıza keçəcək.

İspak razı qaldı:

– Pis deyil, lap naxışdı! – dedi və əllərini bir-birinə sürtdü. – Sarayı tutan kimi Kiaksarı, vəliəhdi, onların taxta iddialı bütün övladlarını, qadınlarını, yaxın əshabələrini qı-

lıncdan keçirin. Urranı şahənşah elan edin!

– Bəlkə Kiaksarla vəliəhdi əsir edib bura gətirək?

– Yox, bunu eləmək düz deyil. Çünki yolda hər şey baş verə bilər. Təsadüfən taxt-tac varislərindən biri əlimizdən çıxsa, işlər xarablaşacaq. Hər hansı qanuni varis sağ qalsa, midiyalılar ətrafına yığışacaq, – deyə İşpak təkrarladı. – Urranı dərhal şahənşah elan edərsən!

– Deyirsən, bu boyda səltənəti Urrana verək? Nəhəng imperiyanı bir südəmər uşağa tapşıraq? – deyə Aqar yana-yana soruşdu.

Çar İşpak Aqardan da artıq yanıb-tökülürdü, amma tədbirli olduğundan hər addımını ölçüb-biçirdi.

– Başqa əlac yoxdu, qardaşım Aqar! Midiyanı belə daha asan idarə edərik! Mən taxta çıxsam, Zərdüşt kahinləri bütün Midiyanı əleyhimə qaldıracaqlar. Urran isə Kiaksarın oğludur, onun varlığı ilə tezliklə barışacaqlar.

– Hökmdar, mənim fikrimcə...

– Sənin fikrini bilirəm! – deyə İşpak çımxırdı. – Sən ilxıçılardan birini Midiya taxtında, birini vəzir rütbəsində, digərini də naibi-ləşkər görürsən...

Çar İşpak sözünü bitirib Aqarın gözünün içinə baxdı. İkisi də birdən uğundu.

## Dostların həyatı

Onlar doğrudan da Muğana ilk dəfə ilxıçı kimi gəlmişdilər. Bunu fərəhlə xatırlayırdılar. Dostların on beş yaşı vardı. Onda kimin ağlına gələrdi ki, skif çapovulunun üç ilxıçısı bu torpaqların ağasına çevriləcək...

Bir vaxtlar Skif çöllərində irili-xırdalı qohum çarlıqlar çox idi. Onlar Şimaldan, Şərqdən, Qərbdən gələn qəbilələrin səbəbinə günü-gündən güclənirdilər. Bu qüvvələr öz aralarında didişməmək üçün Cənuba üz tuturdular. Hər dəliqanlı ətrafına bir dəstə toplayır, Midiya sərhədlərini aşır, nəhəng imperiyanı yalquzaq kimi didişdirirdilər.

Belə çapqınlarda himayədarını itirmiş İşpaklar ailəsi ehtiyac içində yaşayırdı. Anası cənub səfərlərində varlanan bir qnyazın ayağına düşdü, oğlunu dəstəsinə götürməyi xahiş elədi. On beş yaşlı İşpak hündür boylu, güclü və cəsur oğlan idi. Qnyaz onu dəstəsinə mehtər götürməyə razı oldu:

– Səni dəstəmə ilxıçı götürürəm. Get, səfərə hazırlaş, sabah tərpənirik! – dedi.

İşpak sırtıq-sırtıq soruşdu ki, donluğum nə olar. Qnyaz qaşqabağını tökdü:

– Səfərdən sağ qayıdanda bilərsən, – dedi və yenə nəsə soruşmaq istəyən oğlana acıqlandı. – Axmaq uşaq, biz gəzintiyə çıxmırıq, çapqına-talana gedirik. Bu yolda ölüm olur, itim olur. Sağ qalsan, hamı kimi pay alıb varlanacaqsan. Ölsən, ruhunu Tanrı Aqniya tapşıraram.

İşpak gecə ilə dostlarını tapdı. Əlinə düşən imkandan danışdı. Aqarla Atey onun təklifini qəbul elədilər. Səhər hər üçü qnyazın düşərgəsinə gəldi. Baş qarışıq olduğundan yeniyetmələrə fikir verən olmadı. Yalnız iki gün yol gedəndən sonra yeniyetmələrin dəstəyə qoşulması üzə çıxdı. Qnyaz İşpakın üstünə bağırdı:

– Ay səni Tanrı Aresin ildırımı vursun! Bu nə özbaşınalıqdı, eləyirsən! Rədd olun dəstəmdən!

İşpak qnyazın sakitləşməyini gözlədi, mülayim halda dedi:

– Hörmətli qnyaz, özün dedin ki, səfərdə ölənin qeydinə Tanrı Aqni qalır! Dostlarımı özümlə götürdüm ki, ölsəm, payımı onlara verəsən, daha Tanrı Aqnini narahat eləməyəsən.

İşpakın dərrakəli cavabı qnyazın xoşuna gəldiyindən yeniyetmələri dəstəsindən qovmadı. Amma qərarı sərt oldu:

– Yaxşı, qoy, bu südəmər dostların sənin köməkçilərin olsun! Amma onlarla özün hesablaşarsan, payından pay ayırarsan.

## Mehtərin arzuları

Dostlar bəxtigir çıxdılar, hər dəfə səfərdən salamat qayıdır, çapqınçılıqdan paylarını alırdılar. Bacarıqlı İşpak tezliklə öz dəstəsini yaratdı, cənub istiqamətində elədiyi uğurlu yürüşlərlə Skif düzündə məşhurlaşdı. Axırıncı səfərdən qayıdanda Tarmakis satrapının ilxısını qovub gətirmişdilər. İşpak bütün qəniməti bölsə də, atları “qanuni oğrular” arasında bölməyə tələsmirdi. Bu barədə ondan soruşanda deyirdi ki, atları yolda qovub əldən salıblar, şikəsti, axsağı hələ bəlli deyil, bir az keçsin, bölərik.

Bir neçə il Midiya hüdudlarına səfərdən sonra İşpakın gəldiyi nəticə sadə, sadə olduğu qədər də dahiyanə oldu. Amma Aqarla Ateyi inandırmaq üçün xeyli zəhmət çəkdi.

– Sizi təkrar başa salıram. – İşpak hövsələsini zorla basdı. – Bütün qonşularımız skiflərdən qorxur, sorağını alan kimi qoyub qaçırlar! Gör, iş nə yerdədir ki, xırda skif dəstələri Dar Keçiddən adlayıb Midiyanın içərilərinə qədər gedib çıxır. Əgər azca qüvvəmiz olsa Muğan torpaqlarında həmişəlik kök sala bilərik. Oraların sahibi olarıq.

– Yəni sən çar olacaqsan? Biz də sənin qnyazların olacağıq? – Aqar heyrətlə fit çaldı. – Əlçatmaz arzudur!

İşpak başını tərpətdi:

– Əgər dediyimi qulaq ardına vurmasaz, hətta, ünyetməz diləkləriniz belə çin olacaq! Əlbəttə, bu boyda işi kiçik dəstə ilə görmək olmaz, ordu lazımdı!

Dostların ağzı açıla qaldı. Aqar handan-hana:

– Nə təhər? Qoşun çöldə bitən göbələk deyil ki, yığasan səbətə! – dedi, sonra xahiş elədi. – Dost, bizə ətraflı danış, görək neynəmək istəyirsən! Açığı, biz sənin kimi böyük dərrakə sahibi deyilik, söylədiklərini çətin başa düşürük.

İşpak yaxın dostlarını azca intizarda saxlayıb, fikrini onlarla bölüşdü. Tədbiri həqiqətən sadə, sadə olduğu qədər də dahiyanə idi.

## Dostlar at yarışmasında

İşpak hər şeydən əvvəl ümumi ilxıdan yüz qənimət atı seçdi. Görkəmsiz, balacaboy skif atlarından fərqli olaraq Midiya atları hündür, yaraşıqlı idi. İşpak onları Midiya qaydası ilə yəhərləmək üçün səriştəli, peşəkar yəhər-yüyən ustalarını düşərgəsinə çağırdı. Yaxşı qızıl müqabilində atlar üçün bərbəzəkli yəhər-yüyən, sinə örtüyü hazırlatdırdı. Sonra dəstəsindəki döyüşçülərin üst-başına əl gəzdirdi. Ateylə Aqarı da unutmadı. Onların qızıl işləməli libaslarına, süvar olduqları yorğa miniklərə əsil-nəcabətli qnyazlar da həsəd aparardı. İşpak özü isə Midiyadan gətirdiyi bədöy atlar qoşulmuş döyüş arabasını sürmək fikrində idi.

Skif düzündə ildə bir dəfə müharibə Tanrısı Aresin şərəfinə yarışlar keçirilirdi. Bu atçapma, oxatma yarışları

üç-dörd gün çəkirdi. Bütün qəbilələrin qatıldığı belə hərbi tamaşa-oyunlarda igid skif döyüşçülərinin istedadları üzə çıxırdı. Hamını valeh edən yarışma isə at üstündə ox atma idi. Təpədə qurulan eyvanda, taxtda oturmuş çar birinciliyə münsiflik eləyir, qalibləri mükafatlandırırdı.

Skif düzündə ata sitayiş edirdilər. Onsuz skif şəxsiyyət sayılmırdı. At əvəzsiz minik idi, südü, qanı içilirdi, əti yeyilirdi, dərisi geyilirdi. Bir sözlə, bütün yarışlar ən gözəl, ən qaçağan kəhərlərin nümayişi ilə başlayırdı.

İşpak bu anı gözləyirdi. Özü qabaqda, bədöylər qoşulmuş döyüş arabasında, arxasınca dəstəsi, skif atlarına minmiş döyüşçülərin yedəyində yəhər-yüyənli gözəl Midiya atları, alqışlar altında meydana girdi. Necə fikirləşmişdisə, elə də oldu. Onu çarın hüzuruna çağırdılar. Çar soruşdu:

– İgid, bu atlar bizim atlara oxşamır! Hardandı səninçün?

– Bunlar Midiya atlarıdı, əlahəzrət, sənə hədiyyə gətirmişəm.

– Padşahlara layiq hədiyyədir! – deyə çar təriflədi. -Sənin hədiyyəni qəbul edirəm, igid. Bu atlar ilxılarımı yaraşığa mindirəcək!

– Sənin ilxılarını yaraşığa mindirən minlərlə gözəl at gətirməyə hazıram, əlahəzrət!

– Məndən diləyin nədir, igid?

İşpak diləyini bildirdi. Çar heç fikirləşmədən ona arzusunu yerinə yetirmək barədə göstəriş verdi:

– Sənə on min qoşun yığmağa icazə verirəm. Madam ki, kiçik dəstə ilə bir belə qənimət gətirə bilirsən, deməli, igid adamsan! Bir az böyük qüvvə ilə dağı dağ üstə qoymağa qadirsən! Bir də... skif qılıncı qında qalanda paslanır. Qoçağım, haydı, irəli!

## Tətür Atxanın narahatlığı

Görkəmini dəyişmiş Aspazın "Bəyaz məbəd"də qəfildən görünməsi hansısa gizli məqamlara dəlalət edirdi. Dilənçilərin arasından keçməsi isə xəfiyyələrin nəzərindən qaçmadı. Qadının nəzarətdən yayınmaq istəyi göz önündəydi. Onu aradan qaldırmaqla ziyandan qaçmaq mümkün idi, amma Aspaz məlumat mənbəyi kimi etibarını itirsə də, Tətür Atxaya tələ yemi kimi lazım idi.

Baş xəfiyyə bir neçə gündü ki, yeni xəbərlər gözləyirdi, amma adamları hər dəfə əliboş qayıdırdılar. Şahzadə Urranla sərkərdə Atey bir parça əppək olub ilim-ilim itmişdilər. Ekbatan ətrafı məhəllələri süzgəcdən keçirəndən sonra da bir nəticə hasil olmadı. Uğursuzluqdan zəncir gəmirən Tətür Atxa özü ilə bir neçə süvari götürdü, atını "Bəyaz məbəd"ə tərəf çapdı.

Tətür Atxanın gəlişi məbəddəkiləri vahiməyə saldı. O, soruşmadan birbaşa baş Möbidin hücrəsinə keçdi. Şaum ata atəşdanın qarşısında diz çökmüşdü. Qapı səsinə başını qaldırdı, ibadətini yarımçıq qoydu, Tətürün ayağına qalxdı. Əhvallaşandan sonra dinməz oturdular. Sükutu Tətür pozdu:

– Şaum qardaş, sənin skifin daha görünmür?

– Əlahəzrət, Ağiti deyirsənsə, dünən yanımda idi! Deyir, qonaqlar o gedən gediblər, nə meyxanaya gəlirlər, nə şamanxanaya.

Tətür çox oturmadı, tələsik məbəddən çıxdı. Yenidən saraya qayıtdı. Axırıncı vasitəyə əl atdı. "Bəyaz məbəd"in ətrafındakı məhəllələrdə vaxt keçirən təcrübəli xəfiyyələrindən bir neçəsini çağırıb Aspazın hər addımını izləməyi onlara tapşırdı.

## Aspaz Urranın çağırışına gedir

Urranın sifarişi Aspazı elə qanadlandırmışdı ki, nə dilənçinin dediklərini, nə də onun ovcuna basdığı əski parçası barədə birbaşa rəislərinə məlumat verdi. Qadın düşdüyü girdabda çabalayır, Tətür Atxaya da, Səccam qardaşa da badalaq gəlməyə fürsət axtarırdı. İndi belə bir imkan əlinə düşmüşdü, onu əldən buraxmaq olmazdı.

Xəbərin ancaq özünə aid olduğunu düşünərək, hətta xanım Aqniyadan da gizlətmək istədi. Əski parçası sevgi oyunları vaxtı şahzadənin gözünə bağladığı dəsmaldan kəsilmişdi. Qadın bir az düşünəndən sonra fikrindən vaz keçdi. Məbəddən dönən kimi xanım Aqniyanın otağına çəkildilər. Şahzadənin ismarışını götür-qoy elədilər. Aspaz xanımı aldatmadı, həqiqəti söylədi:

– Çox güman ki, şahənşah Urranın gəlişindən agahdı xanım! Tətür Atxa boş yerə sürü ilə xəfiyyə saxlamır ki! Lakin Urran üçün qorxmağına dəyməz, xanım, o yaxşı gizlənməyi bacarır. Tuta bilsəydilər, indiyəcən dalından dəymişdilər.

Xanım fikirli halda dilənçinin verdiyi əski parçasını sığalladı:

– Yəqin ki, Urran sənin üçün darıxıb, yanına çağırır, – dedi, sonra qulluqçunun qoltuqları şişməsin deyə ismarışı qəsdən bayağılaşdırdı. – Ona qadın lazımdı.

Şahzadə üçün burnunun ucu göynəyən Aspaz Aqniyanın qırımını anladı, amma:

– Xanım, mənə şahzadənin qapısının tulası da desən, incimərəm, – dedi.

Xanım Aqniya onu qucaqlayıb qibtə ilə öpdü:

– Sən Urranı görəcəksən! Mən isə oğlumu haçan görəcəyimi bilmirəm.

Aspaz ona ürək-dirək verdi:

– Ulu Hörmüzdün köməyi ilə sən də görərsən, xanım! – dedi. – Mən sabah gedirəm!

– Şübhə doğurmadan saraydan çıxa bilərsənmi? – deyə xanım soruşdu.

Aspaz hər üç boyunduruqdan canını qurtarmağı qarşısına məqsəd qoyduğundan qətiyyətlə xudahafizləşdi:

– Bunun daha fərqi yoxdur!

## Aqar Ekbatana qayıdır

Elçi Aqar bərəkətli Muğan torpaqlarını adladı, Andiya dənizinin sahililə Zikertu əyalətinə varid oldu. Bütün bu torpaqlar Tarmakis satraplığına məxsus idi.

Elçi istəyinə nail olduğuna görə kefi kök idi, amma ehtiyatı əldən vermirdi. İşpakı inandırmağa az vaxt sərf eləməmişdi. Axır ki, köhnə ilxıçı dostu qırx minlik seçmə süvarisini onun ixtiyarına verməyə razı olmuşdu. Bilirdi ki, çar İşpak əlində olan budur, tabeliyində kiçik bir qüvvə saxlayır. Bu da şimaldan gələn köçərilərdən dinc əhalini, arvad-uşağı, sənətkarları qorumaq üçün lazım idi. Midiyadan isə daha ehtiyat eləmirdi. Misir yürüşünə başı qarışmış Kiaksara axırıncı zərbəni endirməyin vaxtı çatmışdı.

Skif qoşunu Urartu torpaqlarını adlayıb keçməklə Ekbatana çatmalıydı. Bu şahənşah Kiaksarın tələblərindən biriydi. Elçi isə Midiyanın paytaxtına gedən daha qısa və abad yolu seçmişdi.

Onun təəccübünə rəğmən Termakis satraplığında qarışıqlıq idi, hər yerdə üsyan ab-havası vardı. Tez-tez bellə, yaba ilə silahlanmış kəndlilər rastlarına çıxırdı, orda-burda yanğınlar gözə çarpırdı. Karvan yolları isə açıqdı, gedib-gələnə dəyib-dolaşan yox idi, sanki o təlatümlərin yola-rizə dəxli azdı.

Qnyaz Aqar qulamlarından birini çağırdı, çar İspaka həsr edilmiş bir "mahnı" əzbərlətdirdi. Mahnının əşarında deyilirdi ki, Tarmakisdə üsyandı, Midiyanın başı qarışıqdı, qurduğumuz oyun uğurlu olacaq. Qulam onun dediklərini bir neçə dəfə zümzümə eləyəndən sonra Muğana tərəf çapdı.

Ekbatanın təxmini sərhəd hüdudlarına təzə çatmışdılar, axşam şəhərə yetişəcəkdilər ki, xeyli yubanmalı oldular. Midiya süvariləri bütün yolu-izi tutmuşdular. Yortma yerişlə irəliləyən atlı qoşundan sonra piyada alaylarının qabağı açılırdı.

Ordunun arxasınca gələn sərkərdənin dörd tərəfi yüksək çinli zabitlərdən ibarətdi. Elçi Aqra qoşun başçısını dərhal tanıdı. Bu sərkərdə Kittan idi. O da elçinin kimliyini aydınlaşdırdı, atını onun bərabərində saxladı.

– Qnyaz, hardan belə?

Elçi bir neçə cümlə ilə səfərinin məqsədini izah eləyib soruşdu:

– Hörmətli Kittan, bəs, sizin səfəriniz haradır? Olmuya Misir ehramları yerini dəyişib? – deyə zarafat da elədi. – Qərbdən şərqə köçüb?

Kittan elçinin zarafatını qiymətləndirdi:

– Yox, qnyaz, Misir ehramları yerindədi, şərqə səfərimizin məqsədi Tarmakis satraplığındakı üsyanı yatırtmaqdı. Deyirlər, qara camaat ayağa qalxıb...

– Tarmakis satrapının öz qoşunu var axı!

– Əlbəttə, qnyaz, – dedi, sonra gümanını gizlətmədi. – Yəqin ki, üsyan böyükdü, satrapın gücü çatmayıb, şahənşahdan əlavə qüvvə istəyib.

– Görünür, şahənşah qohumunun xətrini bərk istəyir...

Kittan elçinin bu şit zarafatından heç xoşlanmadı:

– Qnyaz, yaxşı yol, – dedi, soyuq vidalaşdı, gedə-gedə bərkdən deyindi. – Yadellilər Midiya dövlətinin işlərinə burunlarını soxmasalar yaxşıdı, bunun onlara aidiyyəti yoxdur!

## Darasp düşərgədən xəbər tutur

Darasp Skif məhəlləsindəki sığınacağına təzə çatmışdı. Səccam qardaş tanımadığı bir kahinlə içəri girdi. Əsilzadə bildi ki, nəsə vacib hadisə baş verib.

– Nə var, mənsiz darıxıbsan, Səccam ata? – deyə zarafat elədi.

Səccam qardaş təşvişlə:

– Ağa, bu adam Babilistandan gələn kahin qardaşımızdı. Parsarqad məbədinin kahinidi. Bir-birimizi çoxdan tanıyırıq. Ekbatandan keçib vətənə gedir. Mənə baş çəkmək fikrinə düşüb. Onun yolda gördüklərini sən də dinləsəydin, pis olmazdı, – dedi.

– Bizim qardaşımız nə deyir? – Dara yad kahinə yuxarıdan aşağı baxdı.

Yad kahin boğazını arıtladı:

– Ağa, yolda gördüyüm bir qəribə əhvalatı Səccam qardaşa danışdım. O mənə məsləhət gördü ki, bunları sənə də söyləyim.

– Eşidirəm.

...Qoşulduğum karvanın yükü ağır idi, lap sürünə-sürünə gedirdi. Bikini dağına çatanda dincəlməyə dayandıq. Astagəl karvan canımızı boğazımıza yığmışdı. Ekbatana on beş günə çatacağımızı deyirdilər. Yolda tanış olduğum bir ekbatanlı ləng karvandan ayrılıb kəsə yolla getməyi təklif elədi. Məni inandırdı ki, beş günə Ekbatandayıq. Dedi, mən bu dağlarda böyümüşəm. Onun söylədiyi ağlıma batdı. Özümüzü meşəliyə vurduq. Sıldırım qayalıqları aşdıq, Bikini dağının ətəyinə çatdıq. Çayın sahilindəki vadidə gördüklərimizdən heyrətləndik. Burada nəhəng skif ordugahı qurulmuşdu. Ehtiyatlanıb meşəyə çəkildik.

Darasp heyrətləndi:

– Şahənşah Kiaksarın qulağının dibində skif ordugahı? İnanılmazdı! – dedi, onu tələsdirdi. – Sonra?

– Sonra nə olacaqdı ki! O biri sahildən bizi gördülər, oxa basdılar. Məsafə uzaq olduğundan mizraqlar bizə xətər yetirmədi. Gəldiyimiz yolla dala qaçdıq, iki gündən sonra karvan yoluna çıxdıq, başqa bir karvana qoşulub Ekbatana özümüzü yetirdik. Burda ayrıldıq.

Daraspın ağlına nə gəldisə, dik qalxdı:

– Bəs, midiyalı yoldaşın hara getdi? Onun yaşadığı yeri bilirsənmi?

Kahin özünü itirdi:

– Soruşmaq heç ağlıma gəlmədi! – Sonra yadına salmağa çalışdı. – Tez-tez Kittan adlı qohumunu yada salırdı. Deyirdi ki, qardaşım oğlu böyük adamdı, onun yanına gedəcəm, mənə kömək eləyər.

Səccam qardaş sevinclə gülümsədi:

– Kittanı deyirsən? Hə, bu adda bir sərkərdə ilə rastlaşmışam. Əgər sənin yol yoldaşının Kittana qohumluğu çatırsa, onda midiyalını ordugahda axtarmaq lazımdı, – dedi.

Darasp otaqda sürətli addımlarla gəzişdi, yad kahindən bayırda gözləməyi xahiş elədi. Təklikdə qalan kimi Səccam qardaşa dedi:

– Midiyalı gördükləri haqda çərənləyə bilər! Ekbatan ətrafındakı skif ordusu barədə Tətür Atxa nə qədər gec bilsə, o qədər xeyrimizədir, – dedi, sonra qətiyyətlə əmr elədi. – Midiyalını təcili tapıb işini bitirərsən.

Səccam qardaşın gülüşü üzündə dondu, çaşqın halda soruşdu:

– Necə?

Darasp libasının altında gəzdirdiyi xəncərin tiyəsini göstərdikdə Səccam boyun qaçırmağa çalışdı:

– Mən bunu tək bacarmaram!

– Babilistandan gələn kahin qardaşımızla bu işin öhdəsindən asanlıqla gələrsən. Mənim əmrimi ona çatdırarsan. – Həyəcanla ayağa qalxdı. – Mən bu xəbəri təcili Parsarqada çatdırmalıyam.

Səccam onun yadına saldı ki, sabah Böyük İdin onuncu günüdür, qurbanvermə olacaq. Darasp əzabla:

– Yadımdadı! Amma Kijəni dilə tuta bilmədim, – dedi. – Artıq gecdir! Mən bircə saat da Ekbatanda qala bilmərəm! Kahin qardaşımızın gətirdiyi xəbəri təcili Kambiz şaha çatdırmalıyam.

– Zavallı qızı oda atacaqlar!

– Neyləməli? Bir qıza görə Parsın taleyi ilə oynaya bilmərəm.

Səccam qardaş vətən naminə hər şeyindən keçməyi bacaran əsilzadəyə baş əydi.

## Qurbanvermənin yubadılması...

Ulu Möbid Amitaxah fikrindən dönmürdü:

– Ulu Xaqan, bütün kahinlər, möminlər ayağa qalxacaq! Sonra xalqın narazılığının qabağını almaq çətin olacaq. Ali Baş Kahinlər Şurası təkidlə...

Şahənşah daha hövsələsini zorlaya bilmədi, Ulu Möbidin sözünü kəsdi:

– Atamız, Kahinlər Şurasının bütün üzvləri səninlə həmrəydirmi?

Ali Baş Kahin şuradakı məxfi səsvermənin nəticələrini şahənşahdan gizlətmədi:

– Ulu Xaqan, doqquz kahinin yalnız biri təklifə müsbət yanaşır, qalanları əleyhinədir.

– Kimdi lehimə səs verən?

– Ulu Xaqan, bunu deyə bilmərəm.

Şahənşah təklifinə müsbət yanaşan kahinin Şaum ata olduğunu artıq Tətür Atxadan öyrəndiyindən israr eləmədi. O, Ali Baş Kahinlər Şurasının razılığı olmadan da doğum gününə təyin olunmuş qurbanvermə mərasimini dayandıra bilərdi. Lakin Zərdüşt kahinlərinin qüdrətinə bələd idi. Bunu anlamasaydı, səltənəti uzun çəkməzdi. Qırx ildi kahinlərlə yola gedirdi, onları özündən narazı salmırdı, həmişə inandırmağa çalışırdı. İndi də cəhd elədi:

– Əslində qurbanvermə mənim sağlamlığımla əlaqədar olduğundan bu ancaq mənim səlahiyyətimə aiddir.

– Elə deyil, Ulu Xaqanın sağlamlığı bütün Midiyanın işidir.

Şahənşah köməksiz halda Kiçik Şuranın üzvlərini nəzərdən keçirtdi. Yalnız Tətür Atxanın baxışlarında təəssüb

gördü. Vəliəhd də, naibi-səltənət də, Harpaq da, hətta baməzəbaş xəzinədar da Amitaxah atanın tərəfindəydi. Axırıncı vasitəyə əl atdı:

– Böyük İdin 46-cı gününə təyin edilmiş qurbanverməni başqa bir vaxta, tacqoymanın qırx illiyinə keçirə bilərik. Buna nə deyirsən, ata?

Bu Amitaxah atanın da ağlına batdı:

– Ulu Xaqan, bu müdrik qərardır! Mənə elə gəlir ki, bununla Ali Baş Kahinlər Şurası razılaşacaq. Mən qardaşlarımıza bunu çatdırmalıyam...

Şahənşah Amitaxah atanı mürəxxəs elədi. Qoca Möbid əsasına söykənərək taxt otağından çıxdıqda, vəliəhd soruşdu:

– Atəşgahım ata, qurbanverməni yubatmağın bir mənası varmı?

Tətür Atxa ifadəsiz səslə onu başa saldı:

– Əlahəzrət vəliəhd, tacqoymanın qırx illiyi yaxınlaşanda qurbanvermənin vaxtını bir də dəyişmək mümkünsüzdür.

Şahənşah naibi-səltənətə tapşırdı:

– Qurbanvermənin dayandırılması barədə fərmanımı bütün satraplara çatdır. Çaparları yubanmadan yolla.

Naibi-səltənət çəkinə-çəkinə:

– Ulu Xaqan, ölkənin ucu-bucağı yoxdu, çaparlar bəzi satraplıqlara vaxtında çatmayacaqlar.

Şahənşah qaşqabağını tökdü:

– Neyləməli? Olacaqla barışmaq lazımdı! Hər halda biz əlimizdən gələni eləməliyik ki, bu binəvaların bir hissəsi yaşasın.

## Misir müharibəsinə hazırlıq

Harpaq şahənşahın əmrlərini kor-koranə yerinə yetirir, hər gün qoşunun məşqlərini izləyirdi. Artıq dörd qəzlik nizələrə öyrəşən döyüşçülər məharət göstərir, bəzən oyunbazlıq da edirdilər. Məşqlərin birində Harpaq təbəssümünü gizlədə bilmədi. On nəfər əsgər nizədən ehram qurur, on birincisi ucalığa dırmaşır, əlini gözünün üstünə qoyur, guya uzaqlara baxır, hövlnak qışqırırdı: “Misir ehramlarını görürəm”.

Eyvandan düşən Harpaq təkatlı döyüş arabasına qalxanda təbilçi on dəfə təbili vurdu. Bu naibi-ləşkər tərəfindən verilən yüksək qiymət idi. Ruhlanmış döyüşçülər uzaqlaşan sərkərdəni alqışladılar. Harpaqın mühafizəçiləri ordugahın mərkəzinə tərəf çapan arabaya zorla çatırdılar. Ən axırda təbilçinin atı gəlirdi.

Düzənliyin ortasında, skif döyüşçüləri üçün qurulan qırmızı çadırların sayı günbəgün artırdı. Elə də çətin iş deyildi. Əvvəl yerə basdırılmış elastik budaqlar baş-başa bağlanır, daha sonra üstünə qırmızı parça çəkilirdi. Şahənşahın qoyduğu vədə yaxınlaşdıqca Harpaq əzazilləşirdi. Boyaqçı ustanı danladı:

– Deyəsən, sənin tələsməklə aran yoxdur! Qırmızı parçalar niyə hazır deyil?

Onun gətirdiyi bəhanələrə qulaq asmadı, yorğun-arğın halda hədələdi:

– Nə qədər qaynar boyaq tiyanına səni basmamışam, işini tamamla, – dedi.

## Düşərgədən Harpaq xəbər tutur

Harpaq nizəatma təlimlərini axşam düşənə qədər izlədi. Sonra məşqlərin axşam ala-toranlığında davamına əmr elədi. Özlərini itirmiş sərkərdələri, minbaşıları başa saldı:

– Hətta, qaranlıqda da atılan nizələr hədəfə dəyməlidir. Bu şahənşahın tələbidir. – Sonra onları hədələməyi də unutmadı. – Əgər şahənşah təlimi izləyəndə narazı qalsa, başınızı cəllad əlində bilin!

O, hədədən büzüşmüş sərkərdələrə fikir vermədən ikitəkərli arabasına atıldı, məşəlçi qabağa düşdü, mühafizəsi arxasınca tərpəndi.

Harpaq şəhərə gedib-gəlməyə vaxt itirmirdi, ordugahda qalır, çadırda gecələyirdi. Nizəçilərin qoruduğu sığınacağına çatanda qaranlıq düşdü. Çadırın qabağında arabasını saxladı. Məşəllərin gur işığında gördü ki, ona tərəf qaçan adamı nizəçilər kənara qovmağa çalışırlar. Naibi-ləşkər işarə eləyəndən sonra həmin adamı yaxına buraxdılar. O, həyəcanını gizlətmədi:

– Əlahəzrət, mən sərkərdə Kittanın dayısıyam. Ona vacib sözüm vardı.

Sərkərdə Kittan Harpaqın sevimlisi olduğundan onun qohumlarına qarşı laqeydlik göstərə bilmədi.

– Kittan səfərdədi, tezliklə qayıdar, sözünü deyərsən, – deyib maraqlandı. – Bəs, Kittanın dayısı niyə yadellilər kimi geyinib?

Kittanın dayısı:

– Əlahəzrət, Babilistandan gəlirəm, – dedi, əlavə sual gözləmədən izah elədi. – Ulu Hörmüzd onu hifz eləsin, şahənşahın Babilə göndərdiyi ustalardanam, daşyonanam. Midiya şahzadəsi Amitiasiorun şərəfinə ucaldılan asma

bağların tikintisində çalışırdım. Babillilər bizim şahzadəyə Semiramida deyirlər. Tikinti bitəndən sonra mənə vətənə dönməyə icazə verdilər.

Midiya şahzadəsi Amitiasior Babil padşahı Navuhpalasarın oğlu Navuhdanosara ərə verilmişdi. Zövcəsinin gözəlliyinə, məlahətinə valeh olan vəliəhd istənilən arzusunu yerinə yetirirdi. Yaşıllıqlar içində üzən Ekbatan üçün darıxan arvadını ovutmağa çalışan Navuhdanosor, taxta çıxandan sonra, toz-torpaqlı Babil şəhərində asma bağlar kimi bir möcüzə yaratmışdı.

Asma bağların şöhrətindən xəbərdar olan Harpaq maraqla:

– Usta, yəni asma bağlar haqqında deyilənlər doğrudur? Onlar doğurdanmı, belə möhtəşəmdir?

Daşyonan fikrini ifadə eləməyə söz tapmadı. Sadəcə:

– Çox möhtəşəmdir, hörmətli sərkərdə, Babil asma bağlarını ancaq Misir ehramları ilə müqayisə eləmək olar! Bu barədə saatlarla danışa bilərəm, əlahəzrət, amma yolda gördüklərim mənə rahatlıq vermir. Onları bir səlahiyyətli şəxsə danışmalıyam. Bacıoğlu Kittanı da ona görə axtarırdım...

– Belə vacib xəbərdisə, mənə söyləyə bilərsən. Amma qısa elə, bərk yorğunam! – deyə Harpaq ustanı tələsdirdi.

Daşyonan əl-ayağa düşdü, yolda başına gələnləri tələsə-tələsə danışdı. Naibi-ləşkər Kittanın dayısına axıra qədər qulaq asıb inamsızlıqla soruşdu:

– Yurtların skiflərə məxsus olduğunu hardan bilirsən?

Daşyonan qürurla dedi:

– Əlahəzrət, mən həmişə daşyonan olmamışam, köhnə əsgərəm. Assur müharibəsində skiflərlə yan-yana vuruşmuşam. Skif yurtlarını yaxından görmüşəm.

Harpaq bir-iki sual da verdi, aldığı cavabları dinləyəndən sonra yerindən qopdu, qaça-qaça arabaya atılanda nizəçilərin başçısına əmr elədi:

– Kittanın qohumunu yedirdib-içirdin, amma yaxşı qoruyun, heç yerə buraxmayın, – dedi, sonra mühafizəçilərinə çevrildi. – Şəhərə gedirik!

## Harpaq Tətürün hüzurunda

Harpaq dərgaha gecə gəlib çatdı. Arabasına qoşulmuş atlar çaparaq sürüldüyündən, qan-tərə batmışdılar. Mühafizəsi arxada qalmışdı. Yolunu işıqlandıran məşəlçinin də atı köpük içində idi.

Cavan naibi-ləşkər dövlət işlərində hələ bişməmişdi. Döyüş meydanlarının əvəzedilməz sərkərdəsini gözə görünməyən düşmənin varlığı həyəcanlandırmışdı. Yuxudan qaldırılmış naibi-səltənət Bixur qətiyyətlə fısıldadı:

– Düşmən Ekbatanın lap bir ox mənzilinə yaxınlaşsa belə, xəstə şahənşahı oyada bilmərəm. Mən başımın qədrini bilirəm! – Məsləhət gördü. – Ya vəliəhdi, ya da Tətür Atxanı yuxudan bidar eləsən yaxşıdı.

Seçim böyük olmasa da Harpaq tərəddüd içində qaldı. Sonra Tətür Atxanın iqamətgahına pənah apardı. Baş xəfiyyə naibi-ləşkərin söylədiklərini çox sakit qarşıladı. Donuq üzündə heç nə dəyişmədi. Bu, sərkərdəni çaşdırdı, mütərəddid halda:

– Əlahəzrətin vaxtını, deyəsən, boş yerə aldım... – dedi.

Tətür Atxa gözünü ondan ayırmadan, şam işığında cızdığı gil lövhəciyi kənara qoydu:

– Heç də yox! Sadəcə, həyəcanlanmağa lüzum görmürəm.

Qəribə də olsa, Harpaq sevmədiyi adamın səsindəki arxayınlıqdan sakitləşdi.

– İndi neyləməliyik? – Soruşdu.

– Səhəri gözləməliyik, görək şahənşahın məsləhəti nə olacaq.

Hamı bilirdi ki, xəstə şahənşah səltənəti süd qardaşının ümidinə buraxıb. Amma baş xəfiyyə hökm-fərma olsa da, müstəqil addım atmırdı. Naibi-ləşkər yerində qurcuxdu:

– Əlahəzrət, təəccüblüdür ki, belə mühüm xəbəri çox sakit qarşıladın.

Tətür Atxanın dodaqlarından bir qımıltı keçdi:

– Bu barədə bəzi məlumatımız var! Amma bildiklərim naibi-ləşkərin gətirdiyi xəbərin qiymətini azaltmır.

Harpaq təklif elədi:

– Bəlkə beş-altı alay qoşun salım meşəyə? Skiflərin qoparağını götürüm?

Tətür Atxa heç fikirləşmədən:

– Olmaz! Skiflərin bir yerə cəmləşməyi xeyrimizədir, – dedi.

Harpaq köməksiz uşağa döndü, özünü itirmiş halda:

– Əlahəzrət, mən anlamıram. – Söylədi.

Tətür Atxa sözünü kəsib vəd elədi:

– Tezliklə anlayacaqsan! Get, dincəl.

Harpaq ayağa qalxdı:

– Əlahəzrət, bəs, daşyonanı neyləyim? Sərkərdə Kittanın dayısını deyirəm.

Tətür Atxa ilk dəfə fikrə getdi, sonra dilləndi:

– Onu yanıma gətirərsən. Bir müddət himayəmdə yaşayacaq. Bəlkə lazım oldu.

– Oldu, əlahəzrət! Səhər yanına göndərəcəm.

Tətür Atxa bu dəfə fikirləşmədən təkidlə əmr elədi:

– Bunu səhərə saxlama! Daşyonanı gecə ilə, güclü mühafizə altında yanıma özün gətirərsən.

## Daraspın Muğan səfəri

Daraspın məiyyəti kiçik idi. Onu müşayiət eləyən üç atlının biri köhnə sarvan idi. Bələdçi kimi əvəzedilməz adamdı, amma yol boyu dil boğaza qoymur, boşboğazlığı ilə hamının canını boğazına yığırdı. Tarmakis satraplığına yaxınlaşdıqca hər yerdə camaat həyəcanlı, narahat görünür, üsyandan danışır, yolların qorxulu olduğunu söyləyirdi. Bunu eşidən bələdçi şimala gedən karvanlardan birinə qoşulmağı təklif elədi. Darasp tələsdiyindən razılaşmadı.

– Karvan bizi yubadacaq. Biz Muğana mümkün qədər tez çatmalıyıq!

Yolboyu müxtəlif atlı bölüklərlə rastlaşırdılar. Qoşunun çoxluğu Daraspı qayğılandırırdı. O, Midiya dilini gözəl bilirdi, müqəddəs Şiz şəhərində təhsil alanda öyrənmişdi. Bir dəstə başçısından soruşdu:

– Üsyan beləmi böyükdü?

Başa düşəndə ki, Zikertu əyalətində üsyançılarla ordu arasında əməlli-başlı toqquşma var, dava-dalaş genişlənir, Tarmakis şəhərini tələsik tərk elədilər.

Yolları dərəli-təpəli, enişli-yoxuşlu olduğundan asta-asta gedirdilər. İns-cins gözə dəymirdi. Bir neçə ağac məsafə qət etmişdilər ki, ağzı söhbətə qızışmış ehtiyatsız bələdçi qəflətən hürkmüş atdan yerə yıxıldı. Məcburən dayandılar. Bələdçinin qıçı sərpmişdi. Yenidən yola çıxacaqdılar ki,

gördülər, gözlənilmədən üfüqdə peyda olan qara nöqtələr onlara doğru hərəkətə başlayır. Təşvişə düşdülər. Nöqtələr get-gedə böyüyüb bütün üfüqü bürüdü.

Darasp heyrətləndi:

– Bu nədi belə? – deyə bələdçidən soruşdu.

– Bu türkmən köçüdür, – deyə bələdçi ağrını bir anlıq unudub biliciliklə nıqqıldadı. – Gözləyək keçsinlər, yoxsa atın-ulağın, qatırın, qoyun-quzunun tapdağı olarıq.

Onlar atları çidarladılar, otluğa buraxdılar, ocaq qaladılar. Bir qismət çörək kəsmişdilər ki, köçün qabağı açıldı. Bu, həqiqətən seyr eləməli mənzərə idi.

Öndə at ilxısı gedirdi. Ayaq tappıltısının uğultusu çölü-düzü titrədirdi. Əli qamçılı ilxıçılar tox atları tələsdirmirdilər. Sonra uzaqdan səhrada qum dənəciyini xatırladan qoyun-quzu sürüsü bölük-bölük keçdi. Çobanlar da at belindəydilər. Daha sonra nəhəng naxır düzəni bürüdü, iynə düşməyə yer qoymadı. Naxırçılar heyvanı hoylasalar da onların vecinə deyildi, yerişinə haram qatmırdılar. Lap axırda kəllər qoşulmuş ağır yüklü arabalar mənzərəni tamamlayırdı.

Köç keçən kimi onlar tərpəndilər. Günün batmağına xeyli var idi. Hələ bir ağac da getmək olardı. Amma bələdçinin şişmiş qıçı ona əziyyət verirdi. Darasp ürək-dirək verdi:

– Döz, rastımıza çıxan birinci kənddə dayanarıq, sınıqçı taparıq.

Bələdçi üz-gözünü qırışdırdı:

– Buralarda Andiya dənizinin sahillərinə qədər ins-cins yaşayır ki, sınıqçı da tapılsın? – deyə acıqlandı. – Yoxuşu qalxan kimi dayanaq, daha dözə bilmirəm, taqətim qalmayıb.

Onların təpədən gördükləri lap möcüzə idi. Aşağıda kiçik bir gölün ətrafında binə salınırdı. Beş-altı kişi alaçıq qurur, qadınlar ocaq qırağında biş-düş eləyir, uşaqlar çığır-bağır salıb oynayır, itlər hürüşürdü. Yamacda beş-on baş qoyun-quzu, üç-dörd inək otlayırdı. Atlar çidarlanmış, yüklü arabadan isə kəllər hələ açılmamışdı. Lap bayaq keçən türkmən köçünün kiçik tayına oxşayırdı.

Kiçik dəstə binəyə endi. Ağlı-huşunu itirmiş bələdçini yerə düşürtdülər, altına at çulu saldılar. Hürərək yad adamlara tərəf şığıyan itlərə qadınlardan biri zil səslə acıqlandı. Onlara iki kişi yanaşdı. Darasp bələdçinin şişmiş qıçını açıb əlilə işarə elədi. Kişilərin cavanı baxan kimi:

– Çıxığa oxşayır. – Söylədi.

Yaşlı kişi etirazla:

– Yox, sınıqdı! Gedərsən, üç-dörd yumurta, bir kasa un, bir dolça su, kətan şərid gətirərsən.

Cavan kişi arabaya tərəf tələsdi. Onların danışdığı dili Darasp lap yaxşı bilirdi. Maraqla xəbər aldı:

– Siz midiyalısız?

– Yox, biz türkmənik. Günorta keçən köçdənik, – deyə ahıl kişi qərib yolçunu cavablandırdı.

– Türkmənlər, bəyəm, Midiya dilində danışırlar?

– Gərək ki, midiyalılar bizim dildə danışırlar! – deyə kişi istehza elədi.

– Köçdən ayrılmağınızın səbəbi nədir?

– Uzun söhbətdi, qonaq! – deyə kişi dilləndi. – Qəbilə başçısı bizim ailə ilə yola getmirdi.

– Dincinizi alıb yenə köçün dalınca gedəcəksiz?

– Yox, biz burda kök salmaq, binə qurmaq istəyirik.

– İcazə almısız?

Bu söz kişinin acığına gəldi:

– Bu çöllər binədən dədə-baba oylağımızdı. Kimdən icazə almalıyıq ki? Biz min illərdi Məğribdən Məşriqə, Məşriqdən Məğribə köçhaköçdəyik, dindirən olmayıb. Yurd salanda indiyə qədər heç kəsdən izn-filan istəməmişik, bundan sonra da icazə almarıq.

Bu vaxt cavan kişi alaçıqdan qayıtdı. Yaşlı kişi cəld işə başladı. Bələdçi onun əlinin altında bir neçə dəfə inildəyib huşunu itirdi. Yaşlı kişi düzəldiyi məlhəmi çubuqla bağlanmış ombaya yaxdı, kətanla bərk-bərk sarıdı:

– On gün açmazsız, – dedi, qoltuğundan bir balaca tuluq çıxartdı. – İndi onu huşa gətirəcəm.

– Bihuş qalsa yaxşıdı! Yol boyu baş-qulağımızı aparır! – deyə Darasp zarafata keçdi.

– Belə çərənçidi?

– Tayı-bərabəri doğulmayıb.

Yaşlı türkmənin üzünə tər gəldi, tuluqdan bələdçinin boğazına nəsə maye tökdü. O, gözünü açıb qışqırdı:

– Məni öldürmək istəyirsən?

Türkmən qəhqəhə çəkdi:

– Ölən adam belə bağırmır, – dedi.

Onlar vidalaşanda türkmən canıyananlıqla üzrxahlıq elədi:

– Sizi qonaq çağırardıq, amma özümüz təzəcə binə salırıq, oturmağa macalımız yoxdu.

## Darasp çar İşpakın hüzurunda

Qalan yolu sərgüzəştsiz getdilər. Muğana çatdılar. Darasp Parsarqadda aldığı təlimatdan bir neçə nəticə çıxartmışdı. Hər şeydən əvvəl anlamışdı ki, Kambiz şah şahənşah

Kiaksardan bərk qorxduğundan Midiyaya qarşı getmək fikrində deyil, lakin daha məkrli, hiyləgər bir oyuna qoşulub. Midiyanın düşmənlərini qızışdırır.

Çar İspak Pars əsilzadəsini inamsızlıqla dinləyirdi. Onun təqdim elədiyi kiçik qızıl lövhəni dilmanca uzadıb oxumağı əmr elədi.

– Əlahəzrət, yazı Pars dilindədi. Çevrilməsi belədir: “Biz, Pars şahı Kambiz Əhəməni nəslindən olan Daraspı Skif çarı İspakın hüzuruna elçi qismində göndəririk. O, bizim adımızdan danışacaq!” Vəssalam.

Çar İspak əsilzadəyə baxdı. Bu özünü Dara adlandıran adamın Muğana birinci gəlişi olsa da, özünü çox inamlı aparırdı.

– Əlahəzrət skif padşahına Pars şahı Kambizin salamlarını çatdırırıq. Düşmənimiz bir olduğuna görə köməyinizə gəlmişik. Əgər imkanlarımızı birləşdirsək, lap tez qalib gələcəyik. Bir sözlə, əlahəzrət Kambiz sizə tərəfdaşlıq təklif edir.

Darasp cavan olsa da, fikrini səlis ifadə eləməkdə çətinlik çəkmirdi. Sözündən belə çıxırdı ki, skiflərin Midiyaya qarşı hazırladığı sui-qəsdin bəzi məqamlarından xəbəri var. Çar İspak vaxtı uzatmaq üçün öz şəxsi dilmancını işarə ilə yanına çağırdı. Daraspdan dediyini bir də təkrarlamağı xahiş elədi. Pars onun arzusunu yerinə yetirdi. Yalnız bundan sonra çar İspak soruşdu:

– Kambiz şahı öz qayınatasına qarşı getməyə nə məcbur edir?

Darasp dikbaşlıqla:

– Bəs, çar İspakı qaynına qarşı getməyə nə vadar edir? – Sonra qızğınlıqla dedi. – Biz qul kimi yaşamaq istəmirik! İstəmirik ki, oğlanlarımız, qızlarımız Midiyanın əxlaqsız

saraylarına aparılsın. İstəmirik var-dövlətimiz Midiya xəzinəsinə axsın. Biz azad yaşamaq istəyirik!

Çar İspak istehza ilə:

– Deyəsən, beş il bundan qabaq üsyan qaldırmışdız? Nəticəsi nə oldu? Parsarqad dağıdıldı, ata Kambiz öldürüldü, yerinə azyaşlı oğlu taxta çıxarıldı, – dedi.

– Azadlıq qurban tələb edir, hökmdar. Qalibiyyət yolu həmişə mübarizələrdən keçib, – deyə Darasp təkəbbürlə dilləndi.

Çar İspak yorğun halda:

– Yaxşı, sizin köməyiniz nədən ibarət olacaq?

– Bizim Kiaksarın sarayında adamlarımız var. Aldığımız məlumatı sizə çatdırarıq. Qızılımız var, ehtiyaclarınızı ödəyərik. Yəqin, tərəfdaşlığımız bəhrəsini verəcək.

– Biz məlumatı sizsiz də öyrənirik! Mənə canlı qüvvə lazımdı, – deyə çar etirazını bildirdi.

– Yox, qoşun söz verə bilmərəm.

– Madam elədir, bunun nəyi tərəfdaşlıq olur ki? Biz qalib gəlsək, qalibiyyətimizə şərik olacaqsız, məğlub olsaq, qıraqda qalacaqsız, əziyyəti biz çəkəcəyik. Budurmu tərəfdaşlığınız?

Darasp başını tərpətdi, skif çarının haqlı olduğunu bildirdi. Onun cavabını səbirsizliklə gözləyən skif çarını ümidləndirdi:

– Şahənşahın adamlarının gözünün qabağında qoşun yığmaq çətin olduğundan qüvvələrimizin sayı azdı, on min nəfər ola, ya olmaya. Onları sizin qüvvələrinizə qatmağa hazırıq.

Çar İspakın sifəti işıqlandı:

– Bax, bu tərəfdaşlığa oxşayır. Hazır olun, bizim adam Parsarqada gələcək, qoşunlarımızın cəmləşdiyi yeri sizə nişan verəcək...

Darasp istehzasını gizlətmək üçün baş əydi:

– Siz vaxtını deyin, hökmdar, sizin bölüklərin Bikini dağının arxasında cəmləşdiyi bizə məlumdu.

Daraspın sözü çar İspakı ox kimi tutdu. Hərbi sirrin bəlli olması yaxşı əlamət deyildi, sui-qəsdin uğursuzluğuna gətirib çıxara bilərdi.

## Aqarın narahatlığı

Böyük İdin əlli altıncı günü yaxınlaşırdı. Qnyaz Aqarın iqamətgahına gələn çaparların ardı-arası kəsilmirdi. Qayğıları artsa da, daxilində baş qaldıran şübhələri heç cür qova bilmirdi.

Qırx minlik skif qoşunu Ekbatana yetişməkdəydi. Axırıncı çaparın söylədiyinə görə, artıq şəhərin on beş ağaclığında idi.

Qnyaz şübhələrdən yaxa qurtarmağa çalışdı, skiflər üçün yaradılmış şəraitlə tanış olmaq fikrinə düşdü. Onun istəyini dərgahda razılıqla qarşıladılar. Bu, qnyazı sakitləşdirdi.

Naibi-səltənət narahatlığını bildirdi:

– Qnyaz, ordugaha baş çəkməyinə sözümüz yoxdur. Vəziyyət başqa cürdür. Bilməlisən ki, orda hərbi təlimlər gedir. Başına bir iş gələr, hökmdar İspak qarşısında xəcalətli qalarıq.

Qnyaz arxayınçılıqla güldü:

– Cənab, təlim döyüş deyil, axı, nəsə olsun...

– Kim bilir, qnyaz, hər şey ola bilər! – deyə Bixur tapşırdı. – Ehtiyatı əldən buraxmayın.

## Aqar Midiya ordugahında

Elçi Aqarla mirzəsi bir neçə saatdan sonra skiflər üçün salınmış düşərgəyə maneəsiz çatdı. Naibi-ləşkər Harpaqın onlara qoşduğu cavan zabit ordugahda asayiş dəstəsinin rəisi idi. O, qabaqda gedir, arada atını saxlayır, verilən sualları hörmətlə cavablandırırdı. Aqarın mirzəsi möhtəşəm ordugahın zəhmi qarşısında heyranlığını gizlədə bilmədi:

– Gör, necə nəhəng ordudu! – Fikrini gizlətmədi. – Qnyaz, Midiya ordusunu yenmək çətin olacaq.

Elçi Aqar da yolboyu gördüyündən təsirlənmişdi, amma ürəyinə dolan şübhələri qovdu:

– Boş şeydi! Nə qədər nəhəng olsalar da, skiflərin qarşısında dayana bilməzlər.

Onlar gəlib çatdılar. Atdan enib xeyli piyada gəzdilər. Skif döyüşçüləri üçün qurulmuş çadırlar bir-birindən aralı idi, örtükləri tünd qırmızı rəngə boyanmışdı. Yerinə qalın həsir döşənmişdi. Ortada ocaq yeri nəzərdə tutulmuşdu. Küncdə içməli su tuluğu qoyulmuşdu. Hər çadırın qabağında yerə mıxça çalınmış, arxasında isə ətrafına qamış çəkilmiş çuxur qazılmışdı.

Gündoğana tərəf sıralanmış çadırların mükəmməlliyinə söz ola bilməzdi. Skif döyüşçüləri üçün yaradılan şəraitdən məmnun qalan elçi Aqara asayiş rəisi çatdırdı ki, naibi-ləşkər sizi qərargahda gözləyir.

Qərargah yaxında idi. Harpaq qonaqları lütfkarlıqla qarşıladı, dəbdəbəli çadırına apardı. Elçi Aqarı üzügülər qarşıladı:

– Ulu Xaqan, Ulu Hörmüzd ona yar olsun, öz dostlarını qiymətləndirir! – dedi.

Elçi Aqar kefi köklüklə gərnəşdi:

– Hörmətli naibi-ləşkər, çadırın qabağında yerə çaxılmış mıxça nə üçündür?

– Ulu Xaqanın tapşırığı ilə skif qoşunu ordugaha varid olan gün həmin mıxçaya bir qoyun bağlanacaq, çadırın qapısından bir yekə tuluq çaxır asılacaq, ortaya bir tabaq kökə qoyulacaq. Qnyaz, bu bayram azuqəsidir, şahənşahın müttəfiqlərinə hədiyyəsidir.

Elçi Aqar şaşırmış halda:

– Beş min qoyun? Beş min tuluq çaxır? – deyə heyrətləndi, özünə gəlib sonrakı sualını verdi. – Hörmətli Harpaq, sizin döyüşçülərin çadırlarından fərqli olaraq bizim döyüşçülərin çadırları içəridən keçələnməyib. Niyəsini bilmək olarmı?

– Bizim çadırlar qışda qurulub. Skif qoşunu yazın axırında Ekbatana gəlib çatacaq, ordugahda bir neçə gün qalıb, səfərə çıxacaq. Havalar da bundan sonra isti keçəcək. Keçəyə ehtiyac yoxdur.

Elçi Aqar deyilənlərlə razılaşdı. Daha bir sualla müraciət elədi:

– Hörmətli Harpaq, döyüşçülərimizin yeri rahatdır, bəs atlar necə olsun? Onları çadırlardan uzaqda saxlamaq mümkün deyil, axı!

– Qnyaz, heç narahat olma. – Harpaq onu sakitləşdirdi. – Atlar çayın sahilindəki xalxallarda saxlanılacaq. Ora həm yemə-suya yaxındı, həm də çadırlara.

Elçi Aqar şübhə ilə:

– Skifin atı gözünün qabağında olmalıdır!

– Bir-iki gün bayram şənlikləri keçiriləcək. Yeməkiçmək elə bol olacaq ki, at skifin yadına düşməyəcək.

Elçi Aqar naibi-ləşkərdən razı ayrıldı. Midiyalıların sui-qəsddən xəbərsizliyi elçini qanadlandırırdı. Mirzəsinə xəlvətcə pıçıldadı:

– Midiya ordusu nə qədər böyük olsa da, qurduğumuz tələdən yaxa qurtara bilməyəcək!

## "Ölüm odasında" toplantı

Şahənşah yeni bir "xəstəliyə" mübtəla olmuşdu. Tez-tez "ölüm odasına" baş çəkirdi. Ayaqlarını sürüyə-sürüyə son məkanını gəzir, bəzən dayanır, qızıla, daş-qaşa tutulmuş divarları, döşəməni nəzərdən keçirirdi. Amma "ölüm odasının" eyvanında özünə kürsü, məiyyəti üçün oturacaq qurdursa da, burada çox yubanmırdı. Qapıda hazır dayanmış səyyar taxta oturanda, qullar taxtın ayaqlarından qaldırıb ehmal addımlarla saraya tərəf yol alanda, hamı rahatlıqla nəfəsini dərirdi.

Bu dəfə elə olmadı. Şahənşah keçib kürsüdə oturdu. Məiyyətindən də oturmağı tələb elədi. İlıq şölə saçan yaz Günəşi onların üzünü oxşayırdı.

– Kiçik Şuranı burada keçirsək, deyirəm, heç pis olmaz, – deyə hökmdar dilləndi.

Gəzinti vaxtı onu səssiz addımlarla, təlaşla izləyən vəliəhdin, Tətür Atxanın, Ulu Möbidin, baş xəzinədarın, naibi-ləşkərin, naibi-səltənətin narahatlığını lağa qoydu:

– Bundan gözəl yer bütün Midiyada tapa bilməzsiz! Bizi "ölüm odası"nda axtarmaq heç Əhrimənin də ağlına gəlməz! – dedi, müqəddiməsiz buyurdu. – Naibi-ləşkər, yubanmadan Tarmakisə yollanarsan. Üsyanın yatırılmasına

nəzarət edərsən. Satraplıqdakı qoşunların hamısını sərkərdə Kittanın ixtiyarına verərsən. Bir sözün varmı?

Harpaq cürətsiz surətdə:

– Ulu Xaqan, bəs, Bikini dağındakı skiflər necə olsun?

Şahənşah buna bənd imiş kimi sözünü kəsdi:

– Skiflər qaçmır! İndi Tarmakisə yola düşərsən. Gedib-gəlməyə bir həftə vaxtın var. Səfərdən qabaq Tətür Atxanın zirzəmisinə baş çəkərsən, bəzi niyyətlərimlə tanış olarsan, – dedi.

Harpaq "ölüm odası"ndan güllə kimi çıxdı. Şahənşah bir az susdu, sonra süd qardaşına müraciətlə:

– Naibi-ləşkəri anlatmaq vaxtı çatıb.

Tətür Atxa əlini qaşının üstünə qoydu, amma səsi çıxmadı. Şahənşah soruşdu:

– Tətür, şahzadənin gizləndiyi yeri dəqiqləşdirdinmi?

– Ulu Xaqan, şahzadə güman ki, Bikini dağındakı skif ordugahındadı. Xəfiyyələrimiz onun izi ilə gedirlər. Bu gün-sabah səhih məlumat gətirəcəklər.

Şahənşah kəc-kəc ona baxdı:

– Əlinin altında sürü ilə xəfiyyən var, yenə gümanla danışırsan. İşə yarımırlarsa, qov getsin onları, niyə saxlayırsan?

Danlaqdan Tətür Atxanın üzünün ifadəsi dəyişmədi, yalnız ağırlığını sağ ayağı üstündən sol ayağının üstünə keçirtdi, bəhanə axtarmadan üzrxahlıqla:

– Ulu Xaqan, günahkaram! – dedi.

Şahənşah naibi-səltənətə tapşırdı:

– Babilin, Lidiyanın, Skifiyanın elçilərini dərgaha çağırarsan. Görək neynəyiblər, nə xəbərlə gəliblər, – dedi, sonra Tətür Atxaya dönüb soruşdu. – İspakın qoşunları hardadır?

– Ulu Xaqan, bu gün gələn çaparlar İspakın göndərdiyi qoşun barədə məlumat gətiriblər. Skiflər Böyük İdin iyirminci günü Muğandan çıxıblar, iyirmi beşinci günü Urartuya daxil olublar.

Şahənşah fikirli halda:

– Yolda özlərini necə aparırlar?

– Gələn çaparlar deyirlər ki, çox intizamlı aparırlar. Aldıqları ərzağın, arpanın, otun haqqını ödəyir, saldıqları düşərgədən kənara çıxmırlar...

– Neçə günə Ekbatana çatacaqlar?

– İyirmi günə çatarlar. Böyük İdin 55-ci günü Ekbatanda olmalıdırlar.

– Sənin adamların onların ölkə boyu yerdəyişməsinə nəzarət eləyirmi?

– Əlbəttə, Ulu Xaqan, hər iki ağacdan bir çaparlarımız dayanır.

## Ağitin sərnişinləri

Sübh açılar-açılmaz Ağit arabanı meyxananın qabağında saxladı. Düşüb açıq qapıdan boylandı, gözləri axan meyxanaçıya sataşdı:

– Ey müqəddəs şərab tuluğu, məni baş şaman göndərib! Müsafirlər burdadır?

Əslində, sərxoş meyxanaçının cavabına ehtiyac yox idi. İçəridə cəmi iki nəfər vardı. Biri cır-cındır içində idi, dilənçiyə oxşayırdı. Qapının arxasında oturub şərab içirdi. O biri müştəri abırlı geyinmişdi. Meyxananın ortasında yanan ocağa yaxın, yanpörtü əyləşmişdi. Qabağındakı şərab dolçasına isə əl vurmurdu. Davranışından məlum olurdu ki, üzünü gizlətməyə çalışır. Dilənçiyə oxşar kişi xırıltılı səslə dedi ki, bizi aparacaqsan!

Ağit istehza ilə:

– Bəli də, indi də dilənçilərə arabaçılıq eləməliyəm? – Soruşdu, amma dilənçinin sifəti Ağitə tanış gəldi. Diqqətlə baxıb gördü ki, bu keçən il yoxa çıxmış Bittey şamanıdır, təəccübünü gizlətmədi. – Bəs, dedilər, sən Muğana qaçıbsan...

Şaman narazılıqla:

– Görürsən ki, qaçmamışam! Hazırlaş, Bikini dağlarına qalxacağıq! – dedi, cibindən iki gümüş pul çıxardıb Ağitə uzatdı. – Üç nəfərlik azuqə götürərsən.

– Üşüncüsü kimdir ki? – deyə Ağit soruşdu.

Şaman ocaq kənarında oturmuş cavana işarə elədi:

– Gördüyün əsilzadə də bizimlə gedəcək.

Dilənçi şamanın əsilzadə kimi təqdim elədiyi adam Aspaz idi. Qadın "Qızıl məbəd"in kömürçüsünü asanlıqla yoldan çıxartmış, onun hisli hücrəsində geyimini dəyişib şahzadənin köhnə paltarlarından birini əyninə keçirmişdi. Kömürçü arabasında şəhərdən çıxmışdı. Birinci növbədə ata-anasının, bacı-qardaşının qeydinə qalmışdı. Ekbatan ətrafında, pars məhəlləsində yaşayan ailəsini əldən-ayaqdan uzaq bir kəndə aparmışdı, yerbəyer eləmişdi. Saxlancında olan bütün pul-paranı onlara vermişdi. Əməlindən razı halda skif məhəlləsinə gəlmişdi. Bir az soraqlaşandan sonra tanış dilənçini meyxanada tapmışdı.

...Ağit göstərilən tərəfə baxdı. Bu vaxt əsilzadə başlığını açdı, gözəl çöhrəsi göründü. Onun kişi libası geyinmiş qadın olduğunu anlayan Ağit heyrətini zorla gizlətdi, laqeyd halda:

– Madam yolumuz belə uzundur, gərək bir-iki tuluq yaxşı çaxır götürək ki, səfərimiz şən keçsin, – deyə təklif

elədi. – Bəlkə özümü "Bəyaz məbədə" verim? Çaxırın yaxşısı da, ucuzu da oradadır. Şaman qardaş, tez gələcəm, narahat olma.

## Ağit "Bəyaz məbəddə"

"Bəyaz məbəd"in həyətində qızğın iş gedirdi. Ustaların, köməkçilərinin qala divarlarının üstündə qurduqları eyvan atəşgah mehrablarından da hündür idi. Ziyarətçilər, möminlər, məbəd əmələsi işini-gücünü buraxıb tamaşaya çıxmışdı.

Eyvan artıq hazır vəziyyətdə idi. Dairəvi pillələrlə iki tərəfdən ora qalxmaq mümkün idi. Tikili müvəqqəti yapılsa da, hər bir taxta parçası zərif görkəm alana qədər pardaxlanırdı. Şahənşah Kiaksar sabah taxta çıxmasının qırx illiyi münasibəti ilə süslənən şənlikləri buradan seyr edəcək, yarışların qalibləri eyvana çağırılıb mükafatlanacaqdılar.

Eyvandan ordugaha heyranedici bir mənzərə açılırdı. Düzəngah ovuc içi kimi aydın görünürdü.

Qurğunu Şaum atanın nəzarəti altında kahinlər ucaldırdı. O, ali baş kahinlər şurasına seçiləndən sonra da məbəddən ayrılmamışdı. Baş kahin təyin edilənə kimi vəzifəsini yerinə yetirirdi.

Tətür Atxa tikilinin təhlükəsizliyini yoxlayır, eyvana qalxıb-düşürdü. Yaşına baxmayaraq əbasının ətəklərini kuştisinə keçirib künc-bucağı gözdən keçirir, hər taxtaya, hər işgilə əlini vururdu.

Şaum ata bilirdi ki, baş xəfiyyəyə nə isə bəyəndirmək çətindi. İntizarla onun hərəkətlərini izləyir, hələ səsini çıxarmırdı. Gözlənilmədən Tətür Atxa dayanıb dedi:

– Şaum qardaş, deyəsən, pis alınmayıb, axı! Yəqin ki, şahənşahın da xoşuna gələcək.

Kahinin sifəti nurlandı, rahatlıqla nəfəs aldı. Sevindiyini gizlətmədən nəsə deyəcəkdi ki, məbədin həyətinə bir at-araba girdi, onların bərabərində dayandı. Minici yerə atıldı. Bu skif Ağit idi. Əli döşündə, astadan kahinə müraciət elədi:

– Müqəddəs ata, sənə vacib sözüm var.

Şaum ata məbədin həyətinə yığışanların onlara tərəf maraqla baxdığını görüb barmağını dodaqlarına apardı:

– Gedək, burda adam çoxdu! – Sonra Tətür Atxaya xitabən. – Əlahəzrət, bizə xidmət edən qardaşımızdı. Görək, təzə nə xəbər gətirib.

Hər üçü Şaum atanın hücrəsinə yollandı. Burada Ağiti diqqətlə dinlədilər. Tətür Atxa əlavə bir neçə sual verdi. Aldığı cavabla kifayətlənib dedi:

– Bikini dağlarından qayıdan kimi birbaş zirzəmiyə gələrsən!

Ağit baş xəfiyyənin adını eşitsə də, üzünü indi görürdü. Hər şeyə qadir Tətür Atxanın qarşısında dayandığını biləndə həyəcanlandı, amma özünü itirmədi:

– Əlahəzrət, dediyin yer hardadır?

Tətür Atxa əyri-əyri Ağitə baxdı:

– Şaum ata səni başa salacaq! İndi get, yoxsa səndən şübhələnərlər.

Ağit əlini gözünün üstünə qoydu, qapıdan çıxanda geri çevrilib soruşdu:

– Müqəddəs ata, keçən dəfə verdiyin söz qüvvədədirmi?

Kahin başını tərpətdi:

– Əlbəttə, qardaşım! – dedi, sonra sualedici nəzərlərini ona dikmiş baş xəfiyyəyə izah elədi. – Əlahəzrət, mən qardaşımıza söz vermişəm ki, onu köləlikdən qurtaracağam.

Tətür Atxanın donuq baxışları azca isindi:

– Güman ki, müqəddəs ata verdiyi sözü yerinə yetirməkdə çətinlik çəkməyəcək, – dedi.

## Şahənşah sirrini Harpaqla Astiaqa açır

Harpaq bir həftədən sonra səfər paltarında dərgaha gəldi. Vaxtında çatmaq üçün yolda neçə at bağrı çatlatmışdı. Uzaq Tarmakis satraplığında cahangirin uzaqgörənliyinin şahidi olmuş sərkərdənin halı şahənşahın gözündən qaçmadı:

– Hə, naibi-ləşkər, səfərin necə keçdi? Kittan Tarmakisdəki üsyanı yatıra bilibmi?

Harpaq heyranlığını gizlətmədən dəbilqəli başını fərşə təkrar-təkrar toxunduraraq:

– Hələ yox, Ulu Xaqan! Demə, üsyan bütün satraplığı bürüyübmüş. Mən Tarmakisi tərk eləyəndə Kittan Zikertu mahalına doğru irəliləyirdi, – dedi.

Şahənşah, nədənsə, narahat halda boylandı, naibi-ləşkəri yaxına çağırdı:

– Xəstəlikdən sonra qulaqlarım batıb, yaxşı eşitmirəm, yaxın gəl! – dedi.

Harpaq ağır zirehli paltarda olsa da, cəld irəli süründü, taxtın böyründə diz üstə çökdü. Taxtın o biri tərəfində Tətür Atxa, arxasında isə vəliəhd qərar tutmuşdu. Şahənşahın alnındakı qırışlar tərpəndi:

– Hə, söylə görüm, üsyanı yatırtmaq çoxmu çəkəcək?

Harpaq artıq şahənşahın məqsədini anladığından sevinə-sevinə, bərkdən dedi:

– Hələ çox çəkəcək, Ulu Xaqan. Demə, Zikertu mahalında üsyan əndazəni aşıb, yəqin ki, yatırılması vaxt aparacaq. Bəlkə də əlavə qoşun lazım olacaq.

– Ay axmaq, dedim, ağır eşidirəm, demədim ki, karam, asta danış! – deyə şahənşah Harpaqa irad tutudu. – Əlavə nə qədər qoşun lazım olacaq?

– Bir iyirmi min də süvari olsa, pis olmaz! – deyə Harpaq astadan dilləndi. – Düzdür, Tarmakis satrapının da on min süvarisi, on min də piyada qoşunu var, amma müharibə görməyiblər, xamdılar. Onları da Kittanın tabeliyinə vermişəm. Hazırda üsyanı yatırtmağa iyirmi min süvari, iyirmi min də piyada cəlb olunub. Amma bu canlı qüvvə azdı!

– Peştəsər dağlarındakı qəbilələrin qüvvələrini nəzərə alırsanmı? – deyə şahənşah onun yadına saldı. – Şaum atanın söylədiyinə görə, dağlarda beş mindən çox döyüşçü yolumuzu gözləyir.

– Əlbəttə, Ulu Xaqan. Qəbilə başçıları ilə Tarmakisdə görüşüb, söhbət eləmişəm.

– Sən nə deyirsən, Tətür? – deyə şahənşah başını döndərmədən soruşdu. – Naibi-ləşkər deyir ki, üsyanı yatırmağa yenə qoşun lazımdı...

Tətür Atxa Harpaqı görmürmüş kimi:

– Ulu Xaqan, naibi-ləşkər deyirsə, deməli, lazımdı, ancaq Ekbatandakı qüvvələrə toxunmaq olmaz! Çünki dərhal gözə çarpacaq. Qnyaz Aqar belə şeylərdə arifdir, – deyə bildirdi.

Şahənşah razılaşmadı:

– Elədir, dərhal gözə çarpacaq, – dedi, hiyləgər bir gülüşlə əlavə elədi. – Amma gördüyünü anlayanda artıq gec olacaq.

Tətür Atxa ifadəsiz bir səslə təkid elədi:

– Ulu Xaqan, Ekbatandakı qüvvələrə dəymək olmaz! Ancaq Parsda da sakitlikdi, Urartuda da!...

Şahənşah bir az fikirləşdi:

– Yaxşı, naibi-ləşkər, Pars istiqamətində saxladığımız on min süvarini, Urartudakı beş min süvarini sənin ixtiyarına verirəm. Özünlə apararsan, – deyə şahənşah qərara gəldi, sonra hələb-həlbət tapşırdı. – Qoşun, qoy karvan yolu ilə yox, dolanbac cığırlarla hərəkətinə davam eləsin!

Keçən həftə, qiyamın böyük-kiçikliyini öyrənmədən, seçmə alayları Tarmakis satraplığına göndərməyi əmr edən şahənşahı vəliəhd anlaya bilmirdi. Təzə silah altına alınmış döyüşçülər də kəndli üsyanını asanlıqla yatırardı. Onda vəliəhd etirazını bildirməyə cəsarət eləməmişdi. Bu dəfə isə özünü saxlaya bilmədi:

– Atəşgahım ata, Babil, Lidiya hüdudlarındakı alayları, hətta Urartudakı, Assuriyadakı asayiş keşikçilərini Ekbatana çağırmaq mümkündür, amma Parsdakı qüvvələrə dəymək olmaz. Bilirsən ki, parslar etibar olunmalı xalq deyil. Biz Misir yürüşünə başlar-başlamaz, arxamızdan vuracaqlar.

Şahənşah qalxdı, asta-asta taxt otağını dolanıb yerinə qayıtdı, Tətür Atxaya buyurdu:

– Vəliəhdi məlumatlandırmaq vaxtıdı! – dedi.

– Oldu, Ulu Xaqan! – deyə Tətür Atxa başını əydi.

Şahənşah onun cavabını dinləmədən:

– Nə qədər ki, naibi-ləşkər üsyanı yatırtmaqla məşğuldu, onun səlahiyyətlərini sənə həvalə edirəm. Müharibələrdə qan görmüş bütün Midiya döyüşçülərini Ekbatana yığarsan. Yerinə silah altına təzə alınmış piyada alayları göndərərsən. – Sonra Harpaqa tərəf çevrildi. – Böyük İdin əlli üçüncü

günü, iki istiqamətdə Muğana hücum edərsən. Qadınlara, uşaqlara, qocalara aman verərsən, əli silah tutanları isə qırarsan, Muğanı skif tapdağından qurtararsan. Düşməni Keçidə qədər qovarsan, amma o yana keçməzsən. Bizə öz torpağımız lazımdı, özgə torpağında gözümüz yoxdur.

## Astiaq Tətürün zirzəmisində

Tətür Atxa vəliəhdi yarızirzəmi səltənətinə dəvət elədi. Şahənşahın əmrilə gələcək padşahı tələsmədən məlumatlandırdı. Onun söylədikləri Astiaqı özündən çıxartdı, qeyzlə qışqırdı:

– Mən şahənşah olsaydım, sənin kimi baş xəfiyyəni heç bir gün də saxlamazdım. Necə olub ki, o ilan balasını əldən buraxıbsan, mamu?

Tətür Atxanın tükü də tərpənmədi, barmağını dodağına apardı:

– Vəliəhd həm hissini cilovlamağı, həm də astadan danışmağı öyrənməlidir. – Otağı hirslə dolanan Astiaqı sakitliyə çağırdı. – Narahat olma, əlahəzrət, biz yenidən şahzadənin izinə düşmüşük.

Vəliəhd inamsız halda xəfiyyəyə baxdı, tələbkarlıqla:

– O ilan balasını vaxtında tutub cəlladların əlinə vermək lazım idi, – dedi.

Tətür Atxanın səsinin ahəngi dəyişmədi:

– Hələ olmaz! Qoy, sui-qəsdçilər xəbərsiz olduğumuzu düşünsünlər, – dedi, sonra daha bir sirr açdı.

Baş xəfiyyənin söylədiyi vəliəhdi tamam çaşdırdı.

– Yəni şahənşah Skif çarlığının axırına çıxmaq fikrindədir?

– Bəli, şahənşah qərarında israrlıdır.

Astiaq rahat nəfəs aldı:

– Şahənşahın qərarı müdrik qərardır! Bəs, Parsın axırına haçan çıxacaq?

Tətür Atxa ifadəsiz və inamsız surətdə söhbəti yekunlaşdırdı:

– Şahənşah hələ ki, Kambizə inanır! Güman ki, bu yük əlahəzrət vəliəhdin boynuna düşəcək! – dedi.

## Daraspla Aqarın işbirliyi

Darasp elçi Aqarın skif məhəlləsindəki bayırdan yastı-yapalaq görünən iqamətgahına gəldi. Ev sahibi bu dəfə qonağı daha ehtiramla qarşıladı. Parsdakı həmkarı ilə yazışmadan aydınlaşdırmışdı ki, Darasp elə belə əsilzadə deyil, şah nəslindəndi.

Qonağın düşüncəli görkəmi elçinin diqqətindən qaçmadı. Hövsələsini boğmadı, elə ayaq üstə soruşdu:

– Olmuya əliboş gəlmisən, əlahəzrət?

Muğandan Parsarqada böyük ümidlərlə qayıdan Daraspı sarayın həndəvərinə buraxmamışdılar. Bir həftə ayaq döyəndən sonra birbaşa rəisi on minlik qoşunu onun tabeliyinə verəndə demişdi ki, şah bilsə, hamımızı asdıracaq.

Darasp əllərini yana açdı:

– Qnyaz, cəmi on min qüvvə ilə gəlmişəm. Bizim Kambiz şah qoşun saxlamır, şahənşahdan qorxur, – deyə Pars əsilzadəsi deyindi. – Bunları da yerli əsilzadələrdən yalvar-yaxar almışam.

Elçi Aqarın ürəyi üstünə gəldi, Parsın gətirdiyi qüvvə heç də az deyildi, amma hiyləgərliklə:

– Niyə belə az? Hətta, Urartunun üzdəniraq kralı IV Rusa da beş min atlı göndərir. Açığı, biz Parsarqaddan daha böyük qüvvə gözləyirdik, – dedi və qondarma bir etinasızlıqla soruşdu. – Sənin qoşunun hardadı? Yəqin hələ Parsarqaddan çıxmayıb?

Darasp gözünü hiyləgər skifdən yayındırdı:

– Xeyr, qoşun artıq Bikini ətrafı meşələrdədi. Döyüşə hazırdı. Çox əziyyətli səfər idi, qnyaz! Midiya qoşunlarının nəzarətindən yayınmaq üçün Zaqroş dağlarını dörd dolanmışıq!

Elçi Aqarın üzü güldü, onu təriflədi:

– Afərin, əlahəzrət! – dedi.

Araya sükut çökdü, sonra Midiya səltənətini daxildən qurd kimi gəmirən hiyləgər skif Daraspın məlumatsızlığına təəccüblənərək onu sancmaqdan özünü saxlaya bilmədi:

– Deyəsən, əlahəzrət Midiya qoşunlarının Pars hüdudlarından geri çağırıldığını unudub. İndi onların sorağı Tarmakisdən gəlir. Bizim bəxtimizdən üsyan böyükdür, heç cür yatırda bilmirlər.

## Ordugahda bayram

Skif qoşunun günorta şəhərə gətirəcəkdi. Qnyaz Aqar yuxusuna haram qatmalı oldu. Tezdən ordugaha getdi. Səhər erkən olsa da düzəngah bir yekə dərya kimi çalxalanırdı. Bu dəfəki gəlişində elçi Aqar ordugahı tanıya bilmədi. Əzəmətli bir mənzərə idi. Xidmət elədiyi illər ərzində kölgəsinə dönmüş mirzəsinə bədxahlıqla dedi:

– Bu midiyalıların axırıncı şənliyidir!

Adam əlindən tərpənmək olmurdu. Elə bil bütün Ekbatan bura axışmışdı. Şənliyin axırıncı günləriydi. Sabahkı yarışlardan sonra ölkə əvvəlki məcrasına qayıdacaqdı. Şənliyin dərəcəsi hələ də yüksək idi.

Mirzə qnyazın sözünə qüvvət verdi:

– Tanrı Aresin ildırımları skiflərə kömək olsun! – dedi, özünü saxlaya bilmədi. – Qnyaz, gedək, bir az tamaşa edək, hələ vaxtımız var!

Ordugah coşqu içində dingildəyirdi. Hər tərəfdən musiqi sədaları, mahnı təranələri eşidilirdi. Cavanlar ortaya düşüb oynayırdılar. Arabalara doldurulmuş yağlı kökələri iri tabaqlara dolduran kahinlər cərgələrin arasıyla gəzir, istəyənlərə müftə yemək paylayırdılar. Onların nəzarəti altında belinə iri tuluqlar yüklənmiş qullar arzulayanların dolçasına havayı şərab süzürdü.

Elçi Aqarla mirzəsi də havayı şərabdan içib kökədən daddılar. Mirzə həsədlə pıçıldadı:

– Belə neməti də çölə tökərlər! Belə neməti də lütlərə paylayarlar! Hayıf!

Asayişi qoruyan atlı dəstələrin sayı birə-beş artırılmışdı. Onlar aldıqları əmrə müvafiq şənlik iştirakçıları arasında yaranan mübahisələrə, dalaşmalara, hər cür başıpozuqluğa sərtliklə son qoyurdular. Heç kimin nazı ilə oynamırdılar.

Bir neçə yerdə meydan qurulmuşdu. Kəndirbazlar, xoruz döyüşdürənlər, meymun oynadanlar, ilan ovsunçuları hərə bir tərəfdə məharətini göstərirdi. Ordugaha axışan minlərlə ekbatanlı zövqünə uyğun tamaşa gəzir, meydandan meydana keçirdilər. Tamaşaçılar arasında küçə alverçiləri dolaşır, mətahlarını sırımağa müştəri axtarırdılar.

Kəndirbazlar hündür dirəklərə tarım bağlanmış kəndirin üstündə quş kimi atılıb-düşür, baxanların həm qəlbini, həm də cibini ələ almaq üçün dəridən-qabıqdan çıxırdılar. Amma meymun oynadanların ətrafına daha çox adam yığışmışdı. Meymunun axmaq hərəkətləri baxanlarda can qoymurdu, hamı qarnını tutub hırıldayırdı.

Ayı oynadanların əksəriyyəti skif idi. Qaya timsalında qıllı heyvanlar mayallaq aşaraq, ayaq üstə gəzərək, hoppanaraq haqlı alqışlar qazanırdı.

Ovsunçuların ətrafında dövrə vuranların cınqırı çıxmırdı, tütəyin səsi kəsilən kimi ilanlar rəqsi dayandırır, sancmağa hazırlaşırdı.

Bir sözlə, tamaşaların sayı-hesabı yox idi. Xoruz-qoç döyüşdürənlərin, küştü tutan pəhləvanların öz tamaşaçıları vardı.

Hər yerdə bayram əhval-ruhiyyəsi hökm sürürdü. Mühafizəçilər ordugahın baş meydanına heç kimi buraxmır, əsgərlər uzaqdan tamaşa edirdilər. Oyunbazlar bir neçə arabanı birləşdirib oyunbazlıqla məşğul idilər. Rəqqas dəstələri gah orda, gah burda musiqi sədaları altında şıdırğı rəqs havasına uymuşdular.

Elçi Aqar bilirdi ki, sabah cıdır keçiriləcək, oxatma, nizəatma, taxta qılınc yarışları olacaq, şahənşah fərqlənənləri mükafatlandıracaq, şənliklər bitəcəkdi.

Asayiş dəstəsinin rəisi elçi Aqarı uzaqdan tanıdı. Onun naibi-ləşkəri görmək niyyətini biləndə qabağa düşdü, əlindəki şallağı sağa-sola hərləyir, qonaqlara yol açırdı.

Elçi qərargah çadırında Tətür Atxanı görəndə heyrətini gizlədə bilmədi. Tərəddüdlə baş xəfiyyənin donuq sifətinə baxdı:

– Əlahəzrət, naibi-ləşkər Harpaqa sözüm vardı.

Tətür Atxa əlilə yer göstərdi:

– Otur, qnyaz! Harpaq vəzifəsindən kənarlaşdırılıb, zindandadı. Hələlik naibi-ləşkər mənəm. – Müzakirə açmağın mənasızlığını başa salmaq üçün əlavə elədi. – Bu, şahənşahın qərarıdır! Bir sözlə, Harpaqa deyəcəklərini mənə söyləyə bilərsən.

Aqar keçib oturanda yalandan heyfsiləndi:

– Hayıf! Harpaq dəyərli sərkərdə idi! – dedi. – Əlahəzrət, bir azdan bizim qoşunlar ordugaha yetişəcəklər.

Tətür Atxa xəbərdən haliydi:

– Bilirəm, qnyaz! Biz müttəfiqlərimizi qarşılamağa hazırıq. Mühafizə dəstələrimiz Babil-Ekbatan yolundadır. Ordugaha gələn yollar açıqdı, – dedi.

Elçi Aqar çox oturmadı, gedəndə soruşdu:

– Tarmakisdə vəziyyət necədir? Üsyanı yatırıblarmı?

– Təəssüf ki, sərkərdə Kittan hələ üsyanı yatırda bilməyib. Güman ki, Tarmakisdəki qüvvələrimiz Misir yürüşündə iştirak eləyə bilməyəcək. – Tətür Atxa cavab verdi.

## Kiaksarın axırıncı göstərişi

Rəxti-xabın qapısında hazır dayanmış səyyar taxta şahənşah ölüm-zülümlə qalxdı. Daha yeriməyə taqəti, təpəri qalmamışdı, ayağını zorla atırdı, yardımsız keçinə bilmirdi.

Nizəli qulamların sıx sıraları hərəkətə gəldi. Qullar taxtın ayaqlarından qaldırdılar, aramla "ölüm odasına" tərəf üz tutdular. Səyyar taxt gəlib çatanda, şahənşahın yaxın əshabələri eyvanda gözləyirdilər. Tətür Atxa ilə vəliəhd irəli çıxdılar, köməkləşib onu taxtdan kürsüyə keçirtdilər. Şahənşah yerini rahatlayıb Möbidlər möbidinə:

– Atamız, sabah sübh tezdən kahinlər silahlanmalıdır! – dedi, deyilməmiş suala cavab verirmiş kimi əlavə elədi. – Əlbəttə, vəziyyət nəzarət altındadı, sadəcə, bu bir ehtiyat tədbiridi.

Amitaxah ata əsasına dirənərək baş əydi:

– Ulu Xaqan, bu saat tapşıraram! Arxayın ol, sabah sübh tezdən paytaxtın bütün məbədlərində sinclər çalınacaq, kahinlər silahlanacaqlar.

Şahənşah üzünü turşutdu:

– Sincsiz keçinsəz yaxşıdı. Hay-küy nəyə lazımdı ki!

Amitaxah ata şahənşahı anlayaraq fövrən sözünü təshih etdi:

– Bəli, Ulu Xaqan həmişəki kimi haqlıdır! – dedi. – İzn versən, göstərişlərimi verib qayıdaram.

Şahənşah başını tərpətməklə izn verdi. Amitaxah ata eyvandan düşdü, yaxındakı "Qızıl məbədə" tərəf getdi. Bu vaxt Tətür Atxa vəliəhdlə gözləşib:

– Ulu Xaqan, deyirəm, vəliəhdi bu boyda həngamədən kənarda saxlamaq olmaz.

Şahənşah ləng dilləndi:

– Vəliəhdin başına bir qəza gəlsə... – dedi və sözünü bitirmədən soruşdu, – onda nə olsun?

Astiaq kürsünün qarşısında diz çökdü, incik halda:

– Atəşgahım ata, mənim otuz yaşım var, uşaq deyiləm, özüm öz qayğıma qalmaq iqtidarındayam, – dedi, sonra qızğınlıqla sözünü bitirdi. – Midiya səltənətinin taleyi mənim taleyimdi, qabağımızı Əhrimənin divləri də kəssə, kənarda dayana bilmərəm.

Vəliəhdin incikliyini anlamaq çətin deyildi. Atası onun bacarığına həmişə şübhə ilə yanaşırdı. Tətür Atxa tərəddüd edən şahənşahı inandırmağa söz axtarmadı:

– Ulu Xaqan, özün həmişə deyirsən ki, vəliəhd taxt-tacı əlində saxlamağı öyrənməlidir.

Şahənşah məntiq qarşısında geri çəkildi:

– Yaxşı, qardaşım, qoy sən deyən olsun! – dedi, sonra vəliəhdə buyurdu. – Qalx, görüm! Sən Bikini ətrafı meşələrdə gizlənmiş düşmənin axırına çıxmalısan. İyirmi minlik Midiya süvarisini, on min oxatanı, on min sapandçını sənin ixtiyarına verirəm.

Vəliəhdin gözləri iriləndi:

– Atəşgahım ata! Bir belə qoşuna ehtiyac varmı? – Soruşdu. – Mən bilən, skiflərin Bikini ətrafında, uzaq başı, iyirmi min qüvvəsi ola, ya olmaya.

Şahənşah bir az dirçəldi, onun sözünü yarımçıq qoydu:

– Oğlum, düşmənin qüvvəsini düşündüyündən iki qat çox saysan, uduzmazsan. Güman ki, meşədə Lidiya müharibəsində yoxa çıxan Skif süvarilərindən savayı başqa qüvvələr də var. Kim bilir ki düşmən nə fikirləşib! Nahaq yerə demirlər ki, skifin qəlbi meşə kimi qaranlıqdı! – dedi, sonra lap axırıncı tapşırığını verdi. – Özünlə bir neçə tuluq Midiya yağı apararsan. Düşməni açıqlığa çıxarmaq üçün meşəni yandırarsan. Midiya yağı odun yayılmasına yaxşı kömək edəcək.

Ordugah tərəfdə qalxan toz dumanı eyvandakıların diqqətini cəlb elədi. Tətür Atxa ixtiyarsız dilləndi:

– Skif qoşunları ordugaha daxil olurlar.

Araya çökən sakitliyi şahənşah pozdu:

– Daha gözləmək vaxtı deyil! Qurduğumuz tora axırıncı naxışı vurmaq lazımdı! Haydı, ordugaha tələsin!

Tətür Atxa ilə vəliəhd qaça-qaça eyvandan aralandılar. Sonra şahənşah naibi-səltənətə buyurdu:

– Bixur, Ekbatanın asayişini sənə tapşırıram. Şəhər rəisinin yanında olarsan.

Naibi-səltənətin iri gövdəsi eyvan aşağı dığırlanarkən baş xəzinədar Barrini soruşdu:

– Mənə nə buyruğun olacaq, Ulu Xaqan?

Şahənşah canının hayında olsa da, baməzə baş xəzinədarla zarafat eləməkdən özünü saxlaya bilmədi:

– Misirin qızıl ehramlarından gözünü çək, olan-qalanımızı qoru! – dedi, eyvana qalxan Amitaxah atanı görüb nəsə deyəcəkdi, qəflətən üzü ağardı, pıçıldadı. -Donuram, üstümü örtün!

Xacə qaça-qaça gətirdiyi qalın örtüyü kürsünün üstünə saldı. Şahənşah yenə pıçıldadı:

– Donuram, kürsümü günə çıxarın!

Köməkləşib şahənşahın kürsüsünü eyvanın gün tutan yerinə keçirtdilər.

Şahənşahın çöhrəsində ölümün buz nəfəsi dolaşırdı. İndi atəşgahların qızmar tonqalları da onun soyumuş canını qızdırmaq iqtidarında deyildi. Boğazına dava-dərman tökmək istəyən loğmana acıqlandı:

– Kənar dur! – dedi, buyurdu. – Amitaxah atadan başqa hamı çıxsın.

## Kiaksarın axırıncı savaşı

Hamı kənara çəkiləndən sonra şahənşah dişləri bir-birinə dəyə-dəyə Amitaxah ataya müraciət elədi:

– Ata, Midiyanın taleyi necə olacaq?

Möbidlər möbidi gəlib taxtın böyründə dizi üstə oturdu, şahənşahın əlindən tutub təskinliklə dedi:

– Qardaşım, bir azdan Harpaqın 50 minlik ordusu iki tərəfdən, həm Andiya dənizi ilə dağlar arasındakı ovalıqdan, həm ölkəni iki yerə bölən çayın dayaz yerindən keçib Muğana yetişəcək. Skif çarlığının varlığına son qoyulacaq...

Şahənşah sakitləşmiş səslə:

– Sonra?

Amitaxah ata onun əlini buraxmadan:

– Qardaşım, bir azdan Tətür Atxanın qırx minlik ağır, iyirmi minlik yüngül piyadasının beş qəzlik nizələri skiflərin uyuduğu qırmızı çadırları deşik-deşik edəcək. Düşmənin qırx minlik ordusundan bircə döyüşçü də sağ qalmayacaq.

Şahənşah lap sakitləşmiş səslə:

– Sonra?

Amitaxah ata davam elədi:

– Qardaşım, bir azdan vəliəhdin qoşunları Bikini meşələrini mühasirəyə alacaq. Bir tərəfdən Midiya yağı doldurulmuş dolçaların piltəsi yandırılıb sapandla meşəyə atılacaq, yanğın başlanacaq. Bir yandan da oxatanlar meşəni oxa tutacaqlar. Oradan sağ çıxanları da Midiya süvariləri qıracaqlar. – İrilənmiş gözlərini ona dikmiş şahənşahı arxayın elədi. – Ulu Xaqan, rahat yat, mən Midiyanın taleyini işıqlı görürəm.

Yalnız bundan sonra arxayınlaşmış böyük Midiya hökmdarı Kiaksarın gözləri əbədi yumuldu, ruhu sonsuz göylərə uçdu.

# HEKAYƏLƏR

## İKİTİRƏLİK

Qəsəbə məscidinə, köhnə axund yerində sağ-salamat qala-qala, təzə bir axundun göndərilməsi dindarlar arasına pərxaşlıq salmışdı, camaat bilmirdi ki, nə fikirləşsin. Əhvalat, gülməli də olsa, heç kimin gülməyi gəlmirdi. İndi axundlardan gündə biri namaz vaxtı pişnamazlıq edirdi.

Tezliklə məscid əhli üç qütbə parçalandı. Köhnə axundun müridləri daha çox olsa da, dindarların bəzisi təzə axundun tərəfinə keçmişdi. Əmələnin bir qismi isə ortada qalmışdı, hələ ki, tərəddüd eləyirdi, kimin tərəfini tutacağını bilmirdi. Diqqət çəkən bu idi ki, təzə axundun pişnamazlığında məsciddə seyrəklik olurdu.

Araya düşən ikitirəlik dini icmanın üzvlərini də dilemma qarşısında qoymuşdu. Uzun müddət belə gedə bilməzdi, bir qərar verilməli idi. İş onda idi ki, icmanın beş üzvündən üçü köhnə axundun sadiq tərəfdarı olsa da, o biri ikisi isə tərəddüd edirdi.

Bu gün sözləşmişdilər ki, namazdan sonra yaxındakı çayxanaya yığışıb məsələyə nöqtə qoysunlar. Hamı vaxtında gəlsə də hacı Gülü gecikirdi. İcma üzvləri küsülü kimi oturmuşdular, heç kimin cınqırı çıxmırdı.

Hacı Ruzgar söhbətə nərdivan qoymağa çalışdı:

– Görəsən, məscidə ikinci axundun göndərilməsinə nə ehtiyac vardı?

Hacı Vaqif çoxbilmişliklə ona baxdı:

– Yəqin kabab iyi yuxarılara da çatıb! – Dedi və susdu.

Araya yenə sakitlik düşdü. Sükutdan darıxan hacı Ruzgar bir daha cəhd elədi:

– Hacı Vaqif, bizim axundun təlimatı nə oldu? – Soruşdu. – Bayaq yanına girmişdin…

Hacı Vaqif köhnə axundun sağ əli idi. Əvvəl də tez-tez baş-başa verirdilər, amma indi lap günün yarısını bir yerdə keçirər, tədbir tökürlər. O, qayğılı dilləndi:

– Bizim axundu tanımırsız? Daş atır, başını tutur, – dedi, cavab gözləmədən əlavə elədi. – Deyir, bu işdə məndən icma üzvlərinə məsləhətçi çıxmaz. Deyir, hamı iman əhlidi, özləri bilərlər, qərar onlarındı.

Məşədi Naxış dəqiqləşdirməyə çalışdı:

– Yəni təzə axundun torbasını tikə bilərik? – Soruşdu. – Hələ ki arxasında beş-on nəfər namaz qılır, onları öz tərəfimizə çəkməyə nə var ki! Sonra gec olacaq ha!

Hacı Vaqif narahat oturmuş kərbəlayı Əliyə baxdı:

– Hamının razılığı olsa, bu işə əncam çəkməyə nə var ki, – dedi.

Kərbəlayı hacı Vaqifə cavab vermədi, burnunu çəkməklə kifayətləndi. Artıq ikinci çaydan boşalmışdı, çayçı üçüncü çaydanı ortaya gətirəndə hacı Vaqif özünü saxlaya bilmədi, deyindi:

– Şair gecikməyi özünə şakər edib də! Vaxtında gəlməklə heç arası yoxdu...

Söz hacı Vaqifin ağzından təzə çıxmışdı ki, hacı Gülü daz başının tərini əl dəsmalı ilə qurulaya-qurulaya, şlyapası qoltuğunda içəri təpildi. Əhvallaşaraq özünə çay süzdü, isti-isti bir qurtum alacaqdı ki, hacı Vaqif irad tutdu:

– Rəhmətliyin oğlu, çay qaçmır ki! – deyə onu tələsdirdi. – Mətləbə gəl.

Hacı Gülü fincanı əlindən qoymalı oldu:

– Necə demişdiz, elə də eləmişəm. Məscidə gələnlərin əksəriyyətinin ağzını aramışam. Haqq tərəfi, çoxu bizim axundu dəstəkləyir. Amma təzə axundu da tərifləyənlər var. Xüsusən, əzadarlığını bəyənirlər.

Hacı Vaqif balacaboy kişi idi, üzündən hiyləgərlik yağırdı. Yetmişdən çox yaşı vardı. Məscidə məxsus böyük bir mağazanın müdiri idi. Köhnə axundun sayəsində əli pulnan oynayırdı. Mağazada dini suvenirlər, canamazlar, təsbehlər, üzüklər, ətirlər, dini kitablar, bir sözlə, cürbəcür əntiq mallar satılırdı. O, hacı Gülünün gah nala, gah mıxa vurmağını bəyənmədi. Tikanlı soruşdu:

– Deyəsən, təzə axunda beət eləmisən?

Sualın konkretliyindən çaşan hacı Gülü:

– Mən eşitdiyimi sizə çatdırdım... – dedi və çayı yenidən qabağına çəkdi.

Hacı Ruzgar da köhnə axundun xeyir-duası ilə çörək yiyəsi olmuşdu. İri başı həmişə hərəkətdə idi. Nisbətən cavan olsa da, həmişə bəlağətlə danışırdı. Neçə illər idi məscidin nəzdindəki mərasim evlərinə nəzarət edirdi. Təchizatına, biş-düşünə, mətbəxinə baxırdı. Hacı Vaqifin köməyinə gəldi:

– Gülü qardaşımızın bu yaşda qibləsini dəyişməyi heç xoşagələn iş deyil... – deyə araya söz atdı.

Hacı Gülü çayı içə bilmədi, fincanı yenidən özündən kənara itələdi, kərbəlayı Əliyə baxdı, amma ondan hərəkət görmədikdə birdən qızışdı:

– Belə çıxır ki, ağa qara desəm yaxşıdı? – deyə çımxırdı. – Ay-hay! Mənim kimsəyə borcum yoxdu, azad şairəm, heç vaxt haqqı nahaqqın ayağına verməzəm. İcazə versəz, o gün yazdığım iki bənd şeri sizə oxuyaram...

Bu yerdə hacı Vaqif hacı Gülünün ağrıyan yağırını basdı:

– Əşi, qoy görüm! – Dedi. – Sənin dalı-qabağı bilinməyən şeirlərin kimə lazımdı, axı!

Köhnə ədəbiyyat müəllimi olan məşədi Naxış məscidin mürdəşirxanasına baxırdı. Xırıltılı səslə təsdiqlədi:

– Eyzən elədi, – dedi. – Hacı Gülü, sən hələ də ədəbiyyat nəzəriyyəsini oxumamısan, amma şeir yazırsan, şairlik eşqinə düşmüsən...

Hacı Gülü aciz halda balacaboy hacı Vaqifə üstdən aşağı baxdı, uşaq kimi burnunu çəkdi:

– Bayy, hacıcan! – dedi. – Ad gününə yazdığım şeiri tərifləyib göylərə qaldıran sən deyildin? Sən deyildin deyən, hacı Gülünün şeirlərində Səməd Vurğunun nəfəsi var? Nə tez fikrini dəyişdin?

Hacı Vaqif istehza ilə:

– Süfrəmin arxasında oturan adamın könlünə dəyə bilməzdim ki! Qonaqpərvər adamam, – dedi, sonra qızarıb-bozaran hacı Gülüyə baxmadan o biri yoldaşlarına müraciət elədi. – Heç bilmirəm bizim axund hacı Gülünün nəyinə vurulub da! Deyir, onun kitabını böyük tirajla buraxdıracağam. Deyir, danışmışam, bir imkanlı dindar qardaşımız sponsorluq eləməyə hazırdı...

Hacı Gülü duruxdu, solğun üzü güldü, incikliyi dərhal unutdu:

– Doğru sözündü, hacı Vaqif? Ay sənin dilini yeyim! – dedi, cavab gözləmədən bülbül kimi ötdü. – Sizə deyim ki, bizim axunddan, vallah, yoxdu. Həqiqətən dəyərli alimdi. Maşallah, yerin altını da bilir, üstünü də! Onun arxasında namaz qılmaq hər birimiz üçün böyük savablardandı...

Hacı Ruzgar məşədi Naxışla baxışıb irişdi:

– Şair ilhama gəlib! – dedi.

– Doğrudan da, mayasız ilham olmur. Əslində, bizim axund şairi dəstəkləməkdə düz iş görür. – Məşədi Naxış təsdiqlədi. – Eyzən elədi.

Hacı Vaqif söhbəti məcrasından çıxmağa qoymadı, yenə nəsə demək istəyən hacı Gülüyə dedi:

– Şair, çayını iç! Sonra çinədanını boşaldarsan, – dedi, sonra kərbəlayı Əliyə müraciət elədi. – Sənin axır sözün nə olacaq, kəbleyi?

Kərbəlayı Əlinin üzündəki dərin çopurlar hərəkətə gəldi, sıxıla-sıxıla:

– Bilirsən ki, indi təqaüddəyəm. Əlim aşağıdı, – dedi. – Başımı qatmaq üçün bir məşğuliyyətim olsaydı, heç pis olmazdı...

Hacı Vaqif boynunun ardını qaşıdı, bir az fikirdən sonra:

– Nəzir qutularına nəzarət sənə həvalə olunsa, necə olar? – Soruşdu. – İndiyə qədər mən baxırdım, bundan sonra sən baxarsan. Onsuz da işim çoxdu. Elə bizim axundun da məsləhəti belədi. Dedi, qoy, kərbəlayı Əli qardaşımız da ehtiyacın daşını atsın.

Kərbəlayi Əlinin tərəddüdü keçdi, astadan dedi:

– Mən həmişə bizim axundun yanındayam, – dedi. – Haqq tərəfi, məscidin ərsəyə gəlməyində bizim axundun böyük haqqı var, iyirmi ildi can qoyur. Onu heç kimin ayağına verə bilmərik...

Hacı Vaqif onun sözünü kəsdi:

– Madam yekdil qərara gəlmişik, onda hərəkətə keçmək vaxtı deyilmi? – Soruşdu.

Masa arxasında oturanlar həmfikirliklə gülümsədilər. Yer-yerdən deyildi ki, vaxtdır. Daha bir çaydan sifariş verdilər, söz ilahiyyat alimi Fazil Lənkəranidən düşdü. Bilirdilər ki, dünyanın işləri dünyada qalacaq, əsas axirəti qazanmaqdı.

## ZİBİL

Bəyalı müəllim evə tələssə də, söz verdiyi kimi, Şirnəli müəllimi məktəbin foyesində gözləməli oldu. İkisi də qəsəbənin qurtaracağında yaşayırdı. Eyni vaxtda torpaq sahəsi götürüb ev tikmişdilər. Əvvəllər işdən bir çıxır, söhbət eləyə-eləyə geri qayıdırdılar. Amma, axır vaxtlar qrafikləri uyğun gəlmirdi.

Günü-gündən genişlənən qəsəbənin birmərtəbə məktəbində tədris iki növbədə keçirilirdi. Artıq saat beş idi, dərs otaqları boşalmışdı. Bircə Şirnəli müəllim sinifdən çıxmaq bilmirdi. Nəhayət, yekə çantası əlində foyedə göründü. Üzrxahlıqla sağanağı iri eynəyini barmağı ilə burnunun üstünə qaldırıb Bəyalı müəllimə:

– Səni yaman gözlətdim..., – dedi və dalınca dəhlizə tökülüşən şagirdlərinə mehribanlıqla baxıb əlavə elədi. – Neyneyim, buraxılış sinfidi, hər gün bir saat, para saat əlavə vaxt ayırıram ki, imtahanlarda çətinlik çəkməsinlər.

Həyata baxışlarında müxtəliflik dostluğa mane ola bilmirdi. On beş il idi ki, eyni məktəbdə çalışırdılar, riyaziyyatdan dərs deyirdilər. İnstitutu bir qurtarmışdılar. Hətta,

dörd il yataqxanada bir otaqda qalmışdılar. Dostluqları o vaxtdan başlamışdı, indi də davam edirdi. Onlar məktəbdən çıxdılar.

Bəyalı müəllim həmkarına lağ elədi:

– Ölürsən də havayı hamballıq eləmək üçün, – dedi. – Ay zalım, enerjin çoxdu, beş-on uşaq götür hazırla, pul qazan da!

Şirnəli müəllim, həqiqətən, özünü oda-közə vuran müəllimlərdəndi. Böyük dərs yükü vardı. Bütün günü məktəbdə itib-batırdı. Dərsdən sonra məşğələlər aparırdı. Tələbkarlığı ilə qəsəbədə ad çıxarmışdı. Bəzən əndazəni aşırdı, tənbəllik edən şagirdə yüngül qulaqburması da verirdi. Şirnəlidən fərqli olaraq Bəyalı vəzifəsinə barmaqarası baxırdı. Yarım ştat dərs yükü götürmüşdü. Qalan vaxtını evdə uşaq hazırlayır, yaxşı pul qazanırdı.

Şirnəli müəllim dostu ilə mübahisə eləmədi, bilirdi ki, həmişəki kimi uduzacaq. Tələsik dilləndi:

– Hələ bir dayan, səninlə bir ayrı söhbətim var, – deyə ərklə onun sözünü kəsdi, sonra başına gələnləri ətraflı danışdı. – Hər gün hasardan həyətimizə torba-torba zibil atırlar. Qonşulardan kimdisə mənə yaman mərdimazarlıq edir. Bilmirəm neynəyim? Sənin məsləhətin lazımdı.

Bəyalı heyrətdən fit çaldı:

– Baho! – dedi. – Bəs, indiyə qədər niyə susurdun?

– Deyəcəkdim. Gözləyirdim görüm, işin axırı nə olacaq? Zibil atan usanacaqmı..., – deyə Şirnəli müəllim izah elədi. – Amma, görürəm, usanmır...

Bəyalı artıq seyrəlmiş sarışın saçlarını barmaqları ilə geri daraqladı, dəqiqləşdirməyə çalışdı:

– Yəqin ki, yol tərəfdən atırlar...

– Hə, əlbəttə... – Şirnəli təsdiqlədi. – Axşam hava qaralandan sonra atırlar. Hər səhər ağacların altından yığıb yandırıram, o biri gün yenə atırlar.

Bəyalı müəllim yanakı dostuna baxdı, burnunu qırışdırdı:

– Təklifin nədir? – Soruşdu. – Sənə nə köməyim dəyə bilər?

– Bilirsən, dostum, sənin evin qəlbidədi, – deyə Şirnəli müəllim fikrini əsaslandırdı. – Eyvanından yol da, yoldan keçənləri də aydın görmək olur. Qapın da düz yola açılır. Əziyyət də olsa, gərək bu zibil atanı güdəsən...

Bəyalı addımını yavaşıtdı, boynunun ardını qaşıdı:

– Neynək, güdərəm! – dedi, sonra zarafatla sözünü bitirdi. – Öz aramızdı, dost yolunda zibilə düşmək buna deyirlər də.

Dostlar gəlib mənzilbaşına çatanda payız Günəşi batmışdı, artıq ətrafa toranlıq düşmüşdü. Şirnəli müəllim Bəyalıdan ayrılanda onu işə saldığına görə dil-ağız elədi.

Şirnəli müəllim şam yeməyindən sonra iri çantasından iki-üç qom dəftər çıxartdı, qabağına qoydu. Arvadı çay gətirdi, oğlanları hərəsi mənzilin bir tərəfinə çəkildi. Bilirdilər ki, atalarına mane olmaq olmaz. O, işini qurtaranda saat səkkizi vururdu. Dəftərləri yığışdırdı. Əzalarının keyini açmaq üçün həyətə düşdü. Qaranlıq düşmüşdü, artıq göz-gözü görmürdü. Bayır işıqlarını yandırıb bir o başa, bir bu başa getmişdi ki, darvazanın zəngi vuruldu. Gedib qapını açdı. Darvazanın üstündə asılmış lampanın zəif işığında dostunu görüb geri çəkildi:

– Gəl, orda niyə dayanmısan, – dedi. – Gedək, çay içək.

Bəyalı müəllim dişini ağartdı:

– Çay vaxtı deyil. Həyətinə zibil atanı tutub gətirmişəm hüzuruna, – dedi, arxasında gizlənməyə çalışan bir uşağın gödəkcəsinin boynundan tutub işığa çıxartdı. – Tanış ol, zibil atan qəhrəman budur.

Şirnəli müəllimin koruş gözləri eynəyinin altında parıldadı. Fəhmlə soruşdu:

– Bu Ətlas kişinin ortancıl oğlu deyilmi?

– Özüdür ki, var. Adı Feyruzdu. Yeddinci "B"də, mənim sinfimdə oxuyur. Kiçik qardaşı da sənin "V" sinfindədi. Bu qırışmal bir bəladı gəlib düşüb məktəbə. Bir yerdə oturmaqla arası yoxdu, düz divara dırmaşır, – deyə Bəyalı güldü, sonra sinəsinə döydü. – Cinayətkarı cinayət başında yaxalamışam. Aradan çıxmağa macal eləmədi, özümü çatdırdım.

Şirnəli müəllim adətkərdə hərəkətlə eynəyini düzəldib mehribanlıqla soruşdu:

– Firuz bala, sənə neynəmişəm ki, həyətimi zibilxanaya çevirirsən? Səbəbi nədi?

Firuz dinmədikdə Bəyalı müəllim çımxırdı:

– Ədə, səndən söz soruşurlar, axı.

Uşağın yenə susması Bəyalını hirsləndirdi:

– Şirnəli müəllim, tut bunun qolundan, qaçmasın, – dedi. – Gedim bunun atasını çağırım bura.

Bu yerdə Firuzun dili açıldı. Hönkürə-hönkürə dedi:

– Qurban olum, Bəyalı müəllim, atama demə. Bilsə məni öldürəcək.

Əstan qəsəbədə tanınmış şəxslərdən idi. Qəssablıq edirdi. Kiçik bir ət mağazası vardı. Peşəsindən irəli gəlirdi, ya təbiəti belə idi, bilmək olmurdu, sərt adam idi, qonum-qonşu ilə tez-tez dava-qalmaqal salırdı. Pis xasiyyəti ailə içində daha bariz görünürdü. Lap fironluq edirdi. Böyük oğlu başı

havalı gəzirdi. Deyirdilər ki, onu Əstan döyə-döyə o günə qoyub.

Bəyalı yumşaldı:

– Yaxşı, atanı çağırmarıq, – dedi. – Amma qələtinin səbəbini gərək deyəsən. Hə, de, görüm.

Uşaq dirənə-dirənə dilləndi:

– Şirnəli müəllim mənim kiçik qaqaşıma həmişə iki yazır, qulağını dartır...

Bəyalı müəllim özündən çıxdı:

– Ədə, sənin kiçik qardaşın da sənin kimi avaradı da, oxumur da. Şirnəli müəllim neynəsin ona? Oxumur da! Yaxasından medal asası deyil ki! – Soruşdu. – Bunun hikkəsinə bax da! Yox, səni Əstana tapşıracağıq, qoy, dərsini atan versin.

Firuz yenə hönkürdü. Yalvarışla:

– Vallah, bir daha eləmərəm...

Şirnəli müəllimin uşağa yazığı gəldi, Bəyalı müəllimdən xahiş elədi:

– Burax, getsin, – dedi. – Görürsən, deyir ki, daha eləmərəm.

Bəyalı müəllim tir-tir əsən uşağın yaxasını boşladı:

– Yaxşı, daha bir də belə qələt eləmə, – dedi.

Firuz canını qurtardığına inanmırmış kimi bir an duruxdu, sonra birdən götürüldü, qaranlığa qarışdıqda Bəyalı müəllim təəssüfləndi:

– Gərək atasını çağıraydıq, – dedi. – Bu ona dərs olardı.

Şirnəli müəllim gülə-gülə:

– Ay dost, bilirsən ki, Əstan hirsli adamdı, vurub uşağı şikəst eləyərdi, bir zibildən çıxıb başqa zibilə düşərdik, – dedi.

Bəyalı müəllim Şirnəli müəllimlə razılaşmalı oldu, gülümsədi. Təbəssümlə də ayrıldılar.

## NAMAZ VAXTI

Hacı Şahin usta Kamalı darvazanı sahmana salmağa çağırmışdı. Köhnə bayır qapı urvatdan düşmüşdü, yenilənməli idi, amma ev sahibinin təzə darvaza almağa gücü çatmadığından ora-burasını yamatmaq fikrində idi. Açığı, axır vaxtlar, kasıblıq onu basmışdı, ciblərində siçanlar oynaşırdı.

Usta Kamal hacının hasar-bir qonşusu idi. Neçə ilin sənətkarı olsa da, bahacıl deyildi, qonum-qonşunun sifarişlərini "su qiymətinə" yola verirdi. Hacının çağırışını alan kimi qaynaq aparatı, kaskası-maskası, alətləri yığılmış əl arabasını dığırlada-dığırlada gəldi.

Hacı Şahin hələ canısulu idi. Yetmişi haqlasa da səsi nə gərliyini, nə də gurluğunu itirmişdi. Zalımın mülayim sözü də ağzından daş kimi çıxırdı. Köhnə ticarətçilərdən idi. Həcc ziyarətindən sonra ticarətin daşını atmışdı, yenidən günaha batmaqdan qorxurdu. Mağazasını babat qiymətə icarəyə vermişdi, dövlətdən də beş-on manat təqaüd alırdı. Ömrünün axırına kimi bağ-bağçada qurdalanıb xoşnud yaşayacaqdı, amma qismət deyilmiş. Yeganə oğlu Əlimuxtarın çıxartdığı həngamələr xoş yaşayışını burnundan gətirmişdi.

Mağazası heçə-puça satılmışdı, dal günə yığdıqları əlindən çıxmışdı, indi kəsilə-kəsilə qalmışdı.

Ustanı darvazada qarşıladı, təmənləşəndən sonra:

– Qonşu, gör, bu sovxaya qalmışı sahmana sala bilirsən... – dedi.

Kamal kişi darvazaya usta gözü ilə baxıb:

– Düzələr, hacı, əlimizdə deyilmi, – dedi.

Hacı Şahin sövdələşməyə çalışdı:

– Qonşu, bu işə nə istəyəcəksən? – Soruşdu, usta Kamalın yuxarıdan gedəcəyindən qorxub nırxı özü qoydu. – İyirmi manatım var. Bəs eləyər?

Ətrafda səxavətli bir kişi kimi tanınan hacının simicliyi usta Kamalı düşündürdü. Eşitmişdi ki, hacının əli aşağıdı. Bərkini tutmadı, dərhal razılaşdı:

– Hacı, əvvəllər mənə o qədər pullar vermisən ki! İndi verməsən də olar! – Dedi, amma işini yüngülləşdirmək fikri ilə təklif elədi. – İcazə versən, özümə bir köməkçi gətirərdim... Hündürdə işləyəcəyəm.

Hacı koramal kimi fısıldadı:

– Keçinərsən! Mənim sənin köməkçinə verməyə pulum yoxdu, – dedi. – Köməkçi lazım olsa, məni çağırarsan.

Usta Kamal onun sözünü çevirmədi. Ev sahibi ilə müqayisədə dünənin uşağı idi, əlli beş yaşı təzəlikdə tamam olmuşdu. Həmişə, uşaqlıqdan bu yana, hacının hörmətini saxlamışdı, yanında əyər-əskik danışmamışdı. İndi də dinməz-söyləməz qaynaq aparatını hazırladı, kaskasını başına keçirtdi, maskasını taxdı, elektrodu əlinə alıb işə başladı.

Hacı Şahin də kətildə yerini rahatladı, kürəyini qızdıran payız günəşindən zövq alaraq təsbeh çevirir, ustanın işinə baxırdı.

Bir az keçdi. Hacı Şahinin qarısı eyvanda göründü. Ayaqları bir-birinə dolaşa-dolaşa çay dəsgahını gətirdi. Hacı təsbehi gizlətdi, qalxıb fincanları, qənddanı, termosu qarıdan aldı. Kamal kişini səslədi:

– Qonşu, darvaza qaçmır, gəl, çay içək, – dedi, uzaqlaşan qarısına tapşırdı. – Günortaya qəlyanaltı hazırla, ustanı da unutma, bu gün bizim himayəmizdədi.

Kamal kişi kaskasını-maskasını kənara qoydu, nərdivandan düşdü, əllərini brezent gödəkcəsinin ətəyinə sildi, əl arabasını çevirdi, özünə oturacaq düzəltdi. Hacının uzatdığı iri fincanı aldı:

– Hacı can, könlünə dəyməsin, darvazandan darvazalıq qalmayıb, hər yerini pas yeyib, bir sözlə, metalolomluqdu, – dedi, çayı isti-isti hortuldadıb fincanı boşaltdı.

Hacı ülgüclə təmiz qırxılmış başını sığalladı:

– Ömrümə bəs edər, – deyə başdansovdu cavab verdi.

Kamal kişi qabağa meyilləndi, termosdan özünə bir fincan da çay süzdü:

– Allah sənə uzun ömür versin, yüz yaşa, amma darvazan yenilənməlidi, – dedi, cavab gözləmədən soruşdu. – Oğlun Əlimuxtar görünmür, hacı.

– Hərdən gəlir, – deyə hacı Şahin könülsüz dilləndi, sonra öz növbəsində soruşdu. – Səninkilər neyləyir?

Kamal şikayətləndi:

– Mənimkilər bivec çıxdılar, hacı can. Oxumadılar ki oxumadılar. İkisi də ustalığın dalınca qaçdı. İndi hambalçılıq edirlər, – dedi, sonra qibtə ilə əlavə elədi. – Amma sənkilər oxudular, maşallah. Qızların da, oğlun da...

Hacı razılaşmadı:

– Naşükür olma, qonşu, iş bəyəm oxumaqdadı? Uşaqların, maşallah, zirəkdilər. Qaldı mənimkilər, – dedi, dilini sürüdü. – Qızlardan narazı deyiləm, şükür, hərə bir evdə xanımlıq eləyir, amma oğlum məni incidir.

Kamalın qonşuluqda çox şeydən xəbəri vardı, soruşdu:

– Əlimuxtarın işləri düzəlmədi?

Hacı Şahin əlini yellədib:

– Hardan ey! – dedi. – Hələ geriləyir...

– O ki yaxşı qazanırdı. Nə oldu birdən-birə? – deyə Kamal maraqlandı. – Şəhərin neçə yerində mülk almışdı... Nə oldu ona?

– Necə qazanmışdı, elə də əlindən çıxdı. Risk eləməyin axırı yoxdur, qonşu. Özünü də oda saldı, bizi də quru yerdə qoydu. Borclarını zorla bağladım. İndi də həyətin yarısını satdığa qoyub. Görək başımıza nə gəlir. Tünbətün nəvəsini başa salmaq olmur ki, olmur, – deyə hacı xeyli deyinib sakitləşdi, sözü dəyişdi. – İşini haçan qurtararsan?

Usta Kamal qalxdı yerindən, isti çaydan, payız Günəşinin hərarətindən tərləmiş iri burnunu çəkdi:

– Günün axırına qurtararam. Hələ iş çoxdu, – dedi. – Darvazanın üst şvelleri qopub, nə qədər ki, xəta çıxarmayıb gərək bərkidim. Çərçivəni sahmana salmalıyam. Belə hesab elə sənə təzə darvaza qaynaq edirəm.

– Yaxşı, yaxşı, minnət qoyma! – Hacı acıqlı dilləndi, sonra mülayimliklə, – sən işini gör, mən də gedim dəstəmaz alım, bir azdan azanın vaxtıdı.

– Hələ dayan, getmə, mənə sənin köməyin lazım olacaq, – deyə Kamal nərdivana qalxdı. – Şvellerə verdiyim dayağı tutmaq lazımdı ki, qaçmasın.

Hacı başını buladı:

– Mənlik deyil! – dedi, bayaqkı söhbəti unutmuş kimi əlavə elədi. – Az ye, özünlə köməkçi gəzdir.

– Köməkçiyə pul vermək lazımdı, hacı, – deyə usta Kamalın ağzındakı iri titan qapaqlı dişləri parıldadı. – Verdiyini köməkçiyə verim, ya özüm yeyim?

Pul adı gələndə hacı duruxdu, dodağının altında deyinə-deyinə keçib göstərilən dirəkdən yapışdıqda Kamal başından kaskanı çıxarıb ona verdi:

– Qoy başına, hacı, şər deməsən, xeyir gəlməz, bir də gördün şveller yerindən qaçdı, – dedi.

Hacı kaskanı başına keçirtdi. Kamal maskanı üzünə taxdı, elektrodu əlinə aldı. Qığılcımlar ətrafa səpələndi. Kamal arada şlakı təmizləmək üçün çəkiclə şvelleri döyəcləyirdi.

Hacının gözü onun əlində idi, xəbərdar elədi:

– Qonşu, şveller yerindən qaçır, deyəsən, – dedi. – Asta vur.

– Pas metalda metallıq qoymayıb, hacı, bir az döz, indi qurtarıram, – deyə Kamal onu sakitləşdirdi.

Onun çəkici yenidən taqqıldadı. Şveller bunu gözləyirmiş kimi yerindən qopdu, bir ucu aşağı sürüşdü, hacının kaskalı başına dəydi. Zərbə zəif olsa da, ev sahibi: "Aman!" – deyib yerə çökdü.

Kamal nərdivandan yerə atıldı, həyəcanla hacının üstünə qaçdı:

– Necəsən, hacı, salamatsan?

Hacı yerdən zorla qalxdı, zərbədən qırılmış kaskanı başından çıxarıb hirslə kənara atdı. Kamal kişiyə baxmadan evə tərəf gedəndə:

– Gedim namazımı qılım... – dedi. – Məndən sənə köməkçi çıxmaz.

Kamal soruşdu:

– Bəs, bu dayağı kim tutsun? Mən bu işi tək görə bilmərəm, axı.

– Get, özünə köməkçi tap.

– Bəs, köməkçinin pulu nə olsun?

– Mən verərəm... – hacı arxaya baxmadan çımxırdı. – Daha yubana bilmərəm, namaz vaxtıdı.

Hacı Şahin on beş il idi ki, namazının vaxtını ötürmürdü. O, eyvana qalxanda yaxındakı məsciddən verilən azanın xoş səsi ətrafa yayıldı.

## MƏZƏNNƏ

Molla Fəti vədəni ötürmədi, orucluğun elə birinci günü telefon açdı. Vərdişkarlıqla uzun-uzadı əhvallaşdı:

– Nə var, nə yox, müəllim? Alver necədi, müəllim? Evdə-eşikdə salamatlıqdımı? Orucluq əziyyət vermir ki?

Dərdayıl ali təhsilli riyaziyyat müəllimi idi, həmişə uzunçuluqdan qaçırdı, mollanın bütün suallarını cəmləyib qısa bir cavab verdi:

– Hər şey yaxşıdı.

– İstilərlə neynəyirsən? Bağa köçmürsən?

– Bağ? – Vəziyyət Dərdayılı elə sıxmışdı ki, bağ yadına düşmürdü. – Görək, inşallah!

Molla əl çəkmək fikrində deyildi, biliciliklə:

– Müəllim, manat yaman büdrədi ha! Amma Allah üzümüzə baxdı, yaxşı qurtardıq, yıxılmadı! – dedi, sonra gümanla soruşdu, – sən bilən əvvəlki məzənnəsinə qayıdacaqmı?

Dərdayıl müəllim könülsüz:

– Çətin söhbətdi! – dedi.

Molla, nəhayət, mətləbə gəldi:

– Müəllim, sənin rəhmətlik valideynlərinin ruhunun salamətliyi üçün "Quran" oxuyuram. İnşallah, beş günə-bir həftəyə xətm elərəm, – dedi. – Məclisimizi haçana salaq?

Dərdayıl müəllimin əli pula çatandan sonra, hər il, cavan yaşında Allah rəhmətinə getmiş valideynlərinə ramazan ayında "Quran" oxutdurur, ehsan süfrəsi açırdı. Bu il durumu yaxşı deyildi, molla demişkən, manat büdrəmişdi, üzləşdiyi maliyyə çətinlikləri artıq özünü büruzə verirdi. Mal sahibləri pulunu dollarla tələb edirdilər. Amma Dərdayıl müəllim bu il də ənənəni pozmadı. Hər dəfə ehsanın vaxtını mollanın öhdəsinə buraxdığından, indi də:

– Öz məsləhətinə bax, molla əmi! – dedi. – Yaxşısını sən bilərsən!

– Ramazan ayının birinci həftəsi necədi?

Dərdayıl müəllim bir az təəccübləndi:

– Molla əmi, biz həmişə mərasimi orucluğun üçüncü həftəsinə salırdıq, axı! – dedi, sonra nə fikirləşdisə istehzasını saxlaya bilmədi. – Tələsməyindən məlum olur ki, əlin aşağıdı. Güman ki, manatın büdrəməyi səni də silkələyib!

Dərdayılın istehzası dəstəkdən gələn hənirtinin rəvanını dəyişdi. Xəttin o başından mollanın utancaq səsli gəldi:

– Düz tapmısan, müəllim, neçə aydı quraqlıqdı! Bu qrizis nə pis şeymiş! Gör, iş nə yerdədi ki, insanlar, qrizisin qorxusundan ölməyi də tərgidiblər! Həəə, əlqərəz, uzunçuluq eləyib lap başağrısı verdim! Həəə! Mənə elə gəlir ki, ramazan ayının birinci şənbəsi yaxşı gündü, müəllim! – dedi, cavab gözləmədən fikrini əsaslandırmağa tələsdi. – Hamı bizim kimi boş-bekar deyil! Hökumət işində, şirkətlərdə çalışanlar var. Asudə vaxta salıram ki, sənin adamların arxayın toplaşa bilsinlər.

Dərdayıl müəllim daha uzatmadı, təkliflə razılaşdı.

Mollanın elə bir savadı yox idi, amma gəlirini-çıxarını yaxşı bilir, külfətini dolandırmaq üçün dəridən-qabıqdan çıxırdı. Cavan olsa da ailəsi böyükdü, səkkiz qızı, bir oğlu vardı. Artıq dördmü, ya beşmi qızını köçürtmüşdü. Dərdayılın bir övladı vardı. Amma mollanın bütün toy məclislərində iştirak eləyir, karlı nəmər salırdı. Onlar bağ qonşusu idilər. Molla xahiş-minnət gözləmədən hər yaz hasardan aşır, onun talvara qaldırılmış meynələrini kəsirdi. Yaydan-yaya bağa köçən müəllimin ev-eşiyinə il ərzində göz olur, sahibsiz qoymurdu.

Dərdayılın var-dövləti başından aşmasa da, imkanlı idi, şəhərin lap mərkəzində, metronun yaxınlığında xudmani bir xəm-xurd dükanı açmışdı. Dostu hacı Məşti ilə icarəyə götürdükləri yarımzirzəmidə on beş ildi kəsbkarlıq edirdilər. Gen-bol yaşamasalar da, kefləri yaxşı idi, çörəkləri başlarının altında idi. Axır vaxtlara qədər həmişə qazancda olduqlarından, icarəni də vaxtlı-vaxtında verirdilər, özlərinə də bir şey qalırdı.

Şəriki hacı Məşti ağır adamdı, sızanaqlı üzü gülməzdi. Keçənlərdə bir yol Dərdayıl müəllimi qınamışdı:

– Dostum, qazancını heçə-puça nahaq xərcləyirsən. Bilirsən ki, mən də "Quranı" çıxmışam. İstəsən məclislərini də yola verərəm, rəhmətə gedənlərinə də "Quran" oxuyaram. – Onun molla Fətidən acığı gəlirdi. – Nə deyirsən? Həm mollanın laqqırtısından canın qurtarar, həm də pulun cibində qalar.

Dərdayıl razı olmadı:

– Hacı, molla Fəti yazıqdı, bir çətən külfəti var, çörəyinə bais ola bilmərəm. – dedi, sonra dostunu inandırmağa çalış-

dı. – Vallah, pis adam deyil, həyət-bacama göz olur, meynələrimi kəsir, yayda qonaq-qara gələndə əl yetirir...

Hacı Məşti qaşının üstündəki iri xalı qaşıdı, birdən qətiyyətlə:

– Müəllim, bu molla tayfası ki var, İslamın birinci düşmənidir! Hamını dini-imandan pisikdirən onlardı! – dedi, ürək yanğısı ilə deyindi. – Əşi, “Quranı” da pulnan oxuyarlar!? Bu hansı kitabda yazılıb, axı?

Dərdayıl müəllim istehza ilə gülümsədi:

– Yerlimizdi də, daha neynəmək olar! – dedi, şərikinə hörmət eləsə də fikrindən dönmədi. – Bir eldən, bir obadanıq.

– Bu qırılmışların hansı bizim eldən deyil, axı? – Hacı deyindi, amma daha inad eləmədi.

Onların hər üçü, doğrudan da, Cənub bölgəsindən idi.

Bu il isə vəziyyət gözlənilmədən dəyişmişdi, alverləri rəvanlığını itirmişdi. Ayın axırı gələndə hər ikisinin qanı qaralırdı. Zirzəminin sahibi ağızdan yava bir qadın idi, icarə haqqını yarım saat gecikdirəndə gül ağzını açırdı, başlayırdı pis-pis söylənməyə.

Bu il Dərdayıl müəllim çox adam çağırmadı. Ehsan məclisində yalnız ailə üzvləri, yaxınları, bir də hacı Məşti xanımı ilə iştirak edirdi.

“Quran” tapşırılan gün, iftara yarım saat qalmış maşını qoşdu, mollanı yanına oturdub qəbir üstə getdilər. Qəbiristan yaxında, gölün sahilindəki təpədə idi. Ətrafın həzin mənzərəsi insanın könlünə neştər kimi işləyirdi. Qəbiristana çökən toranlıq kədər gətirirdi. Molla “Yasin” surəsini oxuyana qədər kədərlənmiş Dərdayıl məzarın ətrafına əl gəzdirdi. Sonra molla ilə bir yerdə həmdi-surəni

oxudu, salavat çevirdi, övladlıq borcunu yerinə yetirib xeyli yüngülləşdi. Qəbiristanı tərk eləyəndə mollaya dil-ağız elədi:

– Oxuduğun "Quran" sənə kömək olsun!...

Evə qayıdanda artıq təamlar masaya düzülmüşdü. Qadınlar üçün qonşu otaqda süfrə salındığından içəridə ancaq kişilər idi. Kondisionerin xoş sərinliyində iftarı bütün qaydası ilə açdılar. Əvvəl qaynanmış su, sonra duru yemək, sonra da plov verildi. Yeməkdən sonra molla tərpənmədi. Dərdayıl təəccübünü büruzə vermədi.

Qonaqlar bir az da oturub dağılışdılar. Otaqda hacı Məşti, molla Fəti, Dərdayıl müəllim qaldı. Ev sahibi köynəyinin döş cibindən çıxartdığı əlli manatlığı mollanın qabağına qoydu:

– Allah imanını kamil eləsin, molla əmi! – dedi. – Bu pulu az da olsa, çox bil.

Molla tərəddüdlə pulu ev sahibinə tərəf itələdi:

– Utanıram da deməyə, müəllim. – dedi. – Ya bu əlliliyin üstünü düzəlt, ya da əlli dollar elə.

Dərdayıl müəllim molladan bunu gözləmədiyindən tutuldu, bilmədi nə desin. Hacı Məşti öskürüb təsbehini çıxartdısa da, çevirmədi, əsəbiliklə qaytardı çibinə. Bir az acıqla şərikinə müraciət elədi:

– Buyur, qardaşım, molla manatdan imtina edirsə, bir azdan əhli-qübur da daha manatı bəyənməyəcək! – dedi, sonra üzünü mollaya tutdu. – Rəhmətliyin oğlu, azərbaycanlının azərbaycanlı ölüsünə Azərbaycanda "Quran" oxuyursan, dollar istəyirsən! Amerikada yaşamırsan ki!

Molla dili dolaşa-dolaşa:

– Hacı, bilirsən ki, dollara nisbətdə manat dəyərini yarıbayarı itirib. Bazar-dükan od tutub yanır... Mən də gözümü buna dikmişəm...

– Ay oxuduğun sənə qənim olsun! Biz bəyəmləri, malımızı dollarla satırıq ki, sənə də dollarla verək? – deyə hacı Məşti səsini ucaltdı.

Molla Fəti başını aşağı saldıqda hacı Məşti Dərdayıl müəllimə dedi:

– Dərdayıl müəllim, gələn il orucluqda "Quranı" özüm oxuyacağam, daha molla Fətiyə əziyyət verməzsən.

Molla, deyəsən, səhv elədiyini anladı. Pulu masadan götürüb dəhlizə adladı. Nimdaş ayaqqabılarını tərs-avand ayağına çəkdiyinin fərqinə varmadan qapıdan çıxdı.

## ƏDƏBİYYATIN LƏTAFƏTİ

Yaşlı şairlərdən birinin, adını çəkməyəcəyik, həm yaradıcılıq gecəsi keçirilirdi, həm də yeddi cildlik külliyyatının təqdimatı idi. Kiçik salon dolmuşdu. Belə tədbirlərin, səbəbkarını tanıdı, ya tanımadı, bircəciyini də buraxmayan satirik yazıçı Həşim Güllü bu dəfə gecikdiyindən qabaqda oturmağa yer tapmayıb boylandı. Arxa sıradakılar sıxlaşıb ona yer elədilər. Model kimi açıq-saçıq geyinmiş cavan xanımla yanbayan oturdu. Yazıçı qəzetlərin, internet saytlarının əməkdaşlarını tanıyırdı, amma bu qadını tanımadı. “Yəqin təzə işə başlayanlardandı!” – deyə fikirləşdi.

Ədəbi mühitin bütün görkəmli simaları iri dəyirmi masanın ətrafında əyləşmişdilər. Səbəbkarın ədəbiyyatdakı xidmətləri danılmaz olduğundan deyilən təriflər heç tənqidçilərdə də şübhə doğurmurdu. Məclisi idarə edən vəzifəli şəxs qarşısında çinlənmiş külliyyata toxunaraq:

– Bu kitablar, ədəbiyyat tacının cıqqasına çevriləcək kitablardır, – dedi, yeni natiqə söz verməzdən əvvəl çıxışının bünövrə daşını qoydu. – Buyurun, müəllim! Hörmətli qələm yoldaşımız böyük şair haqqında görək nə deyəcək...

Səksən yaşlı şairin, adını çəkməyəcəyik, təriflərə aludəçiliyi hamıya məlum idi. Natiqlərin ağzından gözünü çəkmirdi, onları baxışları ilə daha dolğun təriflərə ruhlandırırdı.

Həşim Güllü deyilənləri irişə-irişə dinləyir, yumorlu hekayələrinə mövzu axtarırdı, amma fikirlərini toplaya bilmirdi. Cavan qadın bütün bədəni ilə ona sığınmışdı. Onun ətri-rayihəsi Həşim Güllünü həyəcana gətirmişdi. Bir sözlə, altmış yaşlı kişi hayıl-mayıl olmuşdu. Qadınla tanış olmaq eşqinə düşdü.

– Xanım qız, yerinizi dar eləmədim ki?

Qadın ətrafda eşidiləcəyindən çəkinmədən bərkdən:

– Bütün ömrüm boyu belə dar yer arzulamırammı! – dedi, sonra müsahibinə tərəf əyildi, astadan, gülümsəyərək səbəbkara işarə ilə qeyd elədi. – Əcəb böyük şairdi! Səksən yaşı var, yeddi cild kitab yazıb. Bir belə yaşayan şairin yetmiş cild kitabı olmalı idi.

Ədəbi gecənin səbəbkarını sevməsə belə, Həşim Güllü qadının istehzasından xoşlanmadı. Ona yanakı baxdı. Qadının toppuş yanaqları işım-işım işıldayırdı, ənlik-kirşansız idi. Həşim Güllünün döşünə yatan qadınlardan olduğundan müsahibini acılamaqdan çəkindi. Mülayimliklə soruşdu:

– Neçə yaşınız var, xanım qız?

Qadın, nədənsə, hikkələndi:

– Otuz yaşım var. Nədi ki? Söz demək yaşım çatmayıb?

Həşim Güllü mübahisədən qaçdı:

– Heç kim sizin söz demək hüququnuzu əlinizdən almaq istəmir, xanım! Sadəcə, demək istəyirəm ki, adama döyüş uzaqdan asan gəlir. Lağ elədiyin səksən yaşlı şair Sovet dövründə dövlət mükafatı almışdı.

Qadın onu dinləmədi, çantasında eşələndi, bir qutu siqaret çıxartdı, gözlənilmədən təklif elədi:

– Bəlkə mənimlə foyeyə çıxasınız? Tanışlığın bünövrəsini qoyarıq... – dedi, cavab gözləmədən qalxıb döşəməni taqqıldadaraq bayıra çıxdı.

Həşim Güllüyə maraq üstün gəldi, bir az yubandı, sonra yanındakıların təəccüblü baxışları altında qadının dalınca getdi. Ayaqyolunun qarşısında divara söykənib siqaretini tüstülədən qadın cazibədar bir gülüşlə astadan soruşdu:

– Siz də yazıçısınız?

Bu sual Həşim Güllüyə güllə kimi dəydi. Çallaşmış gur saçlarını əsəbiliklə geri sığalladı. O, kifayət qədər tanınmış yazıçı idi, tez-tez TV-nin ekranlarında görünürdü. Ədəbiyyat aləmində tənqidi məqalələri ilə məşhur idi. Elə bildi onu ələ salırlar. Diqqətlə baxandan sonra əmin oldu ki, qadın tam ciddi soruşur. Könülsüz halda başını tərpətdi, ağızucu:

– Yazıçı-tənqidçiyəm.

Qadın əl çəkmək fikrində deyildi:

– Neçə kitabınız var? – Soruşdu.

Həşim Güllü çap olunmuş kitablarının sayını dedi. Qadın qəribə bir həqarətlə:

– Beş? Niyə belə az? – Soruşdu. – Yəqin istedadınız azdı ki, belə az yazmısınız.

Həşim Güllü vurğunluqla qadına baxıb izah elədi ki, bir az tənbəlliyim, bir az da maddi problemlərim var.

– Kitabı da məlumdur ki, quru loppağa nəşr eləmirlər! – Güldü. – Yoxsa yazmağa nə var ki! Əlimdə bu saat iki kitablıq yazım var, sandıqda yatır!

Müsahibi onun nədən yazdığını bilmək istədi. Həşim Güllü başdansovdu dedi:

– Satira və yumorla məşğulam, arada tənqidi məqalələr də yazıram. – Qadın üçün anlaşıqlı olsun deyə əlavə elədi, – yəni lağlağı yazıram.

– Təəccüblü deyil ki, sizi heç kim tanımır. Lağlağı kimə lazımdı.

Həşim Güllü qadına baş qoşduğuna görə peşman oldu. Həvəssiz halda:

– Bəs, nədən yazmaq lazımdı? Bəlkə məsləhət verəsiniz! Yol göstərəsiniz!

Yazıçının zəhərli istehzasını qadın eyninə almadı:

– Gecdi, bu yaşda sənə məsləhət də kömək etməyəcək! – dedi. – Gərək məhəbbətdən-sevgidən yazaydın! Əbədi mövzudu, hamını cəlb edir.

Həşim Güllü hirsləndi. Qadınla tanışlıqdan vaz keçdi, onunla yuxarıdan aşağı danışan gözəlcəni yerinə oturtmaq fikrinə düşdü:

– Ay qız, get, bozbaşını bişir! Məsləhətçimə bax! Özün bir şey yazginən, sonra ona-buna vedrə bağla. Bəlkə deyəsən, hansı divar qəzetində cızma-qara edirsən?

Qadın siqaretini çırtma ilə zibil yeşiyinə göndərib təzəsini odladı.

– Mən də yazıçıyam! – dedi. – Bu günə kimi on dörd kitabım çıxıb.

Həşim Güllü quruyub qaldı. Təkrar soruşduqda qadın istehza ilə:

– Düz eşitmisən! – dedi. – Yeddi şeir, səkkiz nəsr kitabım var. Yaxınlarda daha iki romanım çıxacaq, nəşriyyatdadı.

– Maşallah! Bir belə kitabı nəynən buraxırsınız?

– Sponsorum var! – deyə qadın dişini ağartdı, foyedə gəzişən kəlpeysərə tərəf əlini uzatdı. – Gördüyün kişi sponsorumdu! İstəsən səninlə tanış eləyə bilərəm.

Yazıçı qadının dediyi tərəfə baxdı. Kəlpeysərin görkəmindən ürəyi düşdü, bu yaşda yumruq-təpiyə dözəsi canı yox idi.

– İstəməz! – dedi, amma marağı qorxusuna dov gəldi. – Ədəbiyyat jurnallarında, qəzetlərində çap olunursuz?

– Yox! – Qadın pıqqıldadı. – Kimə lazımdı sizin səfsəfə ilə dolu qəzet-jurnallarınız?

– İmzanızı söyləyə bilərsinizmi?

Qadın birdən hiddətləndi, gözəl üzü dəyişdi:

– Guya bilmirsən? Haqqımda məqalə yazırsan, amma tanımırsan! – dedi, sonra istehza ilə irişdi. – Yazdığın məqalə başına dəysin! Adım Lətif Lətafətdir.

– Nə???

– Nənə! – Qadın acıqla çımxırdı. – Ağzını Allah yolunda qoymusan, iş bilmişəm, tənqidçiyəm! "Ədəbiyyatımızın Lətafətsiz günləri"ni yazmaqla nə demək istəyirsən, axı?! Onu dolayırsan, bunu dolayırsan, sənə nə, xalx nə təhər yazır. Şairəm, şair deyiləm, yazıçıyam, yazıçı deyiləm, özüm bilərəm! Sənə nə borc! Yadında qalsın, bir də cızma-qaralarında adımı çəksən özündən küs! Deyərəm, qol-qabırğanı sındırallar, qoca dəyyus!

Qadın Həşim Güllünün məqaləsi dərc olunmuş qəzeti çantasından çıxarıb yerə atdı. Ayaqqabılarını ona yaxşı-yaxşı silib dabanlarını taqqıldadaraq foyedə gəzişən kəlpeysərə yanaşdı, qoluna girdi. Onlar deyə-gülə uzaqlaşdılar.

Həşim Güllü durduğu yerdə səndələdi, ayaqları sözünə baxmırdı, qadının tapdaladığı qəzetin üstünə çökdü. Pıçıldadı: "Şükür, yaxşı qurtardım!" – dedi, sonra qəzetin baş redaktorunun dalınca deyindi. – Əlin quruyaydı o kitabı mənə verdiyin yerdə! Dilin quruyaydı, bundan bir şey yaz, dediyin yerdə! Ədəbiyyatın lətafətini dadmaq elə mənə qalıb?!"

## MÜDRİK BUQƏLƏMUN

Satirik yazıçı Həşim Güllü ahıl yaşında mal-mülk qədri bilən olmuşdu. İyirmi il qabaq hökumətin ona müftə-müsəlləm verdiyi torpaq sahəsindən möhkəm yapışmışdı. Daha neynəməli idi ki? Təqaüdə çıxandan sonra bilmişdi ki, olan-qalanı, var-dövləti elə budu. Bağ yeri Subənddə idi. Keçən illər ərzində torpaq sahəsini hasara almaqla, bir-iki ağac əkməklə kifayətlənmişdi, gücü elə buna çatmışdı. Təzəlikdə qədir-qiymətə minmiş bağına qeydiyyat sənədi almaq fikrinə düşmüşdü. Uzun get-gəl bir nəticə vermirdi, sənədləşmə dalana dirənmişdi. Əvvəldən üzləşəcəyi çətinlikdən agah olsaydı, heç barmağını da tərpətməzdi. Daha iş-işdən keçmişdi, başladığı əməli yarımçıq qoya bilməzdi, sona çatdırmalı idi.

Sənədlər yerli-yerində olsa da, çəpərləmədə kənara çıxma var idi. Ayrılmış on sot torpaq sahəsi iyirmi ildə artıb iyirmi sot olmuşdu. Həşim Güllü gülərək bundan xəbərsiz olduğunu söyləsə də, inanan yox idi. Ünsiyyət qurduğu məmurların heç biri zəbt olunmuş sahənin sənədləşməsini

boynuna götürmürdü, dinməz-söyləməz kağızlarını qoltuğuna verirdilər.

Həşim Güllü bir neçə ay ayaq döyəndən sonra saxlancını eşələdi, amma tapdığı qəpik-quruşa yaxın duran olmadı. Qeydiyyat idarəsinin ətrafında var-gəl edən dəllallar ağızlarının dadını bilirdilər. Həşim Güllüdən artıq sahənin bazar qiymətini qırtmaq istəyirdilər.

Eləmədi tənbəllik, ora zəng elədi, bura zəng elədi, bir şey çıxmadı. Karlı vəzifəsi olan tanışlarının hamılıqla ağzını aradı, yenə bir şey çıxmadı.

Bir gün bulvara hava almağa çıxmışdı, köhnə tanışlarından biri ilə təsadüfən rastlaşanda çox sevindi. Haçansa qəzetdə bir yerdə çalışmışdılar. İşlədikləri müddətdə yaxın ünsiyyətləri olmamışdı. Tanışı tezliklə qəzetdən uzaqlaşmışdı. Həşim Güllü onun adını xatırlamağa çalışdı, yadına sala bilməyib soruşmaq istədi, amma soruşmağa utandı. Bunu aydınlatdırmağı sonraya saxlayıb söhbətə nərdivan qoydu. Onsuz da vaxtını öldürməyə, laqqırtı vurmağa adam axtarırdı.

Ordan-burdan xeyli mırt vurdular, keçmiş həmkarlarını yada saldılar. Həşim Güllü bekarçılıqdan başına gələnləri ona danışdıqda köhnə tanışı birdən qəhqəhə çəkdi. Həşim Güllü incidi:

– Qardaşım, başqasının dərdinə gülməzlər!

Tanışı gülməkdən yaşarmış gözlərini sildi:

– Bağışla, Həşim müəllim, sənin sadəlövhlüyünə heyranam! Heç dəyişməmisən! – dedi, sonra ciddiləşdi. – Yaxşı pul verməsən, çətin ki, bu işi başa çatdırasan!

Həşim Güllü inanmadı, nəsə yadına düşdü, güldü:

– Xatirimdədir, qəzetdə işləyəndə də özündən toqquşdurmağı xoşlayırdın. Hətta, bir dəfə...

Həmkarı Həşim Güllünün köhnə palan içi tökməyinə imkan vermədi:

– ... Müəllim, qəzetdən gedəndən sonra həmin idarədə işləmişəm. Bir neçə il mətbuat xidmətində çalışmışam.

– Bəs, sonra nə oldu?

Tanışı Həşim Güllünün diqqətli baxışları altında boynuna aldı:

– Vəziyyətim əla idi, pula pul demirdim, – dedi. – Sonra dalımdan dəydilər! Onları qınamıram, günah özümdə idi! Burnumu hər yerə soxmağım rəislərin xoşuna gəlmirdi. Bir sözlə, qəzetçilik vərdişi başıma bəla oldu! Danışmalı deyil...

Həşim Güllü ümidlə ona baxdı:

– Hər halda idarədə köhnə tanışlarından qalmamış olmaz! İstəsən yəqin ki, kömək edərlər.

Tanışı başını buladı:

– İnanmıram! – dedi. – Bu idarədə pulsuz heç kimi yaxına buraxmırlar! Hər şey müavinin əlindədir. Çox qansız adamdı.

Həşim müəllim inanmadı:

– Mənə müdrik adam təsiri bağışladı, – dedi. – Sabah təkrar qəbuluna yazılmışam.

Həmsöhbəti başını buladı, yana-yana:

– Həqiqətdə baş kəsənin biridi! – dedi. – Sən bilmirsən, bu adam buqələmundur, dondan-dona girir. Bu adamın gözü doymur! Şəhərdə onlarla obyekti, mənzili, adını çəkdiyin Subənd yolunda hektarla torpağı var. Başqa-başqa adamların adına sənədləşdirib. Elə bilir heç kim bilmir! Maşınının nömrəsi nəyə desən dəyər! Bütün doqquzları yığıb.

– Sən hardan bilirsən?

– Bayaq dedim, axı, qəzetçinin gözündən heç nə yayınmır. Elə marağım başıma bəla açdı. Torba tikib mitilimi bayıra atdılar. Tuturdular, Allahın rəhmi gəldi, yaxamdan əl çəkdilər.

Bu əsnada həmkarının telefonuna zəng gəldi. O, qulaq asıb ayağa qalxdı:

– Bağışla, müəllim, getməliyəm! Yazıçı adamsan, müavinin qəbuluna gedəndə kitablarını da götür. Kisəsinin başı dolubsa, kömək eləyəcək! – dedi, yenə qəhqəhə çəkdi. – Düzdür, inanmıram, amma həyatda möcüzə baş verəndə verir də!

...Səhərisi Həşim Güllü qəbula nagüman getdi. Rəis müavini cavan olsa da, başı ağappaq ağarmışdı. Arxası pəncərəyə tərəf qoyulmuş masanın arxasında oturmuşdu. Pəncərədən düşən işıq onun ağ saçlarına bir müqəddəs çalar verirdi. Bu, Həşim Güllünün ürəyini kövrəldi. Asta addımlarla onun masasına yaxınlaşdı, kitablarını müavinin qabağına qoyub oturdu, gəlişinin məqsədini söylədi.

Kabinetin qüdrətli sahibi kitablar üçün təşəkkür elədi, birini laqeydliklə vərəqləyib soruşdu:

– Neçə yaşın var, şair?

Həşim Güllü, gəldiyi məsələyə aidiyyəti olmasa da, yaşını söylədi. Müavin başını buladı:

– Ay rəhmətliyin oğlu, dövlət sənə on sot havayı yer verib, sənə kifayət eləmir, əlavə on sot da zəbt edirsən. İndi də düşmüsən qapılara onu özəlləşdirmək istəyirsən.

Həşim Güllünün üzündə şeytanlar oynadı.

– Günahkaram, rəis! – dedi, amma dərhal dilini dişlədi, yadına düşdü ki, bura mübahisəyə gəlməyib.

Rəis ağ saçlarına sığal çəkib əda ilə:

– Neynəyirsən bir belə torpağı, şair, özünlə aparacaqsan? – Soruşdu, sonra qondarma bir mehribanlıqla. – Dünya görmüş adamsan, şair, görəsən insanın gözü haçan doyacaq? İnsan övladı haçansa tamahına “həs” deyə biləcəkmi?

Həşim Güllü daha özünü saxlaya bilmədi, şirin dillə dedi:

– Rəis, tamahıma necə “həs” deyim, axı? O gün minmişdim maşına, getmişdim Biləcəriyə tərəf. Sağ tikilib, sol tikilib, Sumqayıta qədər yüz hektarla ərazi hasara alınıb. Bunu görəndə adamın ağzı sulanır, tamahı cümbüşə gəlir! O biri gün gedirəm Qaradağa tərəf, Salyana qədər torpaqlar çəpərlənib. Adamın gözü həsəddən qaralır, tamahı oyur-oyur oynayır!

Rəis müavini çoxbilmiş bir istehza ilə:

– Yəni yazacağın felyeton belə başlayacaq?

Həşim Güllü rəis müavininin dərrakəsini heyranlıqla təsdiqlədi:

– Düz tapmısan! – dedi, sonra yarımçıq qalmış monoloqunu bitirməyə çalışdı. – Hə, minirəm maşına gedirəm Subənddəki bağıma. Bəh-bəh-bəh! Yolun solu tutulub, sağı tutulub, qabağı tutulub, arxası tutulub... Hə, öz aramızda qalsın, sizin maşınınızı da hərdən oralarda görürəm. Doqquzların sayından tanıyıram.

Bu yerdə müavinin nəinki üzünün, hətta ağ saçlarının rəngi bozardı, boğuq səslə onun sözünü kəsdi:

– Görürəm, hazırlıqlı gəlmisən...

Həşim Güllü eşitmirmiş kimi:

– Həəə, futbol meydançası kimi nəhəng istilikxanalar bir deyil, iki deyil, üç deyil...

– Qurtar, ay kişi, palan içi tökmə. O yerlər sənədli-sübutlu yerlərdi...

Həşim Güllü onun ağrıyan yerini tapdığına sevindi, amma sevincini büruzə vermədi, qondarma laqeydliklə:

– Əslində, məni nə hektarla hasarlanmış yerlər, nə də istilikxanalar maraqlandırır! Öz torpağım mənə bəs eləyər. Artığı lazım deyil, bir ayağım burdadı, bir ayağım gorda... – dedi. – Düzmü deyirəm?

Rəis müavini ağarmış başını qaldırmadan:

– Sənədlərini qoy, qalsın... Görüm, neynəmək olar... – dedi. – Sabah gələrsən.

Həşim Güllü qeydiyyat sənədini alacağına əminliklə fikirləşdi ki, rəis müavini buqələmun olmağına buqələmundur, amma müdrikindəndir. Saçını havayı yerə ağarmayıb.

## NARAZILIQ

Dini icmanın sədri ilə axund arasında düşən sərinlik icma üzvləri arasında da fikir ayrılığına səbəb oldu. Buna ixtilaf demək olmazdı, xırda bir narazılıq idi. Əlbəttə, heç bu da möminlərə yaraşan iş deyildi. Amma ikitirəliyin binası qoyulmuşdu. İcma üzvlərinin bir qismi axundun, başqa bir qismi sədrin tərəfini saxlayırdı. Qarşılıqlı ittihamlardan məlum olurdu ki, qarşıdurma labüddür. Artıq özünü büruzə verirdi. Adi bir hadisədən ara qızışdı.

Məscid təzə tikilmişdi, kiçik idi, eyni vaxtda əlli nəfər ibadət eləyə bilərdi, artıq adam yerləşmirdi.

Cümə namazına bir saat qalmışdı. Cümə xütbəsinə hazırlaşan axund Xanbala dedi:

– Deyirəm, ibadətimizə bir yenilik gətirək. Hacı Xurşudun yaxşı bəlağəti var, səsi də gurdu. Namazdan sonra sözü ona versək, necədi? – Soruşdu, dərhal da təklifini əsaslandırdı. – Hacı yaşda bizdən böyükdü, elə başda da böyükdü. Məktəb direktoru olub, ölkənin əməkdar müəllimidi...

Məscidin bünövrəsini qoyanlardan biri olan balacaboy hacı Dəsgah oturduğu yerdə bir balaca dikəldi. Hamının

diqqətini şəxsiyyətinə yönəltdiyinə əmin olandan sonra soruşdu:

– Bəs, hacı Baxış nə olsun, axund? Bu işi ona tapşırmışdın, axı! Kişi birnəfəsə yüzdən çox dua oxuyur, duaların biri də o birini təkrarlamır. Belə bir sinədəftəri işindən kənarlaşdırmaq olarmı?

Hacı Dəsgah Şura hökuməti dağılan kimi Məkkəyə həcc ziyarətinə gedənlərdən idi. Qulaq asan tapanda avtobusla Türkiyəyə, ordan Suriyaya, ordan da İraqa getməyindən, başına gələn sərgüzəştlərdən saatlarla danışmağı sevirdi. Hər yerdə də sözü keçirdi. Sözünün kəsərli olmağının bir səbəbi də vardı. Hacı Dəsgah köhnə ticarətçilərdən idi. Vəziyyəti əvvəl də yaxşı idi, heç indi də pis deyildi. Kifayət qədər imkanlı, dövlətli kişi idi.

Axund hörmətlə hacı Dəsgaha tərəf baxdı:

– Hacı Dəsgah, hacı Baxışı heç kim kənarlaşdırmır. Hacı Xurşudun dua-sənası bir neçə dəqiqə çəkəcək, söz yenə hacı Baxışındı.

Telefon əlindən düşməyən Məşədi Qulam sosial şəbəkələrdə aktiv idi. Məscidin səhifələrini idarə edirdi, xəbərləri izləyirdi. Axundun sözünü kəsdi:

– Hacılar, biz Myanmada baş verənlərə münasibətimizi bildirməliyik. Müsəlmanları qırırlar...

Hacı Əlvan icma sədri idi. İddialı adam idi, vəzifəyə təsadüfən gəlib çıxmışdı. Ülgüclə qırxılı yastı başı dumbula oxşayırdı. Dini təhsili yox idi, bu sahədə piyada olsa da, lazım oldu, ya olmadı şəriət məsələlərinə qarışır, icma üzvlərinin gülüş yerinə çevrilirdi. Məşədi Qulamın sözünü kəsdi, narazılıqla fısıldadı:

– Heç bunun yeridi, məşədi? – dedi, sonra təklif elədi. – Axund, bəlkə mənə də söz verəsən, bir neçə dua da mən oxuyum.

Axund mülayimliklə:

– Hacı, sən çox dualar oxumusan. – dedi. – İndi icmanın təzə üzvlərinə söz versək, məsləhətdi.

Hacı Əlvan əl çəkmədi:

– Uşağı təzə ayaq-baş eləmişəm. Oğlumu deyirəm. Hamınız toyda olmusunuz. Bir neçə hacətim var. İki il ötüb, hələ də nəvə üzünə həsrətəm. Allah rizası üçün hacıların diləklərimə qoşulmasını istəyirəm.

Axund sözündən dönmədi:

– Bütün hacətlərindən hacılarımızın xəbəri var, indi növbə o biri hacılarındı. Sən tək deyilsən ki! Hamı məscidin kəramətindən bəhrələnməlidi.

Hacı Əlvan bu etinasızlıqdan incidi. Birdən yerindən qalxdı, axundun otağından çıxdı. Hacı Dəsgah ürəyiyanıqlıqla:

– Axund, hacı Əlvana bir-iki dəqiqəlik söz vermək olardı, – dedi.

Axund başındakı əski təsəyin üstündən başını qaşıdı, iri gözlərini bərəltdi:

– Hacı Dəsgah, hacı Əlvan adamyarıdan mömin deyil. Beləsinə iş tapşırmaq olmur! – dedi. – Əvvəllər nəzir qutularına baxırdı. Bilirsən niyə kənarlaşdırdım?

– Niyə?

– Qaydaya görə, qutular üç nəfərin iştirakı ilə açılmalıdı. O isə təkbaşına açırdı. Qınayanda da özünə əl qatırdı ki, mən heç nəyə əl vurmuram, halalıma haram qatmıram.

– Hər şeydən şübhələnmək olmaz, axı, axund! Hacı Əlvan qədim hacılarımızdandı, – hacı Dəsgah inamsız halda hacı Əlvanı müdafiə elədi. – Mənimlə həcc ziyarətində yol yoldaşı olub.

Məşədi Qulam yenə telefonunda nə oxudusa sızanaqlı burnunu qırışdırdı:

– Vay-vay! Bütpərəstlər gör nə qədər müsəlman qırıb. Etirazımızı bildirməliyik...

– Hələ dayan! – deyə bayaqdan susan hacı Baxış cibindən bir vərəq kağız çıxartdı, qoydu ortalığa.

Hacı Dəsgah eynəyini cibindən çıxarıb kağızı qabağına çəkdi. Kəbin kağızının surəti idi. Doldurulmuşdu, amma axundun xəttinə oxşamırdı. Hacı Baxış izah elədi:

– İcma sədri axunddan xəbərsiz, onun kəbin blanklarının surətini çıxarır, xəlvəti kəbin kəsir, pul alır! Belə şey harda görünüb? Bir nəfər dünən mənə gətirib. Hacı Əlvanın əməlidi. Bəs, buna nə ad verəsən?

Hacı Dəsgahın təəccübdən çənəsi sallansa da, inamsızlığı keçmədi:

– Bəlkə aravuranların işidi, hacı Əlvanın boynuna atırlar! Kişi əvvəllər bələdiyyə sədri olub, axı!

Hacı Xurşud dizinə keçirtdiyi kepkasını başına qoydu, axundun işarəsi ilə söhbətə başladı:

– Demək çirkinlikdi, amma deməsəm olmaz. Bilirsən ki, hacı Əlvan bir neçə ay mərasim zalında müdirlik eləyib. Dünən bir nəfər gəldi yanıma. Atasına il verirdi. Mərasim zalının qiymətini biləndə təəccübləndi. Soruşdu: "Qiymətləri təzə endiribsiz?" Dedim ki, yox, neçə vaxtdı elə bir qiymətlə işləyirik. Gördüm inanmır, əlavə elədim ki, biz al-ver eləmirik, qarşımıza pul qazanmağı məqsəd qoymamışıq, möminlərimizə xidmət edirik. Həmin adam dedi: "Atamın üçünü burada vermişəm, amma məndən bu pulun iki mislini alıblar". Deyirəm, ola bilməz. Dedi, hacı Əlvan ölməyib ki, gedib soruşa bilərsiz...

Hacı Dəsgah fikrə getdikdə axund dedi:

– Hacı, hacı Əlvan sən tanıyan adam deyil. Dəyişilib.

Hacı Dəsgah, nəhayət ki, inandı. Köksünü ötürüb daha hacı Əlvanı müdafiə eləmədi. Cümə namazının vaxtı çatdığından qalxdı:

– Dünyanın işlərindən baş açmaq olmur, gedək, ibadətimizi edək.

Hamı yerindən tərpəndikdə məşədi Qasım telefondan oxudu:

– Gör, nə gözəl yazıb! Görəsən kimindi? – dedi. – Dünya duracaq yer deyil, ey dil, səfər eylə!

## HƏKİM

Fikrət-həkimin rəhmətə getdiyini eşidib çox kədərləndim. Düzdü, elə də cavan deyildi, yetmişdən çox yaşı vardı, amma onun ölümü qəm-qüssəmə səbəb oldu.

Qonşuluğumuzda, bir neçə məhəllə aralı, doqquz mərtəbə evlərin birində yaşayırdı, qəsəbədəki xəstəxanada işləyirdi. Onu çoxdan tanıyırdım, aramızda isti münasibət yaranmışdı. Sağlamlığımda bir problemim olanda xəstəxanaya getmirdim, ərklə mənzilinin qapısını döyürdüm. Həkim deyildi, loğman idi, hər dərdin dərmanını bilirdi. Çolma-çocuğumun da müalicəsinə Fikrət həkim baxırdı. Dosta-tanışa da onu məsləhət görürdüm. Allah adamın üstündədi, yanından hamı razı qayıdırdı.

Fikrət-həkimlə tanışlığımızın maraqlı tarixçəsi var. Bir iyirmi ilin söhbətini eləyirəm. Sizdən iraq, çənəmdən bir sızanaq çıxmışdı. Bu həkimə getdim, o həkimə getdim, heç biri dərmanını tapa bilmədi. Türkəçarələr də kömək eləmədi, yara sulandığından özümlə qətfə gəzdirirdim ki, onu qurudum. Lap xəcalət çəkirdim. Dedilər ki, qonşuluqda bir yaxşı həkim var, adı Fikrətdi, evində də qəbul edir. Getdim yanı-

na. Baxan kimi dedi ki, düzələn şeydi. İnanmadım. Fikrət-həkim o biri otağa keçdi, bir azdan bir sulu dərmanla qayıtdı. Tənzifi isladıb qoydu çənəmin üstünə. Bir neçə dəqiqədən sonra yara oldu qupquru. "Əhsən" – dedim, "şirvanın" bərk gedən vaxtı idi, ona düz iki "şirvan" pul verdim. Dedi ki, biri bəsdi. Nə illah elədimsə, ikincini götürmədi. Elə dedi, biri bəsdi.

Beləcənə biz tanış olduq.

Rəhmətlik yeyib-içən kişi idi. Haçan rastlaşırdın onunla, yapışırdı yaxandan ki, gedək bir çörək yeyək. Vaxtım olanda imtina eləmirdim. Adamı əlini cibinə salmağa qoymazdı, hesabı həmişə özü verirdi. Hələ zarafat eləyirdi ki, pul çap eləmirəm ki, sizin verdiklərinizi sizin yolunuzda xərcləyirəm də.

Dolu qırmızı sifəti, oynaq xırda gözləri vardı. Həmişə ağappaq, şax, nişastalı xalatda olardı. Başqa geyimdə onu təsəvvür eləmək mümkün deyildi. Fikrət-həkimi elə küçədə-bayırda da ağ xalatda görürdüm.

Oğul-uşaqdan nəyi vardı, nəyi yoxdu – bilmirəm, amma özünə korluq verən kişi deyildi. Arada mənzilinə ağ xalatlı qadınların gəlib-getdiyini görürdüm. Soruşanda da deyirdi ki, assistentlərimdi. Bunun həqiqət, ya yalan olduğunu demək çətin idi.

İndi onun ölümünü eşidəndə nə hala düşdüyümü təsəvvür edirsiniz də! Belə bir həkimi, belə bir gözütox insanı itirmək necə də ağırdı.

Yolumu onların məhəlləsindən saldım... Rastlaşdığım tanışlardan soruşdum ki, dəfn haçandı. Dedilər ki, indilərdə yerdən götürəcəklər! Ona son borcumu vermək fikrinə düşdüm. Qonum-qonşu yığışmışdı, bir azdan molla həyətdəki ağacın haçasına qalxdı, salat dedi. Tabutu endirdilər, Fikrət-

həkim ikinci mərtəbədə yaşayırdı, mafəni üstü açıq "QAZ-el"ə qoydular. Həyətdə işgüzar bir əhval-ruhiyyə hökm sürürdü. Dünyadı da, bəzən yaşlı adamlara heç yaxınları da ağlamır. Bir azdan mafə qoyulmuş maşın qabağa düşdü. Qəbiristan yaxında olduğundan piyada gedirdik. Yanımda addımlayan kişinin sifəti mənə tanış gəldi, söhbətə nərdivan qoymaq fikri ilə:

– Deyəsən, sizi hardasa görmüşəm, axı? – Soruşdum.

– Mən Rahim-həkiməm, – dedi. – Yəqin xəstəxanada görmüsən.

Adını qürurla çəkməyindən anladım ki, tanınmış adamdı. Rahim-həkimin də xeyli yaşı olardı. Dəqiq deyə bilmərəm, bəlkə elə Fikrət-həkimlə yaşıd idi. Müqayisədə mən onların yanında körpə uşaq idim. Cəmi əlli yaşım vardı.

Marağımı az-çox təmin elədiyimdən məmnun halda:

– Rəhmətliklə həmkarsız ki!

– Bəli! – Rahim-həkim gülümsədi. – Amma Fikrət həkim deyildi, feldşer idi.

Rahim-həkim baməzə adama oxşayırdı. Dodaqları dişinin üstünü örtmürdü, elə irişirdi.

– Yəqin zarafat edirsiz! – Ona yanakı baxdım. – Fikrət-həkim əsl həkim idi.

Rahim-həkim mənə lağ elədi:

– Nədi, onu mənə tanıdacaqsınız? – Sonra əlavə elədi. – Dünənə qədər biz bir xəstəxanada, bir şöbədə işləyirdik.

Gördüm ki, gülə-gülə danışsa da, Rahim-həkim zarafat eləmir. Çaşıb qaldım. Handan-hana dedim:

– Onun qəbuluna bilirsiz nə qədər adam gəlirdi? Xəstələrinin sayı-hesabı yox idi.

Rahim-həkim həsədlə:

– Bunu bilirəm.

Mən inamsız halda:

– İyirmi ildi onu tanıyırdım. Yazdığı dərmanın bir də boşa çıxmazdı, həmişə yaxşı təsir edirdi, – dedim.

– Bilirəm, amma fakt faktlığında qalır, – deyə Rahim əllərini yana açdı. – Rəhmətlik həkim deyildi.

Mən son dəlilimi gətirdim:

– Yazdığı reseptlərin çoxu qalıb, məndədi. Gətirərəm, baxarsınız.

– Ehtiyac yoxdu. Onun reseptlərini ya mən yazırdım, ya da həmkarım Hökumə xanım. Reseptləri yanaşı qoysanız, xətlərdəki fərqi görərsiniz. Fikrət özü resept yaza bilmirdi. Mənim xəttim kələ-kötürdü, Hökümə xanımın xətti isə yaraşıqlıdı.

Rahim-həkimin dediyində bir həqiqət var idi. Yadıma düşdü ki, Fikrət-həkimin reseptlərinin bəzisinin qara-qurası çox olurdu, oxumaq çətin idi, bəzilərinin səliqəsinə isə söz ola bilməzdi, elə bil qadın xətti ilə yazılmışdı. Təəccüblə soruşdum:

– Niyə belə eləyirdiniz ki?

– Uzun söhbətdi...

– Gizlidi?

Rahim-həkim gülümsədi:

– Daha gizlətməyin yeri yoxdu. Fikrət haqq dünyadadı, dediyimin ona ziyanı çətin dəysin. Bizim bir ahıl baş həkimimiz vardı. Mənə də, Hökumə xanıma da çox yaxşılıqları keçmişdi. Aman-zaman bir oğlu Fikrət idi. Bizimlə yaşıd idi. Oxumaqla arası yox idi. Tibb texnikumunu zorla qurtarmışdı. Baş həkim rəhmətə gedəndə Fikrəti bizə tapşırmışdı. Yeyib-içən adamdı. Gördük acından öləcək. Feldşerlikdə nə pul var ki! Hökümə xanımla məsləhətdən sonra qoşduq cərgəmizə. Belə-belə onu həkim elədik.

– Sizsiz dərman yazmırdı?

– Yox. Bir dəfə bir dərman yazmışdı, xəstə ölürdü, zornan diriltdik. Oydu-buydu bizsiz dərman yazmırdı.

– Deməli, məni iyirmi ildi feldşer müalicə edirmiş?

– Belə çıxır da! – dedi və yenə irişdi.

Mafəni aparan maşın qəbiristana girəndə məni axmaq bir gülmək tutdu, heç cür özümü saxlaya bilmədim. Həmsöhbətimi tək buraxıb mənə qınaqla baxan adamlardan aralandım, ayaqqabımın bağını bağlamaq bəhanəsi ilə kənara çəkilib doyunca güldüm. Sonra camaatın dalınca qəbiristana yollandım. Üzügülər, öz-özünə irişən Rahim-həkimlə yanaşı yerimi tutdum. Dəfni yarımçıq qoya bilməzdim ki! Fikrət-həkimi torpağa təbəssümlə tapşırdıq.

## MÜNDƏRİCAT

KİAKSARIN AXIRINCI SAVAŞI
*(roman)*


Paytaxtın vaxtsız qonaqları ..........7
Darasp ..........11
Baş xəfiyyə Tətür Atxa..........12
Tətür Atxa vəliəhd iqamətgahında..........15
Daraspın həyatı ..........18
Daraspın nifrəti ..........20
Naibi-sirdar Ərdəm pənah gətirir..........22
Məktub oğrusu ..........24
Darasp Urranın səfərindən ..........26
xəbər tutur..........26
Tətür Atxa şahənşah hüzurunda..........27
Darasp Kijəni tapır..........30
Şahzadə şahənşahın hüzurunda..........32
Kahin Şaumun hesabatı..........36
Skif süvariləri köməyə gəlir..........38
Daraspın "od gəlini" sevdası..........43
Düşmənin barış təklifi..........45
Döyüşə hazırlıq ..........47
Döyüş başlayır ..........50
Sevgidən vacib Vətəndir ..........54
Ali Baş Kahin Amitaxah ..........56
Skif sərkərdəsinin xəyanəti ..........58
Günəş tutulması ..........59
Elçi Aqar şahənşahın hüzurunda..........61
Şahənşah barış-vuruş dilemması qarşısında..........63
Şahənşahın rəxti-xab keşikçiləri ..........66
Qurbanvermə mərasiminin vaxtı..........70
Astiaqın Vəliəhd elan olunması ..........72
Şahənşahın sağalması ..........74
Misirə yürüşün müzakirəsi..........76

Vəliəhdin gəlişinə hazırlıq ....................................................80
Kandül Şaum atanın hüzurunda ..............................................83
Tətürlə şahənşahın söhbəti ...................................................86
Darasp sirrini Səccama açır ...................................................88
Od gəlini Kijənin iztirabları ..................................................89
Atəşgahın müştərisi ..................................................................91
Skif Ağit .....................................................................................92
Lidiya qızılı ...............................................................................94
Daraspın Kijəni qaçırmaq istəyi ............................................95
Darasp Kandülün sirrini açır ..................................................96
Daraspla Kijənin ikinci görüşü ..............................................98
Skif Ağit Şaum atanın hüzurunda ..........................................99
Ağit qəsdin üstünü açır ...........................................................101
Müharibə hazırlığı ...................................................................104
Tətürün vəzifələri artır ...........................................................105
Aspaz .........................................................................................106
Tətür Atxa Aspazın inadını qırır ............................................109
Şaum Ulu Möbidin hüzurunda ................................................111
Şaumun həyatı ..........................................................................112
Şahənşah Urrandan xəbər tutur ..............................................114
Elçilər ........................................................................................116
Midiya ayağına batan tikan ....................................................117
Şahzadə Urran ..........................................................................119
Atey Urranı başa salır .............................................................120
Ateylə Aqarın planları .............................................................122
Darasp elçi Aqarın hüzurunda ................................................124
Aqniyanın qəzəbi və tapşırığı .................................................127
Urranın qadınlara laqeydliyi ..................................................130
Tarmakiz satrapının düşmənçiliyi ..........................................131
Aspaz Səccam hüzurunda .......................................................133
Naibi-ləşkər Harpaq ................................................................136
Misirlə müharibə hazırlığı ......................................................137
Urran qiyamçılar düşərgəsində ..............................................139
Urranın məsləhəti ....................................................................142
Naməlum adamların axtarışı ...................................................143
Aqar çar İşpakın hüzurunda ....................................................145
Dostların həyatı ........................................................................148
Mehtərin arzuları ....................................................................150

Dostlar at yarışmasında....................................................................151
Tətür Atxanın narahatlığı ...............................................................153
Aspaz Urranın çağırışına gedir .......................................................154
Aqar Ekbatana qayıdır ....................................................................155
Darasp düşərgədən xəbər tutur........................................................157
Qurbanvermənin yubadılması... .......................................................160
Misir müharibəsinə hazırlıq .............................................................162
Düşərgədən Harpaq xəbər tutur .......................................................163
Harpaq Tətürün hüzurunda ..............................................................165
Daraspın Muğan səfəri .....................................................................167
Darasp çar İşpakın hüzurunda..........................................................170
Aqarın narahatlığı ...........................................................................173
Aqar Midiya ordugahında ................................................................174
"Ölüm odasında" toplantı ................................................................176
Ağitin sərnişinləri............................................................................178
Ağit "Bəyaz məbəddə" ....................................................................180
Şahənşah sirrini Harpaqla Astiaqa açır ............................................182
Astiaq Tətürün zirzəmisində ............................................................185
Daraspla Aqarın işbirliyi ..................................................................186
Ordugahda bayram...........................................................................187
Kiaksarın axırıncı göstərişi ..............................................................190
Kiaksarın axırıncı savaşı ..................................................................193

HEKAYƏLƏR

İkitirəlik...........................................................................................196
Zibil..................................................................................................201
Namaz vaxtı .....................................................................................206
Məzənnə...........................................................................................211
Ədəbiyyatın Lətafəti ........................................................................217
Müdrik Buqələmun ..........................................................................222
Narazılıq...........................................................................................228
Həkim...............................................................................................233



Oxucuların ixtiyarına verilən "Kiaksarın axırıncı savaşı" romanı tanınmış yazıçının sayca on ikinci kitabıdır.

Hacı Qəni Camalzadə 1956-cı ildə Azərbaycanın Lerik rayonunda doğulub. Kiçik yaşlarında ailəsi Bakı şəhərinə köçüb.

1971-ci ildə orta məktəbi, 1977-ci ildə Azərbaycan Politexnik İnstitutunu bitirib, istehsalatda müxtəlif vəzifələrdə çalışıb. 1992-93-cü illərdə Azərbaycan Ordusunun sıralarında Qarabağ döyüşlərində vuruşub, tərxis olunandan sonra 2020-ci ilə qədər, təqaüdə çıxana kimi, fərdi sahibkarlıqla məşğul olub.

Bütün bu illər ərzində ədəbiyyatla məşğul olub. Birinci hekayəsi Ədəbiyyat İncəsənət qəzetində 1976-cı ildə, tələbə ikən dərc olunub. Oxucular onun yumorlu və satirik hekayələrini zamanın dövrü mətbuatında, "Kirpi", "Azərbaycan", "Ulduz", "Literaturnıy Azərbaycan" jurnallarında görməyə alışmışdılar.

Hekayələri 1984-cü ildə "Yeni səslər" almanaxında, 1985-ci ildə "Yaxşı oğlanın dayısı" kitabında işıq üzü görəndən sonra gənc yazıçının imzası Azərbaycan ədəbiyyatında təsdiqini tapıb. 1988-ci ildə daha bir hekayələr kitabı, "Sonuncu yeznə", işıq üzü görməli idi ki, ölkə qarışdı, Azərbaycanı azadlıq hərəkatı bürüdü. "Sonuncu yeznə" yalnız 1998-ci ildə işıq üzü gördü. Yazıçı 2002-ci ildə daha bir hekayələr toplusunu, "Qohumların əsirini" nəşr elətdirib.

H.Q.Camalzadə, əsasən, roman janrına üstünlük verib, bir-birinin ardınca üç roman ərsəyə gətirib. Hər üç roman "Azərbaycan" jurnalında dərc edilib. 2008-ci ildə "Qızıl xotuğ", 2015-ci ildə "Karxana" romanı kitab halında oxuculara təqdim olunub. Romanlar rus və ingilis dillərinə tərcümə olunaraq "Zolotoy oslyonok", "Karyer", "The Quarry" adı altında tirajlanıb.

Axırıncı beş ildə yazıçı gözəçarpan uğurlar əldə edib, ABŞ-da üç kitabını çap elətdirib, Azərbaycan ədəbiyyatının xaricdə təbliğinə dəyərli töhfəsini vermişdir.

9 789952 369601

QANUN NƏŞRİYYATI
kitab sifarişi (012) 431-16-62
və www.qanun.az saytında
www.fb.com/qanunpublishing
www.instagram.com/qanunpublishing